Səməd Vəkilov

QƏRBİ AZƏRBAYCANDAN ETNİK TƏMİZLƏNMƏNİN SONUNCU MƏRHƏLƏSİ (1987-1991) ÇALXANQALAYA KÖÇ

Bakı-2024

Baş məsləhətçilər: **Sadiq Qurbanov,**
Azərbaycan Respublikası Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri
Mahirə Hüseynova
ADPU-nin beynəlxalq əlaqələr üzrə prorektoru, professor

Elmi redaktor: **Nazim Mustafa**
Dövlət mükafatı laureatı

Rəyçi **Leyla Calalova**
ADPU-nun Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin rəhbəri, tarix üzrə fəlsəfə doktor,

Redaktorlar : **Cəsarət Hüseynzadə**
Möhübbət Məmmədov

Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə hazırlanmışdır. Kitabda əks olunan fikir və mülahizələr müəllifə aiddir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin mövqeyini əks etdirməyə bilər.

Qərbi Azərbaycandan etnik təmizlənmənin sonuncu mərhələsi (1987-1991) Çalxanqalaya köç kitabı. *"Müvəkkil Hüquq Mərkəzi" İctimai Birliyinin "Çalxanqala: qaçqınların qayıdış həsrəti" layihəsi çərçivəsində hazırlanmışdır. Kitabda sonuncu etnik təmzilənmənin başlanması fonunda Qarabağı Ermənistana birləşdirlməsi "hərakatının" ideoloqları Sumqayıt təxribatı, Quqark faciəsi, Hamamlı zəlzələsi və digər hadisələr tarix və hüquq kontekstində araşdırılmış həmçinin Qərbi Azərbaycanın müxtəlif bölgələrindən Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Çalxanqala kəndinə köçürülən əhali barəsində də geniş məlumatlar əksini tapmışdır.*

S **5204000653 – (403)**
M – 656 – 2024

© Səməd Vəkilov

MÜNDƏRİCAT

Ön söz 3
Qərbi Azərbaycandan oğuz türklərinin etnik təmizləmənin sonuncu mərhələsinin memarları (1987-1991) 21
Etnik münaqişənin hazırlanmasında Sumqayıt hadisələrinin rolu 31
Sumqayıt hadisələri zamanı barəsində ölüm hökmü Çıxarılmış Əhməd Əhmədov kimdir?.....60
Sonuncu etnik təmizləmə fonunda Azərbaycan hökümətinin qəbul etdiyi bəzi qərarların xronikası və təhlili 65
Hamamlı (Spitak) zəlzələsi 157
Qurak soyqırımı bir əsrdə iki dəfə faciə yaşamış Vartana kəndi 161
Çalxanqalaya köç 172
Şəxsi həyat həqiqətlərinin xarakterik cizgiləri və ictimai məzmunu.....181
İstifadə edilmiş sənədlər 307

ÖN SÖZ

Azərbaycanlıların əzəli torpaqlarından sonuncu – 1988-1989-cu illər deportasiyası

Tarixdə artıq bir dəfə Azərbaycanın əzəli torpaqlarında erməni dövləti yaradılmışdır, o da bugünkü Ermənistandır. O torpaqlar bizim doğma, ata-baba torpaqlarımızdır. İrəvan xanlığı, Zəngəzur mahalı - bütün o adlar Azərbaycan toponimləridir.

İlham Əliyev, Azərbaycan Respublikasının prezidenti

İndi Ermənistan adlanan dövlətin ərazisində yaşayan azərbaycanlıların əzəli torpaqlarından sonuncu deportasiyasından 36 il ötür. 1988-ci ilin fevralından başlanan bu proses Ermənistan türklərinin 1988-ci il soyqırımı həmin ilin noyabr-dekabr aylarında kulminasiya nöqtəsinə çatdı. Dekabrın 7-də baş verən Spitak (Hamamlı) zəlzələsindən sonra bir müddət ermənilərin başları dağıntıların nəticələrini aradan qaldırmağa qarışsa da, proses artıq geriyə dönməz xarakter almışdı. Deportasiya aksiyası 1989-cu ilin yayında başa çatdırılmış hesab olundu. Rəhbərliyində kimlərin olmasından asılı olmayaraq, Sovet Ermənistanının Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan ərazilərinə iddiası və bu iddiaların fonunda Ermənistandan azərbaycanlıların sıxışdırılıb çıxarılması hər zaman gündəlikdə olmuşdur. Sadəcə olaraq, situasiyadan asılı bu iddialar gah aktuallaşmış, gah da arxa plana çəkilmişdir. SSRİ Konstitusiyasında müttəfiq respublikaların ərazi bütövlüyünün toxunulmazlığı prinsipinin təsbit edilməsi ermənilərin qarşısında bir maneə olsa da, onlar heç zaman bu iddiadan əl çəkməmişlər. Ermənistan rəhbərləri bəzən öz imzaları ilə bəzən də Dağlıq Qarabağ Muxtar Vilayətinin erməni "ziyalılarının" imzaları ilə SSRİ rəhbərliyinə vaxtaşırı müraciətlər göndərirdilər. Rəsmi İrəvan və DQMV ermənilər 1945, 1964, 1975, 1977 və 1987-ci

illərdə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında Moskvaya müraciətlər etmişdilər. İkinci Dünya müharibəsinin sonunda SSRİ-nin Türkiyənin Qars və Ərdahan vilayətlərinə ərazi iddiası irəli sürmüşdü. SSRİ-yə birləşdirildikdən sonra Qars vilayətində ermənilərin, Ərdahan vilayətində isə gürcülərin məskunlaşdırılması nəzərdə tutulmuşdu. Bu fürsətdən istifadə edən Ermənistan rəhbərləri xarici ölkələrdən 100 minə yaxın ermənini köçürüb gətirtdi ki, onları sonradan Qars vilayətində yerləşdirsin. Əvəzində, 100 min azərbaycanlının Ermənistandan Azərbaycanın Kür-Araz ovalığına "könüllü köçürülməsi" haqqında SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il qərarının qəbul edilməsinə və 1948-1953-cü illərdə təqribən o qədər azərbaycanlının tarix-etnik torpaqlarından deportasiyasına nail oldular. Ermənistanda antitürk, antiazərbaycan təbliğatı 1960-cı illərin ortalarında var gücü ilə yenidən işə salındı. Moskvanın razılığı ilə 1965-cü ildə Ermənistanda uydurma "Erməni soyqırımı"nın 50 illiyi mərasimi keçirildi. Həmin dövrdə İrəvanda Ermənistanı Yenidənbirləşdirmə Komitəsi yaradılmışdı. Bu komitəyə gizli surətdə Ermənistanın o zamankı rəhbərləri və ziyalıları başçılıq edirdilər. Komitə "Türkiyə Ermənistanı"nı, Naxçıvan və Dağlıq Qarabağı Ermənistana birləşdirməyi qarşısına məqsəd qoymuşdu. Həmin dövrdə Ermənistanda aparılan milli ayrıseçkilik və diskriminasiya siyasəti nəticəsində İrəvan və onun ətraf rayonlarından yüzlərlə ailə Azərbaycana köçməyə məcbur olmuşdu. Ermənistanda yaşayan azərbaycanlılara qarşı açıq elan edilməmiş "səlib yürüşü"nün proqramı respublikanın ən yüksək dairələrində hazırlanır, gizli qərarlar və xüsusi göstərişlər vasitəsilə həyata keçirilirdi. 1983-cü il aprelin 24-də ermənilər "genosid" gününü bəhanə edərək Masis (Zəngibasar) rayonunun mərkəzi Uluxanlıda azərbaycanlılar yaşayan evlərə basqınlar etmiş, qəsəbədəki qəbiristanlıqda qəbir daşlarını qırıb dağıtmışdılar. Müdafiəsiz əhali Türkiyə ilə sərhəd zolağına sığınmağa məcbur olmuşdu. 1984-cü ildə Azərbaycan xalqının qəddar düşməni Zori

Balayanın “Ocaq” kitabının çap edilməsi azərbaycanlılara qarşı düşmənçilik hisslərinin açıq-aşkar qızışmasına səbəb oldu. Ermənistanda azərbaycanlılara qarşı aparılan milli ayrıseçkilik siyasətinə, onların müxtəlif bəhanələrlə sıxışdırılmasına nəhayət ki, Sov.İKP MK reaksiya verməyə məcbur olmuşdu. “Ermənistan partiya təşkilatında Sov.İKP MK-nın 1983-cü il iyun plenumunun qərarının yerinə yetirilməsi haqqında” Sov.İKP MK-nın 17 oktyabr 1984-cü il tarixli qərarında deyilirdi ki, son vaxtlarda Ermənistanda millətçilik əhval-ruhiyyəsini qızışdıran əsərlər yazılır, tarixi həqiqətlər təhrif edilir, azlıqda qalan millətlərin dilinin və mədəniyyətinin inkişafıfına imkan yaradılmır, partiya, sovet və təsərrüfat strukturlarında onların nümayəndələri təmsil olunmurlar və s. 1985-ci ildə Mixail Qorbaçovun SSRi-nin rəhbərliyinə gəlməsindən sonra “yenidənqurma” və “aşkarlıq” pərdəsi altında Ermənistanda və DQMV-də millətçilik ab-havası gündən-günə qızışırdı. Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə pərdəsi altında Azərbaycana qarşı anneksiya planının həyata keçirilməsinin qarşısını ala biləcək şəxs – Heydər Əliyev 1987-ci il oktyabrın 19-da erməni lobbisinin təzyiqi ilə Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsindən uzaqlaşdırıldı. Bundan az sonra noyabrın 18- də Sov.İKP MK-nın baş katibi M. Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri akademik Abel Aqanbekyan Parisdə “L’Humanite” qəzetinə verdiyi müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan etdi. Həmin ilin noyabrında M. Qorbaçov ABŞ-da səfərdə olarkən onun xanımı Raisa Qorbaçova erməni diasporunun nümayəndələri ilə görüşmüşdü. Görüşün təşkilində SSRİ-nin həmin vaxt ABŞ-dakı səfiri Yuri Dubininin xanımı Liana Zavenovna Dubinina xüsusi fəallıq göstərmişdi. Raisa Qorbaçovanın tamahına bələd olan ermənilər ona qiymətli hədiyyələr bağışlamış, M. Qorbaçovdan Dağlıq

Qarabağ ermənilərinin tələblərini yerinə yetirməyi xahiş etmişdilər. 1987-ci ilin avqustunda ermənilər Dağlıq Qarabağdan və Ermənistandan 75 min imza toplayaraq Kremlə göndərmişdilər. Dekabrın 1-də Dağlıq Qarabağ ermənilərinin təmsilçiləri muxtar vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında hazırlanmış müraciəti Sov. İKP MK-ya təqdim etmişdilər. Dağlıq Qarabağın erməni icmasının daha bir müraciəti və toplanmış imzaları 8 yanvar 1988-ci ildə SSRİ Ali Soveti sədrinin birinci müavini Pyotr Demiçevə təqdim etmişdi. Fevralın 13-də DQMV-də gizli fəaliyyət göstərən separatçı "Krunk" ("Durna") təşkilatının təşkilatçılığı ilə DQMV-nin Ermənistana birləşdirilməsi tələbi ilə Xankəndidə ilk mitinq keçirilmişdir. Fevralın 18-də Kremldəki erməni lobbisinin "kuyratoru" Georgi Şahnazarovun M. Qorbaçovun köməkçisi təyin edilməsindən sonra erməni separatçıları daha da fəallaşmışdılar. Həmin günlərdə İrəvanda keçirilən mitinqlərdə "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistanda ancaq ermənilər yaşamalıdır!" kimi millətçi şüarlar irəli sürülmüşdü. DQMV Xalq Deputatlar Sovetinin növbədənkənar sessiyasının çağırılacağı xəbərini alan Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov 1988-ci il fevralın 20-də səhər-səhər təyyarə ilə Xankəndinə gəlmiş, Vilayət Partiya Komitəsinin büro iclasını keçirmiş, erməni separatizminin qarşısını almağa çalışmışdı. Lakin elə həmin gün axşam Vilayət Xalq Deputatları Sovetinin növbədənkənar sessiyası keçirilmiş, muxtar vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında qəbul edilmiş və qərara anlayışlı yanaşılması üçün Azərbaycan və Ermənistan Ali Sovetlərinin Rəyasət Heyətlərinə müraciət edilmiş, bu məsələnin müsbət həlli üçün SSRİ Ali Soveti qarşısında vəsatət qaldırılmışdı. Elə həmin gün Qafan rayonundan qovulan azərbaycanlı qaçqınların ilk dəstəsinin nümayəndələri Azərbaycan KP MK-da qəbul edilmişdi. Fevralın 21-də səhər-səhər əllərində Ermənistan SSR-in bayrağı və M.

Qorbaçovun portretləri olan nümayişçilər Vilayət Partiya Komitəsinin binasının qabağına toplaşaraq "Dağlıq Qarabağ Ermənistanın ayrılmaz tərkib hissəsidir!", "Qarabağ – yox, Arçax – hə!", "Yaşasın milli siyasətdə yenidənqurma!" şüarlarını səsləndirmişdilər. Həmin gün axşam Sov.İKP MK-nın Siyasi Bürosu DQMV-də baş verən hadisəni müzakirə etmiş, ermənilərin iddiasının dövlətin mövcud milli-ərazi quruluşunun dəyişdirilə-məsinə cəhd və yolverilməz olduğu mövqeyi bildirilmiş, vəziyyəti nəzarətdə saxlamaq üçün Sov.İKP MK-nın katibi Georgi Razumovski, SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin birinci müavini Pyotr Demiçev və SSRİ DTK-sı sədrinin birinci müavini Flipp Bobkov Bakıya gəlmiş, oradan da Xankəndinə getmişdilər. Kremlin ilk rəsmi açıqlamasından narazı qalan ermənilər İrəvanda və Xankəndində etiraz mitinqlərinə başlamışdılar. Fevralın 21-də İrəvanda fəaliyyət göstərən yeganə Dəmirbulaq məscidi (XX əsrin əvvəllərində şəhərdə 8 məscid var idi) və M. F. Axundov adına azərbaycanlı orta məktəbin binası, C. Cabbarlı adına İrəvan Dövlət Azərbaycanlı Dram Teatrının ləvazimatı yandırıldı. İrəvanda bu hadisələrə qarşı etirazını bildirən azərbaycanlıların evlərinə od vurdular. Fevralın 22-də ermənilər Əsgəran rayonunda Bəxtiyar Quliyev və Əli Hacıyev adlı iki gənci qətlə yetirdikdən sonra Xankəndi-Ağdam yolunda Ağdam rayonunu sakinləri ilə Əsgəran sakinləri arasında qarşıdurma olmuş, 19 nəfər yaralanmışdı. Fevralın 25-də Azərbaycanın öz ərazisindən azərbaycanlıların ilk qaçqınlıq dalğası başladı. DQMV-nin ərazisində ermənilərin təzyiq və təhqirlərinə tab gətirməyən 540 ailə (təqribən 2,5 min nəfər) Ağdam rayonuna, 150 ailə isə (təqribən 500-600 nəfər) Ağcabədi rayonuna pənah gətirmişdi. Ermənistan ərazisindən isə azərbaycanlıların deportasiyası günü-gündən intensivləşirdi. Fevralın 28-nə olan rəsmi məlumata görə, Qafan rayonundan qonşu Zəngilan rayonuna təqribən 2 min nəfər azərbaycanlı qaçqın kimi gəlmişdi. Həmin günlərdə İmişli və Qubadlı rayonlarına da Ermənistandan yüzlərlə qaçqın ailəsi pənah gətirmişdi. Abşeron

rayonuna Ermənistandan canını qurtarıb gələn 200 nəfər qaçqını Mərkəzi Komitənin birinci katibi K.Bağırov və Moskvadan gələn yüksək vəzifəli şəxslər qəbul etmişdilər. Gəncədə və Naxçıvanda Ermənistandan azərbaycanlıların təqib edilmələrinə etiraz əlaməti olaraq aksiyalar keçirilmişdi. İrəvanda fəaliyyət göstərən "Qarabağ" komitəsinin rəhbərləri Silva Kaputikyan və Zori Balayan fevralın 24-də Moskvada Sov.İKP MK Siyasi Bürosunun üzvü, MK katibi Aleksandr Yakovlevlə üç saata yaxın danışıq aparmışdılar. Fevralın 26-da isə M. Qorbaçovun köməkçisi Georgi Şahnazarovun və A. Yakovlevin («Latinskaya Amerika» jurnalının redaktoru Serqo Mikoyanın qayını A. Yakovlevin köməkçisi idi) müşayiəti ilə Sov. İKP MK-nın baş katibi M. Qorbaçov S. Kaputikyanı və Z. Balayanı qəbul etmişdi. Saatyarım müddətdə onlar M. Qorbaçova türk dünyasının xəritəsini və saxta tarixi arayışlar təqdim etmiş, onu DQMV-nin Azərbaycanın tərkibində qalmasının mümkünsüzlüyünə inandırmağa çalışmışdılar. Lakin Qorbaçov onlara Dağlıq Qarabağın Ermənistana veriləcəyini vəd etməmişdi. Əvəzində, DQMV-nin sosial-iqtisadi inkişafı üçün o dövrün miqyasına görə çox böyük bir məbləğ olan 400 milyon rubl ayırılacağına söz vermişdi. Çünki Qorbaçov bilirdi ki, SSRİ ərazisində 19 potensial milli münaqişə ocağı mövcuddur və sərhədlərin dəyişdirilməsi yolu ilə Dağlıq Qarabağın Ermənistana verilməsi SSRİ-nin süqutuna gətirib çıxara bilərdi. Həmin görüşdə G. Şahnazarov S. Kaputikyan və Z. Balayana deyir ki, gedin İrəvanda deyin ki, tezliklə milli məsələyə həsr olunacaq Ümumittifaq konfransı keçiriləcək və o zaman qərar qəbul ediləcək. Bundan sonra İrəvanda və Xankəndində yeni mitinqlər dalğası başlamışdı. Fevralın 27-də Sov.İKP MK-nın beynəlxalq əlaqələr şöbəsi müdirinin birinci müavini Karen Brutens Xankəndinə gələrək erməni separatçılarının rəhbərləri ilə tam məxfi görüş keçirmiş, onlara təzyiqləri artırmağı və tələblərindən geri çəkilməməyi məsləhət görmüşdü. Ermənistandan azərbaycanlıların deportasiyasının qarşısını almağın mümkünsüzlüyünü

görən Azərbaycan KP MK martın 1-də Həsən Həsənovun başçılığı ilə Ermənistandan gələn azərbaycanlılarla iş aparmaq məqsədilə respublika komissiyası yaratmışdı. Fevralın 27-28-də Dağlıq Qarabağda və Ermənistanda azərbaycanlılara qarşı edilən zorakılıqlara etiraz əlaməti olaraq keçirilən mitinqdən sonra DTK-nın ssenarisi və erməni ekstremistlərinin bilavasitə iştirakı ilə Sumqayıtda kütləvi iğtişaşlar törədildi. Bundan sonra Ermənistandan azərbaycanlıların yeni qaçqınlıq dalğası başladı. Moskvanın, onun Azərbaycana və Ermənistana göndərilmiş emissarlarının ikiüzlü mövqeləri (Yeqor Liqaçov Azərbaycanda, Aleksandr Yakovlev Ermənistanda) erməni millətçilərinin öz bədnam niyyətlərini həyata keçirmək ümidlərini artırırdı. Erməni millətçiləri üçün Ermənistanda ən münbit rayonlarda yaşayan 200 mindən artıq azərbaycanlını deportasiya etmək, Dağlıq Qarabağ problemini həll etmək qədər vacib idi. Azərbaycan hökuməti isə Ermənistandan gələn qaçqınları yük maşınlarına dolduraraq geri qaytarmaqla öz işini bitmiş hesab edirdi. 1988-ci il martın 21-nə olan rəsmi məlumata görə, fevralın 28-dən həmin günədək Ermənistandan 16900 nəfər qaçqın gəlmiş, onlardan 8600 nəfəri geri qaytarılmışdı. Buna baxmayaraq, dağ yolları ilə Ermənistanın Vardenis (Basarkeçər), Masis (Zəngibasar), Razdan (Axta), Krasneselo, Yeğeqnadzor, Ararat (Vedi) rayonlarından qaçqın axını gəlir və əsasən Gəncə, Mingəçevir, Naxçıvan şəhərlərində, Şərur, Zəngilan, Qazax, Səlyan, Xanlar (Göygöl), Jdanov (Beyləqan) rayonlarında özlərinə sığınacaq tapırdılar. Naxçıvanda vəziyyət o həddə çatmışdı ki, Bakıdan oraya əlavə ərzaq göndərilməsinə başlanılmışdı. 11 may 1988-ci ildə ermənilər Ararat (Vedi) rayonunun Şirazlı kəndinə hücum etmiş, iki nəfər qətlə yetirilmiş, onlarla nəfər yaralanmış, evlər yandırılmışdı. Əhali Sovet-Türkiyə sərhədinə çəkilərək uzun müddət çadırlarda yaşamaq məcburiyyətində qalmışdı. Ermənistanda yaşayan azərbaycanlıların vəziyyətini öyrənmək, onların problemlərini həll etmək məqsədilə Azərbaycan KP MK-nın katibi Ramiz

Mehdiyevin başçılığı ilə İrəvana nümayəndə heyəti göndərilmişdi. 13-15 aprel 1988-ci il tarixində Ermənistanda olmuş nümayəndə heyəti iki dəfə Ermənistan KP MK-nın birinci katibi Karen Demirçyanla görüşmüşdü. Lakin verilən vədlərə baxmayaraq, azərbaycanlılara qarşı edilən zorakılıqlara və onların deportasiyasına son qoyulmamışdı. Ermənistandan qovulan azərbaycanlılar Azərbaycan KP MK-ya gələrək, onların Dağlıq Qarabağda məskunlaşdırılmalarını xahiş edirdilər. Azərbaycan rəhbərləri isə nəinki onlara bu şəraiti yaradır, əksinə, onları DQMV-nin ərazisinə buraxmamaq haqqında hüquq-mühafizə orqanlarına möhkəm-möhkəm tapşırıqlar verirdilər. 1988-ci il mayın 15-də ilk dəfə keçmiş Lenin – indiki Azadlıq meydanında əsasən tələbələrin və ziyalıların iştirakı ilə azərbaycanlıların Ermənistandan qovulmasına etiraz əlaməti olaraq izdihamlı mitinq keçirildi. Mitinqdə "Erməni təhrikçiliyinə son qoyulsun!", "Ermənistanda yaşayan azərbaycanlılar üçün muxtariyyət!", "Daşnaklara ölüm!" və s. şüarlar səsləndirilmişdi. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Sovetinin sessiyası DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edərək SSRİ Ali Sovetinə müraciət etdi ki, buna razılıq versin. Azərbaycan SSR Ali Soveti iyunun 17-də bu qanunsuz tələbi rədd etdikdən sonra Ermənistandakı azərbaycanlıların vəziyyəti daha da ağırlaşdı. İyunun 17-20-də İrəvanda teatr meydanında mitinqə toplaşan qeyzlənmiş erməni dəstələri avtobuslarla azərbaycanlılar yaşayan Masis rayonunun mərkəzinə və Zəngilər, Zəhmət, Dəmirçilər, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etdilər. Müdafiəsiz on mindən çox azərbaycanlılar Sovet-Türkiyə sərhədinə toplaşmış, günlərlə orada gecələməyə məcbur olmuşdular. Həmin günlər 20-dən çox azərbaycanlı yaralanmışdı. Rayon mərkəzi Uluxanlı qəsəbəsindən 3 mindən çox azərbaycanlı evlərindən çıxarıldı. Bütün bu iğtişaşlar zamanı SSRİ Daxili İşlər Nazirliyinin rayonda olan qüvvələri yalnız müşahidəçi rolunu oynayırdılar. 1988-ci il iyulun 9-da Azərbaycan KP MK-nın yeni

birinci katibi Əbdürrəhman Vəzirovun tapşırığı ilə Şuşada və DQMV-nin digər məntəqələrində özbaşına və yaxud qohumlarının yanında məskunlaşmış azərbaycanlı qaçqınlar muxtar vilayət ərazisindən çıxarılaraq digər rayonlara göndərildilər. 1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət heyətinin iclası DQMV haqqında məsələni müzakirə edərək respublikalar arasında sərhədlərin dəyişdirilməsinin yolverilməzliyi haqqında qərar qəbul etdikdən sonra erməni millətçiləri azərbaycanlıların Ermənistan ərazisindən çıxarılması üçün hər yerdə mitinqlər təşkil etməyə başladılar. İyulun 21-də ermənilərin Kalinino rayon mərkəzində yaşayan azərbaycanlılara silahlı hücumu nəticəsində 86 yaşlı Məhəmməd Sadıqov qətlə yetirilmiş, onlarla adam yaralanmışdı. Avqustun 20-də Xankəndi şəhər meydanında keçirilən mitinqdə Ermənistandan gələn azərbaycanlı qaçqınların muxtar vilayətin ərazisindən çıxarılmaları tələbi irəli sürülmüşdü. Ermənistan EA-nın müxbir üzvü, "Qarabağ" hərəkatının liderlərindən olan akademik Rafael Kazaryan 1988-ci il noyabrın 4-də İrəvanda keçirilən mitinqdə demişdi: "Dəstələrin köməyi ilə emiqrasiyanı təmin etmək lazımdır. Bizə bütün onilliklər ərzində ilk dəfə Ermənistanı türklərdən təmizləmək imkanı verilmişdir. Mən bunu bu on aylıq mübarizəmizin ən böyük nailiyyəti hesab edirəm". 1988-ci il noyabrın ortalarında Ermənistandan Azərbaycana 80 mindən artıq qaçqın pənah gətirmişdi. Noyabrın 17-də Bakıda "Azadlıq" meydanında keçirilən mitinq zamanı Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyət verilməsi tələbi ilə qətnamə qəbul edilmişdi. Ermənistan televiziyası həmin gün Bakıda keçirilən mitinqdən reportajlar göstərərək, həmin qətnamənin tələblərini dəfələrlə efirdə səsləndirmişdi. Noyabrın 22-də Ermənistan SSR Ali Sovetinin azərbaycanlı deputatların iştiraki olmadan növbədənkənar sessiyası çağırılmışdı. Sessiyanın keçirildiyi Opera teatrının binasının qarşısına toplaşan mitinq iştirakçılarının hücumundan sonra Ermənistan rəhbərliyi mitinqçilərin tələbi ilə sessiyasının gedişini dayandırmış,

deputatları və rayon rəhbərlərini "qayda-qanunu bərpa etmək" adı altında yerlərdə göndərmişdi. Rayon rəhbərlərinə tapşırıq verilmişdi ki, bir həftə ərzində, yəni noyabrın 28-dək Ermənistanı azərbaycanlılardan təmizləmək aksiyasını başa çatdırsınlar. Ermənistan KP MK, Ali Sovet və Nazirlər Sovetinin orqanı olan "Kommunist" (rusca) qəzeti 13 dekabr 1988-ci il tarixli sayında dərc edilən "Fəlakət anı, məsuliyyət anı" məqaləsində həmin günlərdə törədilən qırğınlardan bəhs edərək yazırdı: "Noyabrın 26-da "Qarabağ" hərəkatı fəallarının təhrikçi çıxışlarından qızışmış 500 nəfər Kirovakan (indiki Vanadzor) sakini Şaumyan (əvvəlki adı Vartanlı olmuşdur) kəndinə doğru hərəkət etdi. Vuruşma iki gün davam etdi, silahlı atışma oldu. Ölənlər var. Kuybışev kəndində də qırğınlar törədildi, orada da tələfat var. Hərəkatın fəallarının köməyi ilə yaradılmış "özünümüdafiə dəstələri" yollarda qoyduqları postlarda azğınlıqlar törədirdilər. Azərbaycanlı kəndlərinə ərzaq köməyi göstərən ermənilər döyülürdülər." Təəssüf ki, bu faciə hələ də geniş tədqiq edilməyib. (Vartanlı faciəsi barədə kitabda geniş bəhs edildiyi üçün burada ümumi məlumat verməklə kifayətlənirik).

Ayrı-ayrı rayonlarda millətlərarası qırğına sürükləyən coşmuş ehtirasları cilovlamaq, vətəndaşları müdafiə etmək, təxribatçıları ifşa etmək əvəzinə, onlar adamların (yəni azərbaycınlıların) kütləvi surətdə çıxarılmasına "fətva" verdilər. Bu cür "missiya" ilə bəzi "xadimlər" Kirovakanda, Stepanavanda, Artaşatda evləri bir-bir gəzirdilər." Əlbəttə, azərbaycanlılar yaşayan bütün rayonların vəziyyəti belə idi. Deportasiya aksiyasını müəyyən olunmuş müddətdə başa çatdırmaq üçün Kalinin, Spitak, Quqark, Noyemberyan, Krasnoselo, Vardenis, Yağeqnadzor, Əzizbəyov, Ararat, Masis, Sisyan və Meğri rayonlarının rəhbərləri xüsusilə canfəşanlıq göstərmişdilər. "Fəlakət anı, məsuliyyət anı" məqaləsinin bir yerində yazılırdı: "Komitənin (yəni "Qarabağ" komitəsinin) yerli özəklərinin təşəbbüsü ilə rayon və kəndlərdə mitinqlər təşkil edilərək azərbaycanlılardan öz evlərini tərk

etmələri tələbləri irəli sürülürdü. Ən həyəcanlandırıcı hal odur ki, “Qarabağ” komitəsinin hazırladığı siyasi münaqişələrə hətta uşaqları da cəlb edirdilər. Təsəvvür edin ki, Amasiya rayonunun mərkəzində rayon Xalq Nəzarəti Komitəsi sədrinin oğlunun rəhbərliyi ilə 30 məktəbli nümayiş keçirir və azərbaycanlıların işdən qovulmasını tələb edirdilər”. Amasiyanın beynəlmiləl məktəbinin erməni şagirdlərinin tələbi ilə dərhal məktəbin Azərbaycan bölməsi bağlanmışdı. Bir həftə ərzində, 1988- ci il dekabrın 1-dək rəhbər vəzifələrdə işləyən azərbaycanlıların əksəriyyəti işdən azad edilmişdilər. 1988-ci il dekabrın 7-də Spitak zəlzələsinin baş verməsinədək Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları bütün rayonlarda erməni silahlı dəstələri kütləvi qırğınlar, qətl və qarətlər törətmişdilər. 1988-ci ilin noyabr-dekabr aylarında bir tərəfdən Ermənistanın azərbaycanlılar yaşayan kəndlərinin əhalisi sıxışdırılır, kəndlərə ərzaq göndərilmir, elektrik xətləri kəsilir və silahlı basqınlar edilir, digər tərəfdən kəndləri tərk edən ailələrə yollarda divan tutulur, əmlakları qarət edilir, özləri isə qətlə yetirilirdilər. Ermənistanda milli zəmində baş verən cinayətlərin əksəriyyəti əsasən azərbaycanlı əhalinin öz yaşayış məntəqələrini tərk etməyə məcbur olduqları vaxt baş vermişdi. Ermənistandan Azərbaycana gedən bütün yollar üzərində bir neçə yerdə silahlı quldur dəstələri yerləşdirilmişdi. Quldurların əksəriyyəti milis forması geyərək özbaşına yoxlamaburaxılış məntəqələri yaratmışdılar. Onlar bütün maşınları saxlayır, sərnişinlərin sənədlərini yoxlayır və maşında azərbaycanlılar olduğunu müəyyən edən kimi onu maşından düşürür, əmlaklarını boşaldaraq qarət edir, özlərini isə vəhşicəsinə qətlə yetirirdilər. Yeri gəlmişkən, 1989-cu ilin sonlarında Azərbaycan Qaçqınlar Cəmiyyəti yaradıldı. Şair Eldar İsmayıl Cəmiyyətin ideologiya şöbəsinin müdiri, mən isə təşkilat şöbəsində təlimatçı vəzifəsində işləməyə başladıq. Hər gün yüzlərlə qaçqın Qaçqınlar Cəmiyyətinə gəlir, öz dərd-sərlərini danışır, problemlərinin həllində Cəmiyyətdən köməklik

göstərilməsini xahiş edirdilər. Ermənistanı 1988-ci ildə tərk edərək və Xanlar (Göygöl) rayonunun Quşqara kəndinə pənah gətirmiş, milliyyətcə rus olan L.V.Tolstyak Azərbaycan Qaçqınlar Cəmiyyətində yazdığı izahatında göstərmişdi ki, noyabrın 27-də Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini (daha sonralar Ermənistan KP MK-nın birinci katibi) Vladimir Movsesyan Basarkeçər rayonunun Zod kəndinə gəlib əhalinin kəndi tərk etməsi üçün üç gün vaxt veridiyini bəyan etdi və əlavə etdi ki, bu müddətdə kəndi tərk etməsələr, onların təhlükəsizliyinə təminat verilməyəcək. Hərbçilərin və "BTR"-lərin müşayiəti ilə Amasiya rayonunun Oxçoğlu kəndindən yola salınan 15 ailənin ev əşyalarını qonşu Axuryan rayonunun Kaps (keçmiş Qanlıca) kəndində ermənilər maşınları boşaltmış, talan etmiş, sonra isə od vurub yandırmış və yük sahiblərini ölümcül döymüşdülər. Bu cinayət işi ilə SSRİ Prokurorluğunun əməkdaşları məşğul olmalarına baxmayaraq, heç kəs məsuliyyətə cəlb edilməmişdi. Həmişə milli ayrıseçkilik siyasəti yürüdən Ermənistan rəhbərliyi zəlzələdən sonra da öz çirkin əməllərini davam etdirmişdi. Zəlzələ zamanı həlak olmuş, ağır yaralanmış, evləri dağılmış azərbaycanlıların taleyinə biganə qalmışdılr. Spitak və Quqark rayonlarının rəhbərləri həmin rayonların hərbi komendantlarına təqdim etdikləri siyahıda azərbaycanlı kəndlərinin adlarını siyahıdan çıxarmışdılar ki, guya artıq orda əhali yaşamır. Bununla da onları ərzaq və digər zəruri şeylərlə təmin etməkdən, tibbi yardımdan məhrum etmişdilər. Müvafiq sənədlər və şahid ifadələri əsasında 1990-cı ildə Azərbaycan Qaçqınlar Cəmiyyətində tərtib edilmiş siyahıya əsasən, 1988-1990-cı illər ərzində Ermənistanda 216 nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş və ya millətlərarası münaqişə zəminində baş vermiş hadisələr nəticəsində həlak olmuşdur. Həmin siyahıya əsasən, 52 nəfər aldığı xəsarət nəticəsində ölmüş, 34 nəfər işgəncə ilə öldürülmüş, 20 nəfər odlu silahla qətlə yetirilmiş, 15 nəfər yandırılmış, 8 nəfər maşınla vurulmuş, 9 nəfər yollarda qəzaya uğradılmış, 7 nəfər

həkim qəsdi nəticəsində, 9 nəfər dəhşətli hisslərdən keçirdiyi infarkt nəticəsində ölmüş, 2 nəfər intihar etmiş, bir nəfər asılmış, 2 nəfər maşın partladılması nəticəsində, bir nəfəri elektrik cərəyanı ilə, bir nəfəri suda boğub öldürmüşdülər, 6 nəfər itkin düşmüş, 20 nəfər xəstəxanadan yoxa çıxmış, 48 nəfər isə dağlarda borana düşüb həlak olmuşlar. 1990-cı ilin avqustun 9-da Azərbaycan Respublikasının Ali Soveti Qaçqınlar Cəmiyyətində tərtib edilən siyahını və digər faktları məktubla SSRİ Prokurorluğuna göndərmiş və Ermənistanda milli münaqişələr zəminində qətlə yetirilmiş azərbaycanlılar haqqında məlumat verməyi xahiş etmişdi. SSRİ Baş Prokurorunun müavini V. İ. Kvartsovun 4 oktyabr 1990-cı il tarixli cavab məktubunda deyilirdi: "Sizin məktubunuzla əlaqədar olaraq bildirirəm ki, 1988-1989-cu illərdə Ermənistan SSR-də milli zəmində baş verən cinayət faktları üzrə 675 cinayət işi qaldırılmışdır, onlardan 283-ü istintaq aidiyyati üzrə Azərbaycana göndərilmişdir. Eyni zamanda Azərbaycan SSR-dən Ermənistana təhqiqat üçün 138 cinayət işi daxil olmuşdur. 1989-cu il dekabrın 31-nə olan məlumata görə 20 Ermənistan türklərinin 1988-ci il soyqırımı Ermənistanın hüquq-mühafizə orqanlarının icraatında olan bu qəbildən 530 cinayət işindən 200 iş üzrə cinayət açılmamış və istintaq dayandırılmışdır. 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan ərazisində milli münasibətlərin kəskinləşməsi üzündən bir sıra rayonlarda qarət, yanğın və ictimai qayda-qanununa zidd olan digər hallarla müşayiət olunan kütləvi iğtişaşlar baş vermişdir... Bu hərəkətlər nəticəsində 21 nəfər öldürülmüş (20 azərbaycanlı və bir erməni), 4 nəfər sonradan ölümlə nəticələnmiş ağır bədən xəsarəti almışdır. Qətl hadisəsi üzrə 8 cinayət işi və zərərçəkənlərin ölümü ilə nəticələnmiş ağır bədən xəsarəti üzrə dörd işin istintaqı başa çatdırılaraq məhkəməyə göndərilmişdir. Əliyevlər barəsindəki cinayət işinə bəraət qazandırıcı əsaslar üzrə xitam verilmişdir, belə ki, istintaq bu qənaətə gəlmişdir ki, onun Mirzoyanı öldürməsi son zəruri müdafiə həddindən baş vermişdir. Bu qəbildən məhkəməyə

göndərilən üç qətl və ağır bədən xəsarəti yetirilməsi üzrə iki cinayət işi üzrə günahkarlar müxtəlif müddətlərdə azadlıqdan məhrum edilmişlər. Bir neçə cinayət işi əlavə istintaqa qaytarılmışdır. Ermənistan Prokuroruna tapşırılmışdır ki, bu işlər üzrə aparılan istintaqın tamlığını və obyektivliyini yoxlasın, onun başa çatdırılması üçün tədbirlər görsün. Günahkarların müəyyənləşdirilməməsi üzündən istintaqın xitam verilmiş işləri araşdırmaq və istintaqı təzələmək məsələsinin mümkünlüyünü öyrənmək tapşırığı da verilmişdir. Ermənistan məhkəmələrinə milli nifaq zəminində baş vermiş 91 müttəhim barəsində cəmisi 53 cinayət işi göndərilmişdir. 48 iş üzrə 82 nəfər mühakimə olunmuş, onlardan 30 nəfər müxtəlif müddətdə azadlıqdan məhrum edilmişdir. SSRİ Prokurorluğu cinayətlərin açılmasına nəzarət edir və zəruri kömək göstərir." Əslində, SSRİ Prokurorluğu bununla öz işini bitmiş hesab etmişdi. Bu məktubla əlaqədar Ermənistan SSR Prokurorluğundan SSRİ Prokurorluğuna göndərilən cavab məktubunda azərbaycanlılara qarşı törədilən bir çox qətllər etiraf edilsə də, əksər cinayətlər ört-basdır edilmiş, onların üstü açılmadan aşağıdakı kimi şablon cavablar verilmişdi: "Göstərilən məlumatlara uyğun şəxs pasport qeydiyyatı stolundan və kənd sovetinin təsərrüfat kitabından keçməmişdir," "Ünvanından qeydiyyatdan çıxmışdır", "Ölümü haqqında qeydiyyat rayon VVAQ şöbəsində yoxdur," "1988-ci ildə ünvanından çıxıb Azərbaycan SSR-ə getmişdir" və s. Məhz hüquq-mühafizə orqanlarının nəzarətsizliyi, onların erməni millətçilərinin separatçı hərəkətlərinə vaxtında və qanuni qiymət vermədiklərinin nəticəsində azərbaycanlılar əsrlər boyu yaşadıqları əzəli torpaqlarından iki həftə ərzində vəhşicəsinə qovuldular. Keçmiş İttifaq orqanları azərbaycanlıların Ermənistandan deportasiyasına seyrçi münasibət göstərdi. Demək olar ki, bütün azərbaycanlılar Ermənistandan qovulduqdan sonra, yəni 1988-ci il dekabrın 6-da Sov. İKP MK və SSRİ Nazirlər Soveti "Vətəndaşların daimi yaşayış yerləri məcburi tərk etməsində Azərbaycan SSR və

Ermənistan SSR-in yerli orqanlarının ayrı-ayrı vəzifəli şəxslərinin yolverilməz hərəkətləri haqqında" qərar qəbul etmişdi. SSRİ Nazirlər Soveti sədrinin ozamankı müavini B. Şerbinanın rəhbərliyi ilə hər üç Zaqafqaziya respublikalarının nazirlər sovetlərinin sədrləri və İttifaqın müvafiq nazirliklərinin rəhbər işçiləri də daxil olmaqla xüsusi komissiya yaradılmışdı. Bu komissiya qaçqınların təhlükəsiz köçürülməsi və yerləşdirilməsi məsələləri ilə məşğul olmalı idi. Əslində isə Ermənistandan azərbaycanlılar faktiki olaraq təmizləndikdən və dekabrın 7-də orada baş verən zəlzələdən sonra bu komissiya da heç bir iş görmədən öz işini başa vurmuşdu. Zəlzələnin vurduğu ziyanları aradan qaldırmaq, iqtisadiyyatı bərpa etmək üçün Ermənistana xeyli miqdarda işçi qüvvəsi lazım 22 Ermənistan türklərinin 1988-ci il soyqırımı idi. Məhz bu məqsədlə də 1989-cu il yanvarın 4-də Ermənistan rəhbərliyinin "xahişi" ilə Azərbaycan rəhbərliyi hər iki respublikanın KP MK-larının, Ali Soveti Rəyasət Heyətlərinin və Nazirlər Sovetlərinin adından daimi yaşayış yerlərinə qayıtmaları üçün qaçqınlara müraciət etmişdi. Ermənistan rəhbərliyi azərbaycanlıların Ermənistana qayıtmasına təminat verilməsi illüziyası yaratmaq məqsədilə 15 dekabr 1988-ci ildə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 6 dekabr tarixli yuxarıda adı çəkilən qərarının yerinə yetirilməsinin gedişini müzakirə edərək 13 nəfər rəhbər işçini partiya sıralarından xaric etmiş, 68 nəfərə partiya tənbehi vermişdi. Büro həmçinin Quqark rayon Partiya Komitəsinin birinci katibini və İcraiyyə Komitəsinin sədrini işdən azad etməklə kifayətlənmiş, Stepanavan və İcevan rayonlarının birinci katiblərinə ciddi töhmət vermiş, adları çəkilən rayonlardan əlavə Yeğeqnadzor, Krasnoselo, Ararat, Masis, Amasiya, Noyemberyan rayonlarında vətəndaşların hüquqlarının pozulması, şantaj və kütləvi iğtişaşlara yol verildiyini qeyd etmişdi. Ermənistan Prokurorluğu isə Sevan, Kalinino və Abovyan rayonlarının prokurorlarını işdən azad etmişdi. Məhz Moskvanın ermənilərə arxa durması nəticəsində 1988- 1989-cu illərdə indiki

Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məskənləri boşaldıldı. Ermənistanın Meğri rayonunun Zəngilan rayonu ilə həmsərhəd bölgəsində qalmış axırıncı azərbaycanlı kəndi – Nüvədi də 1991-ci il avqustun 8-də boşaldıldı. Ümumiyyətlə, həyata keçirilən sonuncu etnik təmizləmə nəticəsində Ermənistanın 22 kənd, rayonundan və 6 şəhərindən təqribən 250 min azərbaycanlı tarixi-etnik torpaqlarından vəhşicəsinə qovuldular. 1988-ci ilə qədər Ermənistanda azərbaycanlıların yaşadıqları ərazi respublika ərazisinin (29, 8 min kv.km.) 25 faizini, yaxud 23 Eldar İsmayıl təqribən 7,5 min kv. km təşkil edirdi. Bu isə keçmiş DQMV-nin ərazisindən (4,4 min kv. km) təqribən 3 min kv. km artıqdır. Ermənistan rəhbərliyi azərbaycanlıların etnik təmizlənməsi aksiyasını başa çatdırdıqdan sonra, onların yaşadıqları kəndlərin adlarının dəyişdirməyə başlamışdır. İndiyədək Ermənistanda 702 azərbaycanlı yaşayış məntəqəsinin adları dəyişdirilərək ermənicələşdirilmişdir. Təkcə XX əsrdə ermənilər havadarlarının köməyi ilə indiki Ermənistan ərazisində azərbaycanlılara qarşı 1905-1906-cı illərdə və 1918-1920-ci illərdə etnik təmizləmə, 1930-cu illərdə kütləvi repressiyalar, 1948-1953-cü illərdə deportasiya həyata keçirmiş və nəhayət, 1988-1989-cü illərdə etnik təmizləməni başa çatdırmağa nail olmuşlar. Ümumiyyətlə, son 200 ildə indiki Ermənistan ərazisində iki mindən artıq azərbaycanlı yaşayış məntəqələri müxtəlif yollarla (deportasiyalarla, silah gücünə qovmaqla, soyqırım törətməklə, kəndləri yandırıb xaraba qoymaqla və s.) siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik Ermənistan dövləti yaradılmışdır. Prezident Heydər Əliyevin Qərbi Azərbaycanla bağlı qanunvericilik bazasının əsasını qoyulması və Prezident İlham Əliyev tərəfindən bu strategiyanın daha da möhkəmləndirilməsi Qərbi Azərbaycana qayıdışa olan inamımızı daha da artırır. 44 günlük Zəfər müharibəsi ilə 200 illik məğlubiyyətçilik sindiromuna son qoyuldu və Qərbi Azərbaycana qayıdış paltforması daha da geniş vüsət

almaqdadır. Bu mənada tədqiqatçı-hüquqşünas Səməd Vəkilovun sizə tədim edilən Qərbi Azərbaycandan Etnik Təmizlənmənin Sonuncu Mərhələsi (1987-1991) Çalxanqalaya Köç adlı kitabı bu mövzuda yazılmış ikinci araşdırmadır. Müəllif ötən il oxuculara təqdim etdiyi Qərbi Azərbaycandan Deportasiya: İmirlidə məskunlaşma (tarix və hüquq kontekstində) kitabının davamı hesab etmək olar. Göründüyü kimi hazırkı araşdırmada sonuncu etnik təmzlənmə tarix və hüquq kontekstində araşdırılmışdır. Müəllif "Miyatsum" memarları, Sumqayıt hadisələri, Qukar faciəsi, Hamamlı zəlzələsi kimi bölmələri uğurlu araşdırma hesab etmək olar. Həmçinin kitabda Qərbi Azərbaycanın müxtəlif bölgələrindən Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Çalxanqala kəndində köçrülən əhali barəsində də geniş məlumatlar əksini tapmışdır.

Eyni zamanda şəxsi hekayələr və bioqrafik məlumatlar adlanan bölmədə Qərbi Azərbaycandan deportasiyaya və soyqırıma məruz qalmış həmvətənlərimizə aid yüzlərlə şəxs barəsində toplanmış məlumatlar bu toplumun tədqiq olunması və təşkilatlanması üçün mühüm əhəmiyyət daşıyır. Hesab edirik ki, kitab Qərbi Azərbaycan mövzusunda yazılmış uğurlu araşdırmadır.

Nazim Mustafa,
AMEA A. A. Bakıxanov adına Tarix İnstitutunun
elmi işçisi, Dövlət mükafatı laureat

QƏRBİ AZƏRBAYCANDAN OĞUZ TÜRKLƏRİNİN ETNİK TƏMİZLƏMƏNİN SONUNCU MƏRHƏLƏSİNİN MEMARLARI (1987-1991)

Qərbi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı son iki yüz il ərzində həyata keçirilən etnik təmizləmə siyasətinin sonuncu mərhələsi artıq ötən əsrin səksəninci illərinin ortalarından başlamışdır. İflasa uğramış Miatsum "Birləşmə" ideyasının memarlarını tanımaq, tarixdən ibrət dərsi götürmək gənc nəsil üçün çox önəmlidir. Zəfər müharibəsindən sonra regionda vəziyyətin Azərbaycan xalqının xeyrinə dəyişməsinə baxmayaraq hələ də revanşist qüvvələrin tör-töküntüləri Ermənistanda qalmaq-dadır. Qarşıdakı düşmənin məkirli hiyləgər olmasını bildiyimiz üçün biz gənc nəslə bu tarixi yaxşı aşılamalıyıq. Əslində Miatsum "Böyük Ermənistan" ideyasının tərkib hissəsi olmaqla birinci Qarabağ müharibəsinə səbəb olan "Qarabağ hərəkatı" (uydurma) zamanı istifadə olunan konsepsiya və şüar idi. İdeya əsasən erməni əhalisinin yaşadığı ərazinin Azərbaycanın yurisdiksiyasında qalmasından narazı olan ermənilər arasında M.Qarbaçovun perestroyka (yenidənqurma) dalğasında yaranmışdır. Bu ideyanın memarlarından biri erməni yazıçısı Zori Balayan idi. Z.Balayanın 1981-ci ildə Yerevanda "Sovetakan qrox" nəşriyyatında 100 min tirajla çap olunan və SSRİ məkanında geniş yayılan "Oçaq" (Yurd) kitabı Ermənistanda Dağlıq Qarabağı ələ keçirmək üçün aparılan təbliğat işinin başlanığıcı hesab etmək olar.

O, "Ocaq" əsəri ilə tarixi təhrif edərək, Qarabağın və Naxçıvanın qədim erməni torpağı olduğunu iddia edir. Həmçinin, kitabda Balayan "türkləri və azərbaycanlıları həm Rusiyanın, həm də Ermənistanın düşməni elan edir". Sözügedən kitab Yerevanda nəşr olunan nüsxəsi Azərbaycanda populiyarlıq qazanmamışdır. 1984-cü ildə əsər Moskvada çap edildikdən sonra Azərbaycanda qəzəblə qarşılandı. Hadisələrin sonrakı inkişaf tendensiyasına diqqət edək.

21 fevral 1985-ci il tarixdə Ermənistan KP MK-nın sovet rəhbərliyinə 24 aprel gününün "Soyqırımı qurbanlarının xatirə günü" kimi qeyd edilməsi haqqında müraciəti Sov.İKP MK Siyasi bürosunun iclasının gündəliyinə daxil edildi.

1985-ci ilin dekabırında isə "Daşnaksütyun" partiyasının Afinada keçirilən XXII qurultayı "Böyük Ermənistan" uğrunda mübarizəni yenidən genişləndirmək haqqında qərar qəbul etdi.

1986-cı ilin fevral ayında Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) daş və mərmər karxanalarına müdir təyin edilmiş, millətçi kimi tanınan Arkadi Manuçarov SSRİ-də irəli sürülən "aşkarlıq" və "demokratiya" ideyalarından istifadə edərək Xankəndində tarix və mədəniyyət abidələrini qoruyan "Krunk" adlı təşkilat yaratdı. "Krunk" sözü erməni dilində durna deməkdir. Ancaq sonradan məlum oldu ki, "Krunk" sözü rus dilində "Комитет Революционного Управления Нагорного Карабаха" sözlərinin baş hərflərindən yaranmışdı. Təşkilatın əsas məqsədi isə tarixi abidələri qorumaq deyil, DQMV-ni Ermənistana birləşdirməyə nail olmaq idi.

1987-ci il iyun-iyul tarixindən Ermənilər Xankəndinin küçələrində Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün təbliğat apararaq bu istiqamətdə vərəqələr yayırdılar. Ayrı-ayrı adamların Moskvaya yazdıqları məktublar artıq bu dövrdə müxtəlif kollektivlərdən imzalar toplanması kompaniyasına çevrildi və ərazi iddialarının yeni mərhələsinin təməli qoyuldu. Bu hərəkatın əsas aparıcı qüvvəsi olan "Krunk" təşkilatı da gizli fəaliyyət göstərirdi.

Miyatsum ideyasının alovlu tərəfdarlarından biri də Krunk təşkilatının rəhbəri Arkadi Manveloviç Manuçarov idi.

Kurunk terror təşkilatının sədri Arkadi Manveloviç Manuçarov kimdir? O, 22 sentyabr 1931-ci il tarixində Xankəndi şəhərində anadan olmuşdur. Orta təhsilini Xankəndi şəhərindəki 3 nömrəli orta məktəbdə alıb. 1950–1955-ci ildə isə Moskvada Kuybışev adına Mühəndis-Tikinti İnstitutunda ali təhsil alıb.

Bir müddət Çeylabinski şəhərində mühəndis işləyib. 1958-ci

ildə Xankəndi şəhərinə qayıdıb və şəhərdəki tikinti idarəsində müxtəlif vəzifələrdə çalışıb. 1960-cı illərin əvvəllərində vilayətin partiya, daxili işlər və milli təhlükəsizlik orqanları tərəfindən təşkil edilən tədbilərdə milli zəmində məsələlərə toxunmağa və bu tipli mövzuları gündəmə gətirməyə başlamışdır.

1966-cı ildə Manuçarov və Xankəndində fəaliyyət göstərən digər dörd iri müəssisənin rəhbərləri vilayət tədbirlərində etdikləri çıxışlarda milli zəmində məsələlərə toxunublar. Manuçarovun təşəbbüsü ilə Dağlıq Qarabağda yaşayan ermənilərin müdafiə olunması üçün təşkilatlar yaratmaq məsələsinə cəhd olunub. Bu cəhdlərin qarşısı alınıb. Manuçarov və həmin dörd nəfər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin göstərişi ilə partiya sıralarından xaric ediliblər.

Ermənistan SSR rəhbərliyi köməkliyi ilə Manuçarov 1966-cı ildə ailəsi ilə birlikdə İrəvan şəhərinə köçür və burada böyük tikinti trestlərinin birinə rəhbərlik edir. 10 ilə yaxın İrəvan şəhərində yaşadıqdan sonra 1977-ci ildə yenidən Xankəndi şəhərinə qayıdır və burada DQMV-nin ən böyük müəssisələrindən biri olan tikinti materialları kombinatına baş direktor təyin edilir.

Bu təyinatın ardından əsas iqtisadi imkanlarını əlində saxlayan Manuçarov Krunk adlı yarı gizli ictimai-siyasi təşkilatı təsis edir. Erməni dilindən tərcümədə Durna anlamını verən, Krunk təşkilatının əsas hədəfi kimi qarşıya Qarbağı Azərbaycanın nəzarətindən çıxarmaq və Ermənistana birləşdirmək idi.

Krunk təşkilatının Xankəndi şəhərində keçirilmiş gizli iclaslarının birində Arkadi Manuçarov demişdir: "A*zərbaycanlılar bizim tarixi torpağımız olan Qarbağda yalnız qul kimi işləyə bilərlər, onlara heç bir güzəşt və imtiyaz ola bilməz, bu həmişə belə olub və bundan sonra da belə olacaq"*

1988-ci ilin noyabr ayında Arkadi Manuçarov Krunk təşkilatı üçün dünyanın müxtəlif ölkələrində yaşayan ermənilər tərəfindən toplanmış ianələri mənimsəməkdə və dövlət büdcəsini talamaqda günahlandırılaraq həbs edilir. Onunla birlikdə təşkilatın üzvü olan

daha yeddi nəfərdə saxlanılmışdır.

Bu hadisədən sonra Manuçarovun nüfuzu Dağlıq Qarabağda xeyli aşağı düşür, bölgədə yaşayan ermənilər ona inamını itirirlər. 18 ay həbsdə qalan mühəndis əvvəlcə Şuşa türməsində, daha sonra isə Moskvada Butırkada saxlayıblar. Dünyada və xüsusi ilə Moskvadakı erməni lobbisinin səyləri nəticəsində 1990-cı ilin may ayında həbsdən azad edilir.

Onun Qarbağa növbəti qayıdışı birinci Qarabağ savaşının alovlandığı dövrə təsadüf etmişdir. Bu zaman Manuçarov Qarabağın və ətraf 7 rayonun işğalında xüsusi xidmətlər göstərir və rəhbəri olduğu *Krunk* təşkilatı vasitəsi ilə dünyanın müxtəlif ölkələrində yaşayan ermənilərin münaqişə zonasına cəlb olunmasına çalışır.

1996-cı ildə mühəndis, elə ermənilərin təkidi ilə Xankəndi şəhərini tərk etmək məcburiyyətində qalmışdır. O, əvvəlcə İrəvana sonra isə Moskvaya köçmüş terrorçu 4 yanvar 2008-ci il tarixində 76 yaşında ölüb. Çox təəssüf ki, ömrünü uydurma "Miyatsum" ideyasına həsr etmiş bu terrorçu 44 günlük müharibəni görmədən öldü.

1987-ci ilin ikinci yarısında Yerevandan müntəzəm olaraq Xankəndinə gələn emissarlar ermənilər arasında fəal iş apararaq xüsusi imzalar toplamaqla Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşmək ideyasını təbliğ edirdilər.

21 oktyabr 1987-ci ildə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin I müavini, böyük dövlət adamı Heydər Əliyev Sov.İKP plenumunda vəzifəsindən istefa verdi. Bundan bir neçə gün sonra artıq ermənilər mübarizəni açıq sferaya keçirdilər. Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə "İnterkontinental" hotelində müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ideyasını irəli sürdü.

28 fevral 1988-ci ildə Qarabağın Ermənistana verilməsini əsaslandırmaq məqsədi ilə Sovet Xüsusi Xidmət orqanlarının hazırladığı Sumqayıt hadisələri həyata keçirildi.

Sovet Xüsusi xidmət orqanları tərəfindən həyata keçirilən Sumqayıt cinayətindən ermənilər müəyyən dərəcədə istəklərinə nail oldular. Onlar xaricdə fəaliyyət göstərən erməni lobbisinin vasitəsi ilə Avropa Parlamenti (1988), ABŞ Senatı (1989) və Argentina parlamentində Sumqayıt hadisələrini pisləyən qərarlar qəbul etməyə nail oldular. Eyni zamanda Ermənistanın daxili auditoriyasına həmçinin beynəlxalq ictimaiyyətə aşıladılar ki erməni xalqı ilə azərbaycan xalqının birlikdə yaşaması mükün deyil.

Sumqayıt hadisələri bu tendensiyaları daha da gücləndirdi və bu, Azərbaycan Respublikasının qoşunları ilə Dağlıq Qarabağdakı erməni qüvvələri arasında hərbi toqquşmalara səbəb oldu.

1988-ci ildə Miyatsum ideyasının memarları Georgi Şahnazarov, Zori Balayan və Silva Kaputikyanla birgə Moskvada Mixail Qorbaçovla görüşür və ondan "Qarabağ məsələsini" Ermənistan SSR–in xeyrinə həll etməsini xahiş edir.

Qarabağ Komitəsi -1980-ci illərin sonlarında bir çox erməni tərəfindən faktiki lider kimi tanınan bir qrup erməni avantüristi. Komitə 1988-ci ildə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məqsədilə yaradılıb. Komitə 7 dekabr 1988-ci ildə Ermənistanda baş vermiş zəlzələdən sonra Azərbaycandan göndərilən humanitar yardıma mane olmaq ittihamı ilə 11 dekabr 1988-ci il tarixində sovet hüquq-mühafizə orqanları tərəfindən həbs edilmiş, lakin 31 may 1989-cu ildə sərbəst buraxılmışdır. Komitə daha sonra Pan Erməni Milli Hərəkatını yaratmışdır. 1990-cı ildə The New York Times komitəni "Ermənistanda ən nüfuzlu millətçi qrup" adlandırmışdır.

“Qarabağ” Komitəsi, “Artsax hərəkatının” (saxta) erməni komitəsi. Mərkəzi hakimiyyətin diqqətini erməni xalqının Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi və konstitusiya ilə təmin

edilməsi tələbinə yönəltmək məqsədi ilə 1987-ci ildə formalaşmağa başlandı. Sonralar Ermənistanın SSRİ-dən müstəqilliyi bərabər məqsəd kimi qarşıya qoyuldu. O, 1980-ci illərin sonlarında minlərlə insan nümayişləri və mitinqləri təşkil edib onlara rəhbərlik edib, həmçinin Artsaxda paralel mübarizəyə öz təsirini göstərib. Erməni Milli Hərakatı Ermənistanın tarixində ilk hakim qüvvəyə çevrilən Qarabağ Komitəsinin əsasında yaradılıb.

"Qarabağ" Komitəsinin üzvləri Levon Ter-Petrosyan, Vazgen Manukyan, Babken Ararktsyan, Aşot Manuçaryan, Vano Siradeqyan, Rafael Kazaryan, Samson Kazaryan, Ambartsum Qalustyan, Aleksan Hakobyan, David Vardanyan və Samvel Qevorqyan sonralar Ermənistanın siyasətində mühüm yer tutan siyasi funksionerlər oldular.

Araşdırmalar göstərir ki, Miyatsum ideyası 1988-ci ilin sonunda daha da geniş vüsət alaraq bütün platformalarda inkişaf etdirilirdi. Azərbaycan Sovet rəhbərliyi isə yalnız və yalnız bu məsələləri ört basdır etməyə çalışır adekvatlıqdan uzaq hərəkətlər edir ancaq xalqlar dostluğu kimi illuziyaya əsaslanırdılar. Lakin gerçəklik başqa idi.

21 oktyabr 1988-ci il tarixində Yerevanda rus dilində çıxan "Kommunist" qəzeti yazırdı: "Ermənistan və DQMV-nin xammalından "Artsax" adlı konyak buraxılmasına hazırlıq görülür. Habelə DQMV-də becərilən tütündən eyni adlı siqaret istehsalına başlanılacaq, qutuların üstündə isə " Biz və dağlarımız" heykəlinin təsviri veriləcəkdir".

Sovet rəhbərliyi tərəfindən guya rəsmi qaydada fəaliyyətinə qadağa qoyulan "Qarabağ komitəsi"nin lideri Ter Petrosiyan (Ermənistanın keçşmiş Prezidenti) "Tayms" qəzetinə müsahibəsində deyir: "DQMV-nin Ermənistana verilməsi haqqında ermənilərin tələbi yerinə yetirilməsə etiraz hərakatı davam etməlidir. Əgər biz məqsədimizə çatsaq, hərəkat xalqın iradəsinin ifadəsi kimi gələcəkdə də öz işini davam etdirəcəkdir".

13 sentaybr 1988-ci il tarixində "Amerikanın səsi"

radiostansiyasının erməni redaksiyası bildirir ki, Dağlıq Qarabağ barəsində iddialar "qəti şəkildə" rədd olunarsa "Qarabağ" komitəsi problemin həllinin tamamilə yeni və orijinal bir planını tərtib etmişdir. Redaksiyanın tövsiyyələrinə görə Qarabağ ermənləri SSRİ-nin tərkibindən çıxmağa nail olmalı və bundan sonra yenidən Sovet İttifaqının ilə birləşməlidir. Əgər ümidsiz vəziyyət yaranarsa və ümumi planı həyata keçirmək mümkün olmazsa , daha başqa variantlar da vardır. SSRİ- Konstitusiyasına görə DQMV-nin öz müqəddəratını təyin etmək hüququ yoxdur Ermənistan SSR-nin isə öz müqədarratını təyin etmək hüququ vardır. Ona görə də radio təklif edir ki, Ermənistan özü Dağlıq Qarabağın öz tərkibinə daxil olması haqqında müraciət irəli sürsün, paytaxtı Stepanakert şəhəri olmaqla yeni Artsax erməni respublikası yaratsın. Və bütövlükdə Ermənistan və Dağlıq Qarabağ Artsaxa tabe olsun.

ERMƏNİ KİLSƏSİNİN MÖVQEYİ

“Amerikanın səsi” radiosu erməni redaksiyasının etirafına görə “....aşkarlıq şüarı ilə erməni kilsəsi erməni xalqının hərakatına başçılıq etməyə və DQMV-nin Ermənistanın tərkibinə qatılması tələbini irəli sürməyə başlamışdır. Erməni ruhaniləri bildirmişlər ki, əgər M.Qarbaçov bu məsələni ermənilərin xeyrinə həll etməsə, daha qəti tətbirlərə əl atacaqlar”

Arxiyepiskop Mesropun dediyinə görə 13 mart 1988-ci il Nyu York ermənilərinin mitinqi erməni kilsəsinin ali rəhbərliyinin çağrışı ilə təşkil olunmuşdur. Mesrop deyir: “Biz dünya ictimaiyyətinə göstərməliyik ki, erməni xalqı sıx birləşmişdir və öz tələbinin həyata keçirilməsinə nail olacaqdır”

“Amerikanın səsi” radiosu erməni redaksiyası 1 sentaybr 1988-ci il buraxılışında bildirir ki, erməni kilsəsinin mötəbər rəhbərliyi Argentinada yaşayan ermənilərə məktub göndərmişdir. Məktubda deyilir: “Sualımızın cavabında bildirmək istəyirik ki, hazırda bütün erməni xalqı matəm içindədir.Onun ümidini əlindən almışlar. Ancaq hər halda allah böyükdür və həqiqət əvvəl- axır zəfər çalmalıdır.”

“ Nyu York” Tayms qəzeti yazır DQMV-nin Ermənistananın tərkibinə verilməsi haqqında tələblərin müdafiəsi üçün Abş-da keçirilən mitinqlərin , demək olar ki, hamısının təşkilatçısı erməni kilsəsidir. Xaricdəki ermənilərin maliyyə yardımı sayəsində erməni kilsəsinin maddi vəziyyəti yaxşıdır və o müxtəlif dini təşkilatlarla geniş beynəlxalq əlaqələr saxlayır”.

Avstaryda çıxan “Vohenpress” jurnalının baş redaktorunun müavini və xarici əlaqələr şöbəsinin müdiri O.Meyzels hansısa yollarla Yerevana gəlib çıxmış sonra qayıdaraq jurnalın 1988-ci il 22 saylı nömrəsində erməni kilsəsinin ən yüksək vəzifəli xadimlərindən biri ilə müsahibəsi ilə bağlı geniş məqalə dərc etmişdir. Həmin din xadimi ilə görüş Vyanadaki erməni yepiskopu professor Mesrop Krikoryanın yazılı tövsiyəsi ilə baş tutmuşdur.

Jurnalist erməni ruhanisinin mövqeyi barədə yazır: “Erməni kilsəsi indiki münaqişə barədə rəsmən öz mövqeyini şərh edə bilməz, amma əmin ola bilərsiniz ki, qardaşlarımıza ürəyimiz yanır”. Əgər kilsə öz münasibətini elan etmirsə, Ermənistan hökuməti və partiyası isə yerində sayırsa , onda Qarabağ ermənilərinin hüquqlarını kim müdafiə edə bilər? – “Biz yalqız deyilik, Xaricdəki qardaşlarımız siyasi cəhətdən heç bir məhdudiyyət görmürlər.Onlar bizim haqq işimizin müdafiə edilməsini öz hökümətlərindən tələb edə bilərlər və bu təzyiq az sonra şübhəsiz ki, öz təsirini göstərər.”

Parisdə fəaliyyət göstərən “Hayb” və “Amerikanın səsi” radiostansiyaları o cümlədən xaricdə fəaliyyət göstərən”İnqilabçı daşnaklar”, “Kəndli azadlığı”,” Sosial demokrat partiyası”, “Erməni inqilabçıları ittifaqı”, “Birləşmiş Ştatların şərq ermənileri”,” Gənc erməni daşnakları”,” Erməni mədəniyyət cəmiyyəti”, “ Kilikkiya”, “Jirair” təşkilatları da eyni məqsəd üçün çalışırlar.

Bundan başqa erməni gəncləri Parisdə “Milli müstəqllik komitəsi” “ziyalıları” isə “Yüzlər komitəsi” təşkilat yaradaraq Fransada geniş miqyaslı fəaliyyət göstərirlər.

ABŞ-da ermənicə çıxan qəzetlərdə üç partiyanın “Daşnak partiyası”, “Sosial demokrat partiyası” və “Ramkavar azatakan” partiyaları Sovetlər İttifaqından DQMV-nin Ermənistana verilməsini tələb edir.

Los– Ancelesdə “Qarabağa yardım təşkilatı” 25 sentyabr 1988-ci ildə təşkil etdiyi konsertdən yığılan pulu Qarabağa göndərib.

“Amerikanın səsi” radiosu 8 iyun 1988-ci il buraxılışında verilən məlumatda verilir ki, Bostonda Ruben Poqosyanın “Türk-erməni münaqişəsi” adlı kitabına həsr olunan ədəbi gecədə Tariverdiyan soyadlı naməlum bir hüquqçu həmin gecədə çıxış edərək demişdi ki, vahid müstəqil erməni dövlətinin yaratmağa ermənilərin hər cür haqqı çatır.

Böyük Ermənistan” mifoloji arzusundan törəyən Miyatsum ideyasının memarları Azərbaycan türklərinə qarşı sonuncu etnik təmizləməni həyata keçirməklə tarixi torpaqlarımız olan Qərbi Azərbaycandan yüz minlərlə həmvətənlərimiz tərk etməsinə iyirmi faiz ərazimzin işğal edilməsinə səbəb oldu. Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ikiyüzillik məğlubiyyətçilik sindiromuna son qoyaraq öz torpaqlarını işğaldan azad etməklə Miyatsum ideyasını tarixin zibilliyinə göndərdi. Lakin bütün bunlara baxmayaraq biz tarixi gerçəkliklərimizi öyrənmək və bundan ibrət dərsi götürmək və daima ayıq olmaq məcburiyyətindəyik.

ETNİK MÜNAQİŞƏNİN HAZIRLANMASINDA SUMQAYIT HADİSƏLƏRİNİN ROLU

Ermənistanda azərbaycanlılara qarşı sonuncu etnik təmizləmə mərhələsindən danışarkən Sumqayıt hadisələrindən yan keçmək mükün deyil. SSRİ xüsusi xidmət orqanları tərəfindən əvvəlcədən düşünülmüş şəkildə təşkil olunmuş bu hadisədən erməni lobbisi ciddi şəkildə istifadə etmişdir. Hadisənin məqsədi erməni xalqı ilə Azərbaycan xalqının bir yerdə yaşamasının qeyri-mükünlüyü fikirini yaratmaq və Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistan SSR-yə birləşdirmək məqəsdi daşıyırdı. Sumqayıt hadisələri əsasən 26-29 fevralda Sumqayıt şəhərində kütləvi iğtişaş zorlama qətillər və qarətlərlə müşayiət olunmuşdur. Hadisənin "qəhrəmanı" isə erməni millətindən olan Eduard Qriqoriyan idi. SSRİ xüsusi xidmət orqanının təşkil etdiyi bu təxribatı ustalıqla icra edən E.Qriqoriyanı sonradan ciddi şəkildə SSRİ hökuməti tərəfindən himayə edilməsi bu faktı bir daha təsdiq edir.

Sumqayıt hadisələri haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixi açıqlaması.

Azərbaycan Respublikasının Prezidenti İlahm Əliyev: *"Heç kim üçün sirr deyil ki, Sumqayıt hadisələrinin erməni millətçiləri törətmişdir. Bu onların təxribatı idi və orada ən çox qəddarlıq göstərən erməni millətindən olanlar idi. Məqsəd də aydındır ki, bu hadisələrdən istifadə edib Azərbaycana qarşı əsassız iddialar irəli sürülsün, ondan sonra azərbaycanlılara qarşı soyqırımı ittihamı əsaslandırılsın"*

(Sitat İlham Əliyevin 10 may 2012-ci il tarixində Heydər Əliyev Mərkəzinin açılışında ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü təntənəli mərasimdəki çıxışından götürülmüşdür)

ERMƏNİ QAYNAQLARINDA SUMQAYIT HADİSLƏRİ

SSRİ xüsusi xidmət orqanlarının Azərbaycan xalqına qarşı hazırladığı Sumqayıt təxribatı erməni mənbələrində "Sumqayıt qırğınları" kimi təqdim edilir. Onlar qeyd edirlər ki, 27-29 fevral 1988-ci ildə Sovet Azərbaycanının Sumqayıt şəhərində Azərbaycan hakimiyyətinin dövlət səviyyəsində təşkil etdiyi Sumqayıt qırğınları, şəhərin erməni əhalisinin soyqırımı və kütləvi deportasiyası məqsədi daşıyır. Erməni millətinə qarşı törədilən bu cinayətin məqsədi ermənilər yeni qanlı aksiyalar perspektivi ilə qorxutmaqla Artsax hərəkatının qarşısını almaq, Artsax azadlıq mübarizəsinin yayılmasının qarşısını almaq idi. Qırğın təşkilatçılarından biri kimi Sovet Azərbaycanının partiya xadimi Məhəmməd Əsədovun guya ermənilərdən qisas almaq məqsədi daşıdığını bildirirlər. Erməni mənbələri bildirir ki, hadisələrdən bir gün əvvəl 26 fevral 1988-ci il tarixdə Mixail Qorbaçov erməni ziyalıları ilə görüşündə Bakıda yaşayan 200 mindən çox ermənin təhlükəsizliyindən "narahat olduğunu" ifadə edərək, bunu birbaşa Artsax ermənilərinin Dağlıq Qarabağı birləşdirmək tələbi ilə əlaqələndirib. Həmçinin ermənilər 22 fevral 1988-ci il tarixndə Əsgəran şəhərində baş vermiş toqquşma nəticəsində ermənilər tərəfindən qətlə yetirilən iki azərbaycanlı gənc Qarbağın ilk şəhidləri Əli Hacıyev və Bəxtiyar Quliyevin öldürülməsi ilə bağlı SSRİ Baş Prokurorunun birinci müavini Aleksandr Filipoviç Katusevin televiziyada çıxışında təxribat hesab edirlər.

Erməni mənbələrinin verdiyi yalan məlumatda deyilir: "Fevralın 29-da sovet qoşunları Sumqayıta daxil oldu, lakin zorakılıq və qətllər həmin gün də davam etdi. Ordu silah tətbiq etmək əmri almadı və ermənilərə kömək etmədi. Yalnız axşam saatlarında qətiyyətli addımlar atdı və növbəti talanların qarşısını aldı.

Cinayəti törədənlərdən cəmi 94 nəfər məsuliyyətə cəlb edilib və onlardan yalnız biri ölüm cəzasına məhkum edilib (söhbət

günahsız yerə güləllənmiş Əhməd Əhmədovdan gedir). Qalanları isə qətl, zorlama, soyğunçuluq və digər maddələrlə ittiham olunub və bütün hallarda istisnasız olaraq cinayətin əsaslandırılması "xuliqanlıq motivləri" adlandırılıb. Sovet hakimiyyəti bütün cinayətləri bir ümumi işə daxil etmək əvəzinə, onları qəsdən bir neçə hissəyə bölərək, müxtəlif sovet şəhərlərinin məhkəmələrində məhkəmə proseslərini aparırdı.Məhkəmə prosesləri zamanı məhkəmə prosesinin və zərərçəkmişlərin hüquqlarının kobud şəkildə pozulması halları olub. SSRİ dağılandan sonra cinayətkarların bir çox işlərinə xitam verildi və onların əksəriyyəti azadlığa buraxıldı. Cinayət rəsmi şəkildə pislənməyib və həlak olanların yaxınlarına başsağlığı verilməyib. Buna adekvat siyasi qiymət verilməməsi SSRİ-nin müxtəlif şəhərlərində kütləvi qırğınların başlanmasına səbəb oldu. Şəhər və hüquq-mühafizə orqanlarının əməkdaşları da cəzasız qalıb. Sumqayıt Erməni Soyqırımı qurbanlarının dəqiq sayı məlum deyil. Azərbaycan Prokurorluğunun təqdim etdiyi məlumatlara əsasən, SSRİ Prokurorluğu "Sumqayıtda 27 erməni millətindən olan vətəndaşın öldürüldüyünü" elan edib. Lakin qeyri-rəsmi məlumatlara görə, soyqırım qurbanlarının sayı min nəfərə çatır ki, onların qalıqları hələ də Sumqayıt ətrafında yeni tikililər zamanı tapılır".

Eyni zamnda ermənilər yalançı şahid ifadələri ilə öz məlumatlarını "zənginləşdirməyi"də unutmurlar.

SUMQAYIT TƏXRİBATININ NƏTİCƏLƏRİ

Sovet Xüsusi xidmət orqanları tərəfindən həyata keçirilən Sumqayıt cinayətindən ermənilər müəyyən dərəcədə istəklərinə nail oldular. Onlar xaricdə fəaliyyət göstərən erməni lobbisinin vasitəsi ilə Avropa Parlamenti (1988), ABŞ Senatı (1989) və Argentina parlamentində Sumqayıt hadisələrini pisləyən qərarlar qəbul etməyə nail oldular. Eyni zamanda Ermənistanın daxili aditoruyasına həmçinin beynəlxalq ictimaiyyətə aşıladılar ki erməni xalqı ilə Azərbaycan xalqının birlikdə yaşaması mümkün deyil.Eyni zamanda özlərinin mifoloji arzuları olan Miyatsum hərakatını genişləndirməyə nail oldular.

ERMƏNİLƏRİN SUMQAYIT HADİSƏLƏRİNƏ GÖRƏ GÜNAHLANDIRDIQLARI MƏHƏMMƏD ƏSƏDOV KİMDİR?

Məhəmməd Nəbi oğlu Əsədov 5 dekabr 1941-ci ildə Zəngilan rayonun Baharlı kəndində anadan olub. Baharlı kəndində dördüncü sinifi, Mincivan qəsəbəsində isə tam orta məktəbi bitirmişdir (1958). O, 1960-cı ildə Bakı Statistika Texnikumunu bitirib. 1961-1964-cü illərdə ordu sıralarında xidmət edib. 1964-cü ildə Sumqayıt şəhərində 1 saylı trestdə betonçu kimi işləyib. 1965-ci ildə Azərbaycan Dövlət universitetinin "Maliyyə və kredit" fakültəsinə daxil olub sonra həmin fakultə Xalq Təsərrüfatı İnstitutuna verildiyi üçün oranı bitirb. M.Əsədov 1968-1975-ci illərdə Sumqayıt Şəhər Partiya Komitəsində müxtəlif vəzifələrdə çalışıb. Sonra M. Əsədov Moskva Təhlükəsizlik Akademiyasında təhsil alaraq Azərbaycan Təhlükəsizlik Nazirliyində məsul vəzifədə çalışıb. 1983–1986-cı illərdə Beyləqan (Jdanov) Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işləyib. O, 1986–1988-ci illərdə Mərkəzi Komitədə yüksək vəzifədə işləyəndə dəfələrlə Xankəndiyə gedib. Oradan qayıdanda belə fikir söyləyib: *” Xankəndində elə bil Azərbaycan hökuməti yoxdur, ermənilər necə istəyir o cür də hərəkət edirlər”*

Sumqayıt hadisələri zamanı M.Əsədov Mərkəzi Komitənin (1986-1988) inzibati orqanlar şöbəsinə müdiri vəzifəsində çalışıb.

Məhəmməd Əsədov 1990-cı ilin may ayında Azərbaycan Respublikasının Daxili İşlər naziri vəzifəsinə təyin edilir. Azərbaycanın Ermənistanla sərhəd rayonlarını gəzərək erməni təcavüzünü gözləri ilə görən nazir Məhəmməd Əsədov həyəcan təbili çalır, təcili tədbirlərin görülməsi üçün Moskvaya SSRİ Daxili İşlər Nazirliyinə müraciət ünvanlayır, asayişi qorumaq üçün silah-sursat tələb edirdi. O, tez bir zamanda Xüsusi Təyinatlı Milis Dəstəsini yaradır. Məhəmməd Əsədov Xocalı hava limanında ermənilərin gediş-gəlişinə nəzarəti gücləndirmək üçün DİN-in qüvvələrini səfərbər edir. DİN Respublikanın çıxış yollarını ciddi nəzarətdə saxlayırdı. O, sərhəd rayonlarına, Qarabağa, Ağdama, Göygölə, Gədəbəyə, Kəlbəcərə, Laçına, Goranboya, Tərtərə gedir. Çaykənd, Qarabulaq Todan, Erkəç, Mənəşli və digər kəndlərin quldurlardan təmizlənməsi əməliyyatlarında şəxsən iştirak edir. Bölgələrdən Bakıya dönən Əsədov müdafiənin gücləndirilməsi üçün təxirəsalınmaz, təcili tədbirlərin görülməsi barədə 27.08.1991-ci il tarixli № 2/149 saylı altı vərəqdən ibarət məktubla Baş nazirə və Prezidentə kəskin müraciətlər edir, təkliflərini bildirirdi. Məhəmməd Əsədov 1991-ci ilin noyabrında Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasını tezləşdirmək, ordu quruculuğu işində mərkəzlə hüquq-mühafizə orqanları arasında birgə işin təşkilini həyata keçirmək üçün dövlət müşaviri təyin olunur. 20 noyabr 1991-ci il tarixində Qarakənd səmasında ermənilər tərəfindən vurularaq şəhid olub.

Onu da qeyd edək, ki, Sumqayıt hadisələrində ermənilər tərəfindən günahlandırılan hətta başına pul mükafatı təsis edilən şəxslərdən biri də Azərbaycanın ilk baş prokuroru İsmət Qayıbovdur.

İSMƏT İSMAYIL OĞLU QAYIBOV KİMDİR?

İsmət İsmayıl oğlu Qayıbov 8 oktyabr 1942-ci ildə Gəncə şəhərində anadan olub. Azərbaycan Respublikasının ilk Baş prokuroru (1990–1991), III dərəcəli dövlət ədliyyə müşaviri. Əslən Qazax rayonunun Aşağı Salahlı kəndinin Qayıbovlar soyundandır. Onun valideynləri, atası İsmayıl və anası Füruzə Respublikanın əməkdar müəllimi olub. Orta təhsilini Gəncə şəhərindəki 1 saylı orta məktəbdə almışdır. 1967-ci ildə Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. 1963-cü ildə əmək fəaliyyətinə başlamış, İ.Qayıbov 1969-cu ildə Əli-Bayramlı Şəhər Komsomol Komitəsinin birinci katibi vəzifəsində işləmişddir. O, 1971-ci ilin mart ayında Azərbaycan SSR-in prokurorluq orqanlarına qəbul olmuş – 26 Bakı komissarı rayonunun prokuror köməkçisi vəzifəsinə təyin edilmişdir. 1975-ci ilin iyun ayında Bakı Şəhər Prokurorluğunda cinayət işlərinin baxılmasına nəzarət şöbəsinin prokuroru vəzifəsinə təyin olunmuşdur. 1976-cı ilin fevral ayından isə Bakı Şəhər Prokurorluğunun ümumi nəzarət şöbəsinin rəisi vəzifəsində çalışmışdır. 1978-ci ildən İsmayıllı rayonunun prokuroru, 1982-ci ildən Əli-Bayramlı şəhərinin prokuroru, 1987–1990-cı illərdə isə Sumqayıt şəhərinin prokuroru vəzifələrində çalışmışdır.

1991-ci ildə İsmət Qayıbovun verdiyi müsahibədə erməni hərbi dəstələrinin cinayətkar əməllərinin sovet rəhbərliyi tərəfindən cəzasız qaldığına etiraz edir. O, həmçinin Sumqayıt

hadisələri ilə bağlı şərh verir və bildirir ki, o şəxsən 96 nəfər barəsində həbs-qətimkan tədbiri seçib. Amma erməni separatçılarının törətdiyi cinayət nəticəsində asudə gəzmələrindən qəzəblə danışır. İ.Qayıbov Quqarkda azərbaycanlılara qarşı törədilən dəhşətli qırğına görə cəmi 4 ermənininin saxlandığını biabırçılıq adlandırmışdı. O, 20 yanvar faciəsini "Azərbaycan xaqlnın öz müstəqilliyi uğrunda apardığı mübarizə" adlandırır və bildirir ki, "bu şəhidlər hərbi diktaturanın əleyhinə küçələrə çıxmışdılar".

MÜƏAMALI SƏFƏR VƏ SON

İ.Qayıbov və Azərbaycanın digər yüksək vəzifəli şəxslərinin vertolyot qəzasına düşməsinin müəmalı tərəflərindən biri də həmin səfərin təşkil olunmasıdır. 18 noyabr 1991-ci il tarixində Mixail Qorbaçovun şəxsi köməkçisinin tövsiyəsi ilə Azərbaycan Respublikasının və Dağlıq Qarabağ rəhbərliyindən xahiş edir ki, Təhlükəsizlik Şurasının növbəti iclasını Dağlıq Qarabağda keçirsin çünki ərazidəki torpaq iddiasında olan erməni liderlərinin və Moskva nümayəndələrinin də bu iclasda iştirakı nəzərdə tutulur. Bu telefon zəngindən sonra Bakıda siyahı tərtib olunur. Siyahıya Viktor Polyaniçko rəhbərlik etməli idi. Nümayəndələr, ancaq güc nazirliklərindən və Təhlükəsizlik Şurasının rəhbər orqanlarından ibarət olmalıydı. Rəsmi Moskva iclasda dövlət katibi Tofiq İsmayılov və baş prokuror İsmət Qayıbovun hökmən iştirakını xahiş edir. Lakin bəlli olduğu kimi V.Polyaniçko həmin səfərə getmir lakin digər dövlət xadimlər vertaliyotda qəzaya uğrayır. Nəticədə 20 noyabr 1991-ci il Qarakənd səmasında digər dövlət xadimləri ilə birgə İsmət Qayıbov da şəhid olur.

Azərbaycandakı dövri mətbuat hadislər barədə hansı məlumatları yayırdılar? Təəssüf ki, əksəriyət hallarda o vaxtki mətbuat SSRİ informasiya orqanlarının verdiyi informasiyaları verməklə işlərini bitmiş hesab edirdilər. Gəlin həmin dövrün məlumatları ilə tanış olaq.

SUMQAYITDA VƏZİYYƏTƏ DAİR

Xəbər verildiyi kimi, fevralın 28-də Sumqayıtda bir dəstə xuliqan şuluqluq salmışdı. Dağlıq Qarabağda və Ermənistanda hadisələr ətrafında fitnəkar şayiələrin, təhrikçi söz-söhbətlərin təsiri altına düşmüş səbatsız, yetkin olmayan adamlar qeyri-hüquqi hərəkətlərə cəlb olunmuşdular. Qeyri-şüuri azğınlıq və emosiyalar şəraitindən istifadə edən cinayətkar ünsürlər quldurluq hərəkətləri törətmişlər. Faciəli hadisələr baş vermişdir, təlafat vardır. Partiya, sovet, hüquq mühafizə orqanları vəziyyəti normal hala salmaq üçün qəti tədbirlər görmüşlər. Cinayətkar hərəkətlərdə ifşa olunmuş şəxslər hüquq mühafizə orqanları tərəfindən yaxalanmışlar.

Azərbaycan SSR Nazirlər Sovetinin sədri H. N. Seyidov başda olmaqla hökumət komissiyası yaradılmışdır. Şəhər xidmət bölmələrinin fasiləsiz işinin təmin edilməsi, yaşayış binalarının və ictimai binaların təmiri ilə, ictimai asayişin qorunması ilə əlaqədar bütün məsələlər həll edilir. Zərər çəkənlərə lazımı yardım göstərilir. Vətəndaşların xahişlərinə və müraciətlərinə baxılır, bunlarla əlaqədar operativ surətdə tədbirlər görülür.

Şəhər zəhmətkeşləri təmkinlik göstərir, kollektivlərdə beynəlmiləlçilik şəraitini möhkəmləndirirlər. Əmək ahəngi bir anda olsa pozulmamışdır. Sənaye, nəqliyyat, ticarət üçün ictimai iaşə müəssisələri və başqa müəssisələr lazımı rejimdə işləyir, məktəblərdə məşğələlər davam edir.

Sov. İKP MK Siyasi Bürosunun üzvülüyünə namizəd, SSRİ Ali Soveti Rəyasət Heyətinin birinci müavini P. N. Demichev Azərbaycan KP MK-nın birinci katibi K. M. Bağırov Sumqayıt zəhmətkeşləri ilə görüşmüş, şəhər həyatının əsas məsələləri, ictimai asayişin təmin edilməsi, millətə zidd təzahürlərin təhqiqi üçün görülən tədbirlər ilə maraqlanmışlar.

SSRİ prokurorluğunun istintaq qrupunun cinayətlərin təhqiq olunması və cinayətlərdə əli olan şəxslərin məsuliyyətə cəlb edilməsi üçün tədbirlər görür.

(Azərinform).

SUMQAYITDA VƏZİYYƏT

Xəbər verildiyi kimi, fevralın 28-də Sumqayıtda bir dəstə xuliqan şuluqluq salmışdı. Dağlıq Qarabağda və Ermənistanda hadisələr ətrafında fitnəkar şayiələrin, təhrikçi söz-söhbətlərin təsiri altına düşmüş səbatsız, yetkin olmayan adamlar qeyri-hüquqi hərəkətlərə cəlb olunmuşdular. Cinayətkar ünsürlər zorakılıq hərəkətləri və talanlar törətmişlər. Onlar 31 adam öldürmüşlər, həlak olanlar arasında müxtəlif millətlərdən olan adamlar, qocalar və qadınlar vardır.

Vəziyyəti normal hala salmaq üçün qəti tədbirlər görülmüşdür. Cinayətlərdə müqəssir olanlar həbsə alınmışlar və sovet qanunlarına ciddi surətdə uyğun olaraq cinayət məsuliyyətinə cəlb edilir.

Azərbaycan SSR Nazirlər Sovetinin sədri Həsən Seyidov başda olmaqla hökumət komissiyası yaradılmışdır. Şəhər xidmət bölmələrinin fasiləsiz işinin təmin edilməsi, ictimai asayişin qorunması ilə əlaqədar bütün məsələlər həll edilir. Zərər çəkənlərə lazımi yardım göstərilir.

Vətəndaşların xahişlərinə və müraciətlərinə baxılır, bunlarla əlaqədar operativ tədbirlər görülür.

Şəhər zəhmətkeşləri təmkinlik göstərir, beynəlmiləlçilik hisslərini nümayiş etdirirlər. Əmək ahəngi pozulmamışdır. Sənaye, nəqliyyat, ticarət, ictimai iaşə, məişət xidməti müəssisələri və başqa müəssisələr lazımi rejimdə işləyirlər, məktəblərdə məşğələlər davam edir.

(SİTA). 6 mart 1988-ci il Kommunist qəzet.

İSTİNTAQ APARILIR

Respublika mətbuatında xəbər verildiyi kimi Sumqayıt şəhərində vəziyyət sabitləşmişdir. Həyat öz normal məcrasına düşür, bütün sənaye, tikinti, ticarət, məişət xidməti və ictimai iaşə müəssisələri, şəhər nəqliyyatı işləyir. Qayda-qanun və sakinlərin rahatlığı təmin edilir.

Azərinformun və "Vışka" qəzetinin müxbirləri Sumqayıt şəhərinin prokuroru, baş ədliyyə müşaviri İsmət Qayıbovla görüşmüşlər.

Söhbət zamanı o, demişdir ki, ictimai asayişi pozmaqda ifşa edilmiş şəxslər hüquq mühafizə orqanları tərəfindən yaxalanmışlar. Yerli prokurorluq orqanları ilə birlikdə SSRİ İttifaqı prokurorluğunun xüsusi qrupu yaxalanmış şəxslərin baş vermiş qətl, zorakılıq, qarətçilik hadisələri ilə əlaqədarlığını təhqiq edir. İstintaq gedişində aydın olur ki, xuliqanların bir qismini əvvəllər məhkumluğu olmuş cinayətkar ünsürlər, tüfeylilər təşkil edir. Onların arasında müxtəlif millətlərdən olan şəxslər vardır. Yaxalanmış şəxslərin orta yaşı 20-yə yaxındır. Onların əksəriyyəti Dağlıq Qarabağ və Ermənistan hadisələri ətrafında fitnəkar şayiələrin, təhrikçi söz-söhbətlərin təsiri altına düşmüş naşı gənclərdir. Cinayətkar ünsürlərin ucbatından 31 nəfər həlak olmuşdur. Həlak olanlar müxtəlif millətlərin nümayəndələridir. İstintaqın sərəncamında cinayətlərdə barmağı olan hər kəsin təqsirkarlıq dərəcəsini diqqətlə müəyyən etməyə imkan verən lazımi materiallar vardır.

İsmət Qayıbov demişdir: "Şəhər ictimaiyyəti istintaq orqanlarına çox kömək göstərir. Könüllü köməkçilər arasında azərbaycanlılar xüsusilə çoxdur; onlar çətin anda təhlükəyə məruz qalmış milliyətcə erməni olan şəxsləri qorumuşlar. Onlar nəinki mənzillərini qonşularının, tanışlarının, zərər çəkmiş şəxslərin qohumlarının sərəncamına vermiş, hətta quldurluq edən azğınlaşmış ünsürləri də qətiyyətlə dəf etmişlər".

İsmət Qayıbov daha sonra demişdir: “Erməni millətindən olub itkin düşmüş şəxslərin axtarılması gedişində aydın olmuşdur ki, onların bir çoxunu azərbaycanlı ailələri öz qanadı altına almışlar, bəziləri Bakıya getmişlər. Buna görə də cürbəcür çoxlu şayiə gəzməyə başlamışdır. Rəsmən deyə bilərəm ki, bu şayiələr əsassızdır, olduqca şişirdilmiş, uydurmalara çevrilmişdir”.

İsmət Qayıbov demişdir: Bu günlər prokurorluq işçiləri şuluqluq iştirakçılarından heç birinin məsuliyyətdən yaxa qurtara bilməməsi üçün ən qəti tədbirlər görürlər.

11 mart 1988-ci il Kommunist qəzet. (Azərinform).

SUMQAYIT TƏXRİBATI HAQQINDA HƏQİQƏTLƏR

Yuxarıda ermənilərin Sumqayıt hadisələrini necə təqdim etməsi barədə məlumat vermişdik. Təxribatın hazırlanmasında əsas məqsəd erməni və Azərbaycan xalqlarının bir yerdə yaşamasının qeyri mümkünlüyünü sübut etmək və Qarabağın Ermənistana birləşdirlməsini təmin etmək olmuşdur.

Azərbaycan Respublikasının Baş Prokurorluğu hadisəni belə qiymətləndirir: “Belə ki, hadisələrlə əlaqədar dərhal, 28 mart 1988-ci il tarixdə Sumqayıt şəhər prokurorluğu tərəfindən həmin dövrdə qüvvədə olan Azərbaycan SSR CM-nin 72-ci maddəsinin (kütləvi iğtişaş) əlamətləri ilə cinayət işi başlansa da, artıq 01 mart 1988-ci il tarixdə həmin iş SSRİ Baş Prokurorluğunun istintaq qrupu tərəfindən icraata qəbul edilərək, ona 18/55461-88 nömrəsi verilmiş və istintaq davam etdirilmişdir. SSRİ Baş Prokurorluğunun istintaq qrupu Mixail Qorbaçovun göstərişi ilə hadisələrin xuliqanlıq edən elementlər tərəfindən törədilməsi versiyası üzərində dayanmış və həmin versiyanın rəsmiləşdirilməsi istiqamətində iş aparmışdır. Məhz Sumqayıt hadisələrinə obyektiv hüquqi və siyasi qiymət verilməməsindən istifadə edərək erməni separatçıları Dağlıq Qarabağın Azərbaycanın tərkibindən zorla çıxarılması prosesinə başlamışlar.

Sumqayıt hadisələrindən dərhal sonra Ermənistanda, sovet mətbuatında və beynəlxalq səviyyədə Azərbaycana qarşı informasiya kampaniyasına start verilmişdir. Bu kampaniya artıq iyirmi üç il ərzində ardıcıl şəkildə aparılır.

SUMQAYIT HADİSƏLƏRİ PREZİDENTİN NƏZARƏTİNDƏ

Cinayətin təşkilatçılarını məsuliyyətə cəlb etmək üçün müvafiq beynəlxalq qurumlara müraciət edilməsi və bunun üçün hüquqi əsasların müəyyən olunması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə 1988-ci ilin 27-29 fevral tarixlərində Sumqayıt şəhərində törədilmiş kütləvi iğtişaşlarla əlaqədar istintaqı aparılaraq sonradan dayandırılmış 5 cinayət işinin icraatı Azərbaycan Respublikası Baş Prokurorunun 19 mart 2010-cu il tarixli qərarı ilə təzələnərək bir icraatda birləşdirilmiş və Baş Prokurorluğun Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinin müstəntiq və əməliyyatçılarından ibarət istintaq-əməliyyat qrupuna həvalə edilmişdir. İstintaqın tam, hərtərəfli və obyektiv aparılmasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının və Rusiya Federasiyasının bir sıra qrumlarına sorğular göndərilmişdir. Sumqayıt hadisələrinin çoxsaylı şahidlərinin, həmin hadisələrdən məlumatı olan digər insanların, o cümlədən SSRİ Prokurorluğunun istintaq qrupuna daxil olan şəxslərin ifadələri alınmış, arxiv sənədləri açılmış, mətbuatda verilmiş məlumatlar təhlil edilmiş, digər zəruri istintaq-əməliyyat tədbirləri görülmüşdür.

İstintaqla müəyyən edilmişdir ki, Sumqayıtda törədilmiş iğtişaşlar nəticəsində müxtəlif millətlərdən olan 32 adam həlak olmuş, onlardan 26-sı milliyyətcə erməni olmuş, 400 nəfərdən çox adam müxtəlif dərəcəli bədən xəsarətləri almış, 200-dən çox mənzil talan edilmiş, 50-dən artıq mədəni-məişət obyekti dağıdılmış, 40-dan çox avtomaşın zədələnmiş və bir hissəsi

yandırılmış, dövlətə o vaxtkı qiymətlərlə 7 milyon rubl məbləğində maddi ziyan vurulmuşdur.

Hadisələrlə əlaqədar 444 nəfər məhkəmə qarşısında cavab verməli olmuş, onlardan 400 nəfəri 10-15 gün təcridxanalarda saxlanılmış, 94 nəfər müxtəlif müddətlərə həbs cəzasına, bir nəfər - Əhməd Əhmədov isə güllələnməyə məhkum olunmuşdur.

Hazırkı İstintaq qrupu tərəfindən aparılmış istintaq nəticəsində Sumqayıt hadisələrinin həqiqi mahiyyəti - Dağlıq Qarabağın Azərbaycandan qoparılması üzrə mübarizənin "rəsmi səbəbi" kimi qanlı təxribat olması tam sübuta yetirilmişdir. Müəyyən edilmişdir ki, Sumqayıt sənaye şəhəri olduğu üçün orada əsasən sadə fəhlələrin yaşaması, Ermənistandan qovulmuş azərbaycanlı qaçqınların məskunlaşması və şəhərdə yaranmış mürəkkəb sosial-iqtisadi vəziyyət nəzərə alınaraq, Azərbaycana qarşı təxribat aksiyasının məhz bu şəhərdə təşkil edilməsi qərara alınmış, Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən Sumqayıt təxribatının planı hazırlanmış, Sumqayıta xüsusi hazırlıq keçmiş təxribat qrupu göndərilmiş və müxtəlif cinayətkar ünsürlər ermənilərin əli ilə bu təxribata cəlb edilmişlər.

Sumqayıtın rəhbərliyi və yerli güc strukturlarının fəaliyyəti isə Moskvanın göstəriş və əmrləri ilə iflic vəziyyətinə salınmışdır. Belə ki, hətta şəhər daxili işlər şöbəsinin əməkdaşlarının tabel silahları belə əllərindən alınmış, şəhərin hüquq mühafizə orqanlarına müstəqil olaraq cinayətkar əməllərə qarşı tədbirlər görulməsi, əməliyyat və istintaq hərəkətlərinin aparılması qadağan edilmiş, Azərbaycan ərazisində, o cümlədən Bakı və Sumqayıt şəhərləri ərazisində Sumqayıtdakı iğtişaşların qarşısını almaq üçün yetərli sayda hərbi qüvvələr olsa da, məlum olmayan səbəblərdən SSRİ rəhbərliyi buraya Rusiya ərazisində yerləşən hərbi hissələrin qüvvələrini yeritmiş, lakin onlar da iğtişaşların qarşısını almaq üçün lazımi tədbirlər görməmişlər.

Sumqayıt hadisələrinin SSRİ xüsusi xidmət orqanları tərəfindən təşkil edilməsi barədə məlumatlar hələ 1989-1990-cı

illərdə aparılmış istintaq zamanı əldə edilmişdir. Belə ki, o vaxt başlanmış cinayət işinin materiallarında Sumqayıtda talanlar törətmiş qrupa rəhbərlik edən, ermənilərin öldürülməsində, zorlanmasında, əmlaklarının məhv edilməsində fəal iştirak edən erməni Eduard Qriqoryanın kütləvi iğtişaşlar ərəfəsində şübhəli şəxslərlə görüşməsi, onlardan Sumqayıtda yaşayan ermənilərin siyahısını alması, hadisələr zamanı öz qrupunun üzvlərinə spirtli içkilər və psixotrop preparatlar paylaması barədə kifayət qədər ifadələr olduğu halda, bu məlumatlar SSRİ Prokurorluğunun istintaq qrupu tərəfindən araşdırılmamış, əksinə, kütləvi iğtişaşların təşkilatçılarını aşkara çıxara bilən məlumatlar ört-basdır edilmişdir. Azərbaycanın hüquq-mühafizə orqanlarının bu barədə sorğularına isə Ermənistandan və Moskvadan mücərrəd, heç bir informasiya daşımayan cavablar göndərilmiş, Qriqoryanın erməni millətçiləri ilə əlaqələrinin müəyyən edilməsinə yönəlmiş əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə imkan verilməmişdir. Belə şəraitdə talanların kimlər tərəfindən təşkil edilməsi, Sumqayıt iğtişaşlarının arxasında kimlərin olması ilə bağlı əsas suallar cavabsız qalmışdır.

SSRİ Baş Prokurorluğunun istintaq qrupuna daxil edilmiş və bu qrupun tərkibində fəaliyyət göstərmiş Azərbaycan Respublikası hüquq-mühafizə orqanlarının əməkdaşlarının ifadələrindən görünür ki, istintaq qrupunun rəhbəri SSRİ Baş Prokurorunun yanında xüsusilə mühüm işlər üzrə baş müstəntiqi V.S.Qalkin olmuş, iş üzrə əsas istintaq hərəkətlərini SSRİ Baş Prokurorluğundan, Rusiya Federasiyası, Ukrayna, Belorusiya və Moldaviyadan ezam olunmuş müstəntiqlər yerinə yetirmişlər. İstintaq qrupunun rəhbərləri cinayətin sifarişçilərinin və təşkilatçılarının müəyyənləşdirilməsi istiqamətində demək olar ki, istintaq hərəkətləri aparmamış, onların ifşa olunmasında maraqlı olmamış, buna görə də cinayətin icraçıları barəsində işlərin tezliklə tamamlanıb məhkəməyə göndərilməsini tələb etmiş, milliyyətcə azərbaycanlı olan müstəntiqləri əsas istintaq hərəkətlərinin icrasından kənarda

saxlamağa çalışmışlar.

Doğrudur, Sumqayıt hadisələri ilə əlaqədar keçmiş SSRİ Prokurorluğunun ittifaqın müxtəlif respublikalarından və hüquq-mühafizə orqanlarından 200-ə yaxın müstəntiq və bir o qədər də əməliyyatçının cəlb edildiyi istintaq-əməliyyat qrupu tərəfindən olduqca böyük həcmdə material toplanmış, araşdırılmış və bir çox şəxslər məsuliyyətə cəlb edilmişlər.

Lakin hadisələrlə bağlı istintaqın lap əvvəlindən hadisələrdə zərərçəkənlərin guya ermənilər, təqsirkarların isə azərbaycanlılar olması barədə irəli sürülmüş doqmatik fərziyyə istintaqın birtərəfli və kifayət qədər qərəzli aparılmasına, onun müəyyən siyasi sifarişə xidmət etməsinə səbəb olmuşdur.

Belə ki, Sumqayıtda baş vermiş iğtişaşlar zamanı saxlanılmış erməni soyadı daşıyanların barəsində heç bir araşdırma aparılmamış, onlar dərhal "zərərçəkən" tərəf kimi buraxılmış və bir çoxları məsuliyyətdən kənarda qalmışdır. İş üzrə təqsirləndirilən şəxs kimi cəlb edilmiş Qriqoryan Eduard Robertoviç isə onun tərəfindən cinsi zorakılığa məruz qalmış zərərçəkmiş erməni qızlar Marina və Karina Mejlumyanlar, onların anası Roza Mejlumyan tərəfindən tanındığından onun cinayət məsuliyyətindən yayındırılması mümkün olmamışdır. Hazırda aparılan istintaqla və əldə edilmiş arxiv materiallarından göründüyü kimi Eduard Qriqoryanın məsuliyyətdən azad edilməsi üçün erməni millətçi təşkilatları və xüsusi xidmət orqanları çox çalışmışlar.

Təsadüfi deyildir ki, Eduard Qriqoryan uzun müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum edildikdən az sonra, cəzasını qanunla Azərbaycan SSR ərazisində çəkməli olduğu halda, hansısa xidmətlərinə görə cəzasını çəkmək üçün Ermənistana göndərilmiş və orada azadlığa buraxılmışdır.

Aparılmış istintaq zamanı Sumqayıtda doğulub böyümüş və uzun müddət orada yaşamış sakinlərin, habelə hadisələrin bilavasitə şahidlərinin çoxsaylı ifadələrindən görünür ki, iğtişaşları təşkil edən «qara plaşlı» (qara geyimli) şəxslər sumqayıtlı

olmamış, onlar öz aralarında bir çox hallarda erməni dilində danışmış, Azərbaycan dilini təmiz bilmiş və hadisələr zamanı adamlar arasında ermənilər əleyhinə təbliğat aparmış, camaata spirtli içkilər, güclü təsiredici həblər, pul, dəmir parçaları və s. paylamış və talançıları əvvəlcədən onlara məlum olan erməni ünvanlarına aparmışlar.

Yeni açılmış hallar göstərir ki, Sumqayıtda baş vermiş kütləvi iğtişaşlar 1959-cu il təvəllüdlü, əvvəllər 3 dəfə məhkum olunub üst-üstə 9 il 2 ay 13 gün azadlıqdan məhrumetmə cəzası çəkmiş qatı cinayətkar, milliyyətcə erməni olan "Paşa" ləqəbli Eduard Qriqoryan, onun Albert və Ernis adlı daha iki qardaşı, Dağlıq Qarabağdan xüsusi tapşırıqlarla gəlmiş emissarlar və DTK-nın agentləri tərəfindən təşkil olunmaqla bilavasitə icra edilmişdir. Dağlıq Qarabağdan olan emissarlar Eduard Qriqoryanı ətraflı təlimatlandırmış, ona Sumqayıtda yaşayan və separatçıların yaratdıqları "Qarabağ" və "Krunk" təşkilatlarına pul köçürməyən ermənilərin siyahısını və dəqiq ev ünvanlarını vermiş, aqressivliyi artırmaq məqsədi ilə iğtişaş iştirakçılarına paylanması üçün Qriqoryanı psixotrop dərmanlar və spirtli içkilərlə təmin etmiş, hadisələr zamanı isə Eduard Qriqoryan və onun qardaşı Albert Qriqoryanla birlikdə camaata soyuq silah kimi istifadə olunan armatur parçaları paylamışlar. Qriqoryan Eduard Robertoviç ətrafına topladığı özü kimi cinayət meyilli qonşuları ilə ümumi dil taparaq, onlara spirtli içki və insanda aqressivlik yaradan xüsusi həblər paylamış, quldurluq və soyğunçuluq etmək üçün yaxşı şansın yarandığını demiş və onları öz arxasınca Qarabağa erməni iddialarına qarşı keçirilən dinc mitinqin keçirildiyi meydana aparıb, orada özünü Qafandan gəlmiş azərbaycanlı kimi təqdim edərək, ermənilərin guya Qafanda dinc azərbaycanlı əhalini qırdıqlarını, özlərinin isə bir maşın meyit gətirdiklərini mitinq iştirakçılarına danışaraq, ermənilərdən intiqam almağa çağırmış, onda burada yaşayan ermənilərin siyahısının və ünvanlarının olduğunu deyərək, ona qoşulmuş 100 nəfərə yaxın yeniyetmə və

müxtəlif cinayətkar ünsürləri "Qarabağ bizimdir!", "Ermənilər qırın!" kimi şüar və çağırışlarla "Qarabağ" (komitəsi) və "Krunk" (cəmiyyəti) təşkilatlarına pul verməkdən imtina etmiş ermənilərin yaşadıqları mənzillərə istiqamətləndirmiş, talan və digər cinayətlərdə fəal iştirak etmiş və şəxsən 6 nəfər ermənini qətlə yetirmişdir".

SUMQAYIT TƏXRİBAÇILARI ORTA ASİYADA

Sumqayıtdan sonra orada sınaqdan keçirilmiş eyni ssenari üzrə Sovet İttifaqının digər respublikalarında da çoxsaylı insan tələfatına səbəb olmuş faciəli hadisələr təşkil edilmişdir.

Dövlət Təhlükəsizlik Komitəsinin açılmış arxiv materiallarından məlum olmuşdur ki, Dağlıq Qarabağ separatçılarının emissarları, SSRİ DTK-nın agentləri olan Sarkisyan, Osipov (Osipyan) və digərləri Sumqayıt hadisələrində fəal iştirak etmiş və həmin hadisələrdən dərhal sonra Orta Asiya respublikalarına ezam olunmuşlar. Bu agentlərin izləri sonradan Özbəkistan və Qırğızıstandakı hadisələr zamanı aşkar olunmuşdur. Bu fakt Sumqayıtda, Fərqanədə, Oşda və keçmiş SSRİ-nin digər yerlərində baş vermiş təxribatların bir mərkəzdən təşkil və idarə edildiyini birmənalı təsdiq edir.

Hazırda Sumqayıt şəhərində törədilmiş iğtişaşlarla əlaqədar istintaq davam edir.

Eduard Robertoviç Qriqoryanın cinayətlərini ört-basdır etmək mümkün olmadığı üçün hüquq- mühafizə orqanları tərəfindən həbs edildikdən sonra ermənilər onun azərbaycanlı olması haqqında həqiqətə uyğun olmayan məlumatlar yayırdılar. Azərbaycan Respublikası Baş Prokurorluq onun şəxsiyyətini təsdiq edən sənədi rəsmi sayta qoymaqla ermənilərin yalan məlumatlarını təkzib edir.



27-29 fevral 1988-ci il tarixlərdə Sumqayıt şəhərində törətdikləri cinayətlərdə Eduard Qriqoryanla birgə iştirak edən Səfərov Nizami müəyyən edilərək istintaqa cəlb olunub dindirilməsi

Nizami Səfərov verdiyi ifadələrində göstərmişdir ki, həmin hadisələrdə onunla eyni blokda yaşayan Qriqoryan Eduard fəal iştirak etmişdir və bu hadisələr zamanı basqına məruz qalan binalarda ermənilərin hansı mənzillərdə yaşadıqlarını kütləyə bildirmişdir. Nizami Səfərov həmçinin göstərmişdir ki, 28 fevral 1988-ci il tarixdə Eduard Qriqoryan, onun qardaşı Albert Qriqoryan və qara plaşda olan tanımadığı adamlar öz aralarında erməni dilində danışaraq «QAZ-53» markalı maşında camaata arağın paylanması ilə məşğul olmuşlar. Bundan başqa həmin «QAZ-53» markalı maşında olan dəmir parçalar yerə tökülərək orada olan camaata verilmişdir. Eduard Qriqoryan da həmin dəmir parçalarından birini götürərək ermənilərə hücum etmək barədə çağırışlar etmişdir. Həmin gün Eduard Qriqoryan ona bir ədəd ağ

rəngli həb vermiş və onu qəbul etdikdən sonra özünü daha güclü və inamlı hiss etmişdir və etdiyi cinayətləri həmin dərmanın təsiri nəticəsində törətdiyini bildirmişdir.

Eduard Qriqoryanla birgə cinayətlər törədən Hüseynov Vaqif Vahabəli oğlu 22 noyabr 2006-cı il tarixdə ölmüşdür; digər iki iştirakçı İsayev Əfsər İslam oğlu və Məmmədov Qalib Qədirşah oğlunun yerləri müəyyən edilməmiş, onların istintaqa cəlb edilməsi üçün əməliyyat tədbirləri keçirilir.

Sumqayıt hadisələri ilə əlaqədar məhkum olunmuş Həbibov Alim Əziz oğlu ifadəsində göstərmişdir ki, 28 fevral 1988-ci il tarixində "Sputnik" mağazasının qarşısına gəlmiş, orada mağazanın şüşələrinin sındırılaraq spirtli içkilərin və ağ rəngli dərman preparatlarının bir qrup şəxs tərəfindən adamlara paylanmasının şahidi olmuşdur.

Abdullayev Hacı Məhərrəm oğlu Qafandan gəlmiş həmkəndlisi Əli Əliyevdən aldığı məlumatlardan orada kütləvi qırğınların olması barədə məlumatların doğru olmadığı öyrənsələrdə nə qədər çalışsalarda təxribatın qarşısını almağa nail ola bilməmişlər.

E.Qriqoriyanın təxribaçı dəstəsi Qafandan Bakıya bir maşın ermənilər tərəfindən vəhşicəsinə öldürülmüş azərbaycanlı meyiti gətirilməsi ilə bağlı məlumatları yaymağa və emosiyaları qışıdırmağa nail olmuşlar. Təxribaçılar "Gəlin, gedək meydana, orada tələb edək ki, ermənilər şəhərdən qovsunlar, qulaq asan olmasa onları zorla özümüz qovarıq". Onlardan soruşanda ki, "siz haralısınız, niyə yalan danışırsınız, mən özüm Qafanlıyam, dünən oradan gələn olub, orada heç kimi öldürməyiblər". "Paşa" və ətrafındakılar ona demişlər ki, guya onlar Qafandandırlar. O soruşmuşdur ki, siz Qafanın harasındansınız, hansı kənddənsiniz? Onlar demişlər ki, guya onlar Qafan şəhərinin özündəndirlər. O isə onlara demişdir ki, "siz Qafanlı deyilsiniz, mən sizin ləhcənizdən də bilirəm ki, oralı deyilsiniz." Onlar onun sözlərimi lağa qoyub, hətta biri onu ermənilərin tərəfini saxlayan "satqın" da adlandırmış, hətta "bəlkə də lap ermənisən" demişdir. Bundan sonra təxribaçılar

hərəkətə keçmişdir.

Şahidlər Ağayev İqor Məmmədxanoviç, Balayev Arif Atabala oğlu, Mehdiquliyev Şakir Əli oğlu və Hüseynov Nizami Qəmbər oğlu istintaqa verdikləri ifadələrində törədilmiş cinayətlərin Eduard Qriqoryanla bağlı olduğunu təsdiqləmişlər.

Kütləvi iğtişaşlar dövründə azərbaycanlıları ittiham etmək məqsədilə ermənilərin öz soydaşlarına qarşı törətdiyi təxribatlara dair materiallar

Aparılmış araşdırma zamanı müəyyən edilmişdir ki, Sumqayıtda baş verən hadisələr dövründə ermənilər öz soydaşlarına qarşı qəsdən və ya xüsusi məqsədlə təxribatlar törədib sonradan həmin hadisələrdə azərbaycanlıları ittiham etməyə çalışmışlar.

Məsələn, Sumqayıt şəhərində yaşayan Benik Qriqoryan erməni öz mənzilini, həmçinin Babayan soyadlı qohumunun mənzilini yandırmış, sonra bunun Fəxrəddin Quliyev adlı-soyadlı bir azərbaycanlı tərəfindən törədilməsi barədə yalan xəbərçilik etmişdir. Araşdırma zamanı həmin ermənilərin evlərinə baxış keçirilərkən məlum olmuşdur ki, faktiki olaraq boş mənzillər yanmışdır. İstintaq qrupunun üzvləri bu hala diqqət yetirdikdə Benik Qriqoryan onlara rüşvət təklif etmişdir.

Belə ki, hadisələr dövründə 9 saylı MİS-nin rəisi vəzifəsində işləmiş Abdullayev Abdulla Bəhmən oğlu Seda adlı erməni qadının hadisələr dövründə Azərbaycan LKGİ Sumqayıt şəhər Komitəsinin 1-ci katibi işləmiş Məmmədov Eldar Əhməd oğlu oxşar hadisələrlə bağla istintaqa ifadə vermişlər.

Onu da qeyd edək ki, Sumqayıt işinin tədqiqatı ilə məşğul olan şəxslərin adlarını qeyd edərkən Əməkdar jurnalist İbrahim Məmmədovun "Azərbaycana qarşı Sumqayıt Təxribatı "Qiriqoriyanın işi"" adlı elmi monoqrafiyasında adnı çəkmək yerinə düşərdi. Müəllif bu kitabda təxribatın etimologiyasını onu doğuran səbələr və nəticələri elmi şəkildə əsaslandırmışdır. Kitab bu sahədə yazılmış ciddi mənbələrdəndir. İ.Məmmədovun araşdırmasında hadisədə iştirak edən ermənilərin siyahısına təqdim edirik.

E.Qriqoryana yaxından köməklik göstərən "Nalyotçik" qrupunun üzvləri.

1. Qriqoryan Albert Robertoviç, (Eduard Qriqoryanın qardaşı), yetkinlik yaşına çatmayan gənclərə narkotik maddələr paylayır və onları erməni ailələrinə hücum etməyə çağırırdı.

2. Qriqoryan Tiqran Robertoviç (Eduard Qriqoryanın qardaşı), gənclərə narkotik paylayır, qarətlə məşğul olurdu.

3. Qriqoryan Ernest Robertoviç (Eduard Qriqoryanın qardaşı), iğtişaşlardan əvvəl azyaşlı uşaqları spirtli içkilərlə təmin edirdi.

4. Saturyan Levon Akopoviç, Dağlıq Qarabağ Muxtar Vilayəti Dövlət Təhlükəsizlik İdarəsinin əməkdaşı. "Qarabağ" komitəsinin fəal üzvü. Milli zəmində baş verən hadisələrin təşkilatçılarından biri. Sumqayıtda "Krunk" cəmiyyətinin fəalları ilə mütamadi olaraq əlaqə saxlayır, informasiya toplamaqla məşğul olurdu.

5. Sərkisyan Suren Yuryeviç, "Qarabağ" komitəsinin üzvü. Gəncləri iğtişaşlara səsləyirdi. "Krunk" cəmiyyətinə üzvlük haqqı ödəməyənlərin siyahısına əsasən gəncləri onların evlərinə basqın etməklə məşğul olurdu. Hadisələrdən sonra dərhal Daşkənd şəhərinə köçmüşdür.

6. Markaryan Valeri, Bakı şəhərinin sakini, sürücü. İdarə etdiyi avtobusla Sumqayıtda 4 azərbaycanlını vurub öldürmüş və Bakını tərk etmişdir.

7. Mosesov Eduard Nikolayeviç, "Kommunist" qəzetinin (erməni dilində) müxbiri. Sumqayıt hadisələrində video çəkilişlərin aparılması dislokasiyası ilə məşğul idi.

8. Qriqoryan Artur "Kommunist" qəzetinin (erməni dilində) müxbiri. Foto və video çəkilişlər aparırdı.

9. Aqadlanyan Qriqori, "Kommunist" qəzetinin (erməni dilində) müxbiri. Video və foto çəkilişlər aparırdı.

10. Qriqoryan Benik Setrakoviç, "Krunk" cəmiyyətinin fəal üzvü. Sumqayıt şəhəri, 9-cu mik-n, ev 25e, 5 saylı mənzilin sakini. Sumqayıt şəhəri, 9-cu mik-n, ev 36, 59 saylı mənzildə yaşayan Babayanın ev əşyalarını boşaltdıqdan sonra, hər iki mənzili

yandırmış və günahı Quliyev Fəxrəddin Əhəd oğlunun üstünə atmışdır.

11. Petrosyan Viktor Vartanoviç, 1959-cu il təvəllüdlü, 1-ci mik-n, ev 125/34, 28 saylı mənzilin sakini. Sumqayıtda gəncləri mitinqə təhrik edirdi.

12. Petrosyan Vacik Vartanoviç, qardaşı Viktorla eyni tapşırığı yerinə yetirirdi.

13. Qriqoryan Engels Cerkesoviç, "Krunk" cəmiyyətinin fəal üzvü. 1958-ci il təvəllüdlü, 3-cü mik-n, ev 52, 45 saylı mənzilin sakini. Sumqayıtda iğtişaşlar zamanı qarətlə məşğul olan qrupa rəhbərlik edirdi.

14. Davidyan Anatoliy Armaisoviç, "Qarabağ" komitəsinin üzvü. 1955-ci il təvəllüdlü, 1-ci məhəllə, ev 5a, 21 saylı mənzilin sakini. Gəncləri Sumqayıtın 3-cü mikrorayon ərazisinə toplamaqla məşğul idi.

15. Zaxaryan Aram Aqanesoviç, 1959-cu il təvəllüdlü, 11 mik-n, ev 6, 25 saylı mənzilin sakini. İğtişaşlarda qarətlə məşğul olurdu.

16. Maryan Zoya, "Krunk" cəmiyyətinin fəal üzvü. 1948-ci il təvəllüdlü, 7-8-12-ci məh-lə, ev 92a, 6 saylı mənzilin sakini. Sumqayıtda yaşayan ermənilər arasında vasitəçilik rolunu oynayırdı.

17. Avakyan Sergey Qurgenovic, 41 məh-lə, ev 4a, 62 saylı mənzilin sakini. Gəncləri 3-cu mik-na yönəltməkdə fəallıq göstərib.

18.Ambartsumyan Rudik Viktoroviç, 1958-ci il təvəllüdlü, "Qarabağ" komitəsinin üzvü. 41a məh-lə, ev 27, 30 saylı mənzilin sakini. Qarətlə məşğul olub.

19.Melkumyan Edik Ambartsumoviç, 4-cü mik-n, ev 16/25, 26 saylı mənzilin sakini. Şayələr yaymaqla məşğul olurdu. Bir sıra qarətlərdə iştirak edib.

20.Ambartsumyan Valeriy Mixaylovic, "Krunk" cəmiyyətinin fəal üzvü. 1959-cu il təvəllüdlü, 3-cü mik-n, ev 8, 3 saylı mənzilin sakini. Eduard Qriqoryanın yaxın silahdaşı olub.

21.Ambartsumyan Djapolad Mixayloviç, 1967-ci il təvəllüdlü, 3-cü mik-n, ev 8, 8 saylı mənzilin sakini. Yeniyetmələri öz arxasınca aparırdı. Qarət və oğurluqla məşğul olub.

22.Altunyan Qarik İsayeviç, 1964-cu il təvəllüdlü, 9-cu mik-n, ev 6, 6 saylı mənzilin sakini. Qarət və oğurluqla məşğul olub.

23.Minasyan Albert, "Qarabağ" komitəsinin üzvü. 1939-cu il təvəllüdlü, 6-cı mik-n, ev 35, 4 saylı mənzilin sakini. Hansı mənzillərə hücum olunacağı haqqında gənclərə əvvəcədən məlumat verirdi.

24.Tamrazyan Kamo Georgiyeviç, 1961-ci il təvəllüdlü, 45 məh-lə, ev 79, 73 saylı mənzilin sakini. Eduard Qriqoryanın qardaşlarına köməklik edir, narkotik və spirtli içkilər paylayırdı.

25.Qriqoryan Artaş Masesoviç, 45-ci məh-lə, ev 1/48, 38 saylı mənzilin sakini. Ticarət obyektlərinin qarəti ilə məşğul olurdu.

26.Arakelyan Valeriy Sokratoviç, 7-8-12-ci məh-lə, ev 76, 40 saylı mənzilin sakini. Ev əşyalarının oğurlanması ilə məşğul olurdu.

27.Arakelyan Sergey Sokratoviç, 7-8-12-ci- məh-lə, ev 76, 40 saylı mənzilin sakini. İğtişaşlarda gəncləri istiqamətləndirirdi.

28.Gevorkyan Mixail Qriqoryeviç, "Krunk" cəmiyyətinin fəal üzvü idi. 45-ci məh-lə, ev 5, 18 saylı mənzilin sakini. Oğurluqla məşğul idi.

29.Bomasyan Qoqar, 18-ci məh-lə, ev 16, 8 saylı mənzilin sakini. "Ermənilərə ölüm!" şüari ilə şayihələr yayır və camaatı mitinqə səsləyirdi.

30.Ağababyan Zazyen Karlenoviç, 1955-ci il təvəllüdlü, 3-cü məh-lə, ev 6, 6 saylı mənsilin sakini. "Qarabağ bizimdir!", "Ermənilərə ölüm!" deyə camaatı mitinqə səsləyirdi.

31.Asatryan Slfvik Qriqoryeviç, "Krunk" cəmiyyətinin üzvü. 10-mik-n, ev 7, 46 saylı mənzilin sakini. İğtişaşların fəal üzvlərindən idi.

32.Pxakadze Konstantin Mixayloviç, Abovyan, Ermənistan. "Nalyotcik"in ən fəal üzvlərindən idi. Stepanakert və Yerevanla

əlaqə yaradırdı. Moskvadan gələn DTK-çıların əmrinə əsasən hərəkət edirdi. Hadisələrdən sonra Orta Asiyaya ezam olundu.

33.Sərkisyan Suren Yuryeviç, "Qarabağ" komitəsinin üzvü. 1956-ci il təvəllüdlü, Stepanakert, Pioner kucəsi, ev 4. Hadisələrin gedişatı haqqında informasiya toplayırdı. Ermənistanın xüsusi xidmət orqanları ilə əlaqə yaradırdı.

34.Petrosyan və Poqosyan, 1988-ci ildə Moskvada cinayət törədərək Azərbaycana gəlmişlər. Ümumittifaq axtarışında olublar. Sumqayıta maneəsiz gəlməkdə SSRİ DTK-sının köməyi olmuşdur. İğtişaşlar zamanı Qriqoryana yaxından köməklik göstəriblər.

1988-ci il fevralın 7-dən martın 3-dək, ermənilər tərəfindən Sumqayıt şəhərindəki əmanət kassalarından əmanətlərin çıxarılması ilə bağlı müəyyən edilmişdir ki, 1988-ci ilin yanvar-fevral aylarında, yəni bilavasitə Sumqayıt şəhərində kütləvi iğtişaş baş verməmişdən əvvəl şəhərdə fəaliyyət göstərən 14 əmanət kassasından milliyyətcə erməni olan 84 əmanətçi tərəfindən 143.064 rubl məbləğində əmanətlər götürülmüşdür. «Kapitalbank»ın 2 saylı Sumqayıt filialı tərəfindən əmanətlərin verilməsinə dair təqdim edilmiş ilkin sənədlərdən görünür ki, yuxarıda göstərilən dövr ərzində 18 nəfər 1000 rubldan artıq, 7 nəfər 2000 rubldan artıq, 8 nəfər 3000 rubldan artıq, 4 nəfər 4000 rubldan artıq, 3 nəfər isə 5000 rubldan artıq məbləğdə əmanətlərini götürmüşlər.

Kütləvi iğtişaşlar baş verdiyi dövrdə Sumqayıt şəhərində yaşamış və işləmiş hüquq mühafizə, partiya və sovet orqanlarının işçiləri ifadələrində təxribatların ermənilər tərəfindən törədildiyini təsdiq etmişlər. Belə ki, Sumqayıt şəhər Daxili işlər şöbəsinin partiya komitəsinin sabiq katibi Xancanov Hüseynağa Ağayar oğlu o vaxtkı rəisi vəzifəsini icra edən, hazırda pensiyada olan polis podpolkovniki Xanlar Cəfərov, SSRİ Baş Prokurorluğunun istintaq qrupunda tərcüməçi kimi fəaliyyət göstərmiş Nofəl Əhmədov, SSRİ Baş Prokurorluğunun istintaq qrupuna daxil edilmiş Azərbaycan Respublikası hüquq mühafizə orqanlarının əməkdaşlarından Şirin Məmmədov, Nadir Məmmədov, İlham

Yusifov, Eldəniz Hüseynov, Malik Səfərov, Mirəziz Nəsirov, İlham Məmmədov, Məhərrəm Məhərrəmov, Niyazi Vəlixanov, İlham Quliyev və qeyrilərinin ifadələrindən görünür istintaq qrupuna rəhbərlik etmiş Qalkin və digərləri cinayət işinin obyektiv istintaqını aparmaq əvəzinə ört-basdır etməyə çalışmışlar.

SSRİ-DƏ DÖVLƏT ÇEVRİLİŞİ CƏHDİ SUMQAYIT TƏXRİBATINI İFŞA EDİR

1991-ci ilin avqust ayında Moskvada baş vermiş çevriliş cəhdi ilə əlaqədar başlanmış cinayət işi üzrə yaradılan istintaq qrupun tərkibində o, intihar etmiş sabiq SSRİ Daxili işlər naziri Boris Puqonun xidməti otağında aparılan axtarış zamanı otaqda olan rəflərdəki sənədləri nəzərdən keçirərkən Mesxeti türklərinin Özbəkistandan qovulması, Dağlıq Qarabağ və digər bu cür hadisələrlə əlaqədar ayrı-ayrı qovluqlar olduğunu, qovluqları vərəqləyərkən həm Dağlıq Qarabağda fəaliyyət göstərmiş «Krunk» təşkilatı, onların üzvləri barədə, həm Qarabağla bağlı hadisələr barədə SSRİ DİN-nə ilk günlərdən məlumatların daxil olduğunu görmüşdür. Bu məlumatlar həm Ermənistan, həm Azərbaycan DİN-nin arayışlarından, həm də SSRİ DİN-nin müvafiq idarələrinin məlumatlarından ibarət olmuşdur. Məlum olmuşdur ki, bütün baş verən hadisələr barədə SSRİ rəhbərliyinin ilk günlərdən məlumatı olmuş, lakin hərəkətsizliyə yol verilmişdir. Sumqayıt şəhərində TTYX-də həkim və tibbi bacısı işləmiş Əliyevə Faiqə Zeynal qızı, Əlirzayeva Minayə Musa qızı , Quliyev Cəfər Əsəd oğlu erməni təxribatları barədə istintaqa dolğun ifadələr vermişlər.

SSRİ Prokurorluğu xüsusi xidmət orqanlarının həyata keçirdiyi təxribatın ifşa edildiyini gördüyü üçün istintaqın tezliklə başa çatdırılması və məhkəməyə göndərilməsini tələb edirdilər. İttiham sübuta yetirilmədən məhkəməyə göndərilməsi nəzərə alaraq Eduard Qriqoryan və qeyriləri barəsində olan cinayət işinin

hissəvi əlavə istintaqa qaytarılması barədə Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət işləri üzrə Məhkəmə Kollegiyasının 22 dekabr 1989-cu il tarixli qərar çıxartmışdır.

Ona görə də əlavə istintaq zamanı lazım gəlir ki, bu hal geniş və obyektiv istintaq edilib dəqiq nəticəyə gəlinsin.

Ona görə də bu göstərilənlər barədə ətraflı, obyektiv istintaq aparılmalı və nəticəsindən asılı olaraq həll edilməlidir."

KÜTLƏVİ İĞTİŞAŞLAR NƏTİCƏSİNDƏ AZƏRBAYCANLILARIN HƏLAK OLMALARI FAKTI İLƏ BAĞLI ÇIXARIŞLAR

Kütləvi iğtişaşlar nəticəsində azərbaycanlıların həlak olmaları faktı ilə bağlı Bakı Qarnizonu Hərbi prokurorluğu tərəfindən 30 dekabr 1988-ci il tarixdə icraatına xitam verilmiş cinayət işinin materiallarından çıxarışlar

Ermənilərin həmin iddialarına rəğmən, qeyd edilən cinayət işləri öyrənilərkən müəyyən edilmişdir ki, Sumqayıt hadisələri ilə əlaqədar şəhərə qoşun hissələri yeridilərkən 5 azərbaycanlının öldürülməsinə dair Bakı Qarnizonu Hərbi Prokurorluğunda cinayət işi istintaq olunmuş və işin icraatına əsassız olaraq xitam verilmişdir.

Həmin cinayət işi üzrə aparılan əlavə istintaq zamanı müəyyən edilmişdir ki, Bakı 1 nömrəli avtobus parkının sürücüsü, milliyətcə erməni olan Markaryan Valeri Vaskanoviç Sumqayıt şəhərində idarə etdiyi avtobusu qəsdən küçədə səki ilə hərəkət edən insanların üstünə sürmüş və nəticədə 4 azərbaycanlı həlak olmuşdur. Valeri Markaryanın azərbaycanlıları avtobusla vurub öldürməsini hadisələrin şahidi olan Orlov Vyaçeslav Sergeyeviç hələ 1988-ci ilin mart ayında SSRİ Baş Prokurorluğu istintaq qrupunun müstəntiqləri tərəfindən dindirilərkən bildirmişdir. O, öz ifadəsini Markaryanla üzləşmə zamanı da təsdiq etmiş, Markaryan da üzləşmədə Orlovun ifadəsini təsdiq etməklə törətdiyi cinayəti

etiraf etməyə məcbur olmuşdur. Bununla belə həmin dövrdə istintaqı aparan milliyyətcə rus olan müstəntiqlər tərəfindən məlum olmayan səbəblərdən hadisə elə qələmə verilmişdir

Kütləvi iğtişaşlar zamanı hərbçilər və qeyrilərinin hərəkətləri nəticəsində D.Xudatov, D.Orucov, Y.Qasımov S. Əliyev və V.Babayevin həlak olmaları faktına görə başlanaraq istintaqı aparılıb icraatına Bakı Qarnizonu Hərbi prokurorluğu tərəfindən 30 dekabr 1988-ci il tarixində xitam verilmiş və hazırda bu işə birləşdirilmiş cinayət işi üzrə aparılmış istintaqla müəyyən edilmişdir ki, Bakı şəhər sakini, milliyyətcə erməni olan Valeri Markaryan əsgərləri Sumqayıt şəhərinə gətirmiş və şəraitdən istifadə edərək yüksək təhlükə mənbəyi olan avtobusu küçədə səki ilə gedən dinc insanların üstünə sürərək 4 nəfər azərbaycanlını qəsdən öldürmüşdür.

Həmin epizod üzrə 10 şahid dindirilmişdir. Həmin şəxslərdən 2-si zərər çəkmiş, 2-si zərər çəkmişin yaxın qohumları, 6-sı isə hərbçiləri Sumqayıt şəhərinə aparmış avtobus sürücüləridir. Şahid Şıxəliyev Rasim Sabir oğlu ifadəsində onunla eyni avtobus parkında işləyən Markaryan Valeranın Sumqayıt şəhərində avtovağzalda 4-5 nəfər azərbaycanlını idarə etdiyi avtobusla vurub öldürməsini eşitdiyini göstərmişdir. Sürücülər Babaşov Əmrah Məhəmməd oğlu, Qurbanov Məhərrəm Rzaağa oğlu da Markaryanın azərbaycanlıları avtobusla vurub öldürməsi haqda eşitmələri barədə ifadə vermişlər. Markaryanın azərbaycanlıları avtobusla vurub öldürməsini hadisələrin şahidi olan Orlov Vyaçeslav Sergeyeviç hələ 1988-ci ilin mart ayında SSRİ Baş Prokurorluğu istintaq qrupunun müstəntiqləri tərəfindən dindirilərkən bildirmişdir. O, öz ifadəsini Markaryanla üzləşmə zamanı da təsdiq etmişdir. Markaryan da üzləşmədə Orlovun ifadəsini təsdiq etmişdir.

Hadislər vaxtı Sumqayıt şəhərində ezamiyyətdə olmuş polis əməkdaşı Yaşar Musa oğlu Vəkilovun dediklərindən: “ Sumqayıt hadisələrindən 10-15 gün əvvəl bizi Nərimanov Polis İdarəsinin Mühafizə Şöbəsindən Sumqayıt şəhərinə ezamiyyətə göndərdilər.

Hadisə baş verən günü mən xidmətdə idim. Sarı rəngli Paz avtobusla mintinq gedən əraziyə yaxınlaşıb dedilər ki Qafanda azərbaycanlıları öldürüblər bura bir avtobus adam yollayıblar. Bundan sonra emosiyalar coşmağa başladı. Azərbaycan dövləti ciddi cəhdlə təxribatın qarşısını almağa çalışsada SSRİ Xüsusi Xidmət orqanları buna imkan vermədilər.

SUMQAYIT HADİSƏLƏRİ ZAMANI BARƏSİNDƏ ÖLÜM HÖKMÜ ÇIXARILMIŞ ƏHMƏD ƏHMƏDOV KİMDİR?

Əhməd İmani oğlu Əhmədov

Əsəln Lerik rayounun Vistən kəndindəndir. Atası Əhmədov İmani Vahab oğlu Vistən kəndində anadan olub. O, həmkəndlisi Əhmədova Telli Rəzzaq qızı ilə 1951-ci ildə nigaha girib. Bu nigahdan onların Sənubər, Məmmədağa, Məhəbbət, Zöhrab, Əminə, Əhməd Əzizə adlı övladları doğulub. İmani Əhmədov 1956-cı ildə ailəsi ilə birlikdə Sumqayıt şəhərinə köçüblər.

Bu səbəbdən Əhməd Əhmədov 23 sentyabr 1964-cü ildə Sumqayıt şəhərində anadan olub.

O, 1979-cu ildə Sumqayıtdakı 25 nömrəli məktəbin 8-ci sinfini bitirib. Sonra 7 nömrəli şəhər texniki peşə məktəbində oxuyub. 1982-ci ildə ordu sıralarına çağırılıb. 1985–1988-ci illər arasında Sumqayıt Aliminum zavodu və Trikotaj fabriklərində işləyib. Oxuduğu məktəbdən və iş yerlərindən ona müsbət xasiyyətnamə verilib. Heç bir inzibati və ictimai cəzası olmayıb.



СВИДЕТЕЛЬСТВО О РОЖДЕНИИ
ДОҒУМ ҺАҒҒЫНДА ШӘҺАДӘТНАМӘ

Гражданин (ка) Ахмедов
Вәтәндаш фамилия — фамилијасы
Ахмед Имани оғлы
имя, отчество — ады, атасының ады
родился (лась) 23/II-1922 года
число, месяц, год — күнү, ајы, ил
(цифрами и прописью — рәгәм вә јазы илә)
доғулмушдур.
Место рождения: город, селение
Доғулдуғу јер: шәһәр, кәнд Оренбург
район
рајону
область (край)
вилајәт (өлкә)
республика Азәрб. ССР
республика
о чем в книге регистрации актов о рождении
бу барәдә доғум һаггында акт гејдләри китабында
1964 года октябрь месяца 2 числа
илин ајының күнүндә
произведена запись за № 3066
илә гејд едилмишдир.

6

РОДИТЕЛИ
АТА АНАСЫ

Отец
Атасы Ахмедов
фамилия — фамилијасы
Имани Бахас оғлы
имя, отчество — ады, атасының ады
национальность азәрбајчанлы
милли јәти
Мать
Анасы Ахмедова
фамилия — фамилијасы
Ирена Рәзаг қызы
имя, отчество — ады, атасының ады
национальность азәрбајчанлы
милли јәти
Место регистрации Азәрб. ССР
Гејд едилән јер наименование и местонахождение
Оренбург гор.
органа ЗАГСа—ВВАГ органы ады вә олдуғу јер
Дата выдачи «19» мая 1981 г.
Верилдији вахт ил.
М. П. Заведующий отделом
М. Ј. записи актов гражданского состояния
Вәгијјәтләр вәзијјәти актлары
шөбәсинә мүдир
VIII-ЖГ № 323374

Galaxy A53 5G

Orta texniki peşə təhsili olan Əhməd Əhmədov Sumqayıt hadisələri vaxtı Xovlu-iplik fabrikində fəhlə işləyib. O, həbs olunandan bir müddət öncə nişanlanıb, yaşı 70-i keçən valideynləri 1988-ci ilin yayında Əhməd Əhmədovu evləndirmək niyyətində imiş. Ə.Əhmədov ilk dəfə fevralın 29-da axşam saatlarında işdən evə dönərkən şəhərdə keçirilən kütləvi aksiyalara qoşulur, lakin heç bir qətlin törədilməsində iştirak etməyib. 12 mart 1988-ci il Sumqayıtda həbslər həyata keçirən prokurorluq nümayəndələri Əhməd Əhmədovun evinə gələrək onu həbs ediblər. O, Sumqayıtdakı 41a məhəlləsində 7 erməninin ölümündə təşkilatçı və iştirakçı qismində təqsirləndirilib. SSRİ Ali Məhkəməsində onun təqsiri sübut olunmasa da, ona qarşı məhkəmə 18 noyabr 1988-ci il tarixli hökmü ilə ona edam cəzası verib. Azərbaycan xalqının sərt təpkisi ilə qarşılaşan Sovetlər Birliyi hökuməti edam cəzasının icrasını uzadır. Bakıda “Azadlıq” meydanında yüz minlərlə insan “Əhməd Əhmədova Azadlıq!” deyərək haykırırdı.

SSRİ hüquq mühafizə orqanları tərəfindən aparılan istintaq Əhmədov Əhməd İmani oğlu, Cəfərov Yavər Qiyas oğlu, İsmayılov İlham Azad oğlunun cinayət işini ayıraraq Moskvaya

göndərmişdir. Lakin məhkəmə istintaqı zamanı onların ermənilərə qarşı qətl hadisəsində iştirak etmədiyi üzə çıxıb. Məhkəmədə hər üç şəxs bir-birlərini tanısalarda cinayət törtəmədiklərini bildiriblər.

Əhməd Əhmədovun cinayəti sübuta yetirlməyib istintaq orqanı tərəfindən hadisələr zamanı öldürülmüş Arakelyanın qan izlərinin Əhməd Əhmədovun pencəyində olmasını əsas gətirsələr də pencək həddindən artıq böyük olduğu üçün bu dəlilin də saxta olması üzə çıxıb. Lakin Əhməd Əhmədovun gənc emosional olması məhkəmə istintaqı zamanı gerçəklikləri çəkinmədən məğrurcasına deməsi və ermənilər ifşa etməsi onun ölümünə səbəb olub. Cəfərov Yavər Qiyas oğlu və İsmayılov İlham Azad oğlunun barəsində cinayət işi yenidən Azərbaycana təkmil istintaq qaytarılmışdır. Adıçəkilən iki şəxs sonradan haqlı olaraq cinayət məsuliyyətindən azad olmuşdur.

Bu da günahsız və məğrur bir Azərbaycan övladının məhkəmə də son sözü.

Əhməd Əhmədov: "Mən günahsızam irəli sürülən ittihamları rədd edirəm. Ancaq azadlığa çıxsam söz verəm ki ermənilər öldürəcəm!."

Əhməd Əhmədovun qardaşı Məmmədağa Əhmədovun sözlərinə görə qardaşının müdafiəsi ilə bağlı tutduqları 3 vəkil müəmalı şəkildə ölməsinin səbəbləri hələ də onlar üçün sirr olaraq qalır.

SAXTA MƏKTUB

27 may 1989-cu il tarixində Azərbaycan SSR Prokurorluğu Ə. Əhmədovun validyenlərinə məktub göndərib. Göndərilən həmin məktubda SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Əhməd Əhmədova verilən güllələnmə cəzasının dəyişdirilərək həbslə əvəz olunduğu bildirilib. Lakin tezliklə bu məktubun həqiqətə söykənmədiyi aşkar olunub.

Əhməd Əhmədovun qardaşı Məmmədağanın sözlərinə görə,

1989-cu ilin sonlarında Azərbaycan SSR Prokurorluğunun cinayət işlərinə məhkəmələrdə baxılması üzrə nəzarət şöbəsinin prokuroru Cavanşir İsmayılovdan Əhmədin cəzasının dəyişdirilməsi ilə bağlı məktub alıblar. Məktubda deyilirdi: *"Oğlunuz Əhmədov Əhməd SSRİ Ali Məhkəmsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyasının 1988-ci il 18 noyabr tarixli hökmü ilə müstəsna cəza növü olan güllələnməyə məhkum edilmiş, lakin SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə güllələnmə cəzası dəyişdirilərək, həbs cəzası ilə əvəz edilmişdir".*

Cavanşir İsmayılov sonradan mətbuata verdiyi açıqlamada deyir: "Həmin məktubu Əhməd Əhmədovun valideynlərinə mən yazmışam. Həmin günlərdə "Azadlıq" meydanında mitinqlər gedirdi. Meydanda Əhməd Əhmədovun şəkilləri qaldırılandan sonra tələblər irəli sürülmüşdü. Respublika rəhbərliyi təşviş içindən idi. Əhmədovun valideynləri Vəzirova, respublikanın digər rəhbərlərinə ərizələr yazmışdılar. Tarixi dəqiq yadımda deyil, onlar yenə prokurorluğa qəbula gəlmişdilər. Şöbə müdiri İlqar Dadaşov məni yanına çağırdı. Əhməd Əhmədov haqqında ölüm hökmünün dəyişdirildiyini dedi. Mən məhkəmə qətnaməsinin, yaxud SSRI Ali Məhkəməsi Kollegiyasının qərarının surətini istədim. O, bir-iki günə əllə göndərəcəklərini dedi. Qətnaməsiz cavab yazmağın mümkün olmadığını dedim. Etirazlarım isə qulaqardına vuruldu. Əsasnaməni oxumağı məsləhət gördü. Əsasnaməyə görə, ilk şikayətlərə şöbə prokurorları cavab verməli idi. İkinci, üçüncü şikayətə şöbə müdiri, daha sonra baş prokurorun müavinləri və sonda baş prokurorun özü…"

Araşdırmalar göstərdi ki, bu variantı Mərkəzi Komitə üzvlərindən kimsə meydanda gərginliyi azaltmaq üçün atmışdır. Əhmədova ölüm hökmü veriləndən sonra Azərbaycandan SSRİ-nin ali hakimiyyət orqanlarına yüzlərlə şikayət məktubu göndərilsə də, onların heç birinə cavab verilməyib. SSRİ xalq deputatı A. Mnikovun Mixail Qorbaçovdan Əhmədovun işinin yüngülləş-dirilməsi xahişinə belə baxılmayıb.

Əhməd Əhmədov barəsində edam hökmü 17 ay sonra 6 aprel 1990-cı il tarixində icra olunub.



Арајыш

Əhmədov Əhməd Əlisəlim oğlu.
06.04.1990 рајонунда Москва şəh-də

советлијиндə өлмүшдүр.

Бу барәдә 18 may 1990 китабын 545 сәh. 9

гејдијјаты апарылмышдыр. СССР Али Мәhкәмәсинин Һүгуг-фикри һүкм өнүнү в өнүн

Өлүмүн сәбәби казанда сеһнәдә едамлы

ВВАГ шө'бәсинин мүдири

21.02.2000 98 ил.

VI. эсг № 282143

SONUNCU ETNİK TƏMİZLƏMƏ FONUNDA AZƏRBAYCAN HÖKÜMƏTİNİN QƏBUL ETDİYİ BƏZİ QƏRARLARIN XRONİKASI VƏ TƏHLİLİ

Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının yeni başlandığı dövrdən Azərbaycan hökümətin qəbul etdiyi qərarları monitorinqini keçirərək yaxın keçmişimizə nəzər salmaq və tarixdən ibraət dərsi götürmək məqsədi ilə qəbul edilmiş mühüm qərarları burada xronoloji ardıcıllıqla Sizlərə təqdim etməyi zəruri hesab edirik. Araşdarma zamanı 1988-1992-ci il tarixlərində Azərbaycan höküməti tərəfindən qəbul edilmiş yüzdən artıq sənəd araşdıırlmışdır. Ləğv edilmiş DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR-ə verilməsi haqqında Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Soveti deputatlarının xahişi barəsində Azərbaycan SSR Ali Sovetinin 17 iyun 1988-ci il tarixli № 1166-XI saylı mühüm Qərarları da daxil olmaqla tərəfimizdən araşdırılmış və tarixi ədalət naminə Sizlərə təqdim edilir. Şübhəsiz ki, Topxana meşəsinin qırılması və ermənlərin əzrazi iddialarına qarşı Azərbaycan xalqının etirazı və milyonlarla insanın Azadlıq meydanına toplaşaraq fasiləsiz etiraz aksiyası keçirməsi ermənilərə qarşı xalqımızın mövqeyni ifadə edirdi. Azərbaycan xalqının mövqeyi birmənalı idi torpaqdan pay olmaz. Lakin xalqın mövqeyi ilə Azərbaycanın o vaxtki səriştəsiz rəhbərliyinin mövqeyi üst-üstdə düşmürdü. Onu qeyd etməliyik ki, ilk dövrdə öz milli mövqeyi ilə seçilən daxili işlər naziri Məhəmməd Əsədov Baş Prokuror İsmət Qayıbov Dövlət Katibi akademik Tofiq İsmayılov kimi şəxsiyyətlər terrora qurban getdi. Böyük dövlət adamı, ümummilli lider Heydər Əliyevə qarşı isə təcirid edilmə siyasəti yürüdüldü. Bütün bunlar isə Azərbaycanın haqlı mövqeyinin müdafiəsində adekvat addımlar atılmasına mane olurdu.

Xüsusi ilə sonuncu etnik təmizlənmə ilə bağlı Qərbi Azərbaycan ərazisindən zorla çıxarılmış vətəndaşlarımızla bağlı

görülmüş tədbirlərə nəzər yetirdikdə sözün həqiqi mənasında adamı heyrət bürüyür. Qərbi Azərbaycan ərazisində köçürülmüş vətəndaşlarımızla bağlı həqiqətlər xalqdan gizlədilir. Onların məruz qaldığı deportasiya və soyqırım aktları barədə ictimaiyyət məlumatlandırılmırdı. Qərbi Azərbaycan ərazisində zorla köşürülmüş əhali ya geriyə öz vətənlərinə qaytmaq yaxud Qarabağ ərazisində yerləşdirlmək istəyi isə mənfi cavablandırılırdı. Belə bir məqamda Azərbaycan Respublikası Ali Soveti Milli Şurası Ermənistandakı daimi yaşayış yerlərini məcburi tərk edərək Azərbaycan Respublikasında yerləşdirilmiş vətəndaşlar arasında rəy sorğusu keçirilməsi haqqında Qərar qəbul edir. Sorğuda belə bir sual qoyulur. **«Ermənistan Respublikasında insan hüquqlarının təminatı zəminində azərbaycanlı əhaliyə tam muxtariyyət verilməsi şərtilə, zorla qovulduğunuz yaşayış yerinə qayıtmağa razı olardınızmı?» sualı və cavab variantları — «Hə» və «Yox».**

Yaxud formal baxımdan Daimi yaşayış yerlərini məcburi tərk etmiş vətəndaşların (qaçqınların) mənzillə təmin olunması haqqında Azərbaycan Respublikası Ali Sovetinin 6 noyabr 1991-ci il tarixli N 247 -XI saylı qərarı formal baxımdan əlbəttdə ədalətli və yerində qəbul edilmiş qərardır. Lakin bu qərarlar formal olaraq da qaldı və qərarda nəzərdə tutulan heç bir məsələ öz həllini tapmadı.

Ermənistan ərazisində zorla qovulmuş həmvətənlərimizin hökümət rəhbərliyinə müraciətlərinə baxmayaraq onların nə təhlükəsiz şəraitdə geri qaytarılması nə də Qarabağ ərazisinə köçürülməsi təmin edilmədi. Əvəzində isə belə mənsaız qərarlar qəbul edərək guya rəy sorğusu keçirirlərmiş kimi mənasız addımlar atırdılar.

Sonuncu etnik təmizləmə zamanı Qərbi Azərbaycandan deportasiya və soyqırıma məruz qalmış həmvətənlərimizlə bağlı qəbul edilmiş sənədləri aşağıdakı kimi ümumiləşdirmək olar.

1) SSRİ rəhbrliyinin tapşırıqlarını yerinə yetirilməsi ilə bağlı formal tədbirlər həyata keçirmək.

2) Beynəlmiləlçilik və xalqlar dostluğu ideologiyasına əsaslanan təbliğatla konfiliktin həllinə çalışmaq.

3) Qərbi Azərbaycan ərazisində deportasiya və soyqırma məruz qalmış əhali barəsində həqiqətləri əks elətdirən informasiyaların cəmiyyətdən gizlədilməsi.

4) Qaçqınların təhlükəsiz şəraitdə geri qaytarılması ilə bağlı adekvat tədirlərin görülməməsi.

5) Qaçqınların Qarabağ ərazisində yerləşdirlməsinə mane olunması.

6) Qaçqınların mənzil məişət şəraitinin məşğulluğunun təmin edilməsi ilə bağlı lazımi tədbirlərin görülməməsi.

Odur ki, biz bu bölmədə qəbul edilmiş qərarları sizə tədim etməklə məsələnin qiymətləndirlməsini Sizin baxış bucağınıza veririk.

«Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də hadisələr barəsində müttəfiq respublikaların müraciətləri ilə əlaqədar tədbirlər haqqında» SSRİ Ali Soveti Rəyasət Heyətinin 1988-çi il 23 mart tarixli qərarını həyata keçirmək sahəsində Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri Rəyasət heyətlərinin

RAZILAŞDIRILMIŞ TƏDBİRLƏRİ

1. Azərbaycan və Ermənistan zəhmətkeşlərinə, xalqlarına Sov.İKP MK-nın Baş katibi M.S.Qorbaçovun müraciətinin əhalinin bütün təbəqələri arasında izahı davam etdirilsin, çoxmillətli vahid ittifaq dövləti kimi SSRİ xalqlarının dostluğunu möhkəmlətmək tədbirlərinin əməli surətdə həyata keçirilməsi təmin olunsun.

2. Sosialist qanunçuluğunu və ictimai qaydanın mühafizəsinin möhkəmlətməyin vəziyyəti, respublikaların ərazisində yaşayan bütün ictimai qaydanın mühafizəsini millətlərdən olan vətəndaşların Konstitusiya hüquqlarının və qanuni mənafelərinin qorunmasının təmin edilməsi Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri Rəyasət Heyətlərinin iclaslarında müzakirə edilsin.

3. Millətlərarası münasibətlər komissiyalarının yaradılması haqqında təklif Azərbaycan SSR və beynəlmiləl tərbiyə daimi Ermənistan SSR Ali Sovetlərinin müzakirəsinə verilsin.

4. Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetlərinin müvafiq daimi komissiyalarına tövsiyə edilsin ki, qanunçuluğun təmin edilməsi, dövlət qaydasının və ictimai qaydanın mühafizəsi, vətəndaşların Konstitusiya hüquqlarına əməl edilməsi məsələlərini vaxtaşırı müzakirə etsinlər.

5. Dövlət hakimiyyəti orqanlarının iş təcrübəsini öyrənmək və qarşılıqlı əlaqələri möhkəmlətmək üçün müntəzəm olaraq Ali Sovetlərin və yerli xalq deputatları Sovetlərinin nümayəndə

heyətlərinin mübadiləsi keçirilsin. Kütləvi informasiya vasitələri bu tədbirləri geniş işıqlandırsın.

Müttəfiq respublikaların qanunvericilik aktlarının hazırlanması və tətbiqi praktikasını öyrənmək məqsədilə iki müttəfiq respublikanın Ali Sovetlərinin Rəyasət Heyətləri aparatları işçilərinin qarşılıqlı səfərləri həyata keçirilsin.

SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarını yerinə yetirmək üçün konkret tədbirlərin həyata keçirilməsinə əməli kömək göstərməkdən ötrü Ali Sovetlərin Rəyasət Heyətlərinin məsul işçiləri rayon və şəhər xalq deputatları Sovetlərinə göndərilsin.

6. Əhali arasında Lenin milli siyasətinin sarsılmaz prinsipləri, qardaş Azərbaycan və Ermənistan xalqlarının, Sovet İttifaqının bütün xalqlarının dostluğu və sıx birliyi ruhunda kütləvi siyasi və tərbiyə işinin üslub və metodları təkmilləşdirilsin.

7. Sosial-iqtisadi inkişaf, yenidənqurma vəzifələrini yerinə yetirmək, əhalinin ideya-siyasi və xüsusilə beynəlmiləl tərbiyəsi sahəsində respublikaların xalq deputatları Sovetlərinin işi respublikaların kütləvi informasiya vasitələrində vaxtaşırı işıqlandırılsın. Beynəlmiləl tərbiyə və vətəndaşların milli ləyaqətinə hörmət, Lenin milli siyasətinə əməl etmək, millətlərarası münasibətlər problemləri sahəsində Sov.İKP MK-nın möhkəm ardıcıl mövqeyi məsələləri barəsində mətbuatda və televiziyada Azərbaycan SSR və Ermənistan SSR alimlərinin çıxışlarını təşkil etmək.

8. Azərbaycan SSR və Ermənistan SSR Xalq Deputatları Sovetlərinin İcraiyyə Komitələri Sovetlərin daimi komissiyalarını, xalq deputatlarını, ictimaiyyətin nümayəndələrini cəlb etməklə:

sosialist qanunçuluğunu və hüquq qaydalarını daha da möhkəmlətmək üçün onlara verilmiş səlahiyyətlərdən dolğun istifadə olunmasını, hüquq pozuntularının qarşısını almaq sahəsində onların ərazisində yerləşən dövlət orqanlarının və ictimai orqanların işinin əlaqələndirilməsini təmin etsinlər;

təsərrüfat və sosial-mədəni inkişafın vaxtı çatmış məsələlərinin həlli zamanı sakit, işgüzar şəraiti təmin edərək, sosialist qanunçuluğunun, dövlət və əmək intizamının pozuntularına qarşı mübarizəyə əmək kollektivlərini, ictimai təşkilatları geniş cəlb etsinlər;

təhrikçilərin, fitnəkar şayiələr və dedi-qodu yayan, millətlər arasına düşmənçilik toxumu səpən, icazəsiz mitinqlər və toplanışlar, hüquqa zidd digər hərəkətlər təşkil edən şəxslərin aşkara çıxarılması və məsuliyyətə cəlb edilməsi üçün tabeliyindəki daxili işlər orqanlarının işinə gündəlik təsirli nəzarət etsinlər; yığıncaqların, mitinqlərin, küçə yürüşlərinin və nümayişlərin təşkili və keçirilməsi qaydasını müəyyən edən qanunvericilik normalarının ciddi yerinə yetirilməsinə nail olsunlar; **Azərbayçan SSR-də ermənilərin və Ermənistan SSR-də azərbaycanlıların daha çox yaşadığı yerlərdə ictimai qaydanın etibarlı mühafizəsini təmin etsinlər; tarix və mədəniyyət abidələrinin mühafizəsinin qanunvericiliklə müəyyən olunmuş qaydasına sözsüz əməl etsinlər;**

Həmhüdud rayonlarda yerləşən avtomobil və dəmir yollarında ictimai qaydanın təmin edilməsi üçün lazımi tədbirlər hazırlasınlar.

9. Sovet qanunvericiliyinin təbliği sahəsində konkret tədbirlər hazırlayıb həyata keçirməkdə xalq deputatları Sovetlərinə təşkilati və metodik kömək göstərilsin, bu zaman ictimai qaydanın möhkəmləndirilməsi, SSRİ Konstitusiyası, Azərbaycan SSR Konstitusiyası və Ermənistan SSR Konstitusiyasında təsbit olunmuş milli hüquq bərabərliyinin. pozuntularına qarşı mübarizənin təşkili məsələlərinə xüsusi fikir verilsin. Bu məqsədlə məktəblərdə, texniki peşə məktəblərində, ali və orta ixtisas məktəblərində təhsil alan gəncləri və yeniyetmələri, əhatə etməklə əmək kollektivlərində, yaşayış yerlərində, fəhlə və tələbə yataqxanalarında geniş izahat işi aparılsın.

Azərbaycan SSR və Ermənistan SSR ədliyyə nazirlikləri bu sahədəki işin səviyyəsini yüksəltməyə yönəlmiş tədbirlər həyata keçirsinlər.

10. Azərbaycan SSR və Ermənistan SSR daxili işlər nazirlikləri yaranmış vəziyyəti və hüquq pozuntularına gətirib çıxaran səbəbləri dərindən təhlil etmək əsasında sosialist qanunçuluğuna ciddi əməl edilməsini, bütün millətlərdən olan vətəndaşların mənafelərinin qorunmasını təmin etmək üçün kompleks tədbirlər həyata keçirsinlər, öz fəaliyyəti ilə vəziyyəti gərginləşdirən, qardaş sovet xalqlarının dostluğuna və əməkdaşlığına qəsd edən şəxsləri vaxtında aşkara çıxarsınlar və məsuliyyətə cəlb etsinlər.

11. Razılaşdırılmış tədbirlərin yerinə yetirilməsi üçün görülən iş haqqında SSRİ Ali Sovetinin Rəyasət Heyətinə məlumat verilsin.

Azərbaycan SSR Ali Soveti Rəyasət
heyətinin katibi R. Qaziyeva

«Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də hadisələr barəsində müttəfiq respublikaların müraciətləri ilə əlaqədar tədbirlər haqqında» SSRİ Ali Soveti Rəyasət heyətinin qərarını yerinə yetirmək vəzifələri barədə

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN QƏRARI

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə RSFSR, Ukrayna SSR, Belorusiya SSR, Özbəkistan SSR, Qazaxıstan SSR, Gürcüstan SSR, Litva SSR, Moldaviya SSR, Latviya SSR, Qırğızıstan SSR, Tacikistan SSR, Türkmənistan SSR və Estoniya SSR ali sovetləri rəyasət heyətlərinin müraciətləri gəlmişdir; həmin müraciətlərdə Dağlıq Qarabağ hadisələri ilə əlaqədar olaraq Azərbaycan SSR-də və Ermənistan SSR-də yaranmış vəziyyətdən qardaş respublikaların zəhmətkeşlərinin dərin narahatlığı və təşviş hissi ifadə edilmişdir.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qardaşcasına həmrəylik üçün müttəfiq respublikaların ali sovetlərinin rəyasət heyətlərinə səmimi minnətdarlığını bildirir, bu aktı sovet xalqlarının yekdilliyinin və monolit sıx birliyinin sosialist Vətəninin qüdrətinin əsasının qorunmasına qayğının təzahürü, ölkəmiz, SSRİ- də milli münasibətlərin bütün tarixi üçün görünməmiş hadisələrdən ciddi narahatlığın təzahürü kimi qiymətləndirir.

Martın 23-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də hadisələr barəsində müttəfiq respublikaların müraciətləri ilə əlaqədar tədbirlər məsələsinə baxmış və müvafiq qərar qəbul etmişdir.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti mürəkkəb milli ərazi məsələlərini dövlət hakimiyyət orqanlarına təzyiq yolu ilə, emosiyaların və ehtirasların qızışdırılması, SSRİ Konstitusiyasında təsbit olunmuş milli dövlət sərhədlərini və milli inzibati sərhədləri

dəyişdirmək uğrunda çıxış edən cürbəcür özbaşına (qurumlar yaradılması şəraitində həll etməyə cəhd göstərilməsini yolverilməz saymışdır, çünki bütün bunlar vəziyyəti daha da mürəkkəbləşdirə bilər və gözlənilməz nəticələrə gətirib çıxara bilər.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Dağlıq Qarabağ hadisələri ilə əlaqədar olaraq Azərbaycan SSR-də və Ermənistan SSR-də mürəkkəb vəziyyətdən SSRİ Ali Soveti Rəyasət Heyətinin, müttəfiq respublikaların ali sovetləri rəyasət heyətlərinin narahatlığına bütünlüklə şərik çıxır və tamamilə razılaşır ki, bu, hər iki respublikanın xalqlarına və ümumən vahid çoxmillətli ittifaq dövləti kimi SSRİ-nin xalqları arasında dostluğun daha da möhkəmlənməsinə zərər vurur.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti ayrı-ayrı şəxslər və qruplar tərəfindən yol verilmiş və insan tələfatı ilə nəticələnmiş cinayətkar hərəkətləri qətiyyətlə pisləyir. Respublika zəhmətkeşləri şübhə etməyə bilərlər ki, müqəssirlər ciddi inzibati məsuliyyətə və cinayət məsuliyyətinə cəlb ediləcək və lazımi cəzalarını alacaqlar.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qərara alır: 1. «Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də hadisələr barəsində müttəfiq respublikaların müraciətləri ilə əlaqədar tədbirlər haqqında» SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı bəyənilsin, dönmədən rəhbər tutulmaq və icra üçün qəbul edilsin. 2. Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti, Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi, respublika rayon və şəhər Sovetlərinin icraiyyə komitələri «Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də hadisələr barəsində müttəfiq respublikaların müraciətləri ilə əlaqədar tədbirlər haqqında» SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarını rəhbər tutub hər yerdə ciddi ictimai asayiş yaradılması, əhalinin sakitliyinin qorunması, sosialist qanunçulu-

ğuna sözsüz əməl olunması, vətəndaşların hüquq və mənafelərinin təmin edilməsi üçün hər cür lazımi tədbirlər görsünlər. Bütün müəssisələrin, idarələrin və təşkilatların əmək kollektivlərində, tədris müəssisələrində işgüzar şərait yaradılsın. Sovetlərə verilmiş hüquqlardan istifadə olunub SSRİ xalqlarının yekdilliyinə və sıx birliyinə zərər vuran hər cür hərəkətlər və təzahürlər qətiyyətlə dəf edilsin, hər cür millətçilik və ekstremist təzahürlərinə qətiyyətlə müqavimət göstərilsin. Öz hərkətləri ilə vəziyyətin sabitliyini pozanlar, qardaş xalqların dostluğuna və əməkdaşlığına qəsd edənlər ciddi məsuliyyətə cəlb edilsinlər.

Sovetlərin deputatları, fəalları partiya, həmkarlar ittifaqı və komsomol təşkilatları ilə birlikdə əzmlə kütləvi siyasi iş aparmalı, Lenin milli siyasət prinsiplərinin mahiyyətini, vətəndaşların milli heysiyyətinə hörmət etmək lüzumunu əhali arasında izah etməlidirlər.

Hər bir müəssisədə, hər bir təşkilatda, kolxozlarda, sovxozlarda, idarələrdə, tədris müəssisələrində, bütün əmək kollektivlərində sakit, işgüzar şərait yaradılsın, respublikada yaşayan bütün millətlərin və xalqların zəhmətkeşləri XXVII qurultayın və Sov. İKP MQ-nın sonrakı plenumlarının qərarlarına müvafiq surətdə həyata keçirilən inqilabi dəyişikliklərin vəzifələrinin yerinə yetirilməsinə səfərbər edilsinlər.

3. Azərbaycan SSR Nazirlər Soveti Dağlıq Qarabağ Muxtar Vilayətinin təsərrüfat və sosial-mədəni inkişafının vaxtı çatmış və respublikanın səlahiyyətinə aid məsələlərinin həlli üçün on gün müddətində tədbirlər kompleksi hazırlasın və müvafiq qərar qəbul etsin.

Azərbaycan SSR nazirlikləri, dövlət komitələri və baş idarələri tabeli müəssisələrdə, idarələrdə və təşkilatlarda dövlət və əmək intizamına sözsüz əməl olunmasını təmin etsinlər.

Müəssisələrin, kolxozların, sovxozların, tikinti və nəqliyyat

təşkilatlarının normal işinin pozulmasına yol verilməsi üçün, dövlət plan tapşırıqlarının pozulması, xalq təsərrüfatına dəymiş zərər üçün rəhbər işçilərin şəxsi məsuliyyəti məsələsinə baxılsın.

4. **Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyəti Dağlıq Qarabağ Muxtar Vilayətində yaradılmış üzdəniraq «Krunk» cəmiyyətinin özünə xas olmayan funksiyaları öz üzərinə götürdüyünü və onun fəaliyyətinin əslində kommunizm quruculuğu məqsədlərinə və sosialist beynəlmiləlçiliyi prinsiplərinə zidd olduğunu, əhalini kütləvi ixtişaşlara təhrik etdiyini nəzərə alaraq «Krunk» cəmiyyətini, ona başçılıq edən orqanları - komitəni və şuranı buraxmağı qərara alır.**

Prokurorluq orqanları bu qərarın təxirə salınmadan icrasını təmin etsinlər, cürbəcür özbaşına qurumların qanunsuz fəaliyyətinə yol verməsinlər.

5. Hüquq qaydalarını təmin etmək məqsədilə respublikanın Daxili İşlər Nazirliyi, prokurorluğu cəmiyyətə zidd hərəkətlər edən, milli düşmənçiliyi qızışdıran, hakimiyyət orqanlarının qanuni tələblərinə tabe olmamağa çağıran şəxslərə qarşı qanuna müvafiq surətdə ən qəti tədbirlər görsünlər.

Nəzərə alınsın ki, SSRİ Prokurorluğu Əskəranda və Sumqayıtda hadisələr zamanı törədilmiş cinayətlərin ətraflı istintaqını aparır.

6. «Yığıncaqların, mitinqlərin, küçə yürüşlərinin və nümayişlərinin təşkili və keçirilməsi qaydası haqqında» və «Yığıncaqların, mitinqlərin, küçə yürüşlərinin və nümayişlərinin təşkilinin və keçirilməsinin müəyyən edilmiş qaydasını pozmağa görə məsuliyyət haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanlarını qəbul etmək zəruri sayılsın.

7. Sosialist qanunçuluğunu və içtimai asayişi möhkəmlətmək sahəsində razılaşdırılmış əlbir tədbirlər həyata keçirmək, bütün millətlərin vətəndaşlarının qanuni mənafelərinin qorunmasını

təmin etmək, qardaş sovet xalqlarının dostluğunu və əməkdaşlığını möhkəmlətmək barəsində Ermənistan SSR Ali Sovetinin Rəyasət heyətinə təkliflər göndərilsin.

8. Kütləvi informasiya vasitələrinə tapşırılsın ki, sovet xalqlarının dostluğu və qardaşlığı ideyalarının təbliğini hər vasitə ilə gücləndirsinlər, milli ədavəti qızışdırmaq, respublikada yaşayan müxtəlif millətlərin və xalqların vətəndaşlarının hüquqlarına və mənafelərinə toxunmaq üçün göstərilən hər cür cəhdləri açıq ifşa etsinlər.

Bakı şəhəri, 24 mart 1988-ci il. № 1057-XI

DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR-ə verilməsi haqqında Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Soveti deputatlarının xahişi barəsində AZƏRBAYCAN SSR ALİ SOVETİNİN QƏRARI

SSRİ Konstitusiyasının 78-ci maddəsinə və Azərbaycan SSR Konstitusiyasının 70-ci maddəsinə uyğun olaraq Azərbaycan Sovet Sosialist Respublikasının Ali Soveti DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR-ə verilməsi haqqında Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Soveti deputatlarının xahişini müzakirə edərək qərara alır:

1. Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR tərkibindən Ermənistan SSR-ə verilməsinin qəbuledilməzliyi haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin 1988-ci il 13 iyun tarixli qərarı bəyənilsin. Azərbaycan SSR Ali Soveti bu qərarı qəbuledərkən beynəlmiləl mənafeləri, SSRİ xalqlarının dostluğunu və qardaşlıq əlaqələrini möhkəmlətməyin Lenin prinsiplərini, Azərbaycan SSR-in ərazi bütövlüyünü qoruyub saxlamağın zəruriliyini əsas tutur.

«1988-1995-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında» Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1988-ci il martın 24-də qəbul etdikləri qərar və Azərbaycan KP MK-nın, respublika Nazirlər Sovetinin həyata keçirdikləri tədbirlər muxtar vilayətin məhsuldar qüvvələrinin inkişafının sürətləndirilməsi, onun istər erməni və azərbaycanlı əhalisinin, istərsə də başqa millətlərinin iqtisadi və mənəvi tələbatının ödənilməsi üçün əlverişli şərait yaradır.

2. Azərbaycan SSR Ali Soveti Ermənistan SSR Ali Sovetinin müraciətinə cavab olaraq, ölkənin təşəkkül tapmış və SSRİ Konstitusiyası ilə təsbit edilmiş milli-ərazi quruluşunu qoruyub

saxlamaq mənafeyini əsas götürərək, sosialist beynəlmiləlçiliyi prinsiplərini rəhbər tutaraq, Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR tərkibindən Ermənistan SSR-ə verilməsini mümkün hesab etmir, ona görə ki, bu, vilayətin və respublikanın azərbaycanlı və erməni əhalisinin, başqa millətlərinin və xalqlarının mənafelərinə ziddir, ölkəmizin xalqlarının dostluğunu möhkəmlətmək məqsədlərinə, yenidənqurma vəzifələrinə cavab vermir.

Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin sədri S. Tatliyev
Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin katibi R. Qaziyeva
Bakı şəhəri, 17 iyun 1988-ci il. № 1166-XI

«Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ məsələsi barəsində qərarları haqqında» SSRİ Ali Soveti Rəyasət Heyəti qərarının həyata keçirilməsi sahəsində tədbirlər barəsində

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN QƏRARI

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qeyd edir ki, «Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ məsələsi barəsində qərarları haqqında» SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı milli siyasətin Lenin prinsipləri əsasında hazırlanmış tarixi əhəmiyyətli sənəddir, Sov.İKP-nin XIX Ümumittifaq konfransının millətlərarası münasibətlər üzrə qərarlarının əməli surətdə həyata keçirilməsi nümunəsidir. Bu qərar Azərbaycan və erməni xalqlarının, ölkəmizin bütün xalqlarının ümdə mənafeyinə, yenidənqurma işinə cavab verir, dövlətimizin hüquqi əsasının - SSRİ Konstitusiyasının rolunun möhkəmləndirilməsinə yönəldilmişdir. Sov.İKP MK-nın Baş katibi M.S.Qorbaçovun SSRİ Ali Soveti Rəyasət heyətinin iclasındakı çıxışı proqram əhəmiyyətinə, siyasi əhəmiyyətə malikdir.

Qəbul olunmuş qərar Ermənistan SSR-də və Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində normal iş ahənginin bərpa edilməsinə, iki qonşu xalq arasında, iki qardaş respublika - Azərbaycan və Ermənistan arasında beynəlmiləl əlaqələrin, dostluq əlaqələrinin dirçəldilməsinə, yenidənqurma və demokratikləşdirmə proseslərinin daha da dərinləşdirilməsinə, «1988-1995-ci illərdə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında» Sov. İKP MK və SSRİ Nazirlər Soveti qərarının sözsüz və tamamilə yerinə yetirilməsinə yönəldilmişdir.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti regionda yaranan

vəziyyətin dərin təhlilini vermişdir. Dağlıq Qarabağda iqtisadiyyatın, elmin və digər sosial həyat sahələrinin inkişafında böyük müvəffəqiyyətlər qazanıldığı göstərilməklə bərabər, qeyd olunmuşdur ki, vilayətin bütün əhalisinin sosial mənafeyi ilə əlaqədar bir çox məsələlər uzun müddət həll edilməmişdir.

Dağlıq Qarabağda və onun ətrafında baş verən hadisələr millətlərarası münasibətlərə, bütün yenidənqurma işinə böyük zərər vurmuşdur. Dağlıq Qarabağda uzun sürən tətillər vilayətin və ümumiyyətlə respublikanın iqtisadiyyatına son dərəcə mənfi təsir göstərmişdir. 1988-ci ilin birinci yarısına dair plan tapşırıqları bir çox göstəricilər üzrə yerinə yetirilməmişdir.

Regionda baş vermiş hadisələr üçün müvafiq xalq deputatları Sovetləri, onların icraiyyə komitələri və təsərrüfat orqanları da az məsuliyyət daşımırlar; onlar yaranan şəraitin siyasi nəticələrini vaxtında dərk etməmiş, şəraiti normal hala salmaq üçün əsaslı tədbirlər görməmiş, passiv mövqe, gözləmə mövqeyi tutmuşlar. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qərara alır:

1. «Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ məsələsi barəsində qərarları haqqında» SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı dönmədən rəhbər tutulsun və icra edilsin.

2. Azərbaycan SSR Xalq Deputatları Sovetləri və onların orqanları: qəbul olunmuş qərarın çox böyük əhəmiyyəti olduqunu nəzərə alaraq onun respublika əhalisinin bütün təbəqələri arasında dərindən öyrənilməsi və izahı sahəsində tədbirləər kompleksi işləyib hazırlasın və təsdiq etsinlər, Azərbaycan və erməni xalqları arasında ən-ənəvi qardaşlıq münasibətlərinin bərpası sahəsində nəzərdə tutulan əməli tədbirlərin ardıcıl həyata keçirilməsini təmin etsinlər;

XIX Ümumittifaq partiya konfransının qərarları ilə və millətlərarası münasibətlər sahəsində konfransın müəyyən etdiyi

yeni vəzifələrlə əlaqədar olaraq hər bir vətəndaşın vətənpərvərlik və beynəlmiləlçilik borçunun sovet cəmiyyətinin birliyinə xidmət edən hər şeyi qorumaq və artırmaq borcunun yerinə yetirilməsinə əzmlə nail olsunlar;

kompleks sosial-iqtisadi inkişafı təmin etsinlər, plan tapşırıqlarının yerinə yetirilməsində ayrı-ayrı regionlarda yol verilmiş geriliyin aradan qaldırılması üçün dolğun tədbirlər görsünlər;

idarə tabeliyindən asılı olmayaraq hər bir birlik, müəssisə və təşkilat tərəfindən plan tapşırıqlarının yerinə yetirilməsi, məhsul göndərilməsinə dair müqavilə öhdəliklərinə ciddi əməl olunması üçün təsərrüfat rəhbərlərinin məsuliyyətini artırsınlar, özünün hüquqa zidd hərəkətləri ilə əmək köllektivlərində iş ahənginin pozulmasına səbəb olmuş idarə başçıları barəsində lazımi tədbirlər görsünlər;

vətəndaşların beynəlmiləl tərbiyəsi ilə əlaqədar məsələləri, SSRİ Ali Soveti Rəyasət heyəti qərarının yerinə yetirilməsi gedişi haqqında müəssisə və təşkilat, habelə daxili işlər orqanları rəhbərlərinin məruzə və məlumatlarını Sovetlərin sessiyalarında və onların icraiyyə komitələrində, daimi komissiyaların iclaslarında müntəzəm müzakirə etsinlər;

Ermənistan və Gürcüstan müttəfiq respublikalarının Azərbaycan SSR-lə həmhüdud olan şəhər və rayonlarının xalq deputatları Sovetləri ilə sıx və işgüzar əlaqələri hər vasitə ilə qaydaya salsınlar, Zaqafqaziya respublikalarının xalqları arasında dostluğun və əməkdaşlığın möhkəmləndirilməsi üçün müntəzəm olaraq birgə tədbirlər həyata keçirsinlər;

qayda-qanunun pozulmasına yönəldilən hər hansı hərəkətin qarşısını almaq üçün qanunvericiliklə verilmiş hüquqlardan tam istifadə etsinlər, sosialist qanunçuluğunun möhkəmləndirilməsinə ciddi fikir versinlər, əhali arasında hüquq təbliğatını

gücləndirsinlər.

3. Azərbaycan SSR Prokurorluğu, daxili işlər və ədliyyə nazirlikləri qayda-qanunu pozanlara qarşı mübarizəni canlandırmaq üçün konkret tədbirlər hazırlanmasında hüquq mühafizə orqanlarına daim kömək etsinlər, qanunların dəqiq icrasına prokuror nəzarətini gücləndirsinlər, milli ədavətin qızışdırılmasına yönəldilən hər hansı hərəkətin qarşısını qətiyyətlə alsınlar, milliyyətindən asılı olmayaraq bütün vətəndaşların konstitusiya hüquqlarının və qanuni mənafeyinin qorunmasını təmin etsinlər.

4. Ali Sovetin daimi komissiyalarına tövsiyə olunsun ki, «1988- 1995-ci illərdə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında» Sov.İKP MK VƏ SSRİ Nazirlər Soveti qərarının yerinə yetirilməsinə daim nəzarət etsinlər; Ali Sovetin millətlərarası münasibətlər və beynəlmiləl tərbiyə komissiyası millətlərarası münasibətlər mədəniyyətinin yüksəldilməsi ilə əlaqədar məsələlərin geniş dairəsini daim öyrənsin və bu məsələləri vaxtaşırı olaraq Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müzakirəsinə versin. Sosial-iqtisadi, məişət, mədəniyyət, dil xarakterli məsələlərə və həll olunmamış problemlərə, habelə respublikada yaşayan bütün millətlərin və xalqların həyatının digər cəhətlərinə daha çox fikir versin.

5. «Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ məsələsi barəsində qərarları haqqında» SSRİ Ali Soveti Rəyasət heyətinin 1988-ci il 18 iyul tarixli qərarının yerinə yetirilməsi sahəsində Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin təşkilat-siyasi tədbirlər planı təsdiq edilsin.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti möhkəm əmin olduğunu bildirir ki, «Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ məsələsi barəsində qərarları

haqqında» SSRİ Ali Sovetinin Rəyasət Heyəti qərarının tələblərinin ciddi surətdə və dönmədən həyata keçirilməsi millətlərarası münasibətləri Lenin milli siyasəti, Sov.İKP-nin XIX Umumittifaq konfransının qərarları ruhunda möhkəmləndirmək və inkişaf etdirmək üçün mühüm amil olacaq, yenidənqurma və demokratikləşdirmə əsasında cəmiyyətimizin inqilabi dəyişdirilməsi prosesində mühüm mərhələ təşkil edəcəkdir.

Bakı şəhəri, 23 iyul 1988-ci il. № 1195-XI

Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin 1988-ci il 12 iyul tarixli qərarını ləğv etmək haqqında

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN QƏRARI

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qeyd edir ki, SSRİ Konstitusiyasının 78-ci və Azərbaycan SSR Konstitusiyasının 70-ci maddələrinə əsasən Azərbaycan SSR Ali Sovetinin və onun Rəyasət Heyətinin bu il iyunun 13-də və 17-də qəbul etdikləri qərarlara, həmin qərarlarda DQMV-nin Azərbaycan SSR-in tərkibindən verilməsinin qəbuledilməz və qeyri-mümkün olduğu barədə Azərbaycan SSR xalqının suveren ixtiyarı qəti, tam ifadə edildiyinə baxmayaraq, vilayət xalq deputatları Soveti bu məsələnin muxtar vilayətin səlahiyyətinə daxil olmamasının, müttəfiq respublikanın ali dövlət hakimiyyəti orqanlarının timsalında onun müstəsna hüququ olmasının ziddinə olaraq iyulun 12-də öz sessiyasında deputatların xeyli qisminin iştirakı olmadan Azərbaycan SSR-in tərkibindən çıxmaq haqqında qeyri-hüquqi məsələ qaldırmışdır.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qeyd edir ki, vilayət xalq deputatları Soveti qanunilik prinsiplərinə ciddi əməl olunmasını və yuxarı orqanların bütün dövlət orqanları tərəfindən rəhbər tutulmalı qərarlarının aşağı orqanlar üçün məcburiliyini təmin edə bilməmişdir, respublikanın SSRİ Konstitusiyası və Azərbaycan SSR Konstitusiyası ilə müəyyən olunmuş milli dövlət quruluşuna açıqca qəsd edir. Bu, regionda yenidənqurma prosesinə ciddi zərər vurur, zəhmətkeşləri vilayətin sosial-iqtisadi inkişafının vacib vəzifələrini yerinə yetirməkdən, «1988-1995-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında» Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarını əməli surətdə həyata

keçirməkdən ayırır.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyəti **qərara alır:**

DQMV-nin Azərbaycan SSR-in tərkibindən birtərəfli çıxması haqqında Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Soveti sessiyasının 1988-ci il 12 iyul tarixli qərarı qanunsuz hesab edilsin və bu qərar SSRİ Konstitusiyasının 87-ci maddəsinə, Azərbaycan SSR Konstitusiyasının 114-cü maddəsinə və «Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Azərbaycan SSR Qanunu»nun 42-ci maddəsinə əsasən ləğv edilsin.

Bakı şəhəri, 12 iyul 1988-ci il. № 1192-XI

«Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ məsələsi barəsində qərarları haqqında» SSRİ Ali Soveti Rəyasət heyəti qərarının həyata keçirilməsi sahəsində tədbirlər barəsində

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEY'ƏTİNİN QƏRARI

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qeyd edir ki, «Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ məsələsi barəsində qərarları haqqında» SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı milli siyasətin Lenin prinsipləri əsasında hazırlanmış tarixi əhəmiyyətli sənəddir, Sov.İKP-nin XIX Ümumittifaq konfransının millətlərarası münasibətlər üzrə qərarlarının əməli surətdə həyata keçirilməsi nümunəsidir. Bu qərar Azərbaycan və erməni xalqlarının, ölkəmizin bütün xalqlarının ümdə mənafeyinə, yenidənqurma işinə cavab verir, dövlətimizin hüquqi əsasının - SSRİ Konstitusiyasının rolunun möhkəmləndirilməsinə yönəldilmişdir. Sov.İKP MK-nın Baş katibi M. S. Qorbaçovun SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasındakı çıxışı proqram əhəmiyyətinə, siyasi əhəmiyyətə malikdir.

«SSRİ Ali Soveti Millətlər Sovetinin Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə komissiyasının işinin yekunları haqqında» SSRİ Ali Soveti Rəyasət heyətinin 1989-cu il 20 oktyabr tarixli qərarı barədə

AZƏRBAYCAN SSR ALİ SOVETİ
RƏYASƏT HEYƏTİNİN QƏRARI

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti **qərara alır:**

1. «SSRİ Ali Soveti Millətlər Sovetinin Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə komissiyasının işinin yekunları haqqında» SSRİ Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 20 oktyabr tarixli qərarı rəhbər tutulsun.

2. DQMV probleminin siyasi həllinin zəruriliyi nəzərə alınaraq Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri E. M. Qafarovaya, Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin üzvləri F. R. Mustafayevə və N. V. Nikitinə, habelə Azərbaycan SSR-dən SSRİ deputatları T. K. İsmayılova və V. H. Məmmədova tapşırılsın ki, Dağlıq Qarabağ Muxtar Vilayətindən seçilmiş SSRİ xalq deputatları ilə birlikdə Muxtar Vilayətdə vəziyyətin normal hala salınması sahəsində razılıq əldə olunmasına yönəldilmiş işi davam etdirsinlər.

Bakı şəhəri, 27 oktyabr 1989-cu il. № 1655-XI

«DQMV-də Konstitusiyaya zidd tədbir haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin 1989-cu il 26 avqust tarixli qərarının təsdiq olunması barədə

AZƏRBAYCAN SSR ALİ SOVETİNİN QƏRARI

Azərbaycan Sovet Sosialist Respublikasının Ali Soveti «DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin qurultayı» deyilən «qurul- tayı» və onun qəbul etdiyi qərarları hakimiyyətin qəsb edilməsinədək hüquqa zidd qərəzli hərəkətlər edən millətçi, separatçı qüvvələrin Konstitusiyaya zidd daha bir çıxışı hesab edərək qərara alır:

1. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 26 avqust tarixli qərarı təsdiq edilsin.

2. «DQMV-nin milli şurası» deyilən «milli şura»nın yaradılması və onun fəaliyyəti Konstitusiyaya zidd hərəkət, onun qəbul etdiyi qərarlar isə qeyri-qanuni və hüquqi qüvvəsi olmayan qərarlar hesab edilsin.

Bakı şəhəri, 23 sentyabr 1989-cu il. № 1632-XI

Naxçıvan MSSR-in sərhədyanı zonasında yaranmış məsələlərin öyrənilməsi üzrə komissiyanın təşkil edilməsi haqqında
AZƏRBAYCAN SSR ALİ SOVETİNİN QƏRARI

Azərbaycan Sovet Sosialist Respublikasının Ali Soveti **qərara alır:**

Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanununun) 119-cu maddəsinə müvafiq olaraq Naxçıvan MSSR-in sərhədyanı zonasında yaranmış məsələlərin öyrənilməsi üzrə komissiya aşağıdakı tərkibdə təşkil edilsin:

«Azərbaycankeolokiya» Şəkinski Əkrəm Məmmədəminoviç - Azərbaycan Geoloji Kəşfiyyat İşləri İstehsal Birliyinin baş direktoru (sədr). Şəki şəhərindəki 168 nömrəli Şəki dördüncü şəhər seçki dairəsindən deputat.

Cəlilov Afiyəddin Cəlil oğlu Naxçıvan MSSR Nazirlər Sovetinin sədri. Bakı şəhərinin Nəsimi rayonundakı Həzi Aslanov adına 57 nömrəli seçki dairəsindən deputat.

Məmmədov Musa Salam oğlu «Azərmeşə» İdarəsinin rəisi. Bərdə rayonundakı 204 nömrəli Qaradəmirçi seçki dairəsindən deputat.

Nəsirov Mustafa Cəfəroviç - Azərbaycan Müharibə və Əmək Veteranları Şurasının sədri. Cəlilabad rayonundakı 221 nömrəli Prişib seçki dairəsindən deputat.

Sadıqov Hüseynağa Musa oğlu Azərbaycan SSR xarici işlər naziri.

Bakı şəhəri, 29 dekabr 1989-cu il. № 1709-XI

«SSRİ Ali Soveti Millətlər Sovetinin Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə komissiyasının işinin yekunları haqqında» SSRİ Ali Soveti Rəyasət Heyəti qərarının yerinə yetirilməsi barəsində

AZƏRBAYCAN SSR ALİ SOVETİ
RƏYASƏT HEY'ƏTİNİN QƏRARI

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri E. M. Qafarova yoldaşın məlumatı əsasında Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti **qərara alır:**

1. DQMV-də vəziyyəti normal hala salmaq məsələsi barədə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti üzvlərinin və Azərbaycan SSR-DƏN SSRİ xalq deputatları qrupunun Azərbaycan SSR-in Dağ- lıq Qarabağ Muxtar Vilayətindən SSRİ xalq deputatları ilə danışıqlarının yekunları bəyənilsin.

2. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq sahəsində Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin təklifləri SSRİ Ali Sovetinin müzakirəsinə verilsin.

Bakı şəhəri, 11 noyabr 1989-cu il. № 1666-XI

Azərbaycan SSR-in Dağlıq Qarabar Muxtar Vilayətində vəziyyəti normal hala salmaq tədbirləri haqqında
AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN QƏRARI

Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq, DQMV ərazisində Azərbaycan SSR-in suverən hüquqlarını bərpa etmək məqsədilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti **qərara alır**:

1. Nəzərə alınsın ki, «Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq tədbirləri haqqında» SSRİ Ali Sovetinin 1989-cu il 28 noyabr tarixli qərarı ilə DQMV-ni xususi idarə komitəsi ləğv olunur və respublika təşkilat komitəsini yaradılması zəruri hesab edilmişdir. Bununla əlaqədar «Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında» SSRİ Ali Soveti Rəyasət heyətinin 1989-cu il 12 yanvar tarixli Fərmanının və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 13 yanvar tarix qərarının müvafiq müddəaları öz qüvvəsini itirmişdir.

2. DQMV üzrə respublika təşkilat komitəsi yaradılsın. Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq vəzifələrinin həyata keçirilməsi, Dağlıq Qarabağın iqtisadi və mədəni inkişafının nizama salınması ona həvalə edilsin.

Respublika təşkilat komitəsi muxtar vilayətin dövlət və təsərrüfat orqanlarının işinə rəhbərlik edir. DQMV üzrə respublika təşkilat komitəsi öz fəaliyyətində Azərbaycan SSR-in ali dövlət hakimiyyəti orqanlarına tabedir.

Azərbaycan SSR Ali Sovetinin Qanunvericilik mülahizələr komissiyası «DQMV üzrə respublika təşkilat komitəsi haqqında» Əsasnamə hazırlasın və onu Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin təsdiqinə versin.

3. SSRİ Ali Soveti qərarının 3, 4, 6, 7-ci bəndlərinin bir sıra müddəalarının SSRİ Konstitusiyasının 76, 81-ci maddələrinə, Azərbaycan SSR Konstitusiyasının 68-ci maddəsinə, «Azərbaycan SSR-in suverenliyi haqqında» Azərbaycan SSR-in Konstitusiya Qanununa zidd olması ilə əlaqədar həmin müddəaların həyata keçirilməsi qeyri-mümkün hesab edilsin və onların qüvvəsi həmin müddəalar qəti işlənib hazırlananadək dayandırılsın.

4. DQMV-də vəziyyəti normal hala salmaq sahəsində tədbirlər görülməsi Azərbaycan SSR Nazirlər Sovetinin, şəhər və rayon xalq deputatları Sovetlərinin və onların icraiyyə orqanlarının, Azərbaycan SSR nazirliklərinin və baş idarələrinin ən mühüm vəzifəsi hesab edilsin.

Respublika orqanları DQMV-nin bütün yaşayış məntəqələrində qanunçuluğun və hüquq qaydasının bərpası sahəsində təxirəsalınmaz tədbirlər görsünlər, vilayətin bütün sakinlərinin təhlükəsizliyinə təminat verilməsini təmin etsinlər.

5. DQMV üzrə respublika təşkilat komitəsi vilayətdə Dağlıq Qarabağ Muxtar Vilayətinin vilayət, rayon, şəhər, qəsəbə və kənd xalq deputatları Sovetlərinə xalq deputatları seçkilərinin hazırlanması və keçirilməsi işini həyata keçirsin, əhalinin erməni və azərbaycanlı hissələrinin sayına proporsional surətdə onların nümayəndəliyinə əməl olunsun.

6. Azərbaycan SSR Nazirlər Soveti, Dövlət Plan Komitəsi, DQMV üzrə respublika təşkilat komitəsi, nazirliklər və baş idarələr, şəhər və rayon icraiyyə komitələri, birliklər və müəssisələr «1988-1995-ci illərdə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında» Azərbaycan KP MK-nın və respublika Nazirlər Sovetinin 1988-ci il 26 aprel tarixli 160 nömrəli qərarında nəzərdə tutulmuş tapşırıqların yerinə yetirilməsinin təmin olunması üçün təsirli tədbirlər görsünlər.

Dəmir yolu və avtomobil nəqliyyatının ahəngdar və fasiləsiz işinin təmin olunması, dolların blokadasına yol verilməməsi məsələlərinə xüsusi diqqət yetirilsin. DQMV-də vəziyyəti yalnız qanunçuluq və ictimai asayiş şəraitində normal hala salmaq mümkündür.

1990-cı il və XIII beşillik planlarında məhsuldar qüvvələrin daha da inkişaf etdirilməsi, istehsalın səmərəliliyinin yüksəldilməsi, DQMV-nin hər bir yaşayış məntəqəsinin sosial problemlərinin həll olunması sahəsində bütün tədbirlər kompleksinin həyata keçirilməsi tam nəzərə alınsın.

7. SSRİ Ali Sovetindən xahiş olunsun ki, İttifaq komissiyasının dəqiq səlahiyyətini müəyyən etsin, habelə SSRİ Daxili İşlər Nazirliyinin daxili qoşunlar kontinkentini əməliyyat baxımından DQMV üzrə respublika təşkilat komitəsinə tabe etsin.

8. Respublika Dövlət Statistika Komitəsi, Dövlət Əmək Komitəsi və Elmlər Akademiyası köçmə proseslərinin nizama salınması sahəsində elmi cəhətdən əsaslandırılmış tövsiyələr hazırlamaq məqsədilə 1988-ci ilin fevralınadək muxtar vilayətdəki şəraiti və hadisələrlə bağlı dəyişiklikləri nəzərə alaraq DQMV- də demoqrafik vəziyyəti öyrənsinlər.

9. Azərbaycan SSR Nazirlər Soveti DQMV-də qaçqınlar probleminin bütün kompleksini həll etmək üçün respublika təşkilat komitəsi nəzdində xüsusi komissiya təşkil etsin, onların daimi yaşayış yerlərinə qayıtması üçün təsirli tədbirlər görsün.

10. Azərbaycan SSR Daxili İşlər Nazirliyi, Prokurorluğu, Dövlət Təhlükəsizliyi Komitəsi milli ədavətin qızışdırılmasına, icazə verilməmiş mitinqlərin, nümayişlərin, tətillərin keçirilməsinə, kütləvi iğtişaşların və digər hüquqpozmaların təşkil edilməsinə yönəldilmiş hər hansı hərəkətlərin qarşısının alınması üçün SSRİ Daxili İşlər Nazirliyinin daxili qoşunlar kontingenti ilə qarşılıqlı əlaqədə qəti tədbirlər görsünlər. Vətəndaşların

hüquqlarının müdafiəsini, onların təhlükəsizliyinə təminat verilməsini təmin etsinlər.

11. Bu qərarın həyata keçirilməsini təmin etmək üçün bütün lazımi tədbirlərin görülməsi respublika və yerli dövlət və təsərrüfat orqanlarının ən mühüm vəzifəsi hesab edilsin. Onun yerinə yetirilməsi gedişi Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətində müntəzəm dinlənilsin.

Bakı şəhəri, 4 dekabr 1989-cu il.№ 1678-XI

Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN QƏRARI

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti SSRİ Ali Soveti Rəyasət Heyətinin hazırladığı, millətlərarası münasibətlərin daha da kəskinləşməsinin qarşısının alınmasına və Dağlıq Qarabağda vəziyyətin sabitləşməsinə, sosialist qanunçuluğuna əməl olunmasına və vətəndaşların Konstitusiya hüquqlarının qorunmasına yönəldilmiş əməli tədbirləri müzakirə edərək **qərara alır:**

SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinə müvafiq surətdə SSRİ Ali Sovetinin Rəyasət Heyəti tərəfindən Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtar vilayət statusunu saxlamaqla Dağlıq Qarabağ Muxtar Vilayətində müvəqqəti olaraq xüsusi idarə formasının tətbiq edilməsi və Azərbaycan SSR DQMV Xalq Deputatları Sovetinin səlahiyyətinin dayandırılması bəyənilsin və müdafiə edilsin.

Bakı şəhəri, 13 yanvar 1989-cu il.№ 1424-XI

Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiqindən irəli gələn tədbirlər haqqında

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

«Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında» SSRİ Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 12 yanvar tarixli Fərmanına uyğun olaraq Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti **qərara alır:**

1. Müəyyən edilsin ki, «Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında» Azərbaycan SSR Qanununun və Azərbaycan SSR-in digər qanunvericilik aktlarının hüquqi normaları xususi idarə formasının qüvvədə olduğu dövrdə Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisindəki təşkilatlar, vəzifəli şəxslər və vətəndaşlar üçün öz qüvvəsini bu normalar SSRİ Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 12 yanvar tarixli Fərmanına zidd olmadıqda saxlayır.

2. Azərbaycan SSR Nazirlər Soveti, Naxçıvan MSSR Nazirlər Soveti, respublikanın xalq deputatları Sovetləri, onların içra və sərəncam orqanları, Azərbaycan SSR-in nazirlikləri və baş idarələri, dövlət və ictimai müəssisə, idarə və təşkilatları Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində yerləşən dövlət orqanları və təsərrüfat təşkilatları ilə qarşılıqlı münasibətləri həyata keçirərkən Dağlıq Qarabağ Muxtar Vilayətinin Xususi İdarə Komitəsinə verilmiş səlahiyyətləri nəzərə alsınlar.

Bakı şəhəri, 18 yanvar 1989-cu il. № 1428-XI

“Ermənistan SSR-i və Dağlıq Qarabağı birləşdirmək haqqında” Ermənistan SSR Ali Sovetinin qərarı barəsində AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN QƏRARI

1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın bədnam milli şurası ilə birlikdə “Ermənistan SSR-i və Dağlıq Qarabağı birləşdirmək haqqında” antikonstitusiya qərarı qəbul etmişdir. Həmin qərarda Azərbaycan SSR ərazisinə bir daha qəsd etməyə cəhd göstərilmişdir.

SSRİ Ali Sovetinin 1989-cu il 28 noyabr tarixli qərarı ilə əlaqədar olaraq regionda vəziyyəti normal hala salmaq perspektivi açıldığı bir məqamda Ermənistan SSR Ali Soveti SSRİ Konstitusiyasına,Azərbaycan SSR Konstitusiyasına, müttəfiq respublikalar arasında yaranmış münasibətlər praktikasına, habelə beynəlxalq hüquq normalarına zidd addım atmışdır. Məlum qərarda Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinə tövsiyə edilir ki, iki xalq arasında münasibətləri normal hala salmaq, etimad və əməkdaşlıq şəraitini bərpa etmək, normal iqtisadi və mədəni əlaqələri qaydaya salmaq üçün hər cür tədbirlər görsünlər.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyəti **qərara alır:**

“Ermənistan SSR Ali Sovetinin 1989-cu il 1 dekabr tarixli qərarı suverən Azərbaycan SSR-in işlərinə yolverilməz müdaxilə, onun ərazi bütövlüyünə qəsd, regionda vəziyyətin sabitləşməsinə, normal münasibətlərin bərpasına kömək etməyən tədbir hesab edilsin.

Bakı şəhəri, 6 dekabr 1989-cu il.N1679-XI

Azərbaycan SSR Ali Sovetinin daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərlə iş komissiyasının yaradılması haqqında

AZƏRBAYCAN SSR ALİ SOVETİNİN QƏRARI

Azərbaycan Sovet Sosialist Respublikasının Ali Soveti **qərara alır:**

Azərbaycan SSR Ali Soveti deputatlarının təklifi ilə Azərbaycan SSR Ali Sovetinin daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş və respublikaya gəlmiş şəxslərlə iş komissiyası yaradılsın.

Bakı şəhəri, 23 sentyabr 1989-cu il. N 1631– XI

«Daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərlə iş üzrə Azərbaycan SSR Dövlət Komitəsinin yaradılması haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti Fərmanının təsdiq olunması və «Azərbaycan SSR Nazirlər Soveti haqqında» Azərbaycan SSR Qanununa əlavə edilməsi barədə

AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİKASININ QANUNU

Azərbaycan Sovet Sosialist Respublikasının Ali Soveti **qərara alır:**

1. «Daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərlə iş üzrə Azərbaycan SSR Dövlət Komitəsinin yaradılması haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin 1989-cu il 19 sentyabr tarixli Fərmanı təsdiq olunsun.

2. «Azərbaycan SSR Nazirlər Soveti haqqında» Azərbaycan SSR- in 1979-cu il 21 iyun tarixli Qanununun (Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1979-cu il, № 12, maddə 112; 1981-ci il, № 12, maddə 160; 1984-cü il, № 1-2, maddə 12; 1989-cu il, № 11-12, maddə 99) 28-ci maddəsinə «Daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərlə iş üzrə Azərbaycan SSR Dövlət Komitəsi» sözləri əlavə edilsin.

Bakı şəhəri, 23 sentyabr 1989-cu il. № 1636-XI

Ermənistan SSR-dən köçüb gələnlər üçün sosial-məişət şəraiti yaradılması sahəsində Mirbəşir və Dəvəçi rayon xalq deputatları Sovetlərinin və onların icraiyyə komitələrinin işi haqqında

AZƏRBAYCAN SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN QƏRARI

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qeyd edir ki, Mirbəşir və Dəvəçi rayonları xalq deputatları Sovetləri və onların icraiyyə komitələri DQMV və onun ətrafında hadisələrlə əlaqədar olaraq Ermənistan SSR-də daimi yaşayış yerlərini tərk etməyə məcbur olan və müvəqqəti olaraq bu rayonlarda yaşayan şəxslər üçün sosial-məişət şəraiti yaradılması sahəsində tədbirlər görürlər.

1988-ci ilin fevral ayından sonra Ermənistandan Dəvəçi rayonuna 1249 nəfərdən ibarət 264 ailə, Mirbəşir rayonuna 3.757 nəfərdən ibarət 710 ailə gəlmişdir. Köçüb gələn ailələr ümumtəhsil, texniki-peşə məktəblərinin, uşaq müəssisələrinin binalarında, bir sıra inzibati binalarda, tibb məntəqələrində, habelə yerli əhalinin evlərində yerləşdirilmişdir.

Bu vətəndaşlara təsirli yardım göstərmək və onların rahatlığını təmin etmək məqsədilə rayonlarda qərargahlar yaradılmışdır; həmin qərargahlar köçkünlər üçün məişət şəraiti yaradılması, onların mənzil şəraitinin yaxşılaşdırılması ilə əlaqədar məsələləri həll edirlər. Evsiz-eşiksiz qalmış bir çox ailələrə torpaq sahələri ayrılmışdır, fərdi evlər tikilməsində yardım göstərilir. Köçkünlərin işə düzəldilməsi sahəsində iş aparılır. Dəvəçi rayonunda əmək qabiliyyətli vətəndaşların demək olar yarısı, Mirbəşir rayonunda isə üçdə bir hissəsi işlə təmin olunmuşdur. Məktəb yaşlı uşaqlar təhsillə əhatə olunmuşlar.

Bununla birlikdə köçkünlər üçün sosial-məişət şəraiti yaradılması sahəsində Mirbəşir və Dəvəçi rayon xalq deputatları

Sovetləri icraiyyə komitələrinin işində ciddi nöqsanlar və qüsurlar vardır. Onlar ləng tərpənir, daimi yaşayış yerlərini tərk etmiş vətəndaşlara Azərbaycan və Ermənistan Kommunist Partiyaları MK- larının, Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri Rəyasət Heyətlərinin və Nazirlər Sovetlərinin Müraciətini öz ev-eşiklərini tərk etməyə məcbur olmuş ailələrə zəif izah edirlər, doğma yerlərinə qayıdan şəxslərin təhlükəsizliyi üçün təminatlar haqqında həmin ailələrə kifayət qədər məlumat vermirlər.

Köçkünlər rayonlarda yerləşdirilərkən onların ailələrinin tərkibi heç də həmişə düşünülərək nəzərə alınmamışdır, bir sıra hallarda ailələr darısqal binalarda yerləşdirilmişdir. Yerlərdə köçkünlərin işə düzəldilməsi məsələləri tam həll olunmamışdır. Mirbəşir rayonunda bu vətəndaşların xeyli hissəsi indiyədək işlə təmin edilməmişdir.

Uşaqların məktəbəqədər müəssisələrə yerləşdirilməsində çətinliklər vardır. Mirbəşir rayonunda uşaqların cüzi hissəsi uşaq bağçalarına gedir. Dəvəçi rayonunun Siyəzən şəhərində, Beynəlmiləl, Çölquşçu, Böyük Həmyə kəndlərindəki məktəblərdə uşaqların sayı həddindən çoxdur.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyəti **qərara alır:**

1. Ermənistan SSR-dən köçüb kəlmiş ailələr üçün sosial-məişət şəraiti yaradılması sahəsində Mirbəşir və Dəvəçi rayon xalq deputatları Sovetlərinin və onların icraiyyə komitələrinin kifayət qədər fəal iş aparmadıqları qeyd olunsun,

2. Mirbəşir Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri Ə. M. Əliyev yoldaşın və Dəvəçi Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsi sədrinin müavini N. A. Balayev yoldaşın şəxsi məsuliyyəti altında həmin icraiyyə komitələrindən tələb edilsin ki, Ermənistandan köçüb gəlmiş şəxslər üçün sosial-məişət şəraiti yaradılmasında mövcud nöqsanları ən qısa müddətdə aradan qaldırsınlar, onların sosial

hüquqlarının və təminatlarının tam qorunması üçün tədbirlər görsünlər, bu vətəndaşların ağır maddi və mənəvi vəziyyətini nəzərə alaraq onlara lazımi yardım və qayğı göstərsinlər. Bu məqsədlə:

köçkünlərin gündəlik tələbat əşyaları ilə təmin olunması, onlara tibbi, mədəni-məişət xidmətinin təşkili, mütəxəssislərdən kənd təsərrüfatı istehsalında geniş istifadə olunmaqla onların işə düzəldilməsi məsələlərini operativ həll etsinlər;

uşaqlara, onların səhhətinə xususi fikir versinlər, uşaqların təhsillə tam əhatə olunmasını, habelə onların məktəbəqədər müəssisələrdə yerləşdirilməsini təmin etsinlər.

3. Azərbaycan SSR xalq deputatları Sovetlərinin icraiyyə komitələri:

millətlərarası vəziyyətin sağlamlaşdırılması sahəsində Azərbaycan SSR-də və Ermənistan SSR-də başlanan, vətəndaşların qanuni hüquqlarının sosial müdafiəsinin təmin olunmasına yönəldilən prosesin həyata keçirilməsi işini xeyli canlandırsınlar, «Daimi yaşayış yerlərini tərk etmiş vətəndaşlara» Azərbaycan və Ermənistan Kommunist Partiyaları MK-larının, Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri Rəyasət Heyətlərinin və Nazirlər Sovetlərinin Müraciəti ilə əlaqədar olaraq köçkünlər arasında izahat işini genişləndirsinlər. Bununla əlaqədar olaraq Ermənistanın köçkünlər gəlmiş rayonlarının rəhbərləri ilə sıx əlaqə yaratsınlar, öz evlərinə qayıtmağı qət etmiş ailələrdən ötrü lazımi şərait tə min etmək üçün razılaşdırılmış təşkilati tədbirlər keçirsinlər;

Azərbaycan SSR və Ermənistan SSR rəhbərləri, nümayəndələri ilə bu il yanvarın 11-də görüşdə Sov. İKP MK-nın Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.S.Qorbaçovun Azərbaycan və erməni xalqlarına müraciətini səmimi münasibətlər yaratmaq, incikliyi və qarşılıqlı məzəmmətləri bir kənara atmaq,

evimizdə sülhü bərpa etmək çağırışını öz işlərində əsas götür-sünlər;

hər cür şayiələr yayan, millətlər arasında ədavət və düşmənçilik salan, adamları hüquqa zidd hərəkətlərə təhrik edən, xalqlar dostluğunu möhkəmlətmək işinə ciddi zərər vuran fitnəkarları və yenidənqurmaya zidd başqa qüvvələri qətiyyətlə dəf etsinlər, onlar barəsində qanunun qüvvəsindən və ictimai fikrin nüfuzundan tam istifadə etsinlər.

Bakı şəhəri, 20 yanvar 1989-cu il. № 1430-XI

Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyət haqqında AZƏRBAYCAN SSR ALİ SOVETİNİN QƏRARI

Azərbaycan SSR Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyət haqqında məruzəni müzakirə edərək respublikanın bu regionundakı vəziyyətdən çox narahat olduğunu bildirir.

İl yarımdır ki, tətillər, icazəsiz mitinqlər və nümayişlər DQMV-ni Azərbaycandan qoparıb ayırmaq məqsədinə yönəldilmiş başqa tədbirlər ara vermir. İnsan tələfatı vardır, qaçqınların sayı artır. Xalqlar arasında dostluq, beynəlmiləlçilik kimi əsas dəyərlər alt-üst olur, qanunçuluq, sosial ədalət, insan hüquqları pozulur. Bütün bunlar gözlənilməyən nəticələr verə bilər.

DQMV-də millətlərarası münaqişə Azərbaycan və erməni xalqları arasında münasibətləri xeyli pisləşdirmişdir. Sovet dövləti üçün qeyri-adi olan qaçqınlar problemi millətlərarası münaqişənin ən ağır nəticələrindən biridir. 165 min azərbaycanlı Ermənistan SSR-də daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuşdur, böhran halları Azərbaycan SSR-dən erməni küçkünlərin axınına səbəb olmuşdur.

Azərbaycan SSR Ali Soveti qeyd edir ki, 1923-cü ildə Azərbaycan SSR-də regionun bütün əhalisininrazılığı ilə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılnması Sovet Azərbaycanı xalqının xeyirxahlıq aktı olmuşdur ki, bundan da məqsəd azərbaycanlıların və ermənilərin, iki qonşu respublika xalqlarının əməkdaşlığını və dostluğunu tımin etmək idi.

Varlığının ötən illəri ərzindəDağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-in iqtisadi potensialından geniş istifadə eədrək, digər regionlarla tarixən yaranmış iqtisadi və mədəni əlaqələri inkişaf etdirərək öz inkişafında böyük müvəffəqiyyətlər qazanmışdır.

Bununla birlikdə, ölkədə əvvəllər milli siyasətintəhrif edilməsi milli muxtariyyətlərin, o cümlədən həm də DQMV-nin vəziyyətinə pis təsir göstərmişdir. Bundan vilayətin, ümumən respublikanın həm erməni, həm də azərbaycanlı əhalisi əziyyət çəkirdi.

Yenidənqurma, sovet cəmiyyətinin inqilabi tərzdə yeniləşdirilməsi üçün Kommunist Partiyasının təşəbbüsü ilə həyata keçirilən xətt yığılıb qalmış problemlərin həllindən ötrü əlverişli imkanlar yaratmışdır. Lakin DQMV-də vəziyyətin normallaşdırılması sahəsində Sov.İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin və Sovet Hökumətinin göstərdikləri səylər, Azərbaycan SSR rəhbərliyinin və ictimaiyyətiningördükləri tədbirlərdaim yenidənqurmaya zidd, millətçi, ekstremist qüvvələrin açıq müqavimətinə rast gəlir.

Vilayətdə xüsusi idarə formasının tətbiq edilməsi vəziyyəti yaxşılaşdırmamış, gərginliyi daha da artırmış, millətlərarası əkscəbhələşməni dərinləşdirmiş və kəskinləşdirmişdir.

Azərbayca SSR Ali Soveti qərara alır:

Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin xüsusi idarə komitəsi ləğv olunsun və bu məsələ üzrə müvafiq qərar qəbul edilməsi barədə SSRİ Ali Sovetinin Rəyasət Heyəti qarşısında vəsatətqaldırılsın.

***

Azərbaycan SSR Ali Soveti bu qərarı qəbul etməklə regionda vəziyyətintezliklə normallaşdırılması, milli barışıq uğrunda çıxış edir, sərhədləri dəyişdirmək, suveren respublikanın daxili işlərinə qarışmaq üçün göstərilən hər hansı cəhdləri tam qətiyyətlə rədd edir.

DQMV-də istər erməni, istərsə də azərbaycanlı əhalinin siyasi, iqtisadi və sosial-mədəniinkişafını təmin etmək üçün Azərbaycan SSR-in hər cür lazımi imkanları vardır.

Respublika Ali Soveti Azərbaycan xalqının erməıni xalqı ilə dinc və mehriban qonşuluq şəraitində yaşamağa can atdığını qətiyyətlə bildirir, hamını vaxtı çatmış problemlərin həllinə təmkinlə yanaşmağa, qarşılıqlı iddialardan və ittihamlardan yüksəkdə durmağa çağırır. Bunu bizdən xalqlarımızın indiki və gələcəyi üçün, hər bir adamın, hər bir ailənin müqəddəratı üçün xalqlarımızın qarşısında daşıdığımız məsuliyyət tələb edir. Qoy hər birimizin evində dinclik və əminamanlıq olsun.

Bakı şəhəri, 15 sentyabr 1989-cu il № 1623-XI

DQMV-də vəziyyəti normallaşdırmaq tədbirləri haqqında
AZƏRBAYCAN RESPUBLİKASI
ALİ SOVETİNİN QƏRARI

Azərbaycan Respublikasının Ali Soveti Dağlıq Qarabağda vəziyyət QMV üzrə Respublika Təşkilat Komitəsinin fəaliyyəti haqqında Deputat V. P. Polyaniçkonun məlumatını dinləyib müzakirə edərək bir daha qeyd edir ki, Dağlıq Qarabağ Muxtar Vilayəti ilə bağlı olan məsələlərin həlli Azərbaycan Respublikasının müstəsna səlahiyyəətinə aiddir və onun daxili işidir.

Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Ali Soveti DQMV-də prezident idarə üsulu tətbiqinin, yaxud SSRİ Ali Sovetin- DQMV məsələsinə hər hansı şəkildə baxılmasının mümkünlüyünü qətiyyətlə rədd edir və bu cür təklifləri suveren Azərbaycan Respublikasının daxili işlərinə kobud müdaxilə kimi qiymətləndirəcəkdir.

Azərbaycan Respublikasının Ali Soveti **qərara alır:**

Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətinə, Milli siyasət və millətlərarası münasibət məsələləri komissiyasına, Dövlət təhlükəsizliyi, hərbi işlər və hüquq qaydası komissiyasına, Dövlət suverenliyi, xarici siyasət və xaricdə yaşayan soydaşlarla əlaqələr komissiyasına, Xalq deputatları Sovetlərinin işi, yerli özünüidarə və yerli təsərrüfat məsələləri komissiyasına, bu məsələ üzrə yaradılmış Redaksiya komissiyasına tapşırılsın ki, sessiyada deputatların söylədikləri fikirləri, habelə nazirliklərin və baş idarələrin, ictimai təşkilatların təkliflərini nəzərə alaraq DQMB-də vəziyyətin normallaşdırılmasına dair öz təkliflərini, bu məsələ barəsində geniş qərar layihəsini 20 gün müddətində hazırlayıb Azərbaycan Respublikası Ali Sovetinin növbəti iclasının müzakirəsinə təqdim etsinlər.

Bakı şəhəri, 8 fevral 1991-ci il. № 58-XII

Ermənistan Respublikasının Nüvədi kəndi sakinlərinin müraciəti ilə əlaqədar komissiya təşkil edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN QƏRARI

Azərbaycan Respublikasının Ali Soveti Ermənistan Respublikasının Nüvədi kəndi sakinlərinin kollektiv müraciətinə baxaraq **qərara alır:**

Komissiyanın sədri Hacıyev Zülfü Saleh oğlu Azərbaycan Respublikası Nazirlər Soveti sədrinin müavini

Komissiyanın üzvləri Abasov Mirağa Seyidabbas oğlu Azərbaycan Respublikası Nazirlər Sovetinin şöbə müdiri

Qolubev Aleksandr Mixayloviç Azərbaycan KP Bakı Şəhər Komitəsinin ikinçi katibi

Əliyev Arif Hüseyn oğlu Bakı nəqliyyat prokuroru

Lilin Vyaçeslav İvanoviç SSRİ DTK Zaqafqaziya sərhəd dairəsi qoşunları rəisinin müavini

Mehdiyev Tofiq Şəfahət oğlu Azərbaycan KP Zəngilan Rayon Komitəsinin birinci katibi

Nəsirov Mustafa Cəfər oğlu Azərbaycan Respublika Müharibə və Əmək Veteranları Şurasının sədri

Komissiyaya tapşırılsın ki, müraciətdə qaldırılmış məsələləri öyrənsin və Azərbaycan Respublikası Ali Sovetinin müzakirə sinə müvafiq təkliflər təqdim etsin.

Bakı şəhəri, 9 fevral 1991-ci il. № 59-XII

Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində və Ermənistanla sərhədyanı rayonlarında vəziyyəti normallaşdırmaq üçün Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi qərarların həyata keçirilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN QƏRARI

Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti Respublikanın Dağlıq Qarabağ Muxtar Vilayətində və Ermənistanla sərhədyanı rayonlarında vəziyyəti normallaşdırmaq üçün bundan əvvəl qəbul edilmiş qərarların həyata keçirilməsi sahəsində görülən tədbirlərin səmərəsizliyindən təşviş keçirdiyini bildirir. Azərbaycan Respublikasının Ali Soveti SSR İttifaqının ali hakimiyyət və idarəetmə orqanlarından dəfələrlə tələb etmişdir ki, özlərinin fəaliyyətində SSRİ Konstitusiyasının 81-ci maddəsini rəhbər tutsunlar və Azərbaycan Respublikasına qarşı Ermənistanın təcavüzünə son qoysunlar. Lakin Azərbaycan Respublikası Ali Sovetinin bu məsələyə dair heç bir qərarı lazımi təsir göstərməmişdir. Bunun nəticəsidir ki, DQMV-də vəziyyət son dərəcə mürəkkəb olaraq qalır, getdikcə kəskinləşir.

Muxtar vilayətin daxilində dəmir yolu magistralları bağlanır, şosse yollarında terrora ara verilmir, Stepanakertdən ən zəruri yüklərin vilayətin Azərbaycanlılar yaşayan yaşayış məntəqələrinə aparılmasına əngəl törədilir, azərbaycanlı kəndləri ilə respublikanın başqa rayonları arasında əlaqə kəsilmişdir.

Muxtar vilayətdə terrorçuluq əməllərinin arası kəsilmir, nəticədə hərbi qulluqçular və dinc sakinlər zərər çəkirlər. Təkcə bu ilin əvvəlindən erməni yaraqlıları 62 adamı öldürmüş, 96 nəfəri yaralamışlar.

Üç il ərzində DQMV-də erməni quldur birləşmələrinin silahlı qəsdləri nəticəsində 189 adam həlak olmuş, 743 nəfər yaralanmış,

DQMV sakini olan Azərbaycanlıların 450-dən çox evləri partladılmış və yandırılmışdır. Azərbaycanın mərkəzində, DQMV hüdudlarından kənarda yerləşən obyektlərə qarşı terrorçuluq əməlləri xüsusən hiddət doğurur - aprelin 10-da Çaykənddən olan erməni yaraqlıları respublikanın Xanlar rayonunun Quşçu Armavir, Toğana, Kamo və Azad kəndlərində basqınlar etmiş, dinc sakinləri yaralamış, onlarca ailəni evsiz-eşiksiz qoymuşlar.

Bu, Ermənistanın Azərbaycanla sərhədi boyunca yerləşdirilmiş qoşun hissələrinin fəaliyyətsizliyi nəticəsində mümkün olmuşdur. Onlar Ermənistandan gələn vertolyotlar tərəfindən respublikanın hava sərhədinin pozulması faktlarının qarşısını almırlar. Vertolyotlar isə respublikanın "qaynar nöqtələrinə" yeni-yeni yaraqlılar, ən müasir silah, o cümlədən xaricdə istehsal edilmiş silah daşıyırlar. Ermənistan ərazisindən edilən aramsız silahlı basqınlar nəticəsində Azərbaycanın sərhədyanı rayonlarında ayrı-ayrı ailələr ölüm qorxusu altında öz kəndlərini tərk etməyə məcbur olur.

Bütün sovet ictimaiyyətin gözü qarşısında Azərbaycan xalqının üç ildən bəri davam edən faciəsi, Azərbaycan Respublikası Ali Sovetinin dəfələrlə müraciət etdiyinə baxmayaraq SSRİ Prezidentinin öz konstitusiya öhdəliklərini-sovet vətəndaşlarının hüquq və azadlıqlarını təmin etmək, müttəfiq respublikaların suverenliyini qorumaq sahəsində öhdəliklərini yerinə yetirməməsi, erməni hərbi birləşmələrini tərksilah etmək və Ermənistanın ərazi iddialarına son qoymaq üçün İttifaq Hakimiyyət və idarəetmə orqanlarının qəti tədbirlər görmək istəməməsi Azərbaycan Respublikasının Ali Sovetini vadar edir ki, bu uzun sürən böhrandan çıxmaq üçün başqa tədbirlər axtarıb tapsın.

Vəziyyətin bu şəkildə qalması Azərbaycan Respublikasının ərazi bütövlüyü və əhalisinin təhlükəsizliyi üçün real qorxu törədir.

Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti **qərara alır:**

1. Azərbaycan Respublikası Ali Sovetinin Dövlət suverenliyi, xarici siyasət və xaricdə yaşayan soydaşlarla əlaqələr komissiyası, Qanunvericilik, qanunçuluq və vətəndaşların hüquqları məsələləri komissiyası, Dövlət təhlükəsizliyi, hərbi işlər və hüquq qaydası komissiyası regionda vəziyyətin olduqca mürəkkəbləşdiyini nəzərə alaraq "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normallaşdırmaq üçün təxirəsalınmaz tədbirlər haqqında" Azərbaycan Respublikası Ali Sovetinin qərar layihəsi üzərində işi davam etdirsin.

Azərbaycan Respublikasının xalq deputatlarına, deputat qruplarına təklif edilsin ki, bu məsələyə dair təkliflərini müvafiq daimi komissiyalar tərəfindən ümumiləşdirmək üçün Azərbaycan Respublikasının Ali Sovetinə göndərsinlər.

2. Bu məsələ Azərbaycan Respublikasının Ali Sovetində nəzərdən keçirilənədək aşağıdakılar zəruri sayılsın:

- SSRİ Prezidentinə təklif edilsin ki, özünün Konstitusiya vəzifələrinin icrası üçün Azərbaycanın müvafiq ərazisində zolaq yaradıldığı kimi, Ermənistanın Azərbaycana bitişik olan ərazisində də 5 kilometrədək enində fövqəladə vəziyyət rejimi zolağı müəyyən etsin və erməni yaraqlı dəstələrinin Azərbaycanın sərhədyanı rayonlarına soxulmasına son qoymaq üçün SSRİ Müdafiə Nazirliyinin və SSRİ Daxili İşlər Nazirliyinin qoşunlarını həmin zolağa yeritsin;

- SSRİ müdafiə naziri D. T. Yazov yoldaşdan və SSRİ daxili işlər naziri B. K. Puqo yoldaşdan təkidlə tələb edilsin ki, həm DQMV-də, həm də Ermənistanın Azərbaycanla sərhədyanı rayonlarında yaraqlıları tərksilah etmək, Azərbaycan Respublikasının ərazisində terrorçuluq əməllərinin qarşısını almaq, Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində və Ermənistanla sərhədyanı rayonlarında Azərbaycanlı kəndlərinin təhlükəsizliyini təmin etmək üçün onlara tabe olan müvafiq qoşun birləşmələrinin

fəaliyyətini gücləndirsinlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, respublikanın nazirliklərinə və baş idarələrinə bir vəzifə olaraq tapşırılsın ki, DQMV üzrə Respublika Təşkilat Komitəsi ilə qarşılıqlı əlaqəni gücləndirsinlər və vəziyyəti sabitləşdirmək, DQMV-də şəraitini normallaşdırmasına dair Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi qərarları həyata keçirmək işində ona konkret kömək göstərsinlər.

Bakı şəhəri, 11 aprel 1991-ci il. № 92-XI

SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılmasına dair Ermənistan Ali Sovetinin əsassız müraciəti haqqında AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN QƏRARI

Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti və ermənilər yaşayan digər məntəqələri barəsində məsələ müzakirə etmək üçün "SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılmasına dair məsələ qaldırmaq haqqında" Ermənistan Respublikası Ali Sovetinin qərarını Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti respublikamızın daxili işlərinə kobud müdaxilə, SSRİ Konstitusiyasının 76-cı maddəsinə zidd qərar, regionda vəziyyəti yenidən kəskinləşdirmək, erməni və Azərbaycan xalqları arasında düşmənçiliyi qızışdırmaq, bu çirkin işə yenidən İttifaqın hakimiyyət orqanlarını cəlb etmək cəhdi hesab edir.

Dördüncü ildir ki, Ermənistan Azərbaycana qarşı elan olunmamış müharibə aparır. Silahlı quldur dəstələri Azərbaycanın sərhədyanı kəndlərinə basqınlar edir, dinc sakinləri, SSRİ Daxili İşlər Nazirliyi daxili qoşunlarının və Sovet Ordusunun əsgər və zabitlərini, respublikanın hüquq mühafizə orqanlarının əməkdaşlarını öldürürlər. Azərbaycanın yaşayış məntəqələrinin raket və top atəşinə tutulması adi hal olmuşdur. Nəticədə evlər dağıdılır və yandırılır, bütöv kəndlər viran qoyulur, Naxçıvan Muxtar Respublikasının Kərki kəndinin sakinləri zorakılıqla qovulmuş və kənd Ermənistan tərəfindən ilhaq edilmişdir. Ermənistandan DQMV-yə çoxlu terrorçu quldur dəstələri göndərilir; onlar adamları qətlə yetirir, soyğunçuluq edir, evlərə od vurur, malqaranı aparırlar. İndiyədək başa düşmək istəmirlər ki, müharibə Ermənistan tərəfindən törədilmişdir və arası kəsilmədən Azərbaycan ərazisində davam etdirilir.

Bu il aprelin 20-dən erməni yaraqlılarının təcavüzkar basqın-

ları nəticəsində respublikada vəziyyət xeyli mürəkkəbləşmişdir. Silahlı basqınlar zonasına DQMV ərazisindən savayı, respublikanın on bir rayonu və Naxçıvan Muxtar Respublikası daxil olmuşdur. Respublikanın 1000 kilometrlik sərhədyanı zonasının hər yerində yaşayış məntəqələri Ermənistan tərəfdən top atəşinə tutulur.

Yaxşı təlim görmüş quldur dəstələrinin həyasızlığı o yerə çatmışdır ki, onlar SSRİ Daxili İşlər Nazirliyi daxili qoşunlarının və Sovet Ordusunun əsgər və zabitlərini tərksilah edirlər. Qanunsuz yaradılmış silahlı dəstələrin tərksilah edilməsi üçün ölkə rəhbərliyinin uzun müddət tədbirlər görməməsinin nəticəsi bax budur. 1988—1989-cu illər ərzində Ermənistandan iki yüz min Azərbaycanlı əhali əsrlər boyu yaşadığı ərazidən qəddarcasına qovulmuşdur. Azərbaycanlılar kütləvi surətdə qovulub çıxarılarkən onların bir çoxu qətlə yetirilmiş, qış vaxtı neçə-neçə qaçqın dağlarda soyuqdan ölmüşdür. İndi Ermənistanda bir nəfər də azərbaycanlı qalmamışdır. Erməni yaraqlıları Dağlıq Qarabağ Muxtar Vilayətində də xeyli azərbaycanlını öz evlərindən qovmuşlar. halbuki günü bu gün də Azərbaycanda 200 minə yaxın erməni yaşayır və işləyir. Ermənilərin həyatı üçün azərbaycanlılar deyil, erməni quldur dəstələri təhlükə törədir, onları girov vəziyyətinə salırlar.

Qanunsuz yaradılmış silahlı dəstələrin tərksilah edilməsi haqqında SSRİ Prezidentinin Fərmanına Ermənistan rəhbərliyi açıq-açığına etinasızlıq göstərmişdir və heç də gizlətmir ki, həmin dəstələr Azərbaycana qarşı təcavüz məqsədilə yaradılmışdır və bunun üçün də istifadə olunur. Ermənistandan göndərilən yaraqlı dəstələr ermənilərin yaşayış məntəqələrində yuva salıb yerli əhalini qorxu içərisində saxlayır, oradan azərbaycanlılar yaşayan şəhər və kəndlərə silahlı basqınlar edirlər. Respublikanın ərazisini silahlı erməni ekstremistlərindən təmizləmək zərurəti çoxdan yetişmişdir. Bu istiqamətdə görülən tədbirlər məhz SSRİ Konstitusiyasının və Azərbaycan Respublikası Konstitusiyasının

fəaliyyət qüvvəsinin bərpasına, Azərbaycanlı və erməni əhalisi üçün normal həyat şəraiti yaradılmasına yönəldilmişdir.

Ermənistan Respublikasının Ali Soveti vəziyyəti normallaşdırmaq sahəsində Ermənistan hakimiyyət orqanlarının səylərindən riyakarcasına dəm vuraraq, erməni ekstremistlərinin təcavüzkar əməllərini və çoxdankı millətçi niyyətini — Azərbaycan ərazilərinin bir hissəsinə yiyələnmək niyyətini ümumittifaq və dünya ictimaiyyətindən gizlədir.

Başqa xalqa qarşı təcavüz, zorakılıq hərəkətləri Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana birləşdirmək haqqında Ermənistan Ali Sovetinin qanunsuz, Konstitusiyaya zidd qərarı bugünədək ləğv edilməmişdir.

SSR İttifaqı öz Konstitusiyasına sadiq qalaraq, hər bir respublikanın, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü dönmədən təmin etməlidir. Bizim xalqımız İttifaq referendumunda öz iradəsini ifadə edərək, İttifaqın saxlanmasına tərəfdar çıxmış və bununla da möhkəm əmin olduğunu bildirmişdir ki, ölkənin rəhbərliyi Azərbaycan Respublikası qarşısında öhdəliklərini yerinə yetirəcəkdir.

Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu həqiqət SSRİ Konstitusiyasında və Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş, bu yaxınlarda SSRİ Prezidentinin dili ilə də deyilmişdir.

Dağlıq Qarabağ ətrafında baş verən hadisələr göstərir ki, Qarabağ münaqişəsi deyilən münaqişə heç də iki millətin etnik barışmazlığının təzahürü olmayıb, qonşu xalqların torpaqları hesabına Ermənistanın ərazisini genişləndirməyə dair erməni millətçilərinin mənfur ideyasının həyata keçirilməsinə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti öz Bəyanatında aydın bildirmişdir ki, Dağlıq Qarabağ problemi adlandırılan problem Azər-

baycan Respublikasının Konstitusiyası əsasında həll ediləcəkdir.

Ermənistan Respublikasının Ali Soveti SSRİ Ali Sovetinin bir çox qərarlarına və SSRİ Prezidentinin fərmanlarına etinasızlıq göstərməklə, İttifaqın möhkəmləndirilməsi üçün görülən hər bir əməli tədbiri pozduğu kimi bu dəfə də məntiqsiz hərəkət edib ölkənin ali hakimiyyət orqanına əsassız müraciət edir.

Müttəfiq respublikanın səlahiyyətinə aid məsələyə baxmağa SSRİ Ali Sovetinin və SSRİ xalq deputatları qurultayının vadar edilməsini Ermənistan Respublikasının onlardan öz pozuculuq məqsədləri üçün istifadə etmək istəyi kimi qiymətləndirmək lazımdır.

Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti qərara alır:

1. "SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılmasına dair məsələ qaldırmaq haqqında" Ermənistan Respublikası Ali Sovetinin qərarı suveren dövlət olan Azərbaycan Respublikasının daxili işlərinə kobud müdaxilə sayılsın və bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında məsələyə baxmağa SSRİ Ali Sovetini yenidən vadar etmək və SSRİ xalq deputatlarının buna dair növbədənkənar qurultayını çağırmaq üçün göstərilən hər hansı cəhdə qarşı qəti etiraz bildirilsin.

2. SSRİ Konstitusiyasının 81-ci maddəsinə əsasən SSRİ Prezidentindən və SSRİ Ali Sovetindən tələb edilsin ki, Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzünə son qoymaq üçün qəti tədbirlər görsünlər, Ermənistanda qanunsuz yaradılmış silahlı dəstələrin buraxılmasına və DQMV-ni Ermənistana birləşdirmək barəsində Ermənistan Respublikası Ali Sovetinin Konstitusiyaya zidd qərarının ləğvinə nail olsunlar.

Bakı şəhəri, 5 may 1991-ci il. № 100—XII

Azərbaycan Respublikası Ali Sovetinin
BƏYANATI

Ermənistan Respublikasının Ali Soveti Ermənistan-Azərbaycan sərhədində və DQMV-da guya Azərbaycanın təqsiri üzündən vəziyyətin kəskinləşməsi ilə əlaqədar BMT-nin insan hüquqları komissiyasına müraciət etmişdir.

Azərbaycan Respublikasının Ali Soveti bu müraciəti əsassız müraciət kimi qiymətləndirir, Azərbaycanın erməni əhalisinin köçürülməsi haqqında şayiələri qızışdırmaq üçün göstərilən daha bircəhd hesab edir. 1988-1989-cu illərdə Ermənistanın iki yüz minlik azərbaycanlı əhalisinin zorakılıqla köçürülməsinə və bu zaman müdafiəsiz adamların qətlə yetirilməsinə və digər qəddar cinayətlər törədilməsinə haqq qazandırmaq üçün bu müraciət vasitəsilə sonradan sonraya uğursuz cəhd göstərilir.Bu hadisələrdə bilavasitə iştirak etmiş Ermənistanın dövlət orqanları insan hüquqlarına dair adi beynəlxalq aktları və BMT-nin müvafiq sənədlərini kobudcasına pozmuşlar.

Ermənistan ərazisində əksəriyyəti qadınlardan, qocalardan və uşaqlardan ibarət 216 azərbaycanlının öldürülməsində müqəssi olan şəxslər indiyədək cinayət məsuliyyətinə cəlb edilməmişlər. Təəssüf ki, bu faktlar hələ də üzə çıxarılmamış, xarici ictimaiyyətin və sovet ictimaiyyətinin diqqətini cəlb etməmişdir.

Azərbaycan Respublikasının Ali Soveti Ermənistan Respublikasının Azərbaycana qarşı davam edən təcavüz siyasəti ilə əlaqədar etirazını bildirir.

Azərbaycan Respublikasının ərazisinə Ermənistandan göndərilən terrorçu dəstələrinin basqınları nəticəsində dinc əhali, hərbi qulluqçular, hüquq mühafizə orqanlarının əməkdaşları həlak olurlar. Respublikanın ərazisini silahlı erməni dəstələrindən təmizləmək üçün görülən tədbirlərə onlar qızğın müqavimət göstərir.

Ermənistan rəhbərliyi isə erməni əhalisinə qarşı guya zorakılıq hərəkətləri edildiyi barədə müxtəlif iftiralar yağdırır.

Yaranmış siyasi konyunkturadan istifadə edən Ermənistan rəhbərliyi Azərbaycanda baş verən hadisələrin mahiyyətinitəhrif etməyə səy göstərir, Azərbaycan ərazisinin erməni yaraqlılarından təmizlənməsi tədbirlərini dinc əhalinin etnik əlamətə görə köçürülməsi kimi qələmə verir. Ermənistanın Ali dövlət hakimiyyəti orqanı qanunsuz yaradılmış silahlı dəstələrin qadağan edilməsi haqqında SSRİ Prezidentinin 1990-cı il 26 iyun tarixli Fərmanının həyata keçirilməsini öz qərarı ilə dayandıraraq bir ildir ki, öz respublikasında bu dəstələrin tərksilah edilib buraxılması tədbirlərinin qarşısını alır, indi isə həmin tədbirləri DQMV-də də pozmaq məqsədi ilə SSRİ Prezidentini Azərbaycana müşahidəçilər göndərməyə çağırır. Ermənistan Respublikası Ali Sovetinin bu hərəkətləri Azərbaycan Respublikasının müstəsna səlahiyyətinə aid məsələlərə kobudcasına müdaxilə etmək üçün göstərilən daha bir cəhddir.

Ermənistan Respublikasının rəhbərliyi və millətçi dairələri baş verən hadisələri saxtalaşdıraraq bütöv bir yanlış məlumat sistemi yaratmış və bir sıra kütləvi informasiya vasitələrini bu çirkin siyasi oyuna cəlb edə bilmişlər. Həmin kütləvi informasiya vasitələrində real faktlar kobud təhrif olunur. Azərbaycan xalqına qarşı təhqiramiz hücumlar edilir, onu sovet və dünya ictimaiyyətinin gözündən salmağa cəhd göstərilir.

Azərbaycan Respublikasının Ali Soveti respublika Prezidenti A.N.Mütəllibovun 1991-ci il 27 aprel tarixli bəyanatını bütünlüklə bəyənir, onu prinsipial və vaxtında verilmiş bəyanat hesab edir. Ali Sovet Azərbaycan xalqının iradısini ifadə edərək Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü möhkəmləndirmək əzmində olduğunu bir daha təsdiq edir və SSRİ Ali Sovetini, SSRİ Prezidentini bu məsələdə özlərinin konstitusiya səlahiyyətini bütünlüklə həyata keçirməyə çağırır. SSRİ Ali Soveti

və SSRİ Prezidenti Ermənistanda qanunsuz yaradılmış silahlı dəstələrin tərksilah edilməsinə nail olmalı, Azərbaycan respublikası sərhədinin toxunulmazlığını təmin etməli, erməni yaraqlılarının Azərbaycan ərazisinə soxulmasının qarşısına möhkəm sipər çəkməlidirlər. Bu məqsədlə Azərbaycan Respublikasının Ali Soveti iki qonşu respublikanın bütün sərhədi boyunca hər iki tərəfdə mühafizə olunan beş kilometrlik zona yaradılmasında təkid edir.

Ermənistan Respublikası Azərbaycana qarşı əsassız ərazi iddialarından, iki qonşu xalq arasında düşmənçiliyi qızışdırmaqdan birdəfəlik əl çəkməlidir.

Ona görə də siyasi dialoqa başlamağın zəruri şərtlərindı biri Ermənistan Respublikası dövlət orqanlarının DQMV barəsində konstitusiyaya zidd olan bütün qərarları – Azərbaycan Respublikasının daxili işlərinə birbaşa müdaxilə demək olan qərarları ləğv etməkdən ibarətdir.

Azərbaycan Respublikasının Ali Soveti möhkəm əmin olduğunu bildirir ki, SSR İttifaqı SSRİ Konstitusiyasının tələblərinə dönmədən əməl edilməsi, dinc əhalinin təhlükəsiz həyat şəraitinin bərpa olunması üçün zəruri tədbirlər görəcəkdir.

Azərbaycan Respublikasının Ali Soveti bildirir ki, Azərbaycanda milli mənsubiyyətindən asılı olmayaraq vətəndaşların hüquqlarına və əsas azadlıqlarına riayət edilmişdir və yenə də riayət ediləcəkdir. Azərbaycan Respublikasının Konstitusiyası əsasında onların öz hüquq və vəzifələrini yerinə yetirməsi üçün şərait təmin ediləcəkdir. Respublikanın əsas qanununu, insan hüquqlarına dair beynəlxalq aktları rəhbər tutaraq Azərbaycan Respublikasının Ali Soveti regionda vətəndaş sülhünü və milli həmrəyliyi bərqərar etməyə var qüvvə ilə səy göstərəcəkdir.

Bakı şəhəri, 28 may 1991-ci il. № 120-XII.

Azərbaycan Respublikasında siyasi vəziyyət haqqında
AZƏRBAYCAN RESPUBLİKASI
ALİ SOVETİNİN QƏRARI

Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Respublikasının Prezidenti A.N.Mütəllibovun məruzəsini dinləyib müzakirə edərək qeyd edir ki, respublikada yaranmış siyasi və iqtisadi vəziyyət böhran hallarının dərinləşməsi ilə səciyyələnir. Bu da bütün ictimai qüvvələrin birliyinə nail olmaq, demokratik prosesləri genişləndirmək, milli və Dövlət suverenliyini möhkəmləndirmək, respublikanın ərazi bütövlüyünü, vətəndaşların hüquq və azadlıqlarını müdafiə etmək, qayda-qanunu möhkəmləndirmək, iqtisadiyyatı sabitləşdirmək sahəsində təxirəsalınmaz tədbirlər görülməsini tələb edir.

Ölkədə baş verən hadisələr respublikanın siyasi, ictimai və iqtisadi həyatına öz təsirini göstərir. Bu il avqustun 19-21-də Moskvada Konstitusiyaya zidd dövlət çevrilişi etmiş və ilk addımlarından ölkədə totalitarizm quruluşunu bərpa etməyə cəhd etmiş xuntanın məğlubiyyəti Rusiyada üstün mövqe tutan qüvvələrlə yanaşı bütün demokratik qüvvələrin qələbəsi kimi qiymətləndirilməlidir, bu da ölkədə humanist və demokratik cəmiyyət qurmaq prosesinin dönməzliyini sübut etmişdir.

Dövlət fövqəladə vəziyyət komitəsinin üzvləri ilə yanaşı Sov.İKP-nin bəzi rəhbər işçiləri dövlət çevrilişinin hazırlanmasında və həyata keçirilməsində bilavasitə iştirak etmiş, onun rəhbər orqanları və bir sıra təşkilatları isə Kontitusiyaya zidd olan bu tədbiri açıqdan-açığa və ya fəaliyyətsizlikləri ilə əslində müdafiə etmişlər. Bu isə onsuz da cəmiyyətdə nüfuzunu getdikcə itirən partiyaya böyük mənəvi və siyasi zərbə vurmuşdur. Yarandığı gündən Sov.İKP-nin tərkib hissəsi olan və onun rəhbər orqanlarının qəyyumluğu ilə fəaliyyət göstərən Azərbaycan Kommunist

Partiyasının nüfuzunda da bu hadisələr bütünlüklə öz əksini tapmışdır. Sov.İKP-də mövcud böhran vəziyyəti Azərbaycan Kommunist Partiyasının da taleyi məsələsini gündəliyə daxil etmişdir.

Ali Sovet qeyd edir ki, respublikanın suverenliyinə və ərazi bütövlüyünə qəsd cəhdləri nəinki aradan qaldırılmamış, son günlərdə bu təhlükə daha da artmışdır. Dağlıq Qarabağda və Ermənistanla sərhəd olan zonalarda erməni yaraqlılarının silahlı basqınları güclənmişdir. Respublikanın suverenliyini və ərazi bütövlüyünü qorumaq sahəsində öz təəhhüdlərini İttifaqın yerinə yetirməməsi respublikanı prinsipial və qəti addımlar atmağa vadar edir. Respublika öz suverenliyini və əhalisinin təhlükəsizliyini müdafiə etmək üçün əsaslı tədbirlər görməlidir.

Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan xalqının ali mənafeyini əsas götürərək və yaranmış böhranlı vəziyyətin aradan qaldırılması zərurətini nəzərə alaraq **qərara alır:**

1. Belə böhranlı dövrdə respublika Konstitusiyasına və qanunlarına bütünlüklə riayət olunmasını tam təmin etmək, respublikanın dövlət müstəqilliyini bərqərar etmək, suverenliyi və ərazi bütövlüyünü qorumaq, bu vəzifələrin həyata keçirilməsi uğrunda bütün vətəndaşların həmrəyliyinə nail olmaq əsas qayğı hesab edilsin. Konstitusiyaya uyğun olaraq respublika Prezidentindən, bütün dövlət icra orqanlarından tələb edilsin ki, respublikanın siyasi şəraitindəki kəskin ziddiyyətləri aradan qaldırmaq, hüquq qaydalarını möhkəmləndirmək üçün təsirli tədbirlər görsünlər.

2. Azərbaycan Respublikasının Prezidentinə həvalə edilsin ki, Nazirlər Kabinetinin, nazirliklərin və baş idarələrin, yerli Sovetlərin və onların icraiyyə komitələrinin bütün fəaliyyətini respublikanın iqtisadiyyatını, xüsusən onun ən mühüm sahələrini böhrandan çıxarmaq vəzifəsinə tabe etsin, dövlət intizamının pozulmasına, böhran hallarının dərinləşməsinə yol verməmək

üçün səlahiyyəti daxilində bütün vasitələrdən qətiyyətlə istifadə etsin.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq mülkiyyətin bütün növlərinin və sahibkarlıq fəaliyyəti formalarının sərbəst inkişafına xüsusi diqqət yetirməklə "Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu əməli surətdə həyata keçirmək üçün zəruri tədbirlər görülsün.

3. Azərbaycan Respublikasının Prezidentinə təklif edilsin ki, DQMV üzrə Respublika Təşkilat Komitəsinin səlahiyyətini artırmaq, onun fəaliyyət dairəsini genişləndirmək və tərkibini gücləndirmək üçün tədbirlər görsün. Muxtar vilayətdə qayda-qanun tezliklə bərpa edilməli, vətəndaşların Konstitusiya hüquqları təmin olunmalı, erməni və azərbaycanlı icmaları arasında münaqişələrə son qoyulması üçün bütün vasitələrdən istifadə edilməlidir.

4. Respublikanın suverenliyinin və ərazi bütövlüyünün ciddi təhlükə altında olduğunu qeyd edərək, respublikanın Dövlət müstəqilliyinin elan edilməsini əsas götürərək Azərbaycanda milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında Ali Sovetin qərarı nəzərə alınsın.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və Dövlət Təhlükəsizliyi Komitəsinə tapşırılsın ki, tabeliklərində olan bölmələrin qüvvəsi ilə respublikanın Ermənistanla Dövlət sərhədinin mühafizəsini gücləndirsinlər.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, həmin bölmələrin maddi-texniki təchizatını əsaslı surətdə yaxşılaşdırmaq üçün bir ay ərzində əlavə tədbirlər görsün.

5. Yerli hakimiyyət orqanlarına tapşırılsın ki, hər cür ekstremizm və hərcmərclik təzahürlərinin qarşısını almaqla, bütün siyasi hərəkat və cərəyanların fəaliyyəti üçün normal və bərabər şərait yaradaraq demokratiyanın real surətdə genişləndirilməsini

təmin etsinlər. İndi başlıca diqqət respublikada vətəndaşlıq həmrəyliyinə, siyasi Hərəkat və cərəyanlara mənsubiyyətindən asılı olmayaraq xalqın ali milli mənafelər uğrunda mübarizə üçün birliyinin əldə edilməsinə yönəldilməlidir.

Bakı şəhəri, 30 avqust 1991-ci il. № 184-XII.

DAİMİ YAŞAYIŞ YERLƏRİNİ MƏCBURİ TƏRK ETMİŞ VƏTƏNDAŞLARIN (QAÇQINLARIN) MƏNZİLLƏ TƏMİN OLUNMASI HAQQINDA

Azərbaycan Respublikasının Ali sovetinin qərarı

Azərbaycan Respublikasının Ali soveti **qərara alır:**

1. Daimi Yaşayış Yerlərini Məcburi Tərk Etmiş Şəxslərlə İş üzrə Azərbaycan Respublikası Dövlət Komitəsinə və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə tapşırılsın ki, qaçqınların statusuna dair Əsasnamə hazırlayıb,Azərbaycan Respublikası Ali Sovetinin sessiyasının növbəti iclaslarından birinin təsdiqinə versinlər.

2. Qeyd olunsun ki, qaçqınların problemlərinin həlli üçün Azərbaycan Respublikası Prezident Şurasının 1990-cı il oktyabrın 5-də qəbul etdiyi qərar müvafiq dövlət orqanları tərəfindən lazımi səviyyədə yerinə yetirilmir.

3. Bakı Şəhər Xalq Sovetinə tapşırılsın:

I. Goranboy rayonunda yerləşdirilmiş və məlum səbəblər üzündən Bakıya qayıtmış 252 ailəni mənzillə təmin etsin.

II. Hazırda Bakı şəhərində yaşayan aşağıdakı ailələrə order verilməsi məsələsinə baxsın və bu məsələni 2 ay müddətinə həll etsin:

a) Böyük vətən müharibəsi əlillərinin ailələri;

b) Əfqanıstanda xidmət zamanı əlil olmuş vətəndaşların ailələri;

c) Çernobıl AES-də qəzanın nəticələrini aradan qaldırarkən əlil olmuş insanların ailələri;

d) Daimi yaşayış yerlərindən qovularkən başçısını itirmiş ailələr, habelə üzvləri xəsarət almış ailələr, tək analar, yetim uşağlar;

e) Ermənistanda zəlzələ zamanı üzvləri həlak olmuş və ya

xəsarət almış ailələr;

f) Əli, ayağı şikəst olan I və II qrup əmək əlillərinin ailələri;

4. Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət heyyətinə tapşırılsın ki, Ermənistanda daimi yaşayış yerlərini məcburi tərk etmiş vətəndaşların mənzillə təmin edilməsində qanun pozuntularının qarşısını almaq və mövcud sənədlərin yoxlanılmasında obyektivliyi təmin etmək məqsədi ilə 10 gün müddətində hüquqşünas xalq deputatlarından qaçqınların işləri və başqa respublikalarda yaşayan azərbaycanlılarla əlaqələr daimi komisiyasının üzvlərindən, Ədliyyə Nazirliyinin mütəxəssislərindən və Respublika Qaçqınlar Cəmiyyətinin nümayəndələrindən ibarət komissiya yaradaraq ona həvalə etsin ki, Ermənistandakı evinin Bakı şəhərində dövlət və ya ictimai fondun mənzili ilə dəyişdirilməsi barədə 1990-cı il martın 1-nədək notarius qaydasında təsdiq edilən vəkalətnamə almış vətəndaşların sənədlərinin Bakı Şəhər Prokurorluğu tərəfindən yoxlanılmasını təşkil etsin və buna nəzarət etsin. Sənədləri düz olan vətəndaşlar 2 ay ərzində daimi qeydiyyata alınsın. Komissiya sənədləri etibarsız sayılan vətəndaşların məsələlərini həll etmək üçün yoxlamanın nəticələri üzrə təkliflərin 2 ay müddətində Azərbaycan Respublikasının Ali Sovetinə versin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Bakı şəhərində indiyə kimi məskunlaşmamış və ya sənədləri bu qərarın 4-cü bəndində göstərilən komissiya tərəfindən qanuni sayılmamış qaçqın ailələrini (3-cü bəndin II və III yarımbəndlərlərində göstərilən ailələr istisna olmaqla) onların ailə tərkibinə, əvvəlki, yaşayış yerindəki iqlim şəraitinə və peşə məşğuliyyətinə uyğun olaraq Azərbaybaycan Respublikasının kənd rayonlarında daimi yaşayış yeri ilə təmin etmək üçün 6 ay müddətində lazımi şərait yaratsın və kənd rayonlarında yerləşdirilmələri ilə əlaqədar olaraq onların fərdi mənzil tikintisi, onlara torpağ sahələri ayrılması, bank ssudaları, tikinti materialları verilməsi məsələlərini

birdəfəlik və tam həll etsin, mal-qara, məişət əşyaları və i.a. satışını təşkil etsin. Qaçqınların kənd rayonlarına köçürülməsi zamanı qanunçuluq tələblərinə ciddi əməl etməyin zəruriliyi göstərilsin.

6. Bakı Şəhər Xalq Deputatları Sovetinə tapşırılsın ki, bu qərarın 4-cü bəndində göstərilən ailələr daimi yaşayış yerləri ilə təmin edilənədək onların indiki mənzillərdə saxlanılması və ərzaq talonları ilə təmin olunması məsələlərini həll etsin.

7. Sumqayıt, Gəncə, Mingəçevir, Yevlax, Əlibayramlı, Naftalan, Şəki Şəhər Xalq Deputatları Sovetlərinə, Rayon Xalq Deputatları Sovetlərinə və onların yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Böyük Vətən müharibəsi, Əfqanıstan hadisələri, Çernobıl AEC qəzası ailələrinin , daimi yaşayış yerlərindən qovularkən ailə başçısını itirmiş, Ermənistanda zəlzələ zamanı ailə üzvləri həlak olmuş və ya xəsarət almış ailələri, qocaları, pensiyaçıları,yetim uşağları, tək anaları Ermənistanın şəhər yerlərindən gəlmiş ailələri ev dəyişməyə dair müvafiq sənədə əsasən 1 ay müddətində hazırda yaşadığları yerlərdə daimi qeydiyyata alıb onlara order versinlər.

8. Sumqayıt, Gəncə, Mingəçevir, Yevlax, Əlibayramlı, Lənkəran, Naftalan, Şəki Şəhər Xalq Deputatları Sovetlərinə, Rayon Xalq Deputatları Sovetlərinə, yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, yaşayış yerlərini və mənzillərini Ermənistandan Azərbaycana qanuni yolla dəyişdirmək haqqında müvafiq icraiyyə komitələrinin qərarları, vəkalətnamələri və başqa sənədləri qalan qaçqın ailələrini 2 ay müddətində mənzillə təmin etsinlər və daimi qeydiyyata alsınlar.

Qaçqınların bir hissəsini öz xüsusi evlərini respublika tabeli şəhərlərdə dövlət mənzilləri ilə dəyişdirdiyini nəzərə alaraq yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, özləşdirmə haqqında müvafiq qanun qəbul edildikdən sonra həmin mənzilləri qaçqın ailələri mülkiyyətinə versinlər.

1988-ci ildən sonra qaçqınları yerləşdirmək üçün müxtəlif nazirlik, idarə və təşkilatlar tərəfindən kənd rayonlarında tikilmiş evlər daimi yaşamaq üçün bu evlərə köçürülmüş qaçqınların xüsusi mülkiyyəti hesab edilsin və göstərilən ailələrə müvafiq sənədlər vermək yerli icra hakimiyyəti orqanlarına tapşırılsın.

Respublikadan köçmüş ailələrin dəyişilməmiş və ya satılmamış, boşalmış xüsusi mənzilləri Azərbaycan Respublikasında qalıb həmin mənzillərdə daimi yaşayan qaçqın ailələrini Ermənistandan əvvəlki daimi yaşayış yerindən məcburən və əvvəzsiz qoyduğları evlər üçün kompensasiya kimi bu ailələrin xüsusi mülkiyyətinə verilsin.

9. Azərbaycan Respublikasının Nazirlət Kabinetinə tapşırılsın ki, əmək qabiliyyətli qaçqınların işlə təmin olunması üçün təxirə salmadan tədbirlər görsün, bu məqsədlə əlavə iş yerlərinin yaradılmasında yerli icra hakimiyyəti orqanlarına dərhal əməli kömək göstərsin.

10. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Daimi Yaşayış Yerini Məcburi Tərk Etmiş Şəxslərlə İş üzrə Dövlət Komitəsinə, Bakı Şəhər Ali Sovetinə, Azərsənayetikinti, Azərkəndtikinti, Aqrarsənaye tikinti, Azərsutikinti, Azərnəqliyyat tikinti, Azərneft, Azərkəndsukəmərtikinti birliklərinə təklif edilsin ki, qaçqınların yerbəyer edilməsi ilə əlaqədar mənzillərin sosial-mədəni, kommunal, obyektlərinin vaxtında tikilib təhvil verilməsini təmin etsinlər və bu məqsədlə ayrılmış vəsaitin bütünlüklə xərclənməsi üçün lazımi tədbirlər görsünlər11. Məcburən tərk etdikləri əvvəlki yaşayış yerlərindəki müəssələrdə, təşkilatlarda, idarələrdə, kalxozlarda işlədikləri dövrdə istehsalat xəsarətinə görə əlil olmuş və vurulan zərərə görə kompensasiya hüququna malik olan qaçqınlara mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada və miqdarda kompensasiya ödənilməsinin qanunsuz dayandırıldığını nəzərə alaraq Azərbaycan Respublikasının

Nazirlər Kabinetinə və Respublika Həmkarlar İttifaqları Şurasına təklif edilsin ki, bu məsələnin həllinə dair təkliflərini 1 ay müddətində Azərbaycan Respublikası Ali Sovetinə versin.

12. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Ermənistandan qovularkən üzvləri həlak və əlil olan qaçqın ailələrinin, evi və əmlakı məhv edilmiş, daimi yaşayış yerindən 2 və daha artıq qovulmuş ailələrin 5 il müddətində bütün vergilərdən və kommunal xidmət haqqı ödəməsindən azad edilməsi məsələsinə baxsın.

13. Azərbaycan Respublikasının Prezidentinə təklif edilsin ki, qaçqınların sıx yaşadığları rayon və şəhərlərin icra hakimiyyəti sturukturlarında qaçqınlarla iş üzrə xüsusi şöbələrin və ya bölmələrin yaradılmasını nəzərdə tutsun, daimi yaşayış yerlərini məcburi tərk etmiş şəxslərlə iş üzrə dövlət komitəsi tərəfindən həmin şöbələrin və bölmələrin fəaliyyətinə rəhbərlik edilməsi məqsədəuyğun sayılsın.

14. Şəhər, rayon icra hakimiyyəti orqanlarına tapşırılsın ki, Ermənistandakı daimi yaşayış yerlərindən zorakılıqla qovularkən ev dəyişmə sənədlərini vaxtında ala bilməmiş vətəndaşların həmin sənədlərini bərpa etmək üçün Azərbaycan Respublikası Ədliyyə nazirliyinin Prokurorluğunun və Daxili İşlər Nazirliyinin köməyi ilə lazimi tədbirlər görsünlər.

15. Azərbaycan Respublikasının Xalq Təhsili Nazirliyinə tapşırılsın ki, qaçqınlarla əlaqədar normal təhsil ala bilmədikləri nəzərə alaraq qaçqın abituriyentlərin 5 il ərzində ali və orta ixtisas məktəblərinə güzəştlə qəbul olunması (qəbul planının 2%-nədək) məsələsini həll etsin.

16. Əvvəllər Ermənistanın kənd rayonlarında daimi yaşamış və hazırda Bakı şəhərində, habelə Respublikanın digər şəhərlərində məskunlaşmış ailələr Azərbaycan Respublikasının kənd yaşayış məntəqələrinə qayıtmaq istədikdə onlara güzəştlər veril-

məsi zəruri sayılsın. Güzəştli şərtləri hazırlanmaməq və güzəştlər vermək Bakı Şəhər Xalq Deputatları Soveti ilə birlikdə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın.

17. Kütləvi informasiya vasitələrinə təklif edilsin ki, qaçqınların problemlərinin həlli ilə əlaqədar məsələləri tez-tez işıqlandırsınlar, bu sahədə buraxılan nöqsanları üzə çıxarsınlar.

Bakı şəhəri, 6 noyabr 1991-ci il.N 247 -XI

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN BƏYANATI

Dördüncü ildir ki, Dağlıq Qarabağda günahsız adamların qanı tökülür, qarətlər, partlayışlar, adamların öldürülməsi ara vermir

Dördüncü ildir ki, Ermənistanın millətçi qüvvələri - millətlərarası münaqişəni başlayan və onu inadla qızışdıran bu qüvvələr adamlara kədər, göz yaşı və mərhumiyyətlər gətirirlər. Bu münaqişənin əsasında isə Azərbaycana qarşı heç bir əsası olmayan ərazi iddiaları durur.

Ev-eşiyini, dolanacaq vasitələrini itirmiş yüz minlərlə qaçqın hədsiz məhrumiyyətlərə məruz qalır, dərin iqtisadi böhrana düşmüş dövlətdən kömək gözləyir.

Ermənistan rəhbərliyi demokratiya və humanizm tərəfdarı olduğunu riyakarlıqla bəyan edərək istər SSRİ daxilindəki, istərsə də beynəlxalq praktikaya uyğun olan dövlətlərarası münasibətlərin ən adi normalarının və qaydalarının cəzasız olaraq tapdalanmasına firva verir.

SSRİ Ali Sovetinin qərarına baxmayaraq, Ermənistan Ali Soveti Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirmək haqqında Konstitusiyaya zidd qərarlarını indiyədək ləğv etməmişdir.

SSRİ-nin və Azərbaycan Respublikasının Konstitutsiyaları pozularaq 1990-cı ildə DQMV-dən Ermənistan Ali Sovetinə deputatlar seçilmişdir. Azərbaycanın daxili işlərinə qarışmağa son qoymaq barədə dəfələrlə edilən müraciətlərə əhəmiyyət verməyərək, Ermənistan 3 ildən artıqdır ki, hədsiz bir həyasızlıqla respublikamızın ərazisində hərbi təcavüz dərəcəsinə çatan geniş miqyaslı terrorçuluq əməllərini davam etdirir.

DQMV-yə və Azərbaycanda ermənilərin yığcam yaşadıqları rayonlara müasir silah, hərbi sursat, radioötürücülər gətirilir. Bu

məqsədlə dağ cığırlarından, avtomobil nəqliyyatından, Azərbaycanın hava sərhədlərini cəzasız olaraq pozan vertolyotlardan istifadə edilir.

Azərbaycanda yaşayan ermənilər silahlı müdafiə haqqında Ermənistan hökumətinin qərarı təcavüzkarlıq niyyətlərini bir daha sübut edir. Ermənistan rəhbərliyi guya Azərbaycan tərəfindən mövcud olan hücum təhlükəsi haqqında yanlış ictimai rəy yaratmaqla, erməni xalqında nifət hissini gücləndirməklə öz hakimiyyətini qoruyub saxlamaq və şəxsi ambisiyalarını həyata keçirmək üçün öz silahlı qüvvələrini yaratmışdır.

Eyni zamanda hər iki respublikanın ərazisində sərhədboyu 5 kilometrlik fövqəladə vəziyyət zonası yaratmaq haqqında Azərbaycan Ali Sovetinin hələ ötən ilin ortalarında verdiyi təklifə Ermənistan bu günədək öz münasibətini bildirməmişdir. Azərbaycan Respublikası öz ərazisini quldur dəstələrinin daim hücumlarından qorumaq lüzumunu əsas tutaraq SSRİ Daxili İşlər Nazirliyi daxili qoşunlarının köməyi ilə bu qərarı birtərəfli qaydada yerinə yetirmişdir. İndi aydın olur ki, kim kimdən müdafiə olunur. Bu da məlumdur ki, Ermənistanın öz ərazisində kimdənsə qorxmağa əsası yoxdur, çünki ardıcıl həyata keçirilən köçürmə siyasəti nəticəsində Ermənistanda əslində bir nəfər də olsa azərbaycanlı qalmamışdır.

Bununla bərabər, Ermənistanın rəhbərliyi ermənilərin Azərbaycandan sıxışdırılıb çıxarılması haqqında riyakarcasına bəyanatlar verməyə son qoymur. Belə mülahizələrin əsassız və yalan olduğu aydındır. Bu da aydındır ki, DQMV-də olan ekstremist, millətçi qüvvələrin hərəkətləri muxtar vilayətdə vəziyyətin normallaşdırılmasına, orada hakimiyyət orqanlarının bərpa edilməsinə mane olur, indi də Azərbaycanda yaşayan on minlərlə ermənini çıxılmaz vəziyyətdə qoyur. Azərbaycanlılarla təkcə adi ünsiyyətə görə öz doğma qardaşlarını öldürən erməni

millətçilərinin hərəkətlərindən hiddətlənməmək mümkün deyildir.

Azərbaycan xalqının səbri tükənmişdir.

Biz tələb edirik ki, Azərbaycanın daxili işlərinə müdaxiləyə dərhal son qoyulsun. Üzdəniraq "Dağlıq Qarabağ problemi" muxtar vilayətin özündə, Azərbaycanda həll ediləcəkdir. Bu torpaqda yaşayan hər bir erməni özü qərara gəlməlidir: o ya SSRİ-nin və Azərbaycan Respublikasının Konstitusiyalarına, mehriban qonşuluq ənənələrinə uyğun olaraq sülh və əmin-amanlıq şəraitində yaşayacaq, ya da respublikamızdan kənarda özünə sığınacaq axtarmalı olacaq.

Biz tələb edirik ki, respublikanın ərazisi üzərində vertolyotların uçuşlarına, Azərbaycanın həmsərhəd kəndlərinə basqınlara dərhal son qoyulsun.

Biz SSRİ Daxili İşlər Nazirliyinin, Müdafiə Nazirliyinin və Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbərliyindən tələb edirik ki, silahlı quldur dəstələrinin buraxılması və tərkisilah edilməsi haqqında ölkə Prezidentinin Fərmanını DQMV-də yerinə yetirsinlər, "Fövqəladə vəziyyətin hüquqi rejimi haqqında" qanundan irəli gələn tədbirləri tam həyata keçirsinlər.

Biz tələb edirik ki, Azərbaycanın ərazisində pozucu separatçılıq fəaliyyəti göstərənlər Azərbaycanı könüllü tərk etsinlər. Milli ədavəti qızışdıranlar qanun qarşısında cavab verəvək və hökmən cəza alacaqlar.

Biz tələb edirik ki, Naxçıvan Muxtar Respublikasının Kərki kəndi dərhal azad olunsun. Dəmir yolunun Ermənistan ərazisindən keçən Mehri sahəsində maşinistlərə hücumlara son qoyulsun.

Biz respublikanın suverenliyini, ərazi bütövlüyünü müdafiə etmək səlahiyyətlərini SSRİ hökumətinə, SSRİ Daxili İşlər Nazirliyinə, Dövlət Təhlüksəziliyi Komitəsinə etibar etmişik və əminik ki, onlar Azərbaycan xalqı qarşısında öz Konstitusiya borclarını yerinə yetirəcəklər. Bununla birlikdə, biz öz sərhədlərimizi

müdafiə etmək, Ermənistan terrorçularının və silahlı quldur dəstələrinin cinayətkar əməllərinin qarşısını həm də öz qüvvələrimizlə almaq əzmindəyik. Əgər bizim tələblərimiz yerinə yetirilməsə, dövlət təhlükəsizliyi mənafelərini rəhbər tutaraq Ermənistana qarşı iqtisadi və başqa sanksiyalar tətbiq etməkdən, tələblərimizi həyata keçirməkdən başqa yolumuz qalmayacaqdır. Azərbaycan xalqının iradəsi belədir.

Bakı şəhəri, 27 aprel, 1991-ci il

RSFSR xalq deputatlarının qurultayında Azərbaycan-Ermənistan münasibətləri məsələsinin qarşıdakı müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikası Ali Sovetinin B Ə Y A N A T I

RSFSR xalq deputatlarının IV qurultayı Azərbaycan-Ermənistan münasibətlərinin müzakirəsini gündəliyinə daxil etmişdir. RSFSR ali hakimiyyət orqanının bu hərəkəti hüquqi cəhətdən qeyri-düzgündür və SSRİ Konstitusiyasının 70-ci və 76-cı maddələrinə ziddir. Çünki heç bir müttəfiq respublika başqa müttəfiq respublikadan üstün deyildir, başqa respublikanın suveren hüquqlarına toxuna bilməz. Azərbaycan Respublikasının suverenliyinə aid məsələlərə qarışılması, yumşaq desək, təəccüb doğurur.

Qanunsuz yaradılmış silahlı dəstələri buraxmaq və tərksilah etmək haqqında SSRİ Prezidentinin fərmanını həyata keçirmək üçün Azərbaycanda, o cümlədən Dağlıq Qarabağda əməli tədbirlər görülür. Ermənistandan göndərilən çoxsaylı quldur dəstələri bizim torpağımızda özbaşınalıq edir, dinc sakinləri, hərbi qulluqçuları qətlə yetirir, yerli əhalini, o cümlədən ermənilər qorxu içərisində saxlayırlar. İndi respublikanın ərazisi məhz canilərdən və quldurlardan təmizlənir. Respublikanın ərazi bütövlüyünü və suverenliyini qorumaq sahəsində SSR İttifaqı öz vəzifəsini yerinə yetirərək, bu işdə SSRİ Konstitusiyasına əsasan Sovet Ordusunun və SSRİ Daxili İşlər Nazirliyinin daxili qoşunlarının qüvvələrindən istifadə edir. Bu tədbirlər Azərbaycan Respublikasının xalqı tərəfindən, o cümlədən respublikada yaşayan yarım milyonluq rus əhalisi tərəfindən müdafiə olunur.

Ermənistan rəhbərliyinin iddialarının əksinə olaraq Azərbaycanda adamların milli mənsubiyyətə görə zorakılıqla köçürülməsi halları əsla yoxdur. Rusiya Federasiyası televiziyasının da bu məsələdə qeyri-obyektiv mövqeyi ciddi etiraz doğurur.

Uzun müddət yaraqlıların hədələrinə məruz qalan bir neçə yaşayış məntəqəsinin sakinləri yaşamaq üçün ölkənin başqa regionlarına getmək istədiklərini bildirmiş və bunun üçün şərait yaratmağı yerli orqanlardan xahiş etmişlər. Ona görə də Azərbaycan Respublikasının Ali Soveti erməni əhalisinin zorakılıqla köçürülməsi barədə ittihamı rədd edir.

DQMV-də və iki respublikanın sərhədyanı rayonlarında vəziyyətin müzakirəsi üçün SSRİ xalq deputatlarının fövqəladə qurultayını çağırmaq haqqında Ermənistanın müraciəti ilə əlaqədar olaraq bu yaxınlarda SSRİ Ali Sovetinin sessiyasında Azərbaycan-Ermənistan münasibətləri məsələsi müzakirə edilmişdir. Aydın, ağıllı qərar qəbul edilmişdir və bu qərar hamıya məlumdur. Xüsusən Ermənistan Ali Sovetinə tövsiyə edilmişdir ki, öz xahişini geri götürsün. Bu heç də o demək deyildir ki, məsələ yenidən, özü də Rusiya ali hakimiyyət orqanı səviyyəsində müzakirə edilsin. Əgər RSFSR xalq deputatlarının qurultayı özünü ölkənin Ali Sovetinə qarşı qoymaq istəyirsə, Azərbaycan Respublikası heç kəsə imkan verə bilməz ki, bu, onun suverenliyi hesabına edilsin. Mərkəzin amirliyini ləğv etməyə çalışıldığı bir dövrdə hansı respublikanınsa başqalarına amirlik etmək istəyi əsla yolverilməzdir.

Rusiyanın suverenliyinin bərpası üçün görülən qətiyyətli tədbirlər rəğbət doğurur. Azərbaycan Respublikası bütün respublikaların, o cümlədən Rusiya Federasiyasının Konstitusiya hüquqlarına hörmətlə yanaşır və öz suverenliyinə də məhz belə münasibət bəslənməsinə ümid edir.

Dağlıq Qarabağdakı vəziyyətə respublikamızda sağlam düşüncə ilə, qanunçuluq, millətlərarası həmrəylik və vətəndaş sülhü prinsipləri əsasında yanaşılır, milli və dini mənsubiyyətə fərq qoymadan respublikanın bütün vətəndaşlarının hüquq və azadlıqlarının həyata keçirilməsi üçün hər cur şərait təmin olunur.

Azərbaycan Respublikasının Ali Soveti ümid edir ki, Rusiya xalq deputatlarının qurultayı siyasi müdriklik göstərəcək və suveren Azərbaycanın Konstitusiya hüquqlarına toxunan heç bir hərəkətə yol verməyəcəkdir.

Ermənistandakı daimi yaşayış yerlərini məcburi tərk edərək Azərbaycan Respublikasında yerləşdirilmiş vətəndaşlar arasında rəy sorğusu keçirilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİ MİLLİ ŞURASININ QƏRARI

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası Ermənistandakı daimi yaşayış yerlərini məcburi tərk edərək Azərbaycan Respublikasında yerləşdirilmiş vətəndaşların zorla qovulduqları yaşayış yerinə qayıtmaq niyyətlərini əsas götürərək **qərara alır:**

1. Ermənistandakı daimi yaşayış yerlərini məcburi tərk edərək, Azərbaycan Respublikasında yerləşdirilmiş vətəndaşların fikrini öyrənmək məqsədilə 1992-ci il yanvarın 26-da onların rəy sorğusu keçirilsin.

Rəy sorğusuna aşağıdakı mətn daxil edilsin:

«Ermənistan Respublikasında insan hüquqlarının təminatı zəminində azərbaycanlı əhaliyə tam muxtariyyət verilməsi şərtilə, zorla qovulduğunuz yaşayış yerinə qayıtmağa razı olardınızmı?» sualı və cavab variantları — «Hə» və «Yox».

2. Azərbaycan Respublikasının Daimi Yaşayış Yerlərini Tərk Etmiş Şəxslərlə İş Üzrə Dövlət Komitəsi və Azərbaycan Qaçqınlar Cəmiyyəti rəy sorğusunun qaydasını müəyyənləşdirib, onun keçirilməsini təşkil etsinlər.

Bu məqsədlə Konstitusiyaya görə səsvermə hüququ olan və rəy sorğusunda iştirak edəcək vətəndaşların, o cümlədən qoşun hissələrində xidmət keçən hərbi qulluqçuların siyahılarının yanvarın 20-dək tərtib olunması təmin edilsin. Rəy sorğusu vətəndaşların iş, təhsil və yaşayış yerlərində keçirilir.

3. Azərbaycan Respublikasının şəhər, rayon xalq deputatları Sovetləri və onların rəyasət heyətləri, şəhər, rayon icra hakimiyyəti başçıları və onların kabinetləri, həmçinin qoşun hissələrinin

komandirləri respublikada yerləşdirilmiş azərbaycanlı qaçqınlar, o cümlədən hələ mənzil qeydiyyatı olmayan vətəndaşlar arasında rəy sorğusu keçirilməsinə hərtərəfli kömək etsinlər.

4. Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası rəy sorğusu aparılması üçün müvafiq sənədlərin hazırlanmasını və yerlərə çatdırılmasını təmin etsin.

5. Azərbaycan Respublikasının Daimi Yaşayış Yerlərini Tərk Etmiş Şəxslərlə İş Üzrə Dövlət Komitəsi Azərbayçan Qaçqınlar Cəmiyyəti ilə birlikdə rəy sorğusunun nəticələri haqqında 1992-ci il fevralın 6-dək Azərbaycan Respublikası Ali Sovetinin Şurasına məlumat versinlər.

Bakı şəhəri, 19 dekabr 1991-ci il. № 31

Erməni silahlı dəsətələrinin fəaliyyəti nəticəsində vətəndaşların əmlakına vurulan zərərin ödənilməsi sahəsində əlavə tədbirlər haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Erməni silahlı dəstələrinin fasiləsiz basqınlarına məruz talmış regionlarda vətəndaşların əmlakına vurulan zərərin ödənilməsi məqsədi ilə **qərara alıram:**

1. Xankəndi və Naftalan şəhərlərində, Şuşa, Xocalı, Xocavənd, Ağdərə, Qazax, Ağstafa, Tovuz, Kədəbəy, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Xanlar, Koranboy, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl. rayonlarında vətəndaşların dövlət tərəfindən mütləq sığortalanmalı tikililərinin zədələnməsi (məhv olması) halları sığorta. hadisəsi hesab edilsin.

2. Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinə tapşırılsın ki, yuxarıda adları çəkilən rayonlarda vətəndaşların tikililərinə dəymiş zərərin məbləğini müəyyənləş-dirib, sığorta ödənişinin verilməsini təmin etsin.

Bakı şəhəri, 5 may 1992-ci il. № 721

Azərbaycan Respublikasının dövlət suverenliyini və ərazi bütövlüyünü pozan hərəkətlərin yolverilməzliyi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİ MİLLİ ŞURASININ QƏRARI

1992-ci il yanvarın 6-da Xankəndi şəhərində üzdəniraq Dağlıq Qarabağ respublikasının Soveti deyilən Konstitusiyaya zidd təşkilatın nümayişkaranə surətdə yeni yığıncağı keçirilmişdir.

Ermənistan rəhbərliyinin və erməni diasporunun beynəlxalq ekstremist təşkilatlarının törətdikləri növbəti siyasi fitnəkarlıqla bir vaxtda erməni quldur birləşmələrinin azərbaycanlı əhaliyə qarşı terror və zorakılığı son dərəcə güclənir, onların evləri və əmlakı məhv edilir. Dağlıq Qarabağda yerləşən azərbaycanlı kəndləri dağıdılır.

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün pozulmasına beynəlxalq birlik üzvü olan dövlətlərin tam etinasız qaldıqlarını narahatlıqla qeyd edir.

Rusiyanın kütləvi informasiya vasitələri bir çox hallarda qərəzkar mövqe tutaraq Dağlıq Qarabağ respublikası deyilən respublika barəsində məlumatlar verir, bu respublikanın mövcudluğunun hüquqiliyi barədə ictimaiyyətdə rəy yaradırlar.

Bu cinayətkarlıq tədbirinin təşkilatçıları xarici ölkələrdən bir sıra jurnalistlərin və İngiltərə parlamentinin üzvü xanım Koksun xəlvətcə Azərbaycan Respublikası ərazisinə gəlməsindən tədbirə geniş təbliğatçılıq donu geyindirmək Dağlıq Qarabağın azərbaycanlı əhalisinə qarşı erməni quldur birləşmələrinin terrorunun və zorakılığının güclənməsinə haqq qazandırmaq üçün istifadə etməyə çalışmışlar.

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası Azərbaycan xalqının suveren iradəsini ifadə edərək və Azərbaycan

Respublikası Konstitusiyasının 70-ci maddəsini əsas tutaraq **qərara alır:**

1. Mövcud olmayan Dağlıq Qarabağ respublikası Sovetinin sessiyası deyilən sessiya və onun qərarları Azərbaycan Respublikasının suverenliyinə, müstəqilliyinə meydan oxumaq kimi, respublikanın ərazi bütövlüyünə qəsd, Azərbaycan xalqının həyatına, şərəfinə və ləyaqətinə qarşı yönəldilmiş hərəkət kimi qiymətləndirilsin. Bu sessiyanın və onun qərarlarının heç bir hüquqi əsasa malik olmadığı qeyd edilsin. 2. Azərbaycan Respublikasının müvafiq nazirlikləri Dağlıq Qarabağ ərazisində Azərbaycan Respublikasının suverenliyinin bərpa edilməsi, bu ərazidə yaşayan vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasını və qanunlarını qəbul edib, onlara hörmət bəsləməsi üçün bütün qanuni vasitələrdən istifadə etsinlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının dövlət suverenliyinə və ərazi bütövlüyünə zidd fəaliyyətə, dövlət sərhədlərimizin xarici vətəndaşlar tərəfindən pozulmasına qarşı notalar və başqa formada etiraz sənədləri göndərmək sahəsində işi gücləndirsin.

4. Beynəlxalq nüfuza malik dövlətlərin parlamentlərinə təklif edilsin ki, müstəqil Azərbaycan Respublikası ərazisinin bir hissəsini qoparmaq üçün Dağlıq Qarabağda erməni millətçi ekstremistlərinin qanunsuz cinayətkarlıq əməlinə və Azərbaycan Respublikasına qarşı Ermənistanın silahlı təcavüzünə öz münasibətlərini bildirsinlər.

5. BMT-nin Təhlükəsizlik Şurasından xahiş edilsin ki, bu məsələləri nəzərdən keçirsin:

Azərbaycan Respublikası ərazisinin bir hissəsini qoparmaq məqsədilə Ermənistan Respublikasının ona qarşı təcavüzü, Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə üçün silahlı birləşmələrdən istifadə etməsi haqqında;

BMT-nin insan hüquqlarına dair Bəyannaməsinin Ermənistan tərəfindən pozularaq, Ermənistan ərazisindən 200 min azərbaycanlının zorla çıxarılması haqqında.

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası reallıq hissini itirmiş erməni millətçi ekstremistlərinə xəbərdarlıq etməyi özünə borc bilir ki, Azərbaycan xalqı öz dövlətinin suverenliyini və ərazi bütövlüyünü qorumaq əzmindədir və bunun üçün bütün lazımi vasitələrə malikdir.

Bakı şəhəri, 13 yanvar 1992-ci il. № 45

Azərbaycan Respublikasının BMT-nin Qaçqınların statusuna dair konvensiyasına və protokoluna qoşulması barədə

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

Sülhsevər xarici siyasət yeridən Azərbaycan Respublikasının beynəlxalq sənədlərə qoşulması işinin davam etdirilməsini zəruri hesab edərək, Ermənistan Respublikasının əsassız ərazi iddiaları ilə bağlı təcavüzkarlığı nəticəsində öz yurd-yuvalarından vəhşicəsinə qovulmuş yüz minlərlə azərbaycanlı və rusun, həmçinin məshəti türkünün qaçqına çevrilərək Azərbaycan Respublikasına pənah gətirməsini nəzərə alaraq və respublikada qaçqınlar probleminin kəskin şəkildə olmasını və onun həllinin təxirəsalınmazlığını vacib sayaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası BMT-nin Qaçqınların statusuna dair konvensiyasına və protokoluna qoşulsun

2. Azərbaycan Respublikası Milli Məclisinin bu qərarına uyğun olaraq BMT-nin Baş katibinə müvafiq müraciət edilsin.

Bakı şəhəri, 8 dekabr 1992-ci il. № 402

«Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət haqqında» Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 15 iyul tarixli qərarının yerinə yetirilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN QƏRARI

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. «Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət haqqında» Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 15 iyul tarixli qərarının yerinə yetirilməsi barədə Azərbaycan Respublikasının Baş naziri R. Hüseynovun, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini A. Kələntərlinin və Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini M. Abbasovun məlumatı nəzərə alınsın.

2. Azərbaycan Respublikası ali icra hakimiyyəti orqanları Dövlətlərarası danışıqlardan fəal istifadə edərək Naxçıvan Muxtar Respublikası ilə kommunikasiya (ilk növbədə dəmir yolu) vasitələrinin bərpa olunmasını təmin etmək üçün təcili tədbirlər görsünlər.

Bakı şəhəri, 19 avqust 1992-ci il. № 276

Azərbaycan - Ermənistan danışıqlarında iştirak edən Azərbaycan parlamenti nümayəndə heyətinin Bəyanatı haqqında

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

1. Azərbaycan-Ermənistan danışıqlarında iştirak edən Azərbaycan parlamenti nümayəndə heyətinin bəyanatının mətni bəyənilsin

2. Bəyanat Azərbaycan Respublikası Ali Sovetinin rəsmi sənədi kimi BMT-yə, ATƏM iştirakçısı olan dövlətlərin parlamentlərinə göndərilsin.

Bakı şəhəri, 2 dekabr 1992-ci il. № 395

Azərbaycan - Ermənistan danışıqlarında iştirak edən Azərbaycan parlamenti nümayəndə heyətinin
BƏYANATI

Azərbaycan və Ermənistan arasında danışıqların nəticəsində əldə edilmiş razılığa görə 1992-ci il dekabr ayının 2-də Azərbaycan dəmir yolu Minçivan sahəsində Azərbaycan və Ermənistan parlament nümayəndə heyətinin görüşü olmalı idi. Danışıqların əsas məqsədi nəticə etibarı ilə dekabr ayının 3-də Bakı - Naxçıvan, Bakı-İran və Bakı-Yerevan qatarlarının İran İslam Respublikası müşahidəçilərinin iştirakı ilə hərəkətinin bərpa edilməsi idi. Lakin bu dəfə də Ermənistan nümayəndə heyəti ortalığa yeni bir bəhanə ataraq Mehri stansiyasında gərkinliyi daha da artırmış və sözün əsl mənasında növbəti Minçivan görüşünü pozmuşdur. Azərbaycan nümayəndə hey'ətinin xoş niyyəti növbəti dəfə cavabsız qalmışdır. Yaranmış ağır şərait Naxçıvan Muxtar Respublikasında əhalinin problemlərini, sosial-məişət ehtiyaclarını daha da kəskinləşdirmişdir. Yanacağın, ərzağın, elektrik enerjisinin qıtlığı son həddə çatmışdır. Belə bir şəraitdə Azərbaycan Respublikasının Milli Məclisi Naxçıvan Muxtar Respublikasının 350 minlik əhalisinin təhlükəsizliyini və dözülməz həyat şəraitini nəzərə alaraq, Ermənistan tərəfindən muxtar respublikanın blokadasının daha da gərkinləşdiyi bir dövrdə, ATƏM-Ə, BMT-yə, bütün dünya parlamentlərinə müraciət edərək təkidlə xahiş edir ki, Minçivan-Mehri - Ordubad humanitar dəhlizinin hər vasitə ilə açılmasına köməklik göstərsinlər. Bu təklifi irəli sürmək Azərbaycan dövlətinin sülh məramından, Ermənistan — Azərbaycan münaqişəsinin sülh yolları ilə həll olunmasından irəli gəlir.

Azərbaycan-Ermənistan danışıqlarında iştirak edən Azərbaycan parlamenti nümayəndə heyətinin rəhbəri
A. CƏLİLOV

Dövlətlərarası münasibətlərin hamılıqla qəbul olunmuş prinsiplərinin və normalarının Ermənistan Respublikasının Ali Soveti tərəfindən kobudcasına pozulması haqqında AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

Ermənistan Respublikasının Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinə və ərazi bütövlüyünə qəsd etməyə bir daha cəhd göstərmişdir.

Ermənistan Respublikası Ali Sovetinin növbədənkənar iclasında mövcud olmayan qondarma «Dağlıq Qaraban Respublikasını» və onun əhalisini müdafiə, edən qərar qəbul olunmuşdur. Qərarda deyilir ki, «Dağlıq Qarabağ Respublikasının Azərbaycanın tərkibində adı çəkildiyi hər hansı akt bundan sonra Ermənistan Respublikası üçün qeyri-məqbul sayılacaqdır». Beləliklə, mövcud olmayan qurumu «tanımaq», iki xalq arasında cəbhələşməni gücləndirmək, Ermənistan Respublikasının təcavüzə və Azərbaycan ərazisinin bir hissəsini işğal etməsinə haqq qazandırmaq yolunda bir addım da atılmışdır.

Bununla əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi qeyd edir ki, Ermənistan Respublikası parlamentinin bu hərəkəti Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını kobudcasına pozmaqdır, dövlətlərarası münasibətlər sahəsində hamılıqla qəbul olunmuş beynəlxalq hüquq prinsiplərini və normalarını bilərəkdən tapdalamaqdır. Milli Məclis bu hərəkəti iki həmsərhəd dövlətin-Azərbaycanla Ermənistanın qarşılıqlı münasibətlərində sülhə və razılığa gəlmək yollarının axtarışını pozmağa yönəldilən siyasi fitnəkarlıq kimi qiymətləndirir.

Eyni zamanda Ermənistan parlamentinin qərarı bölgənin hüdudlarından çox-çox kənara çıxır. Azərbaycan Respublikası,

dünya birliyinin digər üzvləri Ermənistan — Azərbaycan, münasibətlərinin əməli zəmində dinc yolla nizama salınması üçün ATƏM çərçivəsində intensiv danışıqlar prosesini yoluna qoymuşlar, Böhranı aradan qaldırmaq məqsədi ilə qarşılıqlı surətdə məqbul güzəştlər və qərarlar hazırlanır, daim danışıq aparılır, çünki təkcə Zaqafqaziya bölgəsində deyil, onun hüdudlarından çox-çox uzaqlarda da sabitlik və əmin-amanlıq sülhyaratma prosesinin səmərəliliyindən asılıdır.

Bütün bunlar Ermənistan Respublikası Ali Sovetinin qərarını bu respublikanın dünya birliyinə meydan oxuması, Ümumavropa prosesi çərçivəsində öz üzərinə götürdüyü öhdəliklərə məhəl qoymaması kimi qiymətləndirməyə imkan verir. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 70-ci maddəsinə əsasən Azərbaycan xalqının suveren iradəsini ifadə edərək **qərara alır:**

1. Ermənistan Respublikası Ali Sovetinin növbədənkənar iclasının qərarı Azərbaycan Respublikasının dövlət suverenliyinə və ərazi bütövlüyünə qəsd, Azərbaycan xalqının milli mənafelərinə qarşı düşmənçilik əməli kimi qiymətləndirilsin. Bu qərarın hüquqi baxımdan tamamilə əsassız olduğu qeyd edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Ermənistan Respublikası Ali Sovetinin növbədənkənar iclasında Konstitusiyaya zidd qərar qəbul olunduğunu və Ermənistan Respublikasının öz üzərinə götürdüyü beynəlxalq hüquq öhdəliklərini pozduğunu müvafiq beynəlxalq təşkilatların, ATƏM işirakçısı olan dövlətlərin nəzərinə çatdırsın.

3. Ermənistan Respublikası Ali Sovetinin Konstitusiyaya zidd hərəkəti ilə əlaqədar ATƏM iştirakçısı olan dövlətlərin parlamentlərinə və ATƏM iştirakçısı olan dövlətlərin Deputatlar Məclisinə müraciət edilsin.

Bakı şəhəri, 15 iyul 1992-ci il. № 214

AZƏRBAYCAN RESPUBLİKASI
ALİ SOVETİNİN BƏYANATI

Son vaxtlar Mərkəzin müəyyən dairələri Azərbaycana qarşı çıxışları gücləndirərək Azərbaycanda olan hərbi qulluqçular və onların ailələri arasında çaxnaşma salmağa çalışırlar. Respublikanın Silahlı Qüvvələri harrında Qanunun qəbul edilməsi buna bəhanə olmuşdur. Tamamilə aydındır ki, bütün bunların arxasında respublikada vəziyyətin sabitliyini pozmağa çalışan, Azərbaycanın müstəqil siyasət yeritməsi ilə barışmaq istəməyən qüvvələr durur; bu siyasətimiz Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında 1991-ci il oktyabrın 18-də qəbul edilmiş Konstitusiya Aktında öz əksini tapmışdır. Bununla əlaqədar olaraq respublikanın Ali Soveti qəti surətdə bildirir:

respublikanın öz silahlı qüvvələrinin yaradılması məcburi addımdır və bundan əsas məqsəd Ermənistanla həmsərhəd rayonlarda vəziyyəti sabitləşdirmək, Ermənistan tərəfindən geniş miqyaslı təcavüzün qarşısını almaq, respublikanın təhlükəsizliyini və suverenliyini təmin etməkdir. Qanunda Silahlı qüvvələrdə bütün millətlərin nümayəndələrinin qulluq etməsi nəzərdə tutulmuşdur. Silahlı qüvvələrin yaradılması haqqında qərar ölkənin Müdafiə Nazirliyinin və Daxili İşlər Nazirliyinin Azərbayçan Respublikası ərazisində yerləşən qoşun hissələrinə və birləşmələrinə qarşı yönəldilməmişdir. Hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquq və mənafslərini məhdudlaşdırmaq üçün göstərilən hər cür cəhdlərin qarşısı respublikanın qanunları ilə ciddi surətdə alınacaqdır.

Ali Sovet diqqəti ona çəlb edir ki, dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında Azərbaycan Respublikasının bütün millətlərdən olan vətəndaşlarının hüquq bərabərliyi xüsusi qeyd edilmişdir.

Biz müstəqillik yoluna qədəm qoyaraq əminik ki, Azərbaycan vətəndaşlarına həmişə xas olan dostluq və qarşılıqlı hörmət hissi indiki mürəkkəb şəraitdə də bizim sıx birləşməyimizə və respublikamızın vətənpərvərləri kimi hər cür qəsdləri dəf etməyimizə kömək edəcəkdir.

Azərbayçan Respublikasının Dağlıq Qarabağ və Ermənistana Respublikası ilə sərhədyanı ərazisində vəziyyəti normallaşdırmaq üçün təcili tədbirlər haqqında

AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİ MİLLİ ŞURASININ QƏRARI

Azərbaycan Respublikasının Dağlıq Qarabağ və Ermənistan alaraq Respublikası ilə sərhədyanı ərazisində vəziyyəti normallaşdırmaq təcili tədbirlər görülməsinin zəruriliyini nəzərə Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası **qərara alır:**

Azərbaycan Respublikasının Prezidentinə tövsiyə edilsin ki: Azərbaycan Respublikasının Dağlıq Qarabağ və Ermənistan Respublikası ilə sərhədyanı ərazisində fövqəladə vəziyyət elan etsin;

Azərbaycan Respublikasının Dağlıq Qarabağ və Ermənistan Respublikası ilə sərhədyanı ərazisi üzrə hərbi qərargah yaratsın və həmin qərargahın rəisi vəzifəsinə Azərbaycan Respublikasının xalq deputatı Qazıyev Rəhim Həsən oğlunun təyin olunması məsələsinə baxsın;

Azərbaycan Respublikası ərazisinin Dağlıq Qarabağ hissəsindən 366-cı motoatıçı alayının və keçmiş hadrut sərhəd dəstəsinin çıxarılması üçün təcili tədbirlər görsün.

Bakı şəhəri, 30 yanvar 1992-ci il. № 69

Azərbaycan Respublikasının Qarabağın dağlıq hissəsində vəziyyət, Xocalı genosidi və respublikada ictimai-siyasi şərait haqqında

AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN QƏRARI

Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Respublikasına qarşı erməni təcavüzünün miqyasının genişlənməsi ilə əlaqədar olaraq aşağıdakəları qeyd edir:

Qarabağın dağlıq hissəsində və Ermənistanla sərhədyanı rayonlarda Ermənistan separatçı quldurlarının və Müstəqil Dövlətlər Birliyinin cinayətkar hərbi birləşmələrinin hücumuna sonqoymaq və münaqişəni siyasi yolla həll etmək üçün respublika rəhbərliyinin atdığı bir sıra konkret addımlara baxmayaraq, Ermənistan Respublikası və Azərbaycan Respublikasının Qarabağın dağlıq hissəsində fəaliyyət göstərənmillətçi ekstremistləri və onların muzdlu qoşun hissələri beynəlxalq hüquq normalarını həyasızcasına və açıqdan-açığa pozaraq bu bölgənin məskun erməni əhalisinin öz müqəddəratını təyin etməsinə dair saxta şüar altındabölgədə yaşayan altmış minə yaxın azərbaycanlının, yaxud ümumi əhalinin üçdə bir hissəsinin hüququnu tapdalayaraq, Azərbaycan Respublikasının ərazisinin bir hissəsini işğal etməkdə davam edir. Münaqişəni dinc yolla nizama salmaq sahəsində beynəlxalq vasitəçilik səylərindən, dünya ictimaiyyətinin sülhsevər çağırışlarından hələlik mübət nəticə hasil olmamışdır.

Xüsusi hazırlıq görmüş silahlı erməni hərbi birləşmələri beynəlxalq erməni terrorçü qruplarının və erməni lobbisinin köməyindən, Rusiya rəhbətliyinin himayəsindən istifadə edərək, Azərbaycan Respublikasının Qarabağın dağlıq hissəsini qəsb etməyə çalışırlar.

Müstəqil Dövlətlər Birliyinin qoşun hissələri, eləcə də

Xankəndində yerləşən 366-cı alayın şəxsi heyəti, texnikası, silahı erməni tərəfindən hücum əməliyyatlarına cəlb olunmaqda davam edir.

Erməni separatçı quldurları uzun illər ərzində həyata keçirdikləri qanlı terror metodlarından istifadə edərək minlərlə azərbaycanlını, müsəlman kürdünü, Axıcka-Adıgün (mesxeti) türkünü, o cümlədən qadınları, qocaları və uşaqları vəhşicəsinə öldürmüş, şikəst etmiş və daimi yaşayış yerlərindən amasızcasına qovmuşlar. Azərbaycanlılar yaşayan 52 kəndi, Xocalı şəhərini, qiymətli tarixi abidələri tamamilə dağıtmışlar. Qarabağın dağlıq hissəsində öz doğma torpağından zorla çıxarılmış on minlərlə azərbaycanlı Ermənistandan 1948-ci ildən sonra ikinci dəfə, 1988-ci ildə zorakılıqla qovulmuş 207 min qaçqına qoşulmuşdur. Minlərlə azərbaycanlının vəhşicəsinə qətlə yetirildiyi Xocalı faciəsi Soyqırımı və Xatın dəhşətlərini geridə qoyur.

Qarabağın dağlıq hissəsində əhalinin müdafiəsi tam təmin edilməmiş, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında", "Fövqəladə vəziyyət haqqında", "Dövlər Sərhədi haqqında" Azərbaycan Respublikası Qanunlarının, onların qüvvəyə minməsi haqqında qərarların icrası yarıtmaz təşkil edilmişdir.

Müstəqil Dövlətlər Birliyinə daxil olmağın başlıca şərti kimi birliyin hər bir üzvünün daxili işlərinə müdaxilənin yolverilməzliyi və onun sərhədlərinin toxunulmazlığı haqqında qəbul olunmuş bəyannamələrə və öhdəliklərə baxmayaraq nə Rusiya, nə də Müstəqil Dövlətlər Birliyinin başqa üzvləri Azərbaycana qarşı erməni təcavüzünün qarşısını almaq üçün heç bir qəti tədbir görməmişlər.

Azərbaycan informasiya blokadasına alınmış və ona qarşı təbliğat müharibəsi aparılmaqdadır. Saxta məlumat seli dünyanı bürümüş və dünya ictimaiyyətini çaşdırmışdır.

Belə bir vəziyyətdə, Azərbaycan Respublikasında Qarabağın

dağlıq hissəsində və Ermənistanla sərhəd rayonlarında baş vermiş arasıkəsilməyən faciəli hadisələrlə əlaqədar olaraq ictimai-siyasi vəziyyətin son dərəcə kəskinləşdiyini nəzərə alıb, Azərbaycan Respublikasının Ali Soveti qərara alır:

1. Azərbaycan Respublikası rəhbərliyinə tapşırılsın ki, Qarabağ məsələsinin siyasi yolla həll edilməsi üçün mümkün olan bütün tədbirləri ardıcıllıq və qətiyyətlə həyata keçirsin. Azərbaycana qarşı hərbi əməliyyatları dayandırmaq və münaqişədə olan tərəflər arasında səmərəli siyasi dialoqa başlamaq üçün diplomatik: səyləri gücləndirsin. Qarabağ məsələsinə dair BMT-nin himayəsi, altında Azərbaycan və Ermənistanın iştirakı ilə təxirə salmadan beynəlxalq konfrans keçirmək üçün BMT-yə, İran, Türkiyə, Rusiya, Qazaxıstan. Ukrayna və başqa dövlətlərə təkliflər göndərsin.

2. Azərbaycan Respublikası ərazisinə Ermənistan Respublikasının silahlı basqın etməsi, zor işlədib onun ərazisinin bir hissəsini zəbt etməsi Ermənistan Respublikasının müstəqil Azərbaycan Respublikasına qarşı təcavüz əməli kimi qiymətləndirilsin. Ermənistan Respublikasının təcavüzkar dövlət kimi tanınması üçün lazımi sənəd və materiallar müvafiq beynəlxalq təşkilatlara təqdim edilsin.

3. 1988-ci edilən başlayaraq Ermənistan ərazisindəki tarixən yaşadıqları torpaqlardan, sonra isə Azərbaycan Respublikasının Qarabağın dağlıq hissəsindən milli mənsubiyyətinə, yəni yalnız azərbaycanlı olduqlarına görə dinc əhalinin qovulması, insan hüquqlarının pozulması, Qarabağın dağlıq hissəsində: Malıbəylidə, Qaradağlıda, Meşəlidə, Kərkicahanda və digər yaşayış məntəqələrində, xüsusilə Xocalı şəhərində minlərlə dinc əhalinin, qoca, qadın və uşaqların ən dəhşətli, amansız üsul və vasitələrlə kütləvi qırğını ilə nəticələnən Ermənistan Respublikasının düşünülmüş hərəkəti genosid kimi qiymətləndirilsin və bu barədə

beynəlxalq təşkilatlara və dünya dövlətlərinə müraciət qəbul edilsin. həmin soyqırımında Müstəqil Dövlətlər Birliyinin ordu hissələrinin köməyi xüsusi qeyd olunsun.

4. Dağlıq Qarabağda, o cümlədən Xocalıda soyqırımı hadisələrinin təfsilatını aydınlaşdırmaq üçün səlahiyyətli deputat istintaq komissiyası yaradılsın.

5. Azərbaycan Respublikasının ərazi bütövlüyünü və toxunulmazlığını, Qarabağın dağlıq hissəsinin əhalisinin təhlükəsizliyini təmin etmək üçün tədbir görməmiş vəzifəli şəxslərin dairəsi müəyyənləşdirilsin və onlardan ciddi cavabdehlik tələb olunsun.

6. Azərbaycan Respublikası rəhbərliyinə tapşırılsın:

Azərbaycan Respublikasının İran, Türkiyə, Pakistan, Əfqanıstan, Rusiya, Ukrayna, Qazaxıstan və başqa dövlətlərlə danışıqlar aparıb əməkdaşlıq və təhlükəsizlik haqqında müqavilələr bağlanması sahəsində konkret tədbirlər görsün;

"Fövqəladə vəziyyət haqqında" və "Dövlət sərhədi haqqında" Azərbaycan Respublikası qanunlarına müvafiq olaraq respublikanın Qarabağ və Ermənistanla həmsərhəd olan rayonlarında təxirə salınmadan fövqəladə vəziyyət tətbiq edilməsi və respublika sərhədlərinin toxunulmazlığının təmin edilməsi məsələlərinə baxsın.

7. Azərbaycan Respublikası Dövlət Müdafiə Komitəsi münaqişə zonalarında vəziyyəti nizama salmaq üçün konkret icraçısı və icra müddəti müəyyən edilməklə, bütün məsələləri, eləcə də hərbi doktrina yaradılmasını tam əhatə edən kompleks tədbirlər müəyyənləşdirsin və onun icrasını təmin etsin.

8. Azərbaycan Respublikası hüquq mühafizə orqanlarının rəhbərlərindən qanunçuluğu və hüquq qaydasını təmin etmək, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyini artırmaq üçün kompleks tədbirlər müəyyənləşdirib həyata keçirmələri tələb edilsin.

9. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

Qarabağın aran hissəsindən müvəqqəti köçmüş əhalinin geri qaytarılmasını;

Qarabağın dağlıq hissəsindən və sərhədyanı rayonlardan zorla qovulanların müvəqqəti yerləşdirilməsi, onların işləməsi, maddi-məişət ehtiyaclarının ödənilməsi üçün təxirəsalınmaz tədbirlər görülməsini;

Xocalı şəhəri və dağıdılmış digər yaşayış məntəqələrinin bütün dövlət orqanlarının əvvəlki statusla fəaliyyətlərini davam etdirməsini təmin etsin.

10. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyindən respublikanın beynəlxalq informasiya və digər əlaqələrinin genişlənməsi üçün xarici dövlətlərdə diplomatik nümayəndəliklərin yaradılmasına hazırlıq işini sürətləndirib tezliklə başa çatdırmaq tələb olunsun.

11. Azərbaycan Respublikasının milli təhlükəsizlik və daxili işlər nazirliklərinə tapşırılsın ki, ayrı-ayrı məsuliyyətsiz şəxslərin sabitliyi pozması, respublikada özbaşınalıq şəraiti yaratması, hakimiyyət orqanlarının və vəzifəli şəxslərin qanunla müəyyən edilmiş vəzifələrinin icrasına mane olmağa yönəldilən hər hansı qanunsuz hərəkətlərinin və başqa millətdən olan şəxslərə qarşı fitnələrin qarşısını almaq üçün qəti tədbirlər görsünlər. Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan xalqının müstəqilliyi uğrunda ədalətli mübarizəsinin qələbə ilə başa çatacağına əmin olduğunu bildirir və bütün həmvətənlərimizi sıx birliyə, dəyanətli və təmkinli olmağa çağırır.

Bakı şəhəri, 25 mart 1992-ci il. № 333-XII

HAMAMLI (SPİTAK) ZƏLZƏLƏSİ

Sonucu etnik təmizləmənin ən faciəvi dönüş nöqtələrindən biri də Hamamlı (Spitak) zəlzələsidir. Ermənistan ərazisindən Azərbaycan türklərinin kütləvi köçü, qətl və qarətlərin intensiv şəkil aldığı bir vaxtda- dekabr 1988-ci ildə Ermənistanın şimalında baş vermiş 7 bal gücündə zəlzələ.

Yeraltı təkanlar 30 saniyə ərzində Ermənistanın Spitak şəhərini məhv edib, Leninakan (hazırkı Gümrü), Kirovakan (hazırkı Vanadzor) və Stepanavan şəhərlərini dağıdıb. Ümumilikdə, zəlzələdən 21 şəhər, eləcə də 350 kənd (58-i tamamilə dağılıb) ziyan çəkib. Rəsmi məlumatlara görə, 25 min nəfər ölüb, 140 min adam şikəst olub, 514 min nəfər evsiz qalıb. Zəlzələ Ermənistanın şimalına güclü zərbə vurub və respublikanın 40 faizinə təsir edib. Yeraltı təkanlar İrəvan və Tiflisdə də hiss edilib.

Bu rəsmi məlumatların içərisində Ermənistanda yaşayan azərbaycanlı əhali görməzdən gəlindi. Azərbaycanın o vaxtki rəhbərliyi Əbdürəhman Vəzirov zəlzələdən zərər çəkmiş azərbaycanlılarla maraqlanmaq əvəzinə münasibətlərin son dərəcə gərgin və həyati təhlükə olmasına baxmayaraq, 11 dekabr 1988-ci ildə Bakıdan Leninakana - zəlzələ rayonuna kömək üçün 78 nəfərdən ibarət təyyarə yolladı. Yardıma gedən İl-76 təyyarəsi daşnak terrorçuları tərəfində vuruldu. 69 sərnişindən yalnız bir nəfər Fəxrəddin Babayev təsadüf nəticəsində sağ qalıb. 68 nəfər azərbaycanlı sərnişin və 9 nəfər ekipaj üzvü bu terror aktının qurbanı olub. Qəzanın səbəbləri öyrənilmədən, heç bir ekspertiza aparılmadan təyyarənin qara qutusu məhv edilib. Bu terror aktı qəza hadisəsi kimi cəmiyyətə sırınıb. Təsadüfən sağ qalmış Fəxrəddin Babayev İrəvan xəstəxanasına aparılsa da, **"ermənilər arasında yaralı türkə yer yoxdur"** deyən daşnak xislətli erməni həkimləri onu müalicə etməkdən boyun qaçırıblar.

Araşdırma zamanı Baş Prokurorluqdan aldığımız məlumata əsasən həmin dövrdə təyyarə qəzası ilə bağlı cinayət işi

başlanmayıb. İctimaiyyətə yalnız 69 nəfər azərbaycanlıdan 7 nəfər aşağıda adları çəkilən şəxslərin adları məlum olub.

1) Merəliyev Oqtay Ayətulla oğlu
2) Məmmədov Rüstəm Hacıbala oğlu
3) Yusifov Eyyub Şükür oğlu
4) Şabanov Məmməd Baba oğlu
5) Rəhimov Sərdar Nurəddin oğlu
6) Quliyev Möhsüm Məmmədəli oğlu
7) Babaxanov Bəhram Bədirxan oğlu

Həmin dövrün qəzetlərini araşdıraraq Hamamlı (Spitak) zəlzələsi barədə hansı informasiyaların getməsi maraqlandıqda adamı dəhşət bürüyür. Qəzada (terror) həlak olmuş şəxslər barədə məlumatlar gizlədilməklə Ermənistana yalnız "qardaş" köməyi barəsində məlumatlar verilir.

Hətta Azərbaycandan yardıma gedən təyyarə vurulduqdan sonra Yuqoslaviyadan yardım gətirən təyyarəni səhv salan erməni terrorçuları təyyarənin Türkiyədən gəldiyini zənn edərək həmin təyyarəni də terrora məruz qoydular. 6 nəfər yardıma gələn günahsız Yuqoslaviya təyyarəçisidə həlak oldu.

Həmin dövrdə Leninakanda hərbi xidmətdə olan Bərdə rayon İmirli kənd sakini Alıyev Ağa Gəray oğlu onun xidmət etdiyi hərbi-hissəyə dəfələrlə ermənilərin hücum edərək hərbi xidmətdə olan Azərbaycan türklərini öldürməyə cəhd ediblər.

Belə şəraitdə Əbdürəhman Vəzirov hakimiyyətdə qalmaq və komsomolçu dostu Mixail Qarbaçovun əmirlərini müti qul kimi icra etmək yolu tutaraq hətta hesab açaraq Ermənistana maddi kömək etməyi də unutmayıb.

Politoloq Oleq Kuznetsov: " O hadisələri çox yaxşı xatırlayıram o vaxtı universitetdə təhsil alırdım. Universitetin komsomol təşkilatına daxil idim.O vaxtı bütün sovetlər birliyi Ermənistanın dadına çatdı.O vaxtı regionda

artıq gərginlik hiss olunurdu. Sonradan mənə məlum oldu ki, Spitak zəlzəlsindən iki-üç gün əvvəl Ermənistanda azərbaycanlılara qarşı hücumların ilk dalğaları başlamışdır. Hələ o vaxtı deyirdilər ki, Spitak zəlzələsinin Allah ermənilərin azərbaycanlılara qarşı etdiyi haqsızlığa görə edib. Düzü o vaxtı biz buna əhəmiyyət vermirdik. Çünki, ittifaq mətbuatının yaydığı məlumatlara qulaq asırdıq. Bu informasiyalar isə hadisələrin həqiqi mahiyyətini və xronologiyasını əks etdirmirdi. Dəmir yolunda Sovet İttifaqı Daxili Qoşunlarının hərbi qulluqçuları arasından mərhələli hərbi komendantlıqlar tətbiq edilmişdir. 15/17 il sonra monoqrafiya yazanda məlum oldu ki, Spitak zəlzələsi bəhanəsi ilə Mariyos Yuzbaşıyanın rəhbərlik etdiyi Dövlət Təhlükəsizlik Komitəsinin vasitəsi ilə yaxın Şərq ölkələrindən xilasdedicilər adı altında ASALA terror qruplaşmalarının üzvüləri Ermənistana gətirilib. Onlara ağır və yüngül silahlar verilib. Belə "könüllülərin" sayı 1500 olub. Onlar sonralar Sovet Hakimiyyətinə qarşı Qarbağda partizan müharibəsinə başladılar.Həmçinin məlum oldu ki, Azərbaycandan yardım üçün gələn İL-76 təyyarəsi Zenit raket kompleksi ilə vurulub. Hansı ki, rəsmi olaraq bildirilirdi ki, pilot səhvi olub. Uçuş zamanı əsasız olaraq təyyarə endirilib və ya səbəb olub. (https://www.youtube.com/watch?v=AQXLS3YmDJQ)

Hamamlı zəlzələsində həlak olanlara şəhid adının verilməsi məhz ümummilli liderin dövründə həllini tapdı.Əslində bu hadisənin qəza deyil, terror olması məsləsinədə son qoydu.

Qəzada ölən 78 nəfərə 1994-cü ildə Prezident Heydər Əliyevin sərəncamı ilə şəhid statusu verilib.

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının" təsdiq olunması haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli 10 № li Qərarı və Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları 1.2.2.-ci maddəsinəd 11 dekabr 1988-ci ildə Leninakanda qəzaya uğrayan

təyyarədə həlak olmuş şəxslərdə həmin kateqoriyaya aid edilmişdir.

Qeyd: Hamamlı zəlzələsi ilə bağlı ayrıca kitab hazırladığım üçün bu müdhiş faciənin zərərləri barədə ictimaiyyətə daha geniş məlumat veriləcək.

QURAK SOYQIRIMI BİR ƏSRDƏ İKİ DƏFƏ FACİƏ YAŞAMIŞ VARTANA KƏNDİ

Vartanlı kəndi 1877-1878-ci illər müharibəsində Osmanlılar tərəfindən itirilən Qars paşalığına aiddir. Bölgənin ən böyük türk kəndlərindən biri kimi Çar Rusiyası dövründə İrəvan quberniyasının Gümrü (Aleksandropol) mahalına tabe edilib.

Onun xarabalıqlarına Ocaqqulu kəndi (indiki Arapı) ətrafında rast gəlmək olar.

Kənddə 1886-cı ildə 586, 1897-ci ildə 807, 1904-cü ildə 950, 1914-cü ildə 1039 nəfər sırf qarapapaq türkləri yaşayıb.

1918-1920-ci illərdə kənd erməni vəhşiliyinə məruz qalmış, viran qalmışdır. Qırğından sağ çıxanlar isə Anadoluya səpələnmişdilər.

Vartana – 1918-ci ildə 120 nəfər yandırılıb öldürülmüşdür. 1988-ci ildə yenə bu kənddə 16 nəfər yandırılıb məhv edilmişdir.

Bu gün xarabalıqdır. Köhnə qəbiristanlığın və evlərin izləri hələ də görünür.

1918-ci ildə Şörəyil - Qars mahalının Vartanlı kəndində 5 aylıq körpəni qapının bir dirəyinə, o biri dirəyinə isə ananı nizə ilə taxaraq qanları ilə divara «Ürəyi əmlik quzu və toğlu əti istəyən türklər buyursunlar» yazmışdılar (O zamankı Gümrü şəhər sakini, 2004-cü ildə rəhmətə getmiş Nənəxanım nənənin dediklərindən).

1988-ci ilin noyabrında erməni quldur dəstələri ilk soyqırımı aktını Quqark rayonunun Vartanlı kəndində törədib. Əvvəllər sırf azərbaycanlıların yaşadığı bu kənd Böyük Qarakilsə (sonralar Kirovakan, hazırda Vanadzor) şəhərinin inzibati-ərazisinə daxil olub. 1955-ci ildə kəndin adını dəyişdirərək Şaumyan qoyublar. 1964-cü ildə Quqark rayonu yaradılarkən Vartanlı kəndi həmin rayonun inzibati-ərazi bölgüsünə daxil edildi. Kirovakan şəhərinə bitişik, Kirovakan-Dilican magistral yolunun üzərində yerləşən bu kəndin yaxınlığında meşənin içərisində məktəblilər üçün istirahət düşərgələri salınıb. Yerli azərbaycanlılar və ermənilər bir qayda

olaraq bu kəndin adını "Vartana" deyə çağırırdılar. Lakin rəsmi sənədlərdə kəndin adı "Vartanlı" kimi qeyd edilirdi. Kənddə beynəlmiləl məktəb vardı. Qırğınlar ərəfəsində məktəbin direktoru azərbaycanlı, kənd sovetinin sədri isə erməni idi.

27 noyabr 1988-ci ildə Kirovakan şəhərində at oynadan daşnak terror qrupu Vartana kəndinə soxulmuşdur. Daşnak **Qazanstyan Samvelin** terror qrupu Bayramov Qaranı (evindən çıxmadığına görə) vəhşicəsinə qətlə yetirmişlər. **Lyova və Lendrum Xaçaturyan** qardaşları Hüseynova Leylini əzabla qətlə yetirirlər. **Vanesyan Samvelin** terror qrupu İsgəndərov Mehralını, arvadı Xanımı və 17 yaşlı Alimi vəhşicəsinə qətlə yetiriblər. **Qriqori Çavuşyanla Hamlet Qasparyanın** terror qrupu 1924-cü il təvəllüdlü Əliyev Abdullanı öldürmüşlər. Evlərini tərk etmədiklərinə görə Məmmədov Süleyman **Yosmedyan Surenin**, Alıyev Əhmədi isə Vazgenin terror qrupu qətlə yetirmişdir. Terrorçu **Zehranyan Suren** Əliyeva Fatmanı «Niva» markalı minik maşınının təkərləri altına salıb əzmişdir. Beləliklə, kənd əhalisini ölümlə təhdit edərək doğma ev-eşiyini tərk etməyə məcbur etmişlər.

Tarixçi Nazim Mustafa Quqark qırğını, Vartanlı faciəsinə işıq salır:

Vartanlı və Kuybışev kəndlərində ermənilərin törətdikləri qırğınları ört-basdır edən rəsmi orqanlar yalnız "atışma olmuşdur, Ermənistan türklərinin 1988-ci il soyqırımı tələfat var" ifadələri işlətməklə kifayətlənmişdilər. Vartanlı kəndi Kirovakan şəhərinə bitişik olmasına baxmayaraq, inzibati-ərazi bölgüsünə görə Quqark rayonuna daxil idi. XX əsrin əvvəllərində tamamilə azərbaycanlılar yaşayan Vartanlı kəndində 1988-ci ilin sonunda ermənilər çoxluq təşkil edirdilər. Ermənilər noyabrın 25- dən 26-na keçən gecə kəndə silahlı hücum etmişdilər. Həmin gün güclü qar yağır, boran əsirdi. Azərbaycanlılar əsasən kəndi tərk edib ətraf meşələrə çəkilməyə məcbur olmuşdular. Ümumiyyətlə, təkcə noyabrın 26-27-də Vartanlı kəndində 14 nəfər azərbaycanlı

vəhşicəsinə öldürülmüş və yandırılmışdır. Kəndin sağ qalan əhalisi qarlı-çovğunlu günlərdə dağlarla, meşələrlə gündüzlər gizlənib yalnız gecələr yol gedərək 13-14 gün ərzində Azərbaycana çatmışdılar. Onlarla vartanlılar dağlarda itkin düşdülər. Toqquşma zamanı aldıqları bədən xəsarətindən, yollarda tutulduqları xəstəlikdən sonra Azərbaycana gələn onlarla vartanlılı vəfat etmiş, bir çoxları ömürlük şikəst olmuşdular. Ümumiyyətlə, həmin dövrdə Quqark rayonunda ermənilərin törətdiyi qırğınlar nəticəsində 30-dan artıq azərbaycanlı qətlə yetirilmişdir. Quqark faciəsi Ermənistan rəhbərliyi tərəfindən ört-basdır edildi. Sonralar, yəni 1989-cu ildə Ermənistan KP MK bürosu Quqark rayon partiya komitəsinin birinci katibi L. Bağdasaryanı və RİK-nin sədri S. Kazaryanı işdən azad etməklə kifayətləndi. Vartanlı faciəsi öz ssenarisinə görə 1918-1920-ci illərdə İrəvan quberniyasında azərbaycanlılar yaşayan kəndlərə erməni quldurlarının hücumları zamanı törədilən vəhşiliklərin təkrarı idi. Erməni tarixçisi Leo (əsl adı Arakel Babaxanyandır) 1925-ci ildə Tiflisdə ermənicə çap olunan "Ançyaliç" ("Keçmişdən") əsərində erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri etiraf edərək yazır: "Daşnaksakanlar "silip-süpürməklə" (yəni azərbaycanlı kəndlərində etnik təmizləmə aparmaqla) məşğul idilər. Sürməli qəzasının türk (azərbaycanlı) əhalisinin xeyli hissəsi öz yaşayış yerlərindən qaçmışdılar. İrəvan və digər qəzalarda bir çox kəndləri dağıdılmış və yandırılmışdı. Erməni fidailəri heç bir faydası və zəruriyyət olmadan hətta elə kəndlərdə vəhşiliklər törədirdilər ki, həmin kəndlərdə türk əhalisi çox az olduğu üçün ermənilərə heç bir ziyan verə bilməzdi. Xüsusən Böyük Qarakilsə şəhərinin yanındakı Vartanlı kiçik türk kəndində törədilən qırğınlar həyəcanlandırıcı idi". 1918-ci ildə Vartanlıda törədilən qırğınlar düz 70 ildən sonra bir də təkrarlanmışdı. 1918-ci ilin Novruz bayramı günlərində ermənilər Vartanlı kəndinin kişi cinsindən olan bütün sakinlərini qoyun tövlələrinə toplayaraq hamısını yandırmışdılar. Qadınlar , körpələr meşələrə qaçaraq dağlarda tələf

olmuşdular. Deməli, ermənilər təkcə XX əsrdə Vartanlı kəndində iki dəfə azərbaycanlılara qarşı soyqırım törətmişlər. Təəssüf ki, dünya ictimaiyyəti Ermənistandakı nə 1918-1920-ci illər, nə də 1988- 1989-cu illər qırğınları haqqında xəbər tutmamışdır. 1988-ci ilin noyabrında Spitak (Hamamlı) rayonunda da azərbaycanlılara qarşı qırğınlar törədilmişdi. Noyabrın 28-də Spitak rayon İcraiyyə Komitəsinin sədri V. Haycyan, daxili işlər şöbəsinin rəisi rəisi V. Sarkisyan, DTK rayon şöbəsinin sədr müavini Mehrabyan rayonun azərbaycanlılar yaşayan Saral və Qusarlı kəndlərinə gəlib bildirmişdilər ki, onların təhlükəsizliyinə təminat vermirlər, ona görə də əgər iki saat ərzində kəndi tərk etməsələr, silahlı dəstələr kəndə hücum edəcəklər. Camaat onların təklifini rədd edir. Lakin Spitak və Quqark rayon rəhbərləri yenə gəlib təkidlə tələb edirlər ki, kənd camaatı tezliklə çıxmalıdırlar. Onlar özləri ilə 34 avtobus və 40 yükünü özüboşaldan maşın gətirmişdilər. Onların göstərişi ilə bir dəstə erməni sahiblərinin gözü qarşısında ev əşyalarını həyətə çıxarıb, od vururlar. Əhalini zorla avtobuslara mindirərək kəndlərdən çıxarırlar. Həmin avtobusları Spitak rayonun ərazisindən kənarda - Quqark rayonunun Mrqahovit (Həmzəçi-mən) kəndi yaxınlığında axşamdan xeyli keçmiş silahlı dəstələr gözləyirdilər. Spitak rayonunun rəhbərləri işi elə qurmuşdular ki, qan qonşu rayonun ərazisində tökülməli idi, bununla da onlar məsuliyyətdən kənarda qalacaqdılar. Gecənin qaranlığında yolun kənarında pusquda durmuş quldurların avtobusları atəşə tutması nəticəsində 3 nəfər (Balacayev Şahin Səyyad oğlu, Balacayev Teymur Məsim oğlu və Balacayeva Sürəyya Hüseyn qızı) həlak olmuş, 7 nəfər ağır yaralanmışdı. Ermənistanda azərbaycanlılara qarşı dəhşətli cinayətlər törədilən rayonlardan biri də Stepanavan (Cəlaloğlu) rayonudur. Kuybışev kəndinin sakinləri Təmraz Yusif oğlu İsgəndərov, Gilas Rüstəm qızı Xəlilova, Şərif Cabbar oğlu Xəlilov vəhşicəsinə döyülmüş və soyuq silahla qətlə yetirilmişlər. Gərgər kənd sakini, Puşkino kolxozunun sağıcısı Bəsti İsrafil qızı Mustafayeva isə Ermənistanda baş vermiş dəhşətli zəlzələdən

sonra, yəni bütün dünyanın Ermənistanın halına ağladığı bir vaxtda, 30 dekabr 1988-ci ildə diri-diri yandırılmış və meyiti zibillikdə gizlədilmişdi. Xeyli müddətdən sonra onun meyiti hərbçilərin köməyi ilə tapılmışdı. Yuxarıda adı çəkilən "Fəlakət anı, məsuliyyət anı" məqaləsində azərbaycanlıların hansı şəraitdə və necə deportasiya edilmələrinə qismən də olsa aydınlıq gətirilimişdi: "Qarabağ" komitəsi avantüristlərinin çağırışına millətçilik azarına tutulmuş bir sıra partiya-sovet işçiləri də qoşulmuşlar.

"20- əsrin əvvəllərində tamamilə azərbaycanlılar yaşayan Vartanlı kəndində 1988-ci ilin sonunda ermənilər çoxluq təşkil edirdilər. Kirovakan ermənileri Edik Martirosyanın başçılığı altında noyabrın 26-dan 27-nə keçən gecə kəndə silahlı hücum edirlər. Həmin gün güclü qar yağır, boran əsirmiş. Azərbaycanlıların əksəriyyəti erməni silahlılarından ibarət maşın karvanının kəndə daxil olduğunu görüb, evlərini tərk edib, ətrafdakı meşələrə tərəf çəkilməyə məcbur olublar.

Erməni quldurları əvvəlcə kənddə rastlarına çıxan Mehralı İsgəndərovu ağaca bağlayıb, onun gözləri qarşısında arvadı Xanım İsgəndərovanın boynuna kəndir keçirib hər cür təhqir edərək, kəndin içində gəzdiriblər. Onların 9-cu sinifdə oxuyan oğlu Alim hadisədən xəbər tutaraq ata-anasını xilas etmək üçün ov tüfəngini götürüb dağdan ermənilərə atəş açmağa məcbur olub. Ermənilər güllələri dolu kimi Alimin üzərinə yağdırıb. Yaralı Alimi ata-anasının gözləri qarşısında yanan tonqalın içinə atıblar. Bu dəhşətli mənzərəni görməmək üçün anası Xanım özünü Pəmbək çayına atıb ki, boğulsun. Ermənilər onu çaydan çıxarıb işgəncə ilə öldürüblər".

Nazim Mustafanın sözlərinə görə, vəhşicəsinə döyülüb hər cür təhqirlərə məruz qalan Mehralı İsgəndərov oradaca dünyasını dəyişib.

-Noyabrın 26-da "Qarabaq" hərəkatı fəallarının təhrikci çıxışlarından qızışmış 500 nəfər Kirovakan sakini Şaumyan (Vartanlı) kəndinə doğru hərəkət edib. Vuruşma iki gün davam

edib, silahlı atışma olub. Hadisə nəticəsində ölənlər olub. Bundan əlavə Kuybışev kəndində də qırğınlar törədilib, orada da tələfat olub. Hərəkatın fəallarının köməyi ilə yaradılmış "özünümüdafiə dəstələri" yollarda qoyduqları postlarda azğınlıqlar törədiblər. Azərbaycanlı kəndlərinə ərzaq köməyi göstərən ermənilər döyülürdülər.

Həmin ərəfədə Ermənistan SSR Ali Sovetinin, Nazirlər Sovetinin və KP MK-nın orqanı olan "Kommunist" qəzeti "Fəlakət anı, məsuliyyət anı" adlı məqlədə dərc olunmuşdu. Ermənistan mətbuatı Şaumyan (əvvəlki adı Vartanlı) qırğınları haqqında yalnız "atışma olmuşdur, tələfat var" sözlərini qeyd etməklə kifayətlənmişdi. Azərbaycan MK-nin orqanı olan Kommunist qəzeti isə bu barədə ümumiyyətlə heç bir məlumat vermirdi.

Şaumyan (Vartanlı) kəndi Kirovakan şəhərinə bitişik olmasına baxmayaraq, inzibati-ərazi bölgüsünə görə Quqark rayonuna daxil idi. Şaumyan (Vartanlı) faciəsi öz ssenarisinə görə 1918-1920-ci illərdə Gümrü-Qarakilsə bölgələrindəki silahsız azərbaycanlılar yaşayan kəndlərə erməni quldurlarının hücumları zamanı törədilən vəhşiliklərin təkrarı idi.

Ermənistan Respublikası Prokurorluğunun bu cinayət işi ilə bağlı SSRİ Prokurorluğuna göndərdiyi cavabında deyilir:

İsgəndərov Mehralı Həsən oğlu, 1938-ci ildə anadan olmuş, Vartanlı kənd sakinidir. 1988-ci ildə millətlərarası toqquşma nəticəsində öldürülüb, Vartanlı kənd qəbiristanlığında basdırılıb. Onun meyiti 1989-cu ilin sonunda qohumları tərəfindən çıxarılaraq Azərbaycanda yenidən dəfn edilib.

SSRİ Prokurorluğu cinayət işi qaldırıb. Cinayətkarlar tapılmayıb: "İsgəndərovların üçünün də haqqında verilən cavabın sonunda deyilir: "Cinayətkarlar tapılmayıbdır." Görəsən, bütöv kənd camaatının gözü qarşısında baş verən qırğınların icraçılarını doğurdanmı SSRİ Prokurorluğunun işçiləri əlləşib aşkara çıxara bilməyiblər? **1941-1945-ci illər müharibəsində bir qolunu itirmiş 69 yaşlı Qərib Bayramovun evi kəndin yuxarı hissəsin-**

də olduğundan, İsgəndərovların faciəsindən geç xəbər tutub. Çayın kənarına enib meyitləri gördükdən sonra evə qayıdıb üstlərini örtmək üçün bir şey gətirmək istəyib. Bu vaxt arxadan onu balta ilə vurub yanan tonqalın içinə atıblar. Ermənistan Prokurorluğunun cavabında isə deyilir: "Bayramov Qərib İsmayıl oğlu, 1919-cu ildə anadan olmuş, Şaumyan kəndinin keçmiş sakini, 1988-ci ildə Şaumyan kəndinin erməni əhalisi tərəfindən öldürülmüş, meyit yarı yandırılıb" Öz qonşusunun başına arxadan endirdiyi zərbədən qanına qəltan edilən, kəndin ağbirçəyi Hüseynova Leyli haqqında göndərilən cavabda deyilir: **"Hüseynova Leyli Həsən qızı, 1925-ci ildə anadan olub, Vartanlı kəndinin sakini, 1988-ci ilin noyabrında millətlərarası toqquşma nəticəsində öldürülüb və Vartanlı kənd qəbiristanlığında basdırılıb. 1989-cu ilin axırlarında onun meyiti qohumları tərəfindən Azərbaycana aparılıb yenidən dəfn edilib. SSRİ Prokurorluğu cinayət işi qaldırmış, cinayətkarlar tapılmayıb".**

Sumqayıt faciəsi zamanı yüzlərlə azərbaycanlı ailəsinin öz həyatlarını təhlükə qarşısında qoyaraq, erməni qonşularını qəzəblənmiş kütlənin təhlükəsindən xilas etmələri haqqında mətbuatda çox yazılıb. Lakin Vartanlı ermənilər bu cür insani hisslərdən uzaq idilər. Onlar azğınlaşmış dəstənin önündə gedir, azərbaycanlıların sığındığı evləri nişan verirmişlər. Azğınlaşmış dəstəyə isə Şaumyan kənd sovetinin sədri C.Arakelyan bələdçilik edib. Süleyman Məmmədov qonşusu Mexaqın evində gizlənibmiş. Mexaq isə onu quldurlara təhvil vermiş, onlar isə maşın təkərlərini yandırıb S.Məmmədovu diri-diri odun içinə atmışdılar. Namərd qonşu isə tutduğu işdən həzz ala-ala, tükürpədici səhnəyə tamaşa etmişdi. Cinayətkarlar yenə də "tapılmayıb".

Ermənistan Prokurorluğunun cavabı: "Məmmədov Süleyman Qənbər oğlu, 1938-ci ildə anadan olmuş, Vartanlı kəndi sakini, 1988-ci ilin noyabrında millətlərarası toqquşma nəticəsində öldürülüb və Vartanlı kənd qəbiristanlığında

basdırılıb. 1989-cu ilin axırında qohumları tərəfindən Azərbaycanda yenidən dəfn edilib. SSRM Prokurorluğu cinayət işi qaldırmış, cinayətkar tapılmayıb."

Ümumiyyətlə, təkcə noyabrın 26-27-də Vartanlı kəndində 14 nəfər azərbaycanlı vəhşicəsinə öldürülüb və yandırılıb. Kəndin sağ qalan əhalisi qarlı-çovğunlu günlərdə dağlarla, meşələrlə gündüzlər gizlənib yalnız gecələr yol gedərək 13-14 gün ərzində Azərbaycana çatıblar. Onlarca vartanlılar dağlarda itgin düşüblər. Toqquşma zamanı aldıqları bədən xəsarətindən, yollarda tutulduqları xəstəlikdən sonra Azərbaycana gələn onlarca vartanlılı vəfat edib, çoxları şikəst olub. Ümumiyyətlə, Quqark rayonunla ermənilərin törətdiyi qırğınlar nəticəsində 30-dan artıq azərbaycanlı qətlə yetirilibdir.

Quqark faciəsi Ermənistan rəhbərliyi tərəfindən ört-basdır edilib. Sonralar, yəni 1989-cu ildə Ermənistan KP MK bürosu Quqark rayon partiya komitəsinin birinci katibi LBağdasaryanı və RİK-nin sədri S.Kazaryanı işdən azad etməklə kifayətlənib.

Stepan Ayvazyan: "Meyitləri yandırdılar ki, onları tanıyan olmasın…"

Hazırda Vanadzor şəhərində yaşayan jurnalist Mane Papyanın 29 aprel 2015-ci il tarixində www.epress.am saytında "События в Гугарке. Как громили азербайджанцев в Армении" başlıqlı yazısı yerləşdirilib. Mane Papyan faciəli hadisələrin baş verdiyi Vartanlı kəndinə gedərək hadisənin canlı şahidləri ilə söhbət edib. Həmin məqalədə Vartanlı qırğınlarının baş verdiyi zaman Kirovakan şəhər prokuroru olmuş Qriqori Şahverdyanın jurnalistə verdiyi məlumatlardan aydın olur ki, Sumqayıt hadisələri ərəfəsində Ermənistanda milli münasibətlər gərginliyinin pik həddinə çatıbmış.

Şahverdyanın dediyinə görə, 1988-ci ilin mart-noyabr aylarında Quqark rayonunda 634 azərbaycanlının işdən qovulmaları barəsində onun əlində rəsmi sənəd vardır. Qriqori Şahverdiyanın sözlərinə görə, həmin günlərdə Kirovakan şəhərində 7 azərbay-

canlının qətlə ytirilməsi faktı istintaq materiallarında öz əksini tapıb.

"Qarabağ" komitəsinin keçmiş üzvü Artur Sakuns da etiraf edib ki, gecə vaxtı Quqark rayonunun Arçut kəndindən azərbaycanlıları aparan avtobuslara ermənilər yolda hücum etmişdilər.

Mane Papyan yazır: "Rəsmi məlumata əsaən o zaman Vartanlı kəndində 11 azərbaycanlı öldürülüb. Bu hadisə təkcə Ermənistanda deyil, onun hüdudlarından kənarda da böyük əks-səda döğurdu. Təqsirkarları aşkar etmək üçün Moskvadan 100 nəfərdən artıq istintaq qrupu gəlir. Quqark rayon Partiya Komitəsinin bürosu birinci katib Lavrenti Bağdasaryanı, İcraiyyə Komitəsinin sədri Samvel Qazaryanı və Şaumyan milisinin bütün əmədaşlarını işdən azad edildi.

Şaumyan kəndində həmin günlərdə məktəb direktorunun müavini işləmiş Rima Sarqsyan 9 sinifdə oxuyan bir azərbaycanlı şagirdin ermənilər tərəfindən qayadan atılaraq öldürüldüyünü müxbirə söyləyir.

Vartanlı kəndinin sakini olan Samvel adında bir qatil kəndi tərk edərək dağlara çəkilən azərbaycanlıları necə güllələdiyini, onları sıldırımlı qayalardan necə tulladığını müxbirə fəxrlə danışıb. Moskvadan gəlmiş istintaq qrupu Samveli həbs etsə də, sonradan azad edibmiş. Mane Papyana verdiyi müsahibəsi zamanı Samvel vaxtilə azərbaycanlıları qətlə yetirdiyi silahların fonunda şəkil çəkdirib.

Şaumyan sakini Stepan Ayvazyan isə kənddə qalmış azərbaycanlıların Kirovakandan gəlmiş ermənilər tərəfindən öldürüldüklərini və sonra isə yandırıldıqlarını etitaf edib:

"Vanadzordan gələn qruplar Edik Martirosyanın rəhbərliyi altına Şaumyana gəldilər. Meyitləri yandırırdılar ki, onları tanıyan olmasın".

Direktor müavini Rima Sarqsyan xatırlayır ki, azərbaycanlılardan biri qaçıb məktəbə giribmiş, ermənilər onu tutaraq yandırırlar. Rima Sarqsyan azərbaycanlının yandırıldığı yeri müxbirə

göstərir.

Azərbaycanlılara qarşı Vartanlıda soyqırım törədilməsindən dərhal sonra ermənilər onların evlərini zəbt etmiş, daha sonra isə kəndin qəbiristanlığını vandalcasına dağıdırlar.

Vartanlı qırğınlarının ssenarisini ermənilər 1990-1992-ci ildə daha geniş miqyasa Bağanis-Ayrımda, Kərkicahanda, Qara-dağlıda, İmarət Qərvənddə, Ağdabanda, Xocalıda və onlarla digər yaşayış məntəqələrində törədirlər.

Təəssüf ki, 1988-ci ilin noyabrında Vartanlı kəndində ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımın icraçıları indiyədək cəzasız qalıb və bu vaxtadək həmin cinayətlərin miqyası da olduğu kimi dünya ictimaiyyətinə çatdırılmayıb.

Vartanlı kəndində törədilən sülh və insanlıq əlehinə olan cinayətlərin hüquqi aspektləri

Beynəlxalq hüquqa görə soyqırım etnik, irqi, dini və ya milli qrupun düşünülmüş və sistematik şəkildə tam və ya qismən məhv edilməsidir. "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın (SCQACK) 2-ci maddəsində "milli, etnik, irqi və ya dini qrupu tamamilə və ya qismən məhv etmək niyyəti ilə törədilmiş hərəkətlərdən biri" kimi nəzərdə tutulub.

1998-ci ildə Romada qəbul olunmuş Beynəlxalq Cinayət Məhkəməsi (BCM) Statutunun 5-ci maddəsində aşağıdakı beynəlxalq cinayətlər sadalanır: soyqırım, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və təcavüz cinayəti. Lakin bunlardan təcavüzlə bağlı məsuliyyətə cəlbetmə, ümumiyyətlə, bu cinayətin tərifinin tam və qəti müəyyən olunmaması səbəbindən uzun müddət dayandırılmışdı. 2010-cu il tarixli Kampalada qəbul olunmuş razılaşmaya əsasən, 1 yanvar 2017-ci il tarixində BCM artıq bu cinayətə görə də yurisdiksiyaya malikdir. Qeyd edək ki, Statutun müddəalarına görə, Roma Statutu onun qüvvəyə minməsindən əvvəl törədilmiş cinayətlərə şamil edilmir (retroaktivlik prinsipi).

Lakin fikrimizcə, burada soyqırım və təcavüz cinayətlərinə münasibətdə fərqli münasibət olmalıdır. Belə ki, “Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında” Konvensiyanın tətbiqi üzrə Beynəlxalq Məhkəmənin 26 fevral 2007-ci il tarixli qərarında qeyd olunur ki, bu işdə Məhkəmənin səlahiyyəti yalnız Konvensiyanın 9-cu maddəsi ilə məhdudlaşır. Buradan belə nəticəyə gəlmək olar ki, Məhkəmə Konvensiyada beynəlxalq hüquqla nəzərdə tutulmuş öhdəliklərin pozuntuları arasında xüsusilə soyqırım cinayəti ilə bağlı müstəsna qərar çıxarmaq səlahiyyətinə malikdir. Eyni zamanda Konvensiyanın 9-cu maddəsi istənilən dövlətə imkan verir ki, soyqırım cinayətinə görə beynəlxalq instansiyalarda mübahisə tərəflərindən hər hansı birinin sorğusu əsasında məsuliyyət məsələsini qaldırsın.

ÇALXANQALAYA KÖÇ

Sonuncu etnik təmizləmə artıq 1988-ci ildə sürətlənməyə başladı. Azərbaycan türklərinin yurd yeri olan Qərbi Azərbaycanın Dərələyəz mahalının Gomur, Gabud, Axta, Zeytə, Gülüstan, Kotanlı, Amagu, Gədikvəngi, Ələyəz, Qovşuq, Ağkənd, Hors, Qaraqaya, Qabaxlı, Çivə kəndləri Vedibasar mahalının Şidli, Armaş, Dəvəli , Qarkilsə mahalının Murxuz kəndinin əhalisinin bir hissəsi Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Əznəbürt kəndində köçməli oldular. Sonradan Azərbaycan Respublikası Milli Məclisi 19 mart 2004-cü il qərarı ilə Əznəbürt kəndi adı dəyişdirilərək Çalxanqala oldu. Kəndi Gəngərli rayonu yaradılanda Gəngərli rayonun inzibati ərzasinə daxil etdilər.

Əznəbürd oyk, mür. Babək r-nunun eyniadlı i.ə.v.-də kənd. Arazboyu düzənlikdədir. Əznəbird variantında da qeydə alınmışdır. Oykonim əznə/azna (türk dillərində "dar keçid") və bürd/bird (er. "qala") komponentlərindən düzəlib, eyniadlı qala xarabalığının adındandır.

Çalxanqala (Kəngərli)
1.670 nəf. (1971
Əhalisi 2181 nəfərdir

Çalxanqala — Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunda kənd.

Çalxanqala Kəngərli rayonunun eyniadlı kənddir. Cəhri çayının sağ sahilində, Dərələyəz silsiləsinin ətəyindədir. XIX əsrdə gəlmə ermənilər orada yerləşdirildikdən sonra 1990-cı ilədək Əznəbirt (türk. və er. "yüksək qala") adlandırılmışdı. 1990-cı ildən kənd yaxınlığındakı tunc dövrünə aid iri qaya daşlarından tikilmiş Çalxanqala adlı qalanın adı ilə adlandırılmışdır. Oykonim Çalxan/çelkan (etn.) və qala (tikili) sözlərindən düzəlib, "çelkanların qalası" deməkdir. Etnotoponimdir. Qalanın yerləşdiyi Kəmərdağ da bəzən Çalxaşala dağı adlanır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust Tarixli 132 nömrəli qərarı ilə təsdiq edilmişdir 1 nömrəli əlavə Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısında (Memarlıq abidələri) 50-ci qrafada Çalxanqala qalası; Çalxanqala kurqanları Tunc dövrü Babək rayonu, Çalxanqala kəndi – yer almışdır.

Çalxanqala Kurqanları

Çalxanqala Kurqanları konusvari formada olub, diametri 8-10 m, hündürlüyü 1,2 m-dir. Çalxanqala kurqanları altında dördkünc formalı torpaq qəbirlər yerləşir. Kurqanlardan gil məmulatı — çəhrayı astarlı qara qablar, o cümlədən boyalı qablar, boz rəngli qablar və sair, tunc xəncərlər, nizə ucları, skelet qalıqları, bəzək əşyaları — sancaq, düymə, muncuqlar və sair əşyalar tapılmışdır.

Kurqanlardan aşkarlanmış boyalı qablar Qızılvəng, Zurnabad, Nəhəcir, I və II Kültəpələrdən tapılmış qablarla tam oxşardır. Müxtəlif formalı boyalı gil qabların üzəri tünd qırmız rənglə örtülmüş, qara rəngli həndəsi naxışlarla bəzdilmişdir. Bu cür qabların

Kür-Araz mədəniyyətinin təsiri ilə meydana çıxdığı ehtimal edilir.

Tunc xəncər yastı tiyəli və qısa dəstəklidir. Nizə ucları isə iki növlüdür. Boruşəkilli dəstəyi olan nizə ucu Orta Tunc dövrü üçün, romb formalı yastı nizə ucu isə Kür-Araz mədəniyyəti üçün səciyyəvi olub, Qobustan kurqanlarından tapılmış nizə ucları ilə oxşardır.

Çalxanqala kurqanlarında Yaxın Şərq ölkələrindən gətirilmiş göy şirli muncuqlar da aşkar olunmuşdur. Çalxanqala kurqanlarının tapıntıları Azərbaycanın, o cümlədən Naxçıvanın Tunc dövrü materiallarını və Yaxın Şərq ölkələri ilə qədim iqtisadi və mədəni əlaqələrini öyrənməyə imkan vermişdir.

Gomur 98 ailə 346 nəfər
Gabud 48 ailə 154 nəfər
Axta 3 ailə 19 nəfər
Zeytə 57 ailə 250 məfər
Gülüstan 66 ailə 240 nəfər
Kotanlı 3 ailə 11 nəfər
Amagu 72 ailə 267 nəfər
Gədikvəngi 48 ailə 171 nəfər
Ələyəz 10 ailə 37 nəfər
Qovşuq 3 ailə 10 nəfər
Ağkənd 21 ailə 87 nəfər
Hors 2 ailə 7 nəfər
Qaraqaya 8 ailə 29 nəfər
Qabaxlı 5 ailə 16 nəfər
Çivə 9 ailə 29 nəfər
VEDİBASAR
Şidli 19 ailə 62 nəfər
Armaş 18 ailə 81 nəfər
Dəvəli 35 ailə 145 nəfər
QARKİLSƏ
Murxuz 3 ailə 8 nəfər
KƏVƏR 2 ailə 4 nəfər

ÇALXANQALA KƏND İCRA NÜMAYƏNDƏSİ İŞLƏMİŞ ŞƏXSLƏR

1 **Mehtiyev Mehti Fərhad oğlu** - 1938-ci ildə Paşalı rayonunun Zeytə kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Riyaziyyat fakültəsini bitirmişdir. 1989-1995-ci illərdə Çalxanqala kənd İcra Nümayəndəsi işləmişdir. Vəfat edib.

2. Məmmədov Arif Rəşid oğlu - 1957-ci ildə Keşişkənd rayonu Gədikvəng kəndində anadan olmuşdur. Naxçıvan Pedeqoji İnstitutu Riyaziyyat Fakültəsini bitirmişdir. 1995-1996-ci illərdə icra nümayəndəsi işləmişdir.Haliyədə Bakı şəhərində yaşayır.

3. Ağammədov Vaqif Kazım oğlu - 1950-ci ildə Paşalı rayonu Gülüstan kəndində anadan olmuşdur. Naxçıvan Pedaqoji İnstitutu Dil Ədəbiyyat Fakültəsini bitirmişdir.1996-2003-cü illərdə icra nümayəndəsi işləyib. Çalxanqala kəndində yaşayıb.

4. İbrahimov Məhəmməd Mehbalı oğlu - 1939-cu ildə Keşişkənd rayonu Gədikvəng kəndində anadan olmuşdur. Gəncə Kənd Təsərrüfatı İnstitutunun Baytarlıq Fakültəsini bitirib. 2004-2009-cu illərdə İcra Nümayəndəsi işləyib. Vəfat edib.

5.**Həsənov Səxavət Kamil oğlu** - 1975-ci ildə Paşalı rayonu Gömür kəndində anadan olub.Türkiyə Uludağ Universiteti fənn ədəbiyyat-tarix fakültəsini bitirib. 2009-2011-ci illərdə İcra nümayəndəsi işləyib.Çalxanqala kəndində yaşayır.

6. **Xaliqverdiyev Xaliqverdi İsa Oğlu** 1979-cu ildə Paşalı rayonu Gabut kəndində anadan olmuşdur.Naxçıvan Ali Diplomatiya kollecini bitirmişdir. 2012-2015-ci illərdə İcra nümayəndəsi işləyib.Çalxanqala kəndində yaşayıb.

7. **Səmədov Əbdürrəhman Yusif oğlu** - 1980-ci ildə Paşalı rayonu Gönür kəndində anadan olmuşdur.Naxçıvan Dövlət Universiteti Fizika Riyaziyyat sonra Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəetmə Akademiyası Dövlət və Bələdi-

yələrin idarə edilməsi fakültəsini bitirmişdir. 2015-2024-cü illərə və Haliyədə Çalxanqala kənd icra nümayəndəsi işləyir.

Çalxanqala Kənd Bələdiyyəsi işləmiş şəxslər.

1. 1999-2000-ci illərdə Cəfərov Cəfərqulu Almərdan oğlu Keşişkənd rayonu Ələyəz kəndi
2. 2001-2004-cü illərdə Səmədov Yusif Əbdürrəhman oğlu Paşalı rayonu Gömür kəndi
3. 2005-2006-cı illərdə Qəhrəmanov Azər Yaqub oğlu Keşişkənd rayonu Əmağu kəndi
4. 2007-2009-cu illərdə Vəliyev Şahzadə Allahverdi oğlu Paşalı rayonu Gabut kəndi
5. 2010-2017-ci illərdə Ağalarov Nəriman Qəhrəman oğlu Paşalı rayonu Gabut kəndi
6. 2018-2024-cü illerdə Ağammədov Asif Əzim oğlu Paşalı rayonu Gülüstan kəndi

ÇALXANQALA KƏND UŞAQ MUSİQİ MƏKTƏBİ

Çalxanqala kənd uşaq Musiqi məktəbi 01.sentiyabr 1993-ci il də açılmışdır. İlk direktor Teymurov Namiq olmuşdur. 1998-ci ildə Əliyev Yadigar Nuracan oğlu direktor keçmişdir. Əliyev Yadigar 2016-cı ilə qədər direktor kimi fəaliyyət göstərmişdir. 2016-cı ildə İbrahimov Ehtiram İsa oğlu direktor olmuşdur. Daha sonra 2022-ci il iyun ayında Zeynəb Yusifova direktor olmuş və hal-hazırda Çalxanqala kənd Uşaq musiqi məktəbinin direktoru Zeynəb Yusifovadır.

Çalxanqala uşaq musiqi məktəbində fortepiano, nağara, xanəndə, tar, saz, kamança, balaban, klarnet, vokal, solfecio sinifləri vardır. Və 143 şagird hal -hazırda təhsil alır. Şagirdlərin əksəriyyəti Qərbi Azərbaycandan köç etmiş sakinlərdir. Müəllim kollektivinində yarısı Qərbi Azərbaycandan gəlmədir. Məhz buna

görədə məktəbimizdə Zeynəb Yusifova tərəfindən xalq çalğı alətlərindən ibarət "Dərələyəz" ansamblı yaradılmışdır. Və ansamblı Qərbi Azərbaycandan gələn müəllimlər ifa edirlər. "Dərələyiz" ansamblının bədii rəhbəri Röyşan Məmmədovdur. Röyşan Məmmədov Qərbi Azərbaycan ailəsində anadan olmuşdur. "Dərələyiz" ansamblı 2023-cü il sentiyabr ayında yaradılmışdır.

Məktəbimizdə "Göyçə" saz çalanlar ansamblıda fəaliyyət göstərir. Eyni zamanda məktəbimizdə milli alətlərimizdən olan saz, balabana geniş yer verilir. Məktəbizin şagirdlərinin müsabiqələrdə qablibiyyətliyi vardır. Şagird və müəllimlərimizin "Qərbi Azərbaycana Qayış" festival-konqresində iştirakları olmuşdur.

DƏRƏLƏYİZ ANSAMBLI

Dərələyiz ansamblı 2023 cü il 15 sentyabr tarixində Çal-xanqala kənd uşaq musiqi məktəbinin Qərbi Azərbaycanlılardan ibarət müəllim və şagirdlərinin iştirakı ilə yaradılmışdır.Yarandığı tarixdən bir çox yüksək səviyyəli tədbirlərdə iştirak etmiş ansambl öz fəaliyyətini uğurla davam etdirir.Ansamblın bədii rəhbəri məktəbin tar ixtisası üzrə müəllimi Röyşan Məmmədovdur.Qərbi Azərbaycanın Keşişkənd rayonundan qaçqın düşmüş ailədə anadan olmuş gənc müəllim bir çox konsertlərdə ansambla rəhbərlik edir..Ansamblın digər üzvləri kamança aləti üzrə Göyçə mahalındanmüəllim Zakir Məmmədov,bas tar aləti üzrə Keşişkənd rayonundan müəllim Etiram İbrahimov,nağara aləti üzrə Kərbibasar mahalından müəllim Tarverdi Bağırov,qarmon ixtisası üzrə Vedi rayonundan müəllim Xəyal Muxtarov,xanəndə Keşişkənd rayonundan İlham Məmmədov,qoşa nağarada Qafan rayonundan qaçqın düşmüş ailədə anadan olmuş məktəbin şagirdi Rüzgar Əliyev,balabanda Keşişkənd rayonundan qaçqın düşmüş ailədə anadan olan məktəbin şagirdi Elnur Məmmədlidir.Muxtar Respublika səviyyəsində tanınmış ansambl yaxın müddət ərzində diqqətləri cəlb etmişdir.

GÖYÇƏ SAZÇALANLAR ANSANBILI

Göyçə sazçalanlar ansambılı 2023 cü ildə Səkinə Məmmədovanın rəhbərliyi ilə yaradılmışdır. Tez bir zamanda böyük fəaliyyətlər qazanan ansambıl bir çox dövlət tədbirlərində etdiyi çıxışlarla böyük şöhrət qazanmışdır. Ansambılın bədii rəhbəri Səkinə Məmmədova qərbi Azərbaycanın Keşişkənd rayonundan qaçqın düşmüş ailədə anadan olmuşdur .Ansambılın üzvləri Çalxanqala kənd uşaq musiqi məktəbinin saz ixtisasi üzrə şagirdləri Əsgərli Fəridə ,Nəcəfzadə Yağmur,Bayramova Fidan, Nəbiyeva Səma, Ağalarova Yağmur və s. eyni zamanda bu uşaqlar tarix boyu başi olmazın bəlaların çəkən Göyçə mahalınnan Qərbi Azərbaycannan qaçqın düsmüş ailələrin uşaqlarıdır . Göyçə sazçalanlar ansambılı ”Naxçıvan Muxtar Respubilkasının 100 illik yubleyinə həsr olunmuş” “ Naxçıvan istedadları “ incəsənət festivalının yekun tədbirində iştirak etmiş və xüsusi yerə layiq görülmüşdürlər.

Kəngərli rayon Çalxanqala kənd uşaq musiqi məktəbində Nağara çalanlar ansambli 2021-ci il noyabrın 1-i həmin məktəbin Nağara ixtisası üzrə müəllim Tarverdi Bağırovun bədii rəhbərliyi altında qurulmuş və yarandığı tarixdən etibarən bir çox yüksək səviyyəli tədbirlərdə uğurla iştirak etmişdir. Nağara çalanlar ansamblı 12 nəfər şagirdlərin iştirakı ilə öz fəaliyyətini dəvam etdirir. Musiqi məktəbi daxilində çoxlu tədbirlərdə iştrak etmiş və rayon tədbirlərində də uğurlu çıxışlar və nailiyyətlər əldə etmişlər. Muxtar Respublika səviyyəsində tanınmış ansambl yaxınmüddət ərzində diqqətləri cəlb etmişdir.

ŞƏXSİ HƏYAT HƏQİQƏTLƏRİNİN XARAKTERİK CİZGİLƏRİ VƏ İCTİMAİ MƏZMUNU

Azərbaycanın tarixi torpaqları olan qədim Oğuz məskəni Qərbi Azərbaycanın müxtəlif bölgələrindən doğma yurdu zorla tərk edilməyə məcbur olmuş hər bir şəxsin şəxsi həyata həqiqətləri, onun bioqrafiyası, yaşantıları, köçlə bağlı məruz qaldığı sosial, mədəni, siyasi diskriminasiya ictimai məzmun daşımaqla onların tədqiq edilməsinin zəruriliyi şərtləndirir. Bundan əvvəl "Qərbi Azərbaycandan Deportasiya: İmirlidə məskunlaşma" adlı kitabımızda toplanmış şəxsi hekayələr bölməsindəki səciyyəvi çalarlar, əsasən, 1948-1951-ci il məcburi deportasiyasını əks etdirdiyi üçün eyni məzmunlu məlumatlara rast gəlirik. Burada Qərbi Azərbaycanda (Ermənistan SSR) köç ərəfəsində doğulan uşaqlara Ermənistan SSR-nin doğum haqqında şəhadətnaməsinin verilməməsi, köçə məruz qalmış əhalinin təhsil hüququnun ciddi şəkildə pozulması, (dağlıq iqlim şəraitindən aran şəraitinə köçurulmə) əhalinin yerli iqlimə uyğunlaşmaması, əhalinin mülkiyyət hüququnun pozulması və.s pozuntular müşahidə edirik.

Bir məsləni də qeyd etməliyəm ki, əvvəlki araşdırmada bu yöndən toplanan məlumatları şəxsi hekayələr və bioqrafik məlumatlar adı ilə kitaba daxil edilmişdir. Bu terminologiyaya münasibətdə çox dəyər verdiyim filologiya elmləri doktoru, dilçi professor Mahirə Hüseynova hekayə sözünün həyat həqiqətlərinə bəddi çalar qatdığını əsas gətirərək bu başlıq qaltında toplanan məlumatları digər formatda təqdim etməyi tövsiyə etdi. Odur ki, şəxsi hekayələr deyil, burada həyat həqiqətləri kimi təqdim edilməsini məqsədyönlü hesab etdik.

Hazırki araşdırma zamanı isə həyat həqiqətlərinin başqa cizgilərinə rast gəldik. Sonuncu etnik təmizləmənin ən faciəvi tərəflərindən biri məhz kütləvi qətlərin həyata keçirilməsi idi.

1948-1951-ci illərdə dolayısı ilə həyata keçirilən deportasiya və soyqırımı 1988-ci illlərdə açıq şəkildə həyata keçirildi. Əgər 1948-1951-ci illərdə deportasiya ilə əlaqədar minlərlə insan iqlim dəyişikliyi, psixoloji sarsıntı və.s nəticəsində dünyasını dəyişir-disə, sonuncu etnik təmizləmə zamanı qətllər, qarətlər açıq xarakter aldı. Burada bir sıra faktorlar sonuncu etnik təmizlən-mənin həyata keçirilməsində əsas rol oynadı.

1) SSRİ rəhbərliyinin hadisələrə loyal münasibəti, məqsəd-yönlü şəkildə etnik təmizlənməyə şərait yaradılması.

2) Erməni rəhbərliyinin etnik təmizləmədə müxtəlif vasitələr-dən istifadə edərək sialhsız əhaliyə qarşı zorakılıq, qətillərin həyata keçirilməsi, erməni əhalisinin ayrı-ayrı terror təşkilatlarında, o cümlədən "Kurunk" və "Qarabağ" adlı təşkilatların tərkibində təşkilatlanması.

3) Azərbaycan o vaxtkı rəhbərliyinin hadisələrə qeyri-adek-vat, səriştəsiz və müti münasibəti. Ermənistan əraizisində əhalinin hüquqlarının qorunmasına yardımçı olmamaq. Hadisələri gizlət-mək və s.

Xüsusi ilə bu məsələdə Azərbaycanın o dövrkü səriştəsiz rəhbərliyinin fəaliyyəti acı təəssüf doğurur. Belə ki, yuxarıda qeyd edildiyi kimi Ermənistanda olan Azərbaycan türklərinin orada qalmasına dəstək olmamaqla bərabər, **həmçinin oradakı** əhalinin təhlükəsiz şəraitdə çıxmasına dəstək olmamaq, eyni zamanda əhalinin Ermənistan ərazisində çıxmasını gizlətmək, oradan gələn əhaliyə ögey münasibət bəsləməklə etnik təmizlənməyə şərait yaratmış oldular.

Belə olan halda əhalinin Ermənistan ərazisindən təhlükəsiz şəraitdə çıxarılması böyük əhəmiyyət daşıyırdı. Çünki Ermənistan ərazisində iki yüzdən artıq Azərbaycan türkü vəhşicəsinə qətlə yetirilmişdir. Qukar rayonun Vartanlı kəndində onlarla insana qarşı soyqırımı həyata keçirilmişdir. Toplanmış informasiyalar

içərisində professor Mahirə Hüseynovanın bizə təqdim etdiyi "Sarsılmaz kövrək adam..." adlı yazıda məhz Dərələyəz ərazisindən Naxçıvanın Çalxanqala kəndinə əhalinin köçürülməsində fədakarlıq göstərmiş Ələsgər Nağıyevin nümunəsində yalnız belə fərdi təşəbbüslərin şahidi oluruq. Əlbəttdə ki, bu da acı təəssüf doğurmaya bilməz.

Toplanmış həyat həqiqətləri və bioqrafik məlumatlar bütünlükdə Qərbi Azərbaycan türkləri ilə bağlı olduğu üçün ictimai məzmun daşıyır. Xiristian güc mərkəzləri tərəfindən türk dünyasının torpaq bütünlüyünü pozmaq məqəsdi ilə Qərbi Azərbaycan ərazisində süni şəkildə yaradılmış erməni dövlətinin təsis olunmasına qurban gedən milyonlarla insanı əhatə edən bir toplumdan söhbət gedir. Bütöv Azərbaycanın ən vacib bir hissəsi olan Qərbi Azərbaycan ərazisində monoetnik süni bir dövlətin yaradılmasına qurban gedən Azərbayacan türkləri.

Həyat həqiqətləri ilə bağlı informasiyaların toplanmasında, professor Mahirə Hüseynovaya, ADPU-nin filologiya fakültəsinin dekanı, dosent Könül Həsənovaya, Dərələyəz mahalı Amağu kənd sakini filoloq, MHM-nin əməkdaşı Ləman Qəhrəmanovaya, MHM-nin əməkdaşı, layihənin köməkçisi Bəyaz Ağazadəyə, Dərələyəz mahalı, Ələyəz kənd sakini Telman İbrahimova və Çalxanqala Musiqi Məktəbinin direktoru Zeynəb Yusifovaya da təşəkkür etməyi özümə borc bilirəm.

SARSILMAZ KÖVRƏK ADAM...

Həyatda sıxıldığım, qəhərləndiyim, qəhərimdən boğulduğum anlar çox olub. Düşünmüşəm ki, mən necə özümə gələ bilərəm bundan sonra?! Bəlkə də, yerinə düşmür, amma yenə də deməliyəm. Heç kəs ölməsin, bu gözəl dünyamıza "əlvida" deməsin. Amma bu həyatdır da olur və olmalıdır. Qadınlar – analar dünyadan köçəndə özümü toplaya bilmirəm... Kişilər qəhərlənəndə dünyam dağılır. Nə boyda hadisə olmalıdır ki, kişi qəhərlənsin!!!

1988-ci ilin payızında Nər kişilər-ər kişilər belə kövrəlmişdilər. Üzlərini gizlədərək gözlərindəki nəmi göstərməməyə çalışırdılar. Çünki qəbirlər girov qalırdı, analar qan ağlayırdı, körpələr qarda-buzda donurdu. Dünya da lal idi, kar idi, kor idi görmürdü. İnsan haqlarından, qadına, uşağa şiddətdən danışan dillər susmuşdu. Xalqımız böyük bir bəlanı yaşayırdı. Erməni fitnəsinin qurbanları hər gün artırdı və DÜNYA susurdu. Çarəmiz ana-bacıları, körpələri sağ-salamat çıxarmaq idi. Onlara müvəqqəti də olsa sığınacaq verilməlidir. Bu sarsılmaz, dəyərli insanlar öz dədə-baba torpaqlarına qayıdacaq və yurd həsrəti mütləq bitəcəkdi. Belə düşünürdüm, çünki bu eli-obanı yaxşı tanıyırdım.

1988-ci ilin soyuq payız günləri bəla gətirmişdi, qan-qada gətirmişdi xalqımızın üzərinə. Əslində bu "bəla"nın kökləri 200 il bundan əvvəl başlamışdı. Dəfələrlə bədnam qonşularımız bu qırğınları törətmişdilər. İndi isə başladıqları "İşi" tamamlamaqda idilər. Öz isti ocağından didərgin düşən el-oba düşmən silahları

qarşısında dağa, dərəyə, meşəyə, kahalara, zağalara sığınmışdılar. Onları bu əzabdan qurtarmaq lazım idi. “Yuxarı” dan isə qəti qərar verilmirdi. Burda ərlər nərə çəkməli, əhalini sağ-salamat çıxarmalı, daha nə edəcəyini düşünməli idi. Var idi belə oğullar, ərlər! Elə onların sayəsində də Dərələyəz camaatının böyük bir hissəsi sağ - salamat çıxarılıb Naxçıvanın müxtəlif bölgələrində yerləşdirildi.

Bu çətin işdə xüsusi əməyi olan Ələsgər əmidən danışacağam. Ələsgər Pirməmməd oğlu Nağıyev. O, 1937-ci ilin 5 fevralında Naxçıvanda-Sust kəndində anadan olubdur. Əslində onun haqqında tərcümeyi-hal xarakterli nələrisə yazmaq fikrində deyiləm. Ələsgər əmi ilə günlərlə söhbət edən kəs yorulmaz, mən də beləyəm. Elə söhbətlər var ki, xalqın taleyi ilə bağlı, acı günləri ilə bağlıdır. Bu söhbətləri dinləmək üçün dəfələrlə onunun qonağı oldum. Bu dəfə Ələsgər əmi əlli illik ömür-gün yoldaşını itirən günlərə təsadüf etdi görüşümüz-söhbətimiz. Çox kövrəlmişdi dağ boyda adam... necə sədaqətli, necə kövrək, necə böyük ürəyə sahib imiş bu insan. Bir az təzə yarasına məlhəm qoyum deyə ötən günlərə qayıdım dedim. Olmadı. Hər kəlməbaşı doldu,boşaldı Ələsgər əmi! Sual verməyə ehtiyat edirdim, amma o mənim soruşacaqlarımı sanki bilirdi, odur ki, özü asta-asta, təmkinlə sözə başladı:

- Qızım, o günlər xalqımız çox çətin bir dövrü yaşayırdı, çox çətin! Başsızlıq var idi, başsızlıq! Mən avtobazanın müdiri idim. Bu qanlı hadisələr başladı. Əhalini çıxarmaq lazım idi, “saqqallılar” vəhşiliyin son həddində idi. Ömür boyu bir süfrədə çörək kəsdiyimiz, qız alıb qız verdiyimiz analar, bacılar, uşaqlar, ağsaqqallar od içində idi. Kiçik bir siqnal lazım idi ki, köməyə gedək. Olmadı, etmədilər. Nəhayət ki, qırğınlar başladı və bizə də “əhalini çıxarmaq lazımdır” xəbəri gəldi. Bütün sürücülər hazır idilər getməyə, amma mənə çox maraqlı olan bir məsələ baş verdi. Mənim Hacıməmməd əmimin nəvəsi, Əlişirinin oğlu Asif

otağımdan çıxmırdı ki, mən də gedirəm. Dedim, ay oğul, sənin qolun zədəlidir. Sən bu yolu gedə bilməzsən. Yox!-dedi durdu. Mən özüm məcbur oldum ki, onun yanında oturam gedəm. Lazım olacaqdısa maşını özüm sürəcəkdim. Getdik. Bizə Şərur Dərələyəz yolunu yox, Buzqov-İtqıran- Almalı- Dərələyəz yolunu vermişdu rus qoşunları, onların rəhbərləri. Biz çox çətin yollarla getməli əhalini sağ-salamat çıxarmalı idik. Buzqovu keçib İtqırana çatdıq. Mən bu kəndi yaxşı tanıyırdım. Əhalini buradan çıxarıb rus qoşunlarını yerləşdirmişdilər. "Guya" hər iki tərəfə ziyan dəymə-sin... maşınlarımız kəndə yaxınlaşanda əli avtomatlı əsgərlər maşınımızı saxladı. Mən maşından düşdüm dedim ki, komandiri görməliyəm. Apardılar məni komandirin yanına . Biz otağa çatmamış o özü çıxdı qabağımıza mən "salam" dedim. Komandır "əssəlamü aleykum" dedi. Sonra onun çeçen millətindən olduğunu öyrəndim, özü söylədi. Bizə getməyə icazə verdi. Bu zaman mülki geyimdə bir cavan oğlan bizə yaxınlaşdı, bir neçə "saqqallı"nın əhatəsində uzaqdan vəsiqəsini göstərdi ki, mən Moskvadan məxfi idarədən göndərilmişəm, gedə biməzsiniz, yuxarıdan əmr gözlə-yirik. Sanki adamın niyyəti milləti qırdırmaq idi. Mən nə edcəyimi bilmirdim, hər halda bu yolu getməli idik. Geriyə komandirə tərəf baxdım, o iti addımlarla mənə tərəf gəldi, getməməyimizin səbəbini soruşdu. Mən "vəsiqə"li adamın dediklərini söyləyəndə. Komandir var səsi ilə qışqırdı: Elə etmə ki, səni güllələyim! "podvala salım, zəncirləyim!" çəkil yoldan...

Allah özü millətin qanı tökülməsin deyə bu komandiri bizə ürcah eləmişdi. Maşınlarımız yola düzəldi. Çətinliklə də olsa Dərələyəzə-Gədikvəngi kəndinə, oradan isə Gülüdüzünə getdik. Qadınları, uşaqları "kamaz" markalı yük maşının arxa tərəfinə doldurduq, yanımızda yer yox idi. Çıxdıq, yenidən qayıtmaq üçün çıxdıq. Bütün yolboyu bir səs-səmir yox idi, narahat idim, amma maşını saxlamaq da təhlükəli idi. Minbir əzab -əziyyətlə İtqırana

çatdıq. Maşını saxlaya bilməzdik, ixtiyarımız yox idi. İlahi, mənə səbr ver. Daha 200 metr keçəndən sonra maşını saxlaya bilərdik...

Belə də oldu. Asif maşını saxladı. Mən tez düşüb maşının dalına keçdim, qorxurdum, çünki cınqır belə çıxmırdı, elə bil nəfəs almırdılar, bir hənirti yox idi...Asiflə birgə maşının yük yerinə çəkilmiş çadırı qaldırdıq. Bilirsən, Mahirə, bu hadisəni qəbirdə də unutmaq olmaz... Ah-nalə, fəryad səsləri ətrafı bürüdü. Payızın soyuq günləri əyin-baş yox. Bu nə zülmdür, Allah?! Çəkilib bir tərəfdə iri daşın üstündə oturdum və hönkür-hönkür ağladım. Bu naləyə dözməkmi olardı, bala?!

Nəhayət, yola düzəldik. Yolumuz Çalxanqalaya idi... üz tutub dağlara gedirdik. Dağlardan gəlib dağlara gedirdik, amma necə, hansı vəziyyətdə?! Çalxanqalada isə gələnləri bayatılarla, edilərlə, göz yaşları ilə qarşıladılar...

ADPU-nin prorektoru,
professor Mahirə Hüseynova

QƏHRƏMANOV AZƏR YAQUB OĞLU

Mən 1961 ci ildə Dərələyəz mahalı, Keşkənd rayonunun Amağu kəndində mütəvazi bir kəndçi ailəsində doğulmuşam. İlk öncə Amağu kənd 8 illik orta məktəbində, sonra isə Qovuşuq kəndində orta təhsilimi başa vurmuşam. Daha sonra Yerevan Kənd Təsərrüfar Texnikumunda orta ixtisas təhsili almışam. Eyni zamanda kəndimizdə kitabxana müdiri vəzifəsində işləmişəm.

Digər həmyerlilərimiz kimi mənim də çox keçməkeşi bir həyat tarixçəm var. Ömrümün gənclik illərini doğma yurdumda keçirmişəm. Hər qarış torpağını, daşını, qayasını, bütün gözəlliklərini iliklərimə qədər hiss etdiyim doğma yurdum. O yurdum ki, uşaqlığımın əziz xatirəsi, gəncliyimin şahidi..!

Vətən həsrəti , yurd həsrəti hər birimizi dərindən sarsıb. Mən yurdumdan ayrıldığım, heç zaman yaddaşımdan silinməyən o gündən, qəlbimin bir köşəsində hər daim sızıldayan sağalmaz yaradan danışacam.

Kənd həyatı hər kəsin bildiyi kimi o axarı ilə davam edirdi. Bir səhər atamla (Qəhrəmanov Yaqub Salman oğlu) mən kəndin mal-qarasını yığıb “növbə”yə (kənd həyatında insanlar növbə ilə mal-qaranı örüşə aparırlar) getdik. Biz örüşdə olduğumuz bir müddətdə kənddə nə baş verdiyini bilmirdik. Axşamçağı xəbər gəldi ki, kəndə ermənilər dolub, kənd camaatını zorla çıxardırlar, mən mal-qaranı dağ yolu ilə Cağazir kəndinə aparım. Aliləmizin başına nə gəldiyi haqqında heç bir məlumatımız yox idi. Atam mənə dedi ki, sən get, mən də kəndə gedim ailəmiz haqqında məlumat öyrənim. Bu zaman dağ yolu ilə gələn bir qrup

kəndçilərimizi gordük. Qadınların ah naləsi, uşaqların fəryadı aləmi bürümüşdü. Onların içərisində anam Xanım, 8 yaşlı oğlum Ramil, 4 yaşlı qızım Lamiyə var idi. Ailəmin digər üzvləri – arvadım Qönçə, 5 yaşlı qızım Ləman və 2 yaşlı qızım Ramilənin hansı istiqamətə getdiklərindən xəbər tuta bilmədik. Kəndə qayıtmaq mümkün olmadı. Nəhayət, dağ yolu ilə səhərə yaxın gəlib çatdıq Cağazir kəndinə. Ailə üzvlərimin yarsını bura yerləşdirib digərləri haqqında məlumat almaq üçün bir neçə yerə xəbər saldıq. Sonra arvadımın televiziyada çıxışını görüb onların Şərur rayonunun Düdəngə kəndində olduqlarını öyrəndik. Beləliklə, doğulub boya-başa çatdığımız yerdə başlayan hekayəmiz sona çatdı. Yeni bir hekayənin başlanğıcı, həyatın sərt üzü ilə mübarizə aparmaq dönəmi başladı.

Qaçqın həyatı çox çətindi. Yuvasında perik düşən quş kimi çırpınırsan. Çətinliklərdən imtina etmək şansın olmur. Bütün hər şeyə dözmək zorunda qalırsan. Bir sözlə, həyata yenidən, sıfırdan başlayırsan. Yeganə təsəllin ailənin birlikdə olması olur.

Biz də bu çətinliklərə birlikdə sinə gərdik. İlk öncə Şərur rayonunda “ Birlik” adlanan ərazidə fermada fəhlə işlədik. Daha sonra Çalxanqala kəndinə köçdük. Burada Turanə adlı qızım dünyaya gəldi.Yarı sevinc, yarı kədər hissi ilə bu kəndə alışmağa çalışdıq.Burada ailəmlə birlikdə kolxozda işlədik. Mən briqadir, anbardar, baş aqranom vəzifələrində çalışdım. Daha sonra bələdiyyə sədrinin müavini və bələdiyyə sədri vəzifələrində çalışdım. Zamanla bu kənd bizə o qədər doğmalaşdı ki, ikinci yurd yerimiz oldu. Hətta bir müddə Bakı şəhərində yaşasam da yenidən Çalxanqala kəndinə qayıtdım. Bu zaman dilimində 5 övlad böyütdüm. Hər biri təhsil aldı, ailə həyatı qurdu,12 nəvəm var.

Beləliklə, bir keçməkeşli ömrü bir səhifəyə sığdırdım. İnanıram ki, zaman gələcək göz yaşı, fəryadla çıxdığımız o doğma yurduma övladlarımla, nəvələrimlə deyə-gülə gedəcəyik!

ƏLİYEVA QÖNÇƏ ƏLİ QIZI

Mən, 1962 ci ildə Dərələyəz mahalı, Keşkənd rayon Hors kəndində doğulmuşam. Orta təhsilimi Hors kənd 8 illik orta məktəbində almışam. Daha sonra tam orta təhsilimi Qovuşuq kəndində başa vurmuşam.

Məşhur bir deyimdə olduğu kimi "Bütün talelər bir-birinə bənzəyir, lakin adlar və məkanlar fərqlidir". Bu baxımdan yurd yerindən qoparılan hər kəs kimi mənim də öz doğma elimlə bağlı xatirələrim çoxdu. Gəncliyimizin keçdiyi o əvəzsiz yerlərlə bağlı günlərlə danışsam bitməz. Lakin mən ermənilərin məkirli siyasətinin qurbanı olmuş insanlardan biri kimi öz həyat hekayəmdən danışacam.

Biz ermənilərlə eyni kənddə yaşayırdıq. Məlum hadisələrə qədər qonşuluq münasibətlərimiz olub. Bəziləri bu münasibəti qorusalar da, bəziləri isə erməni xislətindən əl çəkməyərək əl altından mənfur planlarını həyata keçirdirdilər . Atam Əliyev Əli (Hümbət) Vəli oğlu kəndin sayılıb seçilən ağsaqqallarından biri idi. Aliədə 8 uşaq idik. Böyük təsərrüfatımız vardı. Bu təsərrüfatın idarə olunmasında biz də valideynlərimizə kömək edirdik. Öz təsərrüfatımız ilə yanaşı atamla anam kolxozda da çalışırdı. Həyatımız bax beləcə, öz axarında davam edirdi. Mən orta təhsilimi başa vurduqdan sonra ailə həyatı qurdum. Qonşu Amağu kəndinə gəlin köçdüm.(Həyat yoldaşım Qəhrəmanov Azər Yaqub oğlu). Doğulduğum yerlə yanaşı doyduğum yer də mənə doğma və əziz oldu. Tez bir zamanda kənd camaatına qaynayıb qarışdım. Zaman keçdikcə ailəmiz böyüdü. Mən də ailəmizə köməklik məqsədi ilə işləməyə başladım. İlk öncə kənd kitabxanasında

kitabxana müdiri işlədim. Bu işimlə yanaşı həm də kolxozda çalışdım. Qısa bir müddətdə rayon deputatı seçildim. Sonra Kommuninist Partiyasına üzv qəbul edildim. O dövrdə biz işimizlə əlaqədar olaraq, erməni əsilli bir çox dövlət nümayəndəsi olan şəxslərlə dialoq qururduq. İşlərinin irəli getməsi üçün bizimlə yaxşı rəftar etməyə çalışırdılar. Zaman keşdikcə artıq öz niyyətlərini biruzə verdilər.

1988-ci ilin fevral ayında kitabxana hesabatı üçün rayona getmişdim. Bir qrup ermənilərin nümayişlə bağlı yollara çıxdığının şahidi oldum.Onların içərisində əvvəllər orta məktəbdə birlikdə təhsil aldığımız erməni əsilli sinif yoldaşlarımı da gördüm, o əlində erməni dilində"Qarabağ bizimdi" şüarı yazılmış plakat tutmuşdu. Sonra Rayon İcra Nümayəndəsinin rəhbəri olan dırnaqarası rəfiqəm olan Mileniyanın yanına getmək istədim. Bu zaman onun da balkona çıxıb nümaişçilərə dəstək olaraq əl çaldığını görüb geri qayıtdım. O zaman anladım ki, atalar demişkən: "İtlə yoldaşlıq et , ağacı əlindən yerə qoyma". Bunlar öz məqsədlərini bəlli etdilər. Mən deputat olduğum üçün mənə bir söz deməsələr də azərbaycanlılarla elədikləri çirkin rəftarın şahidi oldum. Bu hadisədən bir müddət keçdikdən sonra yenidən rayona iclasa qatılmaq məqsədi ilə getdim. Mənimlə birlikdə bir neçə azərbaycanlını da iştirak etdiyi bu iclasda heç də bizim olmağımızdan məmnunluq duymadıqlarını anladıq. İclasdan çıxanda Arpa-Yerevan avtobusuna minmək istəyəndə avtobus sürücüsünün: "Mən yolda saxlamayacam", deməsi hər şeyi açıq aşkar bəlli edirdi. Mən naəlac qalıb Civə avtobusuna mindin ki, yol ayrımında düşərəm. Birtəhər gəlib kəndə çatdım.

Demək olar ki, 3-4 ayın içərisində Qərbi Azərbaycanda yaşayan bütün azərbaycanlıları öz doğma yurdundan qoparmaq siyasəti baş tutmuşdu. Ermənilərin bu niyyətindən bizim kəndə də pay düşdü.

Artıq mən Amağu kəndinə çatanda kənddə çaxnaşma başlamışdı. Kənd "Qaçaq vurulan" adlanan ərazidən atəşə tutulurdu. Əvvəldə olduğu kimi kəndin yandırılmasından qorxan kənd ağsaqqalları camaatı kənddən çıxarmaq məcburiyyətində qaldılar. Qısa zamanda bu xaos azərbaycanlılar yaşayan bütün əraziləri bürüdü. Eyni zamanda ermənilər Hors kəndində mənim atamın evini yandırdılar. Beləliklə, min bir əziyyət və zəhmətlə qurduğumuz yurd, yuvamızı bir göz qırpımında tərk etdik. Bütün xatirələrimizlə, xoş günlərimizlə vidalaşaraq, qaçqın həyatımızın başlanğıcını qarşıladıq. Bir çox çətinliklərlə üzləşərək ilk öncə Şərur rayonunun Düdəngə, sonra isə Kəngərli rayonunun Çalxanqala kəndində məskunlaşdıq. Bu dövrlərdə pisixoloji sarsıntı keçirdiyimiz üçün bir müddət uşaqlarımı paltarlı yatırdırdım. Özümüz isə çörək, su, müxtəlif qidaları bağlamaya yığıb sabaha qədər yatmadan gözləyirdik ki, hər an mənfur düşmən hücum edə bilər. Zamanla çətinliklərə alışdıq, bu kəndə uyğunlaşdıq. Bu kənddə eyni taleyi paylaşdığımız fərqli kəndlərdən gələn insanlarla qaynayıb qarışdıq. Demək olar ki, bir birimizə dəstək olaraq, həyatın çətin anlarına sinə gərdik. "Dar günün ömrü az olar " deyib, hər şeyə yenidən başladıq. Ev qurduq, yuva qurduq. Övladlarımızı böyüdüb boya başa çatdırdıq. Geriyə dönüb baxanda qoca bir ömrü kəlmələrə sığışdırıb xatirələşdirdik. Övladlarımıza doğma yurd, vətən anlayışını aşıladıq. Onlar da öz övladlarına miras qoyacaqlar. İnanırıq ki , yurd həsrəti ilə döyünən qəlbimiz qısa zamanda təsəlli tapacaq!

QƏHRƏMANOV XASAY ABBAS OĞLU

Mən 1957 ci ildə Dərələyəz mahalı, Amağu kəndində zəhmətkeş bir ailədə doğulmuşam.Çox təəssüf hissi ilə qeyd edim ki, atamı uşaq yaşlarında itirmişəm. Anam çoxuşaqlı qəhrəman ana idi. Bizi çox çətinliklə böyüdürdü. Mən Amağu kənd 8-illik orta məktəbi bitirdikdən sonra Bakıya gələrək Sumqayıt şəhər Neft Kimya Texnikumunda təhsil aldım. Təhsilimi bitirdikdən sonra Sumqayıtda neft üzrə işləməyə başladım. Bir müddət sonra doğma yurduma döndüm. Burada kənd məktəbində gözətçi işləməyə başladım. Ailə həyatı qurdum. İki qız övladım oldu. Hər kəs kimi mənim də həyatım öz axarı ilə davam edirdi. Ta ki , erməni daşnaklarının kəndimizə hücum etdiyi günə qədər. O gün mən də digər həmyerlilərim kimi zorla böyüyüb boya- başa çatdığım yurdumla vidalaşdım. Çox çətinliklə Şərur rayonunun indiki Dan yeri kəndində köhnə məktəb binasına yığışdıq. Burada bir neçə ailə olduğu üçün körpə uşaqlarla yaşamaq çətinləşdi. Sonra qatarla Bakıya gəldik. Bir müddət də Abşeron rayonu Novxanı kəndində şəraitsiz taxtadan düzəldilmiş evdə yaşamalı olduq. O zaman ət, yağ, çörək almaq üçün saatlarla növbəyə dururduq, elə zaman da olurdu ki ala bilmirdik. Bu çətinliklərə dözə bilməyib 1990-cı il yanvar ayının 18- ilk təyyarə ilə Naxşıvana gəlmək istədik, bir çox çətinliklə üzləşdik, bir gecə təyyarədə saxladılar bizi. Bildiyiniz kimi 20 Yanvar hadisələrinin olduğu bir dövrdə bir çox çətinliklə olsa belə, nəhayət , Naxçıvana gəldik. Sonra Çalxanqala kəndinə gedərək orada məskunlaşmağa başladıq. Üçüncü övladım dünyaya gəldi. Burada ailəmlə birlikdə kolxozda çalışdıq. Bu kənddə

qadınlarımız tütünçülük işləri ilə kişilərimiz isə təsərrüfatla, taxılçılıqla məşğul olaraq, ailəmizi dolandırdıq.

Hal -hazırda 3 övladım, 6 nəvəm var. İnşallah bir gün yurd həsrətimizə son qoyular, o gözəlliklə dolu səfalı yerlərimizə qayıdarıq.

QƏHRƏMANOVA LƏMAN AZƏR QIZI

Mən, 1983-cü ildə Qərbi Azərbaycanın Dərələyəz mahalı, Keşkənd rayon Amağu kəndində dünyaya göz açmışam. Cəmi 5 il doğulduğum kənddə yaşaya bilmişəm. Sonra digər həmyerlilərimiz kimi mən də ailəmlə birlikdə ata-baba yurdumu tərk etmək məcburiyyətində qalmışam. Bəlkə də 5 yaş bəzilərinə çox adi gələr, ancaq mənim üçün çox əziz, yaddaqalan, bir o qədər də kədərli bir dövr kimi xatırlanır. O illərlə bağlı gözümdə bəzi xatirələr canlanır. Uşaqlarla oynadığımız oyunlar, qonşularla birlikdə yığışıb Pir bulağına ziyarətə getmək, axşam tərəfi küçə qapısının ağzına toplaşaraq mal-heyvanın örüşdən gəlməsini gözləyən qonşuların maraqlı söhbəti, bir sözlə bir uşağa görə qayğısız, şən, firəvan mənzərə. Ancaq bu mənzərəni bizə çox görən mənfur düşmən imkan vermədi ki, öz doğma yurdumuzda yaşayaq. Mən yurd, yuvamızı necə tərk etmək məcburiyyətində qaldığımız o gündən, - 5 yaşlı bir uşağın gözü ilə gördüyü mənzərədən danışacam. O mənzərədən ki, heç vaxt unudulmayan, qısa bir film fraqmanı kimi daim yaddaşda qalan..!

Bizim ailəmiz 5 uşaq, ata,ana,nənə və babadan ibarət idi. Bir səhər atamla babam işə, anam isə rayon deputatı olduğu üçün rayona iclasa getmişdi. Bizə nənəm baxırdı.Uşaqlarla həyətdə oynadığımız zaman el arasında “ sakkat cəviz” deyilən yerdən ard-arda düzülmüş maşınları gördük.Tez qaçıb nənəmə xəbər verdik.Nənəm qonşularla toplaşıb nəsə danışdılar. Çox keçmədi ki, kənddə tələş, təşviş, çaxnaşma başladı. Sonra mən nənəmə xəbər vermədən 2 yaşlı bacımla və qonşu uşaqları ilə birlikdə kəndin

mərkəzinə toplaşan adamların yanına getdim. Bu zaman anamın gəlişini gördüm, anam mərkəzdə olan sarı rəngli maşının qarşısındakı polisə hirsli halda erməni dilində nəsə dedi.Polis maşına oturub uzaqlaşdı. Nə baş verdiyini anlamadan qonşu uşaqlarına, -anam polisləri qovdu, deyə, qürrələnərək anamın yanına getdim. Anam bacımla mənim əynimizdə qalın paltar olmadığını görüb evə aparmaq istədi. Ancaq evə getməyə macal tapmamış, kənddə olan çaxnaşma, tələş canlandı.Qısa bir zamanda kənd camaatı artıq kəndi tərk etmək məcburiyyətində oldu. Hərə bir tərəfə qaçışırdı. Ailəmiz bir birindən ayrı düşdü. Mən anam və bacım bir istiqamətə, digər ailə üzvlərimiz isə başqa istiqamətə getməli olduq.Bizi kəndçimizin maşınının yük hissəsinə mindirdilər və kəndi tərk etdik. Bizi gətirən maşın gecə böyük bir meydana gəldi. Sonra bizi bir binanın həyətinə topladılar. (Sonradan bildim ki, bura Naxçıvan M.R-sı Şərur rayon polis idarəsi imiş) Gecəni orada keçirdik. Səhər açılar-açılmaz bir çox dövlət nümayəndələri, eləcə də televiziya işçiləri tökülüb gəldi. Anam digər ailə üzvlərimizdən xəbər almaq üçün televizya vasitəsi ilə çıxış etdi. Bir neçə gündən sonra öyrəndik ki, onların dağ yolu ilə piyada Şərur rayonun Şahbulaq (Cağazir) kəndinə gəliblər. Bir iki ay Şərurda qohumlarımızın evində qaldıq. Sonra atamgil Kəngərli rayonunun Çalxanqala kəndində ev alaraq, bizi ora apardılar. Demək olar ki, ata baba yurdumla bağlı xatirələrimə son qoyuldu. Artıq başqa bir dönəm başladı. Bu kənddə Qərbi Azərbaycanın digər mahallarında, rayonlarından, kəndlərindən, bir sözlə 40 fərqli yerlərdən bizim kimi ata yurdunu tərk etmək məcburiyyətində olan insanlar toplaşdı. Bu kənd bizə ümid, pənah yeri oldu.Bu kənddə məskunlaşan insanlar fərqli kənddən, rayondan gəlmələrinə baxmayaraq, qısa bir zamanda qaynayıb qarışdıq. Çünki,bizim adət-ənənələrimiz həyat tərzimiz, ən azından taleyimiz bir idi. Orada məskunlaşandan sonra atamla,

anam kolxozda, sonra isə digər işlərdə işləyərək, bizi böyüdüb boya, başa çatdırdılar. Hər birimiz ali təhsil aldıq. Mən 7 il Çalxanqala kənd orta məktəbində müəllimə işlədim. Elə Çalxanqala kəndində də özüm kimi ata-baba torpağından zorla qoparılmış Paşalı rayonunun Gülüstan kəndindən olan Fəxrəddin müəllimlə ailə həyatı qurdum. İki övladım var. Onlar da vətənpərvər ruhda böyüyürlər. Adət və ənənələrimizə dərindən yiyələnirlər. Qızım Mədinə demək olar ki, tam bir Qərbi Azərbaycan aşiqidir. O, Dərələyəzin zəngin mətbəxini, adət-ənənələrini, ziyalı şəxslərini məktəb yoldaşlarına, rəfiqələrinə qürurla anladır. Oğlum Amin ali təhsillidir.

Biz hazırda Bakı şəhərində yaşayırıq. Nə qədər fərqli kəndlərdə, şəhərlərdə yaşasaq da bir gün doğulduğumuz yerə qayıdacağımıza inanırıq. Eyni zamanda övladlarımıza da o yerləri tanıdacağıq. Doğma yurda qayıtmaq ümidi ilə!..

ŞAHHÜSEYNOV FƏXRƏDDİN TARVERDİ OĞLU

1978-ci ildə Dərələyəz mahalı Paşalı rayonunun Gülüstan kəndində anadan olmuşam. 1984-cü ildə Gülüstan kənd 8-illik orta məktəbinin birinci sinfinə daxil olmuşam. Uşaqlığımızın ilk dövrləri qayğısız və şən keçsə də sonrakı dövrlər psixoloji sarsıntılarla yadda qalıb. 1988-ci ildə erməni təcavüzkarlarının törətdiyi vəhşilik hər kəsə bəllidir. Bu vəhşiliklə qarşılaşanlardan biri də mənəm. Demək olar ki, erməni xislətindən mən də nəsibimi aldım.

Əvvəllər ”Qaçaqaç” kəlməsini yaxşı bir söz kimi dərk edirdim. Ta ki, gecənin yarısı qardaşımın məni sirkəliyərək yuxudan oyadıb – “Dur! Eee dur! Qaçaqaç düşüb”, dediyi vaxta qədər. Bu kəlimə o qədər ağır, o qədər qəlbi incidən söz oldu ki, elə həmin vaxtdan nə o gecəni, nə də həmin kəlməni unuda bildim. Biz kəndi tərk edəndə mənim 10 yaşım var idi. Ermənilər hündür yerlərdə təkərləri yandırıb, kəndi tərk etməsək, kəndi yandıracaqlarını deyirdilər. Kənd camaatı ilk öncə uşaqları və qız-gəlini kənddən çıxardılar. Kəndçimizin maşını ilə bizi Babək rayonunun Buzqov kəndinə gətirdilər. Bir neçə gün böyük qardaşım Rəşid, onun ailəsi və mən Buzqovda qohumumuzun evində qaldıq. Atamgil isə Cəhri kəndində yaşayan qohumlarımızgildə qaldı. Sonra atamgil gəlib məni də Cəhri kəndinə apardı. Bir müddət burada qaldım. Artıq 2 aydan çox idi ki, məktəbə getmirdim. Sonra böyük qardaşım Buzqov kənd orta məktəbində müəllim kimi işləməyə başladı və təhsildən geri qalmayım deyə, məni yenidən Buzqov kəndinə qaytardı. Burada 2 aya yaxın bir müddətdə

təhsilimi davam etdirdim. Sonra atamgil Kəngərli rayonunun Çalxanqala kəndinə gedərək ev aldılar. Artıq yenidən öz evimiz, öz yuvamız oldu. Bütün bu çətinliklərə baxmayaraq həyatımız davam edirdi. Mən Çalxanqala kənd orta məktəbində təhsilimi davam etdirdim. Həmin məktəbi bitirib, ali məktəbə qəbul oldum. İlk Öncə Naxçıvan Dövlət Universitetinin Tarix fakültəsini, daha sonra isə Hüquqşünaslıq fakültəsini bitirdim. 2000-ci ildə 2007-ci ilə qədər Çalxanqala kənd orta məktəbində tarix müəllimi işlədim. Sonra ailə həyatı qurdum. Ömür- gün yoldaşım Ləman xanım da mənim kimi Qərbi Azərbaycandan zorla qovularaq Çalxanqala kəndinə pənah gətirənlərdəndir. Eyni zamanda da mənimlə birlikdə Çalxanqala kənd orta məktəbində Azərbaycan dili və Ədəbiyyat dərsi tədris edirdi. 2007-ci ildə Bakı şəhərinə köçdük. Burada uzun müddət Nəsimi Rayon Məhkəməsində müxtəlif vəzifələrdə çalışdım. 2014-cü ildən isə Ədliyyə sahəsində çalışıram. 2 övladım var. Oğlum Amin və qızım Mədinə. Onlar çox vətənpərvər ruhda böyüyürlər. Bizim Qərbi Azərbaycanla bağlı hekayəmizi dinləyəndə dərindən sarsılırlar. Övladlarım da bizim kimi əbədi və əzəli torpaqlarımıza, doğma yurdumuza qayıdacağımız günü səbirsizliklə gözləyirlər. İnanırıq ki, o gün gələcək ermənilər xalqımıza yaşatdığı bu ədalətsizliyə ədalət qarşısında cavab verəcəklər.

QƏHRƏMANOVA TURANƏ AZƏR QIZI

Mən 1989-cu ildə Naxçıvan MR-sı Kəngərli rayon Çalxanqala kəndində əslən Qərbi Azərbaycandan olan və zorla yurdundan qoparılan bir ailədə doğulmuşam. Demək olar ki, mənim həyat hekayəmin başlanğıcı ailəmin yurd yuvalarını tərk edib Çalxanqalaya üz tutduqları vaxtla üst-üstə düşür. Ailəm çox böyük çətinliklər çəkərək Çalxanqalaya köçüb. İllər sərf edərək min bir əziyyətlə, zəhmətlə qurduğu yurd-yuvalarıdan bir gecənin içərisində ermənilər zorla çıxarıb. Hər şeylərini geridə qoyub yalnız canlarını qurtarıblar. Sonradan çox çətinliklə özlərinə yurd yuva qurublar. Ailədə 5 uşağıq, mən 5-ci uşağam. Atam,anam bizim yaxşı yaşamağımız üçün çox çalışıblar. Bütün əziyyətlərə dözüblər. Hər birimizə gözəl tərbiyə, yaxşı təhsil veriblər. O cümlədən, keçmişimizi unutmamağı, milli dəyərlərimizə qiymət verməyi, ən əsası insanlıq öyrədiblər. Hər birimiz orta təhsil, eyni zamanda mən, iki bacım və qardaşım ali təhsil almışıq.

Mən Azərbaycan Dövlət Pedoqoji İnstitutunun Pedaqogika və Psixologiya fakültəsini Psixologiya ixtisası üzrə bitirmişəm. Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzində mütəxəssis vəzifəsində çalışıram. Eyni zamanda loqoped və psixoloq kimi fəaliyyət göstərirəm. İxtisasım üzrə 20-yə yaxın diplom və sertifikatlarım var. Disleksiya üzrə mütəxəssisəm. Ailəliyəm. Həyat yoldaşım Cəfərov Vüqar Cəlal oğlu əslən Zəngilan rayonundandır, 44 günlük Vətən müharibəsinin iştirakçısıdır. Həzrət və Adəm adlı iki övladım var. Mən də övladlarımı özüm kimi milli ruhda böyüdürəm. Arzulayıram ki, bir gün mən də öz övladlarımla ata-babalarımın yaşadığı o yurdu görüm. İnanıram ki, bu arzum həyata keçər.

QƏHRƏMANOV RAMİL AZƏR OĞLU

Mən, 1980-ci ildə Dərələyəz mahalı, Keşkənd rayonunun Amağu kəndində anadan olmuşam. 1986-cı ildə Amağu kənd orta məktəbinin birinci sinfinə daxil olmuşam. Doğma el-obamda uşaqlığımı yaşamadan digər həmyaşıdlarım kimi mənim də həyat səhifəmə "qaçqın" möhürü vuruldu. 1988-ci ildə ailəmlə birlikdə doğulduğum kəndi zorla tərk etdik. Bir müddət təhsildən geri qaldım. İlk öncə Naxşıvan MR-sı Şərur rayon Düdəngə kəndində təhsilimi davam etdirdim. Daha sonra isə ailəmlə birlikdə Çalxanqala kəndinə köçdük, orta təhsilimi orada başa vurdum.

1997-2001-ci illərdə Naxçıvan Universitetində ali təhsil almışam.

Doğrudur, ermənilərin törətdiyi vəhşiliklərdən bir uşaq kimi psixoloji sarsıntı keçirdik. Amma illər keçəndən sonra dərk etdim ki, valideynlərim daha çox əziyyət çəkiblər. Biz çox sarsılmayaq, üzülməyək deyə nələrə qatlaşmalı olublar.

Ailəm üçün hər şeyi yenidən başlamaq çox çətin oldu. Atam, anam min bir əziyyətlə yenidən yurd, yuva qurdular, 5 övlad böyüdüb boya, başa çatdırdılar. Elinə, obasına, milli dəyərlərinə bağlı olan biri kimi böyüdük. Hər birimiz ali təhsil aldıq. Ailə həyatı qurduq.

Mən də ailəliyəm. Həyat yoldaşım Qəhrəmanova Gülnarə Bayram qızı da Dərələyəz mahalının Hors kəndindəndir. 3 övladım var. Qızlarım Xanım və Nəzrin, oğlum Uğur. Övladlarım da adət-ənənələrimizə dərindən bağlıdırlar. İnanıram ki, onlar da qısa zamanda ata-baba torpaqlarımızla tanış olacaqlar.

QƏHRƏMANOVA LAMİYƏ AZƏR QIZI



1984-cü ildə Dərələyəz mahalı, Keşkənd rayon Amağu kəndində anadan olmuşam. 1988 -ci ildə ailəmlə birlikdə Çalxanqala kəndinə köçmüşəm. Orta təhsilimi Çalxanqala kənd orta məktəbində başa vurmuşam. Naxçıvan şəhər 1№ Tibb Texnikumunda orta ixtisas təhsili almışam, əczaçı işləyirəm. Əslən Ordubad rayonundan olan Mehbaliyev Elnur Qənbər oğlu ilə ailə həyatı qurmuşam. Elnurə, Jalə və Yusif adlı 3 övladım var.

QƏHRƏMANOVA RAMİLƏ AZƏR QIZI

1986-cı ildə Dərələyəz mahalı, Keşkənd rayon Amağu kəndində anadan olmuşam. 1988-ci ildə ailəm ilə birlikdə qaçqın həyatı yaşayaraq Çalxanqala kəndində məskunlaşmışıq. Orta təhsilimi Çalxanqala kənd orta məktəbində almışam. Ailəliyəm. Həyat yoldaşım Ələsgərov Dağbəyi İdris oğlu əslən Dərələyəz mahalının Hors kəndindəndir. Rəmzi və Fatimə adlı 2 övladım var.

MƏMMƏDOV RÖVŞƏN VÜQAR OĞLU

06 iyul 1996-cı il tarixində Qərbi Azərbaycandan deportasiya edilmiş ailədə anadan olmuşam.

Atam - Vüqar Məmmədov Dərələyəzin Gədikvəng kəndində, anam Nüşabə Məmmədova Dərələyəz mahalının Gülüstan kəndində anadan olub. Hər ikisinin ailəsi də bir çox çətinliklərlə qarşılaşaraq ata-baba yurdlarını tərk edib, Çalxanqala kəndində məskunlaşıblar.

Mən orta təhsilimi Çalxanqala kənd orta məktəbində və eyni zamanda da kəndin musiqi məktəbində musiqi təhsili almışam. 2011-2015-ci il tarixində Naxçıvan Musiqi Kollecində təhsilmi davam etdirmişəm. 2015-2016-cı il hərbi xidmətdə olmuşam 2017-ci ildən Çalxanqala kənd musiqi məktəbində Musiqi tarixi müəllimi işləyirəm. Musiqi məktəbində "Dərələyəz" ansanbılının bədii rəhbəri, Qərbi Azərbaycan İcmasının Çalaxanqala üzrə nümayəndəsiyəm.

Ata-baba yurdumuzu görməsək də valideyinlərimizin, babalarımızın, nənələrimizin anlatdıqları xatirələri dinləmişik. Valideyinlərimiz öz adət-ənənələrini qoruyub, saxlayıb. Biz də onların qoruduğu dəyərlərə sahib çıxırıq. Eyni zamanda da o yerləri görməyi arzulayırıq.

İBRAHİMOV EHTİRAM İSA OĞLU

01.02.1989-cu ildə Kəngərli rayonu Çalxanqala kəndində əslən Qərbi Azərbaycandan olan bir ailədə anadan olmuşam. Çalxanqala kənd orta məktəbində, eləcə də Çalxanqala kənd Uşaq Musiqi məktəbində təhsil almışam. 2006-2010-cu illərdə Naxçıvan Dövlət Universitetində İncəsənət fakültəsində ali təhsil almışam. 2012-2016-cı illərdə TQDK-nın təşkil etdiyi imtahanlarda nəzarətçi müəllim kimi fəaliyyət göstərmişəm. 2016-2021-ci illərdə Çalxanqala kənd Uşaq Musiqi məktəbində direktor işləmişəm. 2020-ci ildən bu günə qədər seçki komissiyasında sədr və katib kimi fəaliyyət göstərirəm. Hazırda, Çalxanqala kənd Musiqi məktəbində tar ixtisası üzrə müəllim işləyirəm. Ailəliyəm iki övladım var.

Atam İbrahimov İsa Həsən oğlu 1956-cı ildə, anam İbrahimova Sürayə Abbəsəli qızı isə 1967-ci ildə Dərələyəz mahalının Gədikvəng kəndində anadan olub. Onların çox keçməkeşli həyat tarixi var.

Ailəmiz 1988-ci ildə öz doğma yurdlarını tərk etmək zorunda qalıblar. Əvvəlcə Füzuli rayonu Hoğa kəndində köçüblər 6 ay orada qaldıqdan sonra Kəngərli rayonun Çalxanqala kəndinə köçüblər. Hazırda bu kəndə yaşayırlar. İllər keçməsinə baxmayaraq, valideynlərimin qəlbi hələ də o yerlər üçün darıxır. Biz o yerləri görməmişik, ancaq arzusundayıq ki, ata-babalarımızın yaşadığı o torpaqları həm özümüz, həm də övladlarımız görsün.

İBRAHİMOV İSA HƏSƏN OĞLU

Mən, 1956-cı ildə Dərələyəz mahalının Keşkənd rayonunun Gədikvəng kəndində anadan olmuşam. 1963-1971-ci illərdə Gədikvəng kənd 8-illik orta məktəbində, 1971-1972-ci illərdə Qovuşuq kənd orta məktəbində təhsil almışam. 1972-1974- cu illərdə hərbi xidmətdə olmuşam. 1978-ci ildə Naxçıvan Pedoqoji İnstitutuna daxıl olmuşam.1980- ci ildə Qızılgül kənd orta məktəbində müəllim işləmişəm. Həmin ildə Kommunist Partiyasına üzv seçilmişəm. 1986-cı ildə isə Gədikvəng kənd orta məktəbində müəllim işləmişəm.1988-ci ildə mənfur düşmənin qurduğu plan bizim kənddən də yan keçmədi. Bizim kəndimiz də digər kəndlər kimi düşmən hücumuna məruz qaldı. Qısa bir zamanda kəndimizi tərk etmək məcburiyyətində qaldıq. Mən və ailəm bir çox çətinliklərlə Füzuli rayonunun Hoğa kəndinə köçdük. Bir müddət yaşayandan sonra erməni təcavüzkarları bizə orada da rahatlıq vermədilər. Bu zaman Naxçıvan M.R-sı Kəngərli rayon Çalxanqala kəndinə pənah gətirdik. Bu kəndə Qərbi Azərbaycanın bir çox bölgələrindən insanlar toplaşmışdı. Onlar da bizim kimi öz ata yurdlarından zorla qovulmuşdular. Qısa bir müddət içərisində uşaqların təhsildən geri qalmaması üçün fərqli bölgələrdən gələn ziyalılar məktəb fəaliyyətinə başlamaq qərarına gəldilər. Elə mən də 1988-89-cu tədris ilindən Çalxanqala kənd orta məktəbində Azərbaycan dili və Ədəbiyyat fənnindən dərs deməyə başladım. Sonradan isə məktəb direktoru vəzifəsində çalışdım. Uşaqların mükəmməl təhsil alması üçün əlimizdən gələni etdik. Zamanla hər kəs bir-birinə alışdı. Dəyərlərimizi, adət-ənənələrimizi qoruyub, saxladıq. Bir sözlə, qaynayıb,

qarışdıq. Bizə qucaq açan bu kənd illər keçdikcə doğmalaşdı. 3 övlad böyüdüb boya başa çatdırdım, hər biri ailə həyatı qurdu. 6 nəvəm var. Onlar da dədə-baba adətlərimizi qoruyub, saxlayırlar. Bu kənddə nə qədər də xoş günlər görsək, yenə də dogma yurdumuzu unuda bilmirik. İnanırıq ki, qısa zamanda dogma elimizə övladlarımızla, nəvələrimizlə dönəcəyik.

HƏSƏNOV KAMİL TEYMUR OĞLU



1948-ci ildə Dərələyəz mahalının Paşalı rayonu Gomur kəndində anadan olmuşam. 1954-1964-cü illərdə Gomur kənd orta məktəbində təhsil almışam. 1965-1970-ci illərdə həmin məktəbdə kitabxana müdiri, 1970-1986-cı illərdə isə laborant vəzifəsində çalışmışam. 1986-1988-ci ilin may ayına qədər Gomur kəndində sahə briqadiri vəzifəsində işləmişəm. Əzəli düşmənimiz olan ermənilərin törətdiyi faciələrdən bizim kənd də nəsibini aldı.1988-ci ilin aprel ayında biz də ata yurdumuzu tərk etmək məcburiyyətində qaldıq. Min bir zəhmətlə qurduğumuz düzəni ermənilər bir göz qırpımında məhv etdi. Ailəmlə birlikdə müxtəlif zamanlarda Şuşada, Ağdamda və Şamaxıda məskunlaşdıq. Sonra isə Naxçıvan MR-sı Kəngərli rayon Çalxanqala kəndinə köçdük.Yenidən özümüzə yuva qurduq. Çox əziyyət və zəhmətlə 10 uşaq böyüdüb, boya başa çatdırdım. 1989-1993-cü illərdə Çalxanqala kəndində sahə briqadiri vəzifəsində çalışdım. 1993-cü ildən bu günə qədər Çalxanqala kənd Uşaq Musiqi Məktəbində saz müəllimi işləyirəm. Aşıq sənətini uşaq vaxtlarımda əmim Sərxan Alxanoğlundan öyrənmişəm. Azərbaycan xalqının qədim musiqi aləti olan sazın və aşıqlıq sənətinin sirlərini bütün şagirdlərimə yorulmadan öyrədirəm. Naxçıvan MR-sı Mədəniyyət və Turizm Nazirliyi tərəfindən seçilərək, oğlum Səxavətlə digər təmsilçilərlə birlikdə birlikdə 28.08.2008-ci ildə Bakı şəhərində keçirilən Azərbaycan Aşıqlarının 5-ci Qurultayında Naxçıvanı təmsil etmişəm. Mütamadi olaraq şagirdlərimlə birlikdə Muxtar Respublikada və Kəngərli rayonunda keçirilən tədbirlərdə fəal iştirak etmişəm. Bu fəaliyətimə görə Naxçıvan MR-sı

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Diplomla və Kəngərli rayon İcra Hakimiyyəti tərəfindən Fəxri Fərmanlarla təltif edilmişəm. Yetişdirdiyim şagirdlərdən bəziləri mənimlə birlikdə müəllim işləyir. Sazımızı, sözümüzü yaşadır. Ata, babalarımızın bizə qoyduğu mirasa sahib çıxırlar. Beləliklə, həyatımız çətin də olsa öz axarı ilə davam edir. Amma fərqli yerlərdə yaşayıb düzən qursaq da hər zaman vətən həsrəti çəkən qəlbimizin sarı simi titrəyir. Arzu edirik ki, mizrabı inlədən sazın cingiltisi doğma elimizdən gəlsin.

A dostlar, yazıram ana vətəndən
Çəməni bəzəyən gül Dərələyəzdə
Təbibdi, loğmandı havası, suyu
Qərinəyə əvəzmiş il Dərələyəzdə

Bir yanı Zəngəzur, bir yanı Şahbuz
Billur bulaqları yanları yarpız
Arılar nırx çəkən bənövşə, nərgiz
Çiçəkdən süzülən bal Dərələyəzdə

Hər yanı bulaqdır, çoxlu çayı var
Zirvələr dumanlı, sərin yayı var
Axtarma, tapmazsan, harda tayı var?
Al-əlvan geyinir çöl dərələyəzdə

Aran yetişdirir, gözləmir yaşı
Vədəsiz insanın ağarır başı
Qızıldan olsa da qürbətin daşı
Yüz yox, əlli yaşa, öl Dərələyəzdə

Kamilə əzizdir səfalı dağlar
Didərgin düşənlər vətənçün ağlar
Heç yaddan çıxarmı o çətin çağlar?!
Dağıldı, qalmadı el Dərələyəzdə

BABAYEVA HƏLİMƏ QƏŞƏM QIZI

Mən, Dərələyəz mahalının Gədikvəng kəndində anadan olmuşam. Mənim 1 yaşım olanda atam müharibəyə gedib. Ancaq vətənə 12 ildən sonra döndü. Orta məktəbi 7-ci sinifə qədər oxumuşam. Çox yaxşı oxuyurdum, demək olar ki, əlaçı idim. Sonradan ailə həyatı qurdum təhsilimi davam etdirə bilmədim. Həyat yoldaşım Babayev Yəhya çox mərd və qonaqpərvər, eyni zamanda sayılıb, seçilən kişi idi. Uzun müddət ferma müdiri vəzifəsində çalışıb, mən isə fermada sağıcı işləmişəm. 6 övlad böyütmüşəm (3 qız, 3 oğlan). Bizim çox yaxşı dolanışığımız var idi. Kəndimizin gözəl, səfalı yaylaqları, çağlayan bulaqları vardı. Hər kəs təsərrüfatla, bağ- bağat işləri ilə məşğul olurdu. Eyni zamanda qız, gəlin gözəl gəbə (xalça) toxuyurdu. Mən də 16 gəbə toxumuşdum. Ancaq çox təəssüf ki, 1988-ci ildə ermənilərin hücumu nəticəsində bütün var-dövlətimiz, eləcə də toxudugum gəbələr ermənilərə qaldı. Evimizdən heç nə götürə bilmədik.Canımızı zorla qurtarıb, hər nəyimiz varsa geridə qoyub kəndi tərk etdik. Sonra gəlib Çalxanqala kəndində məskunlaşdıq. Zamanla həmin evimizi yenidən qurmağa çalışdıq. Övladlarım ailə həyatı qurdu, hər biri bir ev oldu. Nəvə, nəticələrim var.Nə qədər yaxşı günlər görsək də fikrimiz hər zaman doğma yurdumuzda qaldı. Həyat yoldaşım vətən həsrəti ilə dünyasını dəyişdi. Ömür vəfa edərsə, mən o yerlərimizi yenidən görməyi arzulayıram. Gözəl yaylaqlarına, daşına, torpağına yenidən ayaq basmaq istəyirəm.

Dərələyəzin gözü yaşlı
Fəryadımız dağlar aşdı
Həyatımız yolun çaşdı
Dağlar, səndə elim qaldı

HÜSEYNOVA SÜNBÜL HÜSEYNQULU QIZI

Mən 1957-ci ildə Dərələyəz mahalının Zeytə kəndində zəhmətkeş bir ailədə doğulmuşam. Atam arıçılıqla məşğul olurdu, anam isə evdar qadın idi. 8 uşaqlı ailədə xoşbəxt və firavan yaşayırdıq. Mən Zeytə kənd 8-illik orta məktəbdi bitirdikdən sonra 2-il gecə məktəbində oxuyub orta təhsilimi başa vurdum. Zeytə kəndində ailə həyatı qurdum. 4 övladım (3 oğlan,1 qız) oldu. Daha sonra kolxozda kassir işlədim. Həyatımız çox gözəl davam edirdi. Ta ki, erməni daşnaklarının kəndimizə hücum etdiyi günə qədər. Biz də hər kəs kimi öz dədə-baba yurdumuzu tərk etdik. Çox çətinliklərlə üzləşərək gəlib Kəngərli rayonunun Çalxanqala kəndində köhnə bir evə yığışdıq.Özümüzə burada çətinliklə təsərrüfat qurduq,mal-heyvan saxladıq, arıçılıqla məşğul olduq. Bir sözlə, hər şeyə yenidən başladıq.Övladlarım ali təhsil aldı, ailə həyatı qurdu. Demək olar ki, bir çox çətinlikləri geridə qoyduq. Bu dönəmdə həyat yoldaşımı itirdim. Ailənin yükünü çəkdim, övladlarıma dəstək oldum. Eyni zamanda nəvə, nəticə sahibi oldum. 10 nəvəm, 1 nəticəm var. Nəvələrimin 7-si ail təhsilli, 3-ü isə məktəblidir. Allahdan arzum budur ki, o gözəlliklərlə dolu yurdumuza geri dönək.Vətən həsrətilə yanan ürəyimiz təsəlli tapsın.

Gənclik nə tez getdi, ömür yarıdır.
Ağlayan könlümün sınıq tarıdır .
O keçən günlərim yaz baharıydı
Ağla həzin-həzin ağla ürəyim .

Ucadır zirvələr, ucadır dağlar
Könlüm haray çəkər onu soraqlar
Görən hara getdi o gözəl çağlar
Ağla həzin-həzin Ağla ürəyim

Ağaran saçıma baxıram hərdən
Qəlbimdən ucalır acı bir fəğan
Geri qayıdarmı görən o zaman
Ağla həzin-həzin Ağla ürəyim

Qəlbimi ağrıdır acı həqiqət
Necə amansızdır mənasız həyat
Gözümdə qaralır sanki kainat
Ağla həzin-həzin ağla ürəyim

Geriyə baxıram dumanlı dağlar
Görən hara getdi o gözəl çağlar
Kəklikli, cüyürlü, güllü yamaclar
Ağla həzin-həzin Ağla ürəyim

Naşükür deyiləm ilahi inan
4 gözəl babamdan alıram ilham
Bu qoca vaxtımda mən sizə qurban
Gülümsə-gülümsə solan ürəyim

Körpə fidanlartək qarşımda duran
10 gözəl nənəmə şükürlər olsun
Daha qocalığı salaram yada
Şükürlər ilahi şükürlər olsun

Hüseynova Sünbül tərəfindən

ƏHMƏDOV ALLAHVERDİ HƏBİB OĞLU

1947-ci ildə Dərələyəz mahalının Keçkənd rayon Gədikvəng kəndində anadan olub.

1954-cü ildə Gədikvəng kənd 8-illik orta məktəbin, 1964-cü ildə isə Qovuşuq kənd orta məktəbini bitirib.Həmin il Azərbaycan Pedoqoji İnstitutunun İbtidai sinif müəllimliyi ixtisasına qəbul olub. 1969-cu ildə həmin institutu bitirib, hərbi xidmətə yollanıb. Hərbi xidməti başa vurub, doğma elinə qayıdıb. 1-il Sallı kəndində müəllim işləyib.1970-ci ildə ailə həyatı qurub. Bir müddət keçdikdən sonra hərbi xidmətdə leytenant rütbəsi aldığı üçün yenidən hərbi hissəyə zbora çağrılıb. Qayıtdıqdan sonra Gədikvəng kəndində müəllimlik peşəsini davam etdirib.Gecə məktəbinin direktoru vəzifəsində çalışıb. 6 övladı (3 qız, 3 oğlan) var. Oğlunun biri və qızlarının üçü də ail təhsillidir.

1988-ci ildə o da digər həmyerliləri kimi o da zorla doğma yurdunu tərk edib. İlk öncə Çalxanqala kəndinə, sonra isə Şahbuz rayonunun Ağbulaq kəndinə köçüb. Ağbulaq kənd orta məktəbində müəllim və direktor müavini işləyib. 2006-cı ildə Bakı şəhərinə köçüb. Bir müddət burada yaşadıqdan sonra yenidən Çalxanqala kəndinə qayıdıb. 2016-cı ildə Çalxanqala kəndində vəfat edib.

CƏFƏROV RAMİZ CƏFƏRQULU OĞLU:

Mən 1961-ci il Qərbi Azərbaycanın Dərələyəz mahalının Ələyəz kəndində anadan olmuşam. Orta təhsilimi kəndimizdə almışam. 1988-ci il Qarabağ və onun ətrafında baş verən hadisələr bizdən yan keçmədi. 1988-ci il noyabr ayının 23-ü kəndə hücum oldu. Saat 10-11 arası kəndi yandırdılar. 224 evdən 12-si tamamilə yandı və kəndi talan etdilər, məni yaraladılar. Evimizi qarət etdilər. noyabrın 23-dən 30-a kimi mühasirədə qaldıq". Sonra bizi Naxçıvan şəhərinə gətirdilər. Məni xəstəxanaya yerləşdirdilər, əməliyyat olundum. Bir müddət sonra ailəmlə birlikdə Çalxanqala kəndinə köçdük. Bu kənddə fərqli kənddən gələn bizim kimi qaçqınlar məskunlaşıb. Atam Cəfərov Cəfərqulu ömrünün sonuna kimi Çalxanqala kəndində yaşadı və burada müxtəlif vəzifələrdə- məktəb direktoru, kolxoz sədri, bələdiyyə sədri və müəllim vəzifələrində çalışdı.

NƏCƏFOV MƏTLƏB HİDAYƏT OĞLU

1955-ci ildə Dərələyəz mahalı, Paşalı rayon Gülüstan kəndində anadan olub. Uzun müddət sürücü işləyib. 1988-ci ildə ailəsi ilə birlikdə öz doğma yurdunu tərk edib, Çalxanqala kəndinə köçüb.

Qızının söylədiyinə görə: "Gecə yarısı idi. Ermənilər kəndə dolub kəndi tərk etməyimizi tələb etdilər. Atam maşının yük yerinə palaz sərərək kənddə nə qədər uşaq varsa hər kəsi maşına doldurdu. Gecənin bir yarısı kəndin içərisindən keçən çayı yararaq uşaqları, o cümlədən də bizi kənddən çıxartdı. Gəlib Buzqov kəndində yaşayan Seyidin qapısına tökülüşdük. Gecə evin yiyəsi bizi qarşıladı. Bizi bir neçə gün orada qaldıq. Sonra valideynləri gəlib hərə öz uşağını götürdü".

Nəcəfov Mətləb bir müddət Çalxanqala kəndində kolxoz sədri vəzifəsində çalışıb. 2019-cu ildə dünyasını dəyişib.

SƏMƏDOV QAFAR VƏLİ OĞLU

Mən 1950-ci ildə Dərələyəz mahalının Paşalı rayonu Gomur kəndində anadan olmuşam. Gomur kənd orta məktəbində təhsil almışam. Sonra hərbi xidmətə yollanmışam. Hərbi xidməti Almaniyada yerinə yetirmişəm. Burada Baş leytenant rütbəsinə yüksəlmişəm. Vətənə döndükdən sonra rus dilini yaxşı bildiyim üçün orta məktəbdə rus dili dərsi tədris etmişəm. Hərbidə aldığım rütbəyə görə yenidən zbora çağrılaraq əlavə kurs keçmişəm. Burada aldığım səlahiyyətə görə orta məktəbdə Hərbi hazırlıq dərslər tədris etmişəm. 1988-ci ildə ermənilərin törətdiyi hadisələrlə əlaqədar olaraq, digər həmyerlilərim kimi mən də oz ata-baba yurdumu zorla tərk etmişəm. Ailəmlə və 7 övladımla birlikdə çox çətinliklə Naxçıvan MR-nın Babək rayon Nehrəm kəndinə gəlmişəm. Burada bir müddət yaşadıqdan sonra Kəngərli rayonunun Çalxanqala kəndinə köçmüşəm. Çalxanqala kənd orta məktəbində Rus dili və Hərbi hazırlıq dərsləri tədris etmişəm. Burada yaşadığımız müddətdə çox əziyyətlər çəkmişik. Çünki bütün hər şeyimiz ermənilərə qalmışdı. Həyata yenidən başladıq. Övladlarımı böyüdüb boya, başa çatdırdım. Hər biri ailə həyatı qurdular. Artıq nəvə, nəticəm var. İstəyirəm ki, o yerlərə yenidən qayıdam. Yurdumun səfalı yerlərini görüm, buz bulaqlarında su içim. Yeganə arzumuz budur.

ŞAHHÜSEYNOV ŞƏMSƏDDİN TARVERDİ OĞLU

1969-cu ildə Dərələyəz mahalı Paşalı rayonunun Gülüstan kəndində anadan olmuşam. 1978-ci ildə Gülüstan kənd 8-illik orta məktəbinin birinci sinfinə daxil olmuşam. 1986-1987-ci illərdə isə orta təhsilimi tamamlamaq üçün Naxçıvan şəhər Əkbər Ağayev adına İnternat məktəbini bitirmişəm. 1987-ci ildə hərbi xidmətə yollanmışam. Hərbi xidmətdə olduğum müddətdə doğma kəndimin erməni təcavüzkarlarının hücumuna məruz qalmasını və ailəmin öz dədə-baba torpaqlarından zorla çıxarıldığını öyrəmdim. Təbii ki, qürbətdə olan biri üçün bu çox sarsıdıcı xəbər idi. 1989-cu ildə hərbi xidməti başa vurub dönəndə, artıq ailəm Naxçıvan MR-nın Kəngərli rayonunun Çalxanqala kəndində ev alaraq orada yaşayırdılar. Mən də bu kəndə gəldim.Onların bu kəndə necə gəlməyini, başlarına hansı hadisələrin gəldiyini yalnız özlərinin dildə anlatdıqları qədər bildim. Sonra mən də bu kənddə yaşamağa başladım. Bir müddət fəhlə kimi çalışdım. Daha sonra polis nəfəri kimi fəaliyyət göstərdim. Bir müddət işlədikdən sonra işdən ayrılaraq özəl işlərdə çalışdım. Ailə həyatı qurdum. (Həyat yoldaşım Əsədova Firzanə Cəfər qızı Ələyəz kəndində doğulub.) Məhəmməd və Röyal adında 2 övladım var. 2010-cu ildə Bakı şəhərinə köçdüm. 2017-ci ildən ailəmi dolandırmaq üçün ailəmlə birlikdə Türkiyəyə işləməyə getdik, 2022-ci ildə isə yenidən vətənə qayıtdım. Ailəmizi dolandırmaq üçün fərqli yerlərə getsək də, doğulduğumuz, boya başa çatdığımız doğma elimizi heç zaman unutmadıq. Hər zaman o yerlərə bir daha dönməyi xəyal edirik.

ŞAHHÜSEYNOV TARVERDİ XUDABAXIŞ OĞLU



1938-ci ildə Dərələyəz mahalı Paşalı rayonunun Gülüstan kəndində anadan olub. Gülüstan kənd 8-illik orta məktəbinin bitirib. Uzun müddət Gülüstan kənd kolxozunda yük maşını sürücüsü kimi çalışıb. Çox böyük əziyyətlə və zəhmətlə 5 övlad böyüyüb. Övladlarının 3-ü ali təhsillidir. O da digər həmyerliləri kimi 1988-ci ildə öz yurd, yuvasını zorla tərk edib. İlk öncə Babək rayonunun Buzqov, sonra Cəhri kəndlərində müvəqqəti yaşayıb. Daha sonra isə Çalxanqala kəndinə köçərək, yenidən yurd, yuva qurub. Yeganə arzusu yurd yerini təkrar görmək olub. Ancaq bu arzusuna çatmayaraq 2016-cı ildə vəfat edib.

ŞAHHÜSEYNOV MAHMUD TARVERDİ OĞLU

Mən, 20 noyabr 1971-ci ildə Dərələyəz mahalı Paşalı rayonunun Gülüstan kəndində anadan olmuşam, 1978-ci ildə Gülüstan kənd 8-illik orta məktəbin 1-ci sinifinə daxil olmuşam və 1987-ci ildə həmin məktəbin 8-ci sinfini bitirmişəm.

1987-1988-ci ilə kimi orta təhsilimi Naxçıvan MR Babək rayonunun Aşağı Buzqov kənd tam orta məktəbində davam etdirmişəm. Kəndimizlə Aşağı Buzqov kənd orta məktəbinin ara məsafəsi təxminən 6-7 km olduğundan məktəbə hər gün gedib-gəlməyimdə müəyyən çətinliklər yaratdığı üçün valideyinlərimin razılığı ilə 1988-ci ildən 1989-cu ilə qədər isə orta təhsilimi Naxçıvan şəhəri E.Sultanov adına 7 N-li tam orta məktəbdə davam etdirmişəm.

Erməni təcavüzkarlarının kəndimizə hücumu nəticəsində ailəmiz 1988-ci ilin noyabr ayında kəndi tərk edərək Babək rayonunun Cəhri kəndində yaşayan qohumlarımızın evində məskunlaşıb və mən həmin vaxt orta məktəbin 10-cu sinifində oxuyurdum. Ailəmiz bir neçə aydan sonra Çalxanqala kəndindən ev alaraq həmin kəndə köçdülər. Elə mən də həmin vaxtdan Çalxanqala kəndində tam orta məktəbdə təhsilimi davam etdirdim.1989-cu ildə həmin məktəbin 10-cu sinifini bitirdim.Kəndin ilk məzunlarından biri oldum.

1990-cı ilə Babək RHK-dan müddətli həqiqi hərbi xidmətə çağrılmışam və xidmətimi 1992-ci ilə qədər keçmiş SSRİ Silahli Qüvvələrinin Leninqrad diyarında dislokasiya olunmuş N saylı hərbi hissəsində başa vurmuşam.1994-cü ildə Azərbayca Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Sosiologiya fakültəsinə qəbul olunmuşam və 1998-ci ildə həmin Akademiyanın Sosiologiya ixtisasını bakalavr dərəcəsi ilə bitirmişəm.

1998-ci ildə ailə həyatı qurmuşam. Həyat yoldaşım Nəcəfova Göyərçin Mətləb qızı da 1988-ci ildə Gülüstan kəndindən zorla qovulub.

1998-ci ildə Babək RHK-dan zabit kimi həqiqi hərbi xidmətə çağrılmışam və AR müdafiə nazirinin müvafiq əmrinə əsasən V OK-nun Naxçıvan şəhərində yerləşən N saylı hərbi hissəsində bölük komandirinin şəxsi heyət üzrə müavini vəzifəsinə təyin olunmuşam. Qısa müddət ərzində xidməti vəzifəmi hərbi nizamnamənin tələblərinə uyğun yerinə yetirdiyimə görə V OK komandanının müvafiq əmrinə əsasən vəzifədə irəli çəkilərək Şahbuz şəhərində dislokasiya olunmuş N saylı hərbi hissənin Şəxsi Heyət üzrə bölməsinə "təlimatçı" vəzifəsinə təyin olunmuşam və 2000-ci ilin sentyabr ayında xidmət müddətim başa çatdığı üçün ehtiyata buraxılmışam.

2000-2002-ci illərdə Çalxanqala kənd orta məktəbində müəllim işləmişəm.

2002-ci ilin avqust ayından isə keçmiş AR MTN-ə xidmətə qəbul olunmuşam, 2003-2004-cü illərdə keçmiş MTN-in Heydər Əliyev adına Akademiyasında dinləyici kurslarında iştirak etmişəm, 2004-2006-cı illərdə keçmiş Naxçıvan MR MTN-nin Babək RŞ-də, 2006-2015-ci illərdə keçmiş Naxçıvan MR MTN-nin mərkəzi aparatında, 2015-2022-ci illərdə Naxçıvan MR DTX-nin mərkəzi aparatında, 2022-2023-cü illərdə AR DTX-nin

Naxçıvan Baş İdarəsinin mərkəzi aparatında müvafiq vəzifələrdə xidmət keçmişəm. Xidmət dövründə bir sıra medal və ordenlərlə təltif olunmuşam. 2023-cü ilin avqust ayında AR DTX-nin rəisinin müvafiq əmrinə əsasən yaşa görə təqaüdə çıxmışam, hazırda ehtiyatda olan polkovnik-leytenant hərbi rütbəsindəyəm.

Hər zaman vətənimə layiqincə xidmət etmişəm. Bundan sonra da etməyə hazıram.

İki övladım var. Oğlum Amal və qızım Xanım. Hər iki övladım ali təhsillidi. Onlar da vətənpərvər ruhda böyüyüblər. Öz ata-baba torpaqlarımızı görməyi arzu edirlər.

ŞAHHÜSEYNOV RƏŞİD TARVERDİ OĞLU

1965-ci ildə Dərələyəz mahalı, Paşalı rayon Gülüstan kəndində anadan olub. 1972-1980-ci illərdə Gülüstan kənd 8-illik məktəbində, 1980-1982-ci illərdə isə Naxçıvan şəhər, Ə. Ağayev adına İnternat məktəbində orta təhsil alıb. 1983-1985-ci illərdə hərbi xidmətdə olub.1986-1989-cu illərdə Bakı Bədən tərbiyəsi Texnikumunda orta ixtisas təhsili alıb. Eyni zamanda Gülüstan və Buzqov kəndlərində müəllim işləyib.

1988-ci ildə ailəsi ilə birlikdə ermənilər tərəfindən zorla qovularaq Çalxanqala kəndində məskunlaşıb. Çalxanqala kənd orta məktəbində Hərbi rəhbər və müəllim kimi fəaliyyət göstərir.Ailəlidir, Seymur adında bir övladı var.

MƏMMƏDOV BƏHMAN FƏRHAD OĞLU

12 aprel 1964-cü il Qərbi Azərbaycan Vedi rayonun Şidli kəndində ziyalı ailəsində anadan olmuşam. Uşaqlıq illərim o kənddə keçib. Mən 1972-ci ildə Şidli kənd orta məktəbinə daxil olub 1982-ci ildə oranı bitirmişəm. Eyni zamanda 1977-1982-ci ilərdə tarixində kənd mədəniyyət evində qarmon isxtisası üzrə təhsil almışam. 1982-1984-cü il tarixində SSRİ-nın Silahlı Qüvələrinin ordu sıralarında həqiqi hərbi xidmətdə olmuşam. 1985-1987-ci illərdə Varonej şəhərində Pedaqoji Texnukumunu bitirmişəm. 1988-ci ildə orta məktəbdə müəllim işləmişəm. 1988-ci ildə Voronej Texnologiya İnstitutunun qiyabi bölməsinə daxil oldum. 25 oktyabr 1988-ci ildə öz doğma yurdumuzdan ermənilər tərəfində zorla deportasiya edilmişik. Evimiz mal-qaramız, bütün mülkümüz ermənilərə qaldı. Biz ailədə 10 nəfər idik atam -anam 4 bacı 4 qardaş. 1988-ci ilin noyabr ayında hər kəs kimi biz də Kəngərli rayonu Çalxanqala kəndində məskunlaşdıq. Hazırda həmin kəndə yaşayıram. 27 il orta məktəbdə 1993-cü ildən isə uşaq musiqi məktəbində müəllim işləyirəm. 1991-ci ildə Çalxanqalada ailə qurmuşam 3 qız atasıyam. Qızlarımda hazırda uşaq müsiqi məktəbində müəllimə işləyirlər. Həyat yoldaşım Hüseynova Sevda Teymur qızı da Çalxanqalada kənd orta məktəbində müəllim işləyir. Mən 2020-ci il tarixindən Naxçıvan Dövlət Universiteti nəzdində Musiqi Kollecinin Xalq Çalğı alətləri ixtisasına qəbul olundum və 2024-cü ildə bitirdim. Hazırda Çalxanqalda musiqi məktəbində qarmon müəllimi işləyirəm. Doğma yurdumuza qayıdacağımıza inanırıq.

MURTUZAYEV FƏXRİYYƏ MƏCNUN QIZI

1999-cu il Kəngərli rayon Çalxanqala kəndində anadan olmuşam. Atam anam hər ikisi əslən Qərbi Azərbaycandandırlar. Biz o yerləri görməsək də valideynlərimizin söhbətindən anladığımız qədəri ilə çox gözəl yerlərdə məskunlaşıblar.

Atam – Baxşəliyev Məcnun Fərəməz oğlu 1970-ci ildə Paşalı rayonu Gülüstan kəndində anadan olub. 1988-ci ildə Gülüstan kəndini tərk etmək məcburiyyətində qalıblar.

Anam- Baxşəliyeva İnsaf Mürşüd qızı.1978-ci ildə Paşalı rayonu Gabud kəndində anadan olmuşdur. 1988-ci ildə Çalxanqala kəndinə məcburi köç edib.

Hazırda ailəliyəm. Yoldaşım Murtuzayev Sahil Arif oğlu 1989-cu ildə Şuşa rayon Malıbəyli kəndində anadan olub.11 fevral 1992-ci ildə Çalxanqala kəndinə məcburi köçkün kimi gəliblər.

Valideynlərimiz yurd həsrəti çəksələr də orada olan adət-ənənələrini qoruyub saxlayıblar. Bizi də o ruhda tərbiyə ediblər. Arzu edirik ki, biz və övladlarımız o yerlərə gedib, ata-baba yurdumuzun gözəlliklərini görək.

MUXTAROV XƏYAL YAŞAR OĞLU

Mən 12 oktyabr 1999-cu ildə Çalxanqala kəndində anadan olmuşam. 2005-2016-cı illərdə Kəngərli rayonunda tam orta orta məktəbini bitirmişəm. 2009-2014-cü illərdə Kəngərli rayon Çalxanqala kənd Uşaq Musiqi Məktəbində qarmon ixtisası üzrə musiqi təhsili almışam. 2017-2021-ci illərdə thsilimi Naxçıvan Musiqi Kollecində davam etdirmişəm. 2021-ci ildən etibarən Çalxanqala kənd uşaq musiqi məktəbində qarmon müəllimi işləyirəm. Valideynlərim Qərbi Azərbaycandan məcburi şəkildə köçürülüblər.

Atam Muxtarov Yaşar Əli oğlu, 1973-cü ildə Qərbi Azərbaycanın Vedibasar mahalının Şidli kəndində anadan olub. 1988-ci ildə erməni terror dəstələri tərəfindən deportasiya olunana qədər Şidli kəndində yaşamışdır. 1988-ci ildə Çalxanqala kəndinə köçmüşdür.

Anam Təhməzova Həcər Şükar qızı, 1972-ci ildə Dərələyəz mahalının Zeytə kəndində anadan olub. 1988-ci ilə qədər Zeytə kəndində yaşamışdır. 1988-ci ildə məcburi deportasiya edilərək Çalxanqala kəndinə gəlib.

Qardaşım Muxtarov Vüsal Yaşar oğlu - 3 yanvar 2005-ci il tarixində Çalxanqala kəndində anadan olub. Hazırda hərbi xidmətdədir.

Bacım Muxtarova Firuzə Yaşar qızı 27 aprel 2008-ci il tarixində Çalxanqala kəndində anadan olub. Hazırda kənd orta məktəbdə təhsil alır.

İBRAHİMOV İBRAHİM HƏSƏN OĞLU

25.03.1970-ci il tarixində Dərələyəz mahalının Gədikvəng kəndində anadan olmuşam1977-1985-ci illərdə Gədikvəng kənd 8-illik orta məktəbini,1987-1988-ci illərdə isə Qabaqlı kəndində tam orta məktəbi bitirmişəm. 1988-ci ildə ailəmlə birlikdə Gədikvəngi kəndini tərk etmək zorunda qalmışam. Ailmlə birlikdə Fuzuli rayonunun Hoğa kəndində 6 ay məskunlaşıb, 1989-cu ilin may ayında Naxçıvan MR-nın Kəngərli rayonun Çalxanqala kəndində məskunlaşmışıq. Ailəliyəm 3 övladım var. Orta ixtisas təhsilliyəm, Kəngərli rayonu Çalxanqala kənd Uşaq Musiqi Məktəbində qarmon ixtisası üzrə müəllim işləyirəm.

Hər kəs kimi mən də dogma yurduma qayıtmaq, övladlarıma da o yerləri tanıtmaq istəyirəm

BAYRAMOVA NÜŞABƏ CAMAL QIZI

Mən,1969-cu ildə Dərələyəz mahalı Keşkənd rayon Amağu kəndində anadan olmuşam.1988 ci ildə qədər bu kənddə yaşayırdıq. Hər günümüz bir birindən xoş keçirdi. Elə ki mənfur düşmən öz niyyətini həyata keçirmək istədi, o zaman hər şey fərqli oldu.

Bir gün ermənilər bizim kəndə daxil oldular. O zamanlar mənim 19 yaşım var idi. Mən o günün canlı şahidiyəm. İndi 55 yaşım var amma mən hələ də həmin hadisəni unutmuram. O səslər, o çığırtılar, o haraylar qulağımdan indi də getmir. Biz inanmırdıq və istəmirdik kəndimizi, el-obamızı qoyub gedək. Həmin gün dayım gəlib dedi ki, artıq getmək vaxtıdı. Dərələyəzdən bir şofer Azərbaycana köç gətirirdi. Camaat yavaş yavaş köçürdü. Bizim kənddən aşağıda Arpa kəndi var idi. Oradan keçəndə mal sürüsü ilə maşının önünü kəsdilər. Şoferi öldürmək istəyirmişlər. O da canını qurtarmaq üçün özünü bizim kəndə çatdırmışdı. Bunu bəhanə edərək ermənilər kəndə daxil oldular. 30 maşın əlisilahlı adam bizim kəndə gəldilər. Hər tərəfə avtomatla atəş açırdılar. Göyə, yerə, evlərə hər yerə. Axşam Saat 5 - 6 olardı. mal qara çöldən gələn vaxt idi. Kənddən insanlar çobanlara xəbər verdilər ki, örüşə gedən mal-heyvanları kəndə gətirməsinlər. Yaxınlıqda Cağazir kəndi var idi. Mal heyvanı ora aparmalarini istədilər. İnsanlar yamaçlara səpələnmişdi, maşını olan maşınla, olmayanlar piyada gedirdilər. Kəndi uşaqların səsi, insanların qışqırığı bürümüşdü. Hələ də o səs mənim qulağımdadır. Camaat öz toyuq-cücələrini damlara yığıb qapıları bağlayırdılar. Bir hadisə heç yadımdan çıxmır. Bir qadın 3 günlük körpəsini kolun altına qoyub getmək istəyirdi, çünki apara bilmirdi. Başqa bir qadın o uşağı qucağına alıb kömək elədi. Orda qalsa ermənilər o körpəni də öldürəcəkdi. Ən son kəndi tərk edən biz olmuşduq. O gecənin həyacanı bizi sarsıdırdı. Elə bir vəhşiliyi qəbul edə bilmirdik. Bizim elə getməyimizi görən ermənilər gülüb, əylənirdilər. Beləcə, biz öz

doğma torpaqlarımızı məcburi tərk elədik. Kəndi tərk edəndə hamı maşına minməyə başladı. Biz özümüzlə heç bir əşya götürmədik. Maşınlarda insanlar zorla yerləşirdi. Kənddən biraz uzaqlaşmışdıq ki, maşının arxaslyca balaca itimizin qaçdığını gördük. O da narahat, tələşlı idi. Maşını saxlayıb onuda özümüzlə gətirdik. Biz kəndi tərk edəndə sanki kənd bizə getməyin deyirdi. Bu hiss içimizə dolmuşdu. Dönüb kəndə baxdım ki, kənddə ermənilərdən başqa heçkim yoxdu. Hamı kəndi tərk etdiyi anda kənd vahiməli hal aldı. Səssizlik çökdü. Bütün səs dağlara yayıldı. Bunu sözlə ifadə eləmək çətindir. Gecə ilə Şərura gəldik. İcra hakimiyyətinin önündə toplaşdıq. Çox sıxlıq olduğundan Orada hamı bir birini itirmişdi. Heçkim ailəsini tapa bilmirdi. Qonşumuzun xalasıgil ilə birlikdə onlara getdim. Hər kəs bir birinə kömək etməyə çalışırdı. Səhərsi gün yenə İcranın qarşıslnda toplaşıb, hamı öz ailəsini tapdı. Bir müddət Şərurda məskunlaşdıq. Sonra Bakıya köçdük, bir müddət də Bakıya yaşayıb yenidən Naxçıvana qayıtdıq. Çalxanqala kəndində məskunlaşdıq. O zamanlar ermənilər Çalxanqala kəndində yaşayırdılar. Onlar köçüb gedəndə evlərini baha qiymətə bizə satıb getdilər. Bir neçə il orada yaşadıq. Biz 3 fərqli yerdə yaşamağa çalışdıq amma heç yerə uyəunlaşa bilmirdik. Vətən gözəl olsada, hərkəs öz doğulduğu, böyüdüyü, xatirələri olduğu yeri istəyər. Bizdə hamı kimi öz yurdumuzu istəyirdik. Dayılarım, xalalarım, anam, atam vətən həsrəti ilə xəstə düşdü, dünyadan köçdü. Mənim anam dağlar deyə-deyə, vətən deyə-deyə yaddaşını itirdi. O heç kimi tanımasa da, o heçnəyi xatırlamasa da, danışdığı zaman dağlara gedirəm deyirdi. Bundan sonra 100 il də keçsə biz bunları unuda bilmərik. Biz qohumlarla bir yerə yığışanda yalnız uşaqlığımızdan, ötən günlərdən danışırıq. Bizim çox gözəl günlərimiz, xoş xatirələrimiz, şən keçən uşaqlığımız o kənddə qaldı.

Biz inanırıq ki vaxt gələcək, biz öz doğma yurdumuza, bizim olan torpağımıza dönəcəyik, qayıdacağıq.

HÜSEYNOVA ELMIRA MƏMMƏD QIZI

Biz Hüseynovlar ailəsi atam Hüseynov Məmməd, anam Nargilə mən və 3 bacım (qardaşımız olmayıb) atamın min cür əzabla tək başına daşdan tikdiyi 2 mərtəbəli 6 otaqlı böyük həyətyanı sahəsi, hər adda meyvə ağacları olan kəndin gözəl mənzərəli yerində yerləşən evdə yaşayırdıq. Gözəl bir yay səhəri idi (iyin ayının 21) Kəndimizə çox sayda maşınlar gəldi və kəndi mühasirəyə aldılar ki, kəndi tərk edin. Atam da yol idarəsində işləyirdi işdən gəlməmişdi. Kəndin camaatı- uşaqlı, qocalı hər kəs piyada yolla yamaclarla, dağlarla üz tutdular Şərur tərəfə biz atamdan xəbər tuta bilmədik. Onlar 2 nəfər idilər rayonda işləyən. Biz atamdan 3 gündən sonra xəbər tutduq.

Atamın dediklərindən: Bizi hər gün işdən evə "Uaz" markalı maşın gətirirdi. Həmin günü də saat 5 də işdən çıxdıq, əyləşdik maşına evə getməyə.Kəndimizədən qabaq Arpa kəndi var ora yaxınlaşanda yollarda çoxlu ermənilər var idi. Bizi görəndə maşını daşa tutdular, şüşələr qırıldı, töküldü üstümüzə neçə yerdən kəsdi. Daşlar başımıza, bədənimizdə dəyirdi. Sürücü erməni idi maşını döndərdi dərəyə dedi:" Düşün! Sizə görə mən də zərər çəkəcəm". Dağ yolları ilə gecə saat 12 də gəldik kəndimizin yaxınlığına, kənddə işıqlar yanmırdı. Uzaqdan səslər eşitdik yaxınlaşdıq ki, çobanlar mal heyvanı yığıblar bir yerə ki, dağılmasın. Səhər açıldı. Artıq kəndə girmək mümkün deyildi.

Beləliklə, kəndi tərk etdik, getdik Şərura. Biz Şərurda 3 ay qaldıq atam getdi Qarabağa ki, orda yer tapsın gəlib köçümüzü aparsın. Kəndimizdən bir neçə nəfəri də atamla getdilər Xocalıya orda onları qəbul etməmişdilər.Bir neçə rayona da getdilər alınmadı. Qayıdıb gəldilər və noyabr ayında biz köçdük Bakıya Mehdiabad qəsəbəsində xalamgildə 6-7 ay qaldıqdan sonra Şəhərdən ermənilər evlərini satıb gedirdilər biz də özümüzə ev

aldıq. Hal-hazırda Bakıda yaşayırıq. Hər gün hər saat kəndimizi o, gözəl evimizi orda keçən günlərimizi yada salıb kövrəlirik. Ümüdvarıq ki, gün gələcək bizim xəyallarımız gerçəkləşəcək və bizi kəndimizə qayıdacağıq. Biz buna inanırıq.

QƏHRƏMANOVA SURƏ ƏLİ QIZI

Biz, 1988-ci ilə qədər Qərbi Azərbaycanın Dərələyəz mahalı, Keşkənd rayon Amağu kəndə yaşamışıq. Hər kəs kimi bizim də mütəvazi bir həyatımız var idi. Ancaq mənfur düşmənlər pis niyyətlərini sərgiləyərək yurdumuza göz dikdilər. Bizi ata-baba torpaqlarımızdan çıxarmaq planlarını həyata keçirdilər. Nəhayət, iyunun 21-də ermənilər kəndə hücum etdilər.

Bizim ev yola yaxın idi. Balkonda paltar yuyurdum, onda gördüm bir yük maşın kəndə girdi, elə bil uçurdu. Sürücü özünü güc, bəla ilə çatdırdı kəndə. Ermənilərdən qaçan bu şəxsə kənd camaatı köməklik göstərdilər. Kəndin içində maşını gizldətdilər, sürücü isə Səhnə xalamgilin həyətində cəviz ağacının başına çıxdı. Elə 10 dəqiqə keçməmiş ermənilər kəndin üstünü - Haçalı qayanın altındakı asvalt yolu tutmuşdlar. Axşamçağı qonşumuz rəhmətlik Hüseyn müəllim kəndin yandırılmasından qorxaraq, (Əvvəllər bu kəndi yandırmışdılar) ucadan qışqırdı ki, kəndi tərk edin. Mən də iki yaş yarım olan qızım Süsəni kürəyimə bağlıyıb, 9 yaşlı oğlum Bahaduru, 11 yaşlı oğlum Emini, 13 yaşlı oğlum Ülfəri yanıma aldım, amma böyük oğlum 15 yaşlı Ceyhundan xəbərim olmadı. Hər kəs kimi mən də hara və necə gedəcəyimi bilmirdim. Bizi kənddən çıxarmaq üçün odlu silahlardan evlərin dam örtüklərinə atəş açmağa başladılar. Biz də öz yurd-yuvamızı tərk etmək məcburiyyətində qaldıq. Bütün hər şeyimizi geridə qoyub, sadəcə canımızı qurtardıq. Armudlu adlanan ərazidən keçərək piyada gedirdik Cağazir kəndinə. Yolda dedilər ki,kəndçimiz Səfərin maşınına gəlir bizi apara. Həmin maşına minib gecə getdik Şərura.

Biz gecə yarsına qədər rayonda qaldıq onda dedilər ki, kimin buralarda qohumu varsa gediib orada qalın. Qohumu olmuyanları isə idarəyə məkdəbə yerləşdirdilər. Mənim Şəhid Məməd kəndində bacılarım var idi. Biz gecənin yarısı gedib, Sona bacımgildə qaldıq. Sonra qonşu Sovxoz kənddə yoldaşımın dostu vardı, o dedi ki, el elə sığar, ev evə sığmaz ata yurdum boşdu sizi ora yerləşdirəcəm. Biz 6 ay orada qaldıq. Dekabr ayı idi qayınlarım yığılıb Qarbağa getdilər. Xankəndində yer elyib gəldilər ki, köçək ora. Elə bu vaxtı xəbər yayıldı ki Naxcıvanın Əznəbirt (indiki Çalxanqala) kəndindən ermənilər köçür və elərini satır. O evlərin hamısı palçıq kərpicdən idi. Bizim pulumuz olmadığı üçün borc edib 3500 manat ermənıyə pul verib ev aldıq. Çox çətinliklərlə övladlarımı böyütməyə çalışdıq. Amma biz ora uyğnlaşa bilmədik. Köçüb Bakıya gəldik. O vaxtdan kirayədə qalırıq. Oğlanlarım hər biri ailə qurub, ayrı-ayrı kirayədə qalırlar. 2007-də yoldaşım rəhmətə getdi 2015-də böyük oğlum rəhmətə gedib. Bu da mənim yaşayışım və taleyim. Bütün bu çətinlikləri ermənilərin ucbatından çəkdik və hələ də çəkirik.

HAQVERDİYEV ƏLƏSGƏR PAŞA OĞLU

Mən Paşalı rayon Gülüstan kəndində anadan olmuşam. 1988-ci ildə deportasiyaya məruz qalan sakinlərdən biriyəm. Paşalı rayon Gülüstan kəndi 1929-cu ilə qədər Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonuna bağlı olub. 1929-cu ildə ermənilər öz istəklərinə nail olaraq, Gülüstan kəndini Qərbi Azərbaycanın Paşalı rayonuna tabe ediblər.

Məni və digər ailə üzvlərim, - qardaşlarım Haqverdiyev Ziyad Paşa oğlu, Haqverdiyev Sərraf Paşa oğlu, Haqverdiyev Haqverdi Paşa oğlu, bacılarım Haqverdiyeva Gülarə Paşa qızı, Haqverdiyeva Minarə Paşa qızı, Haqverdiyeva Cahan Paşa qızı və anam 1934-cü il təvəlüddlü Haqverdiyeva Bəsti Qaytaran qızını ermənilər rus əsgərlərinin köməyi ilə kəndə hücum edərək öz ata yurdumuzdan zorla çıxardılar. Bizə aid olan anamın evi və qardaşım Ziyadın evi Gülüstan kəndində qaldı. Biz kənddən deportasiya edildikdən sonra bizə Naxçıvan qucaq açdı. Bizim ailə üzvlərinin hamısını Babək rayonun Aşağı Uzunoba kəndində yaşayan Atikə bibim 3 ay evində qonaq etdi. Bütün bu əziyyətlərdən sonra bibim Atikənin dəstəyi ilə ev aldıq. Bizim ailəni ən çox narahat edən o idi ki, atam cavan yaşda rəhmətə getmişdi və məzarı Gülüstan kəndində qaldı. Heç vaxt ziyarət edə bilmədik. Mən bu təskinliyi 2020-ci ildə anam rəhmətə getdikdən sonra atamla anamın birgə şəklini anamın məzarı üstə vuraraq tapdım. Ona görə də şəkili vurdum ki, hər ziyarətə getdikdə öz xəyalımda ziyarət edirdim. 35 il üstündən keçməsinə baxmayaraq bir dəqiqə belə olsada mənə doğma olan ana vətənimi unutmamışam. Heç vaxtda unutmayacam. Hər zaman düşünürəm ki, mən ailəmlə birlikdə doğma olan vətənimə qayıdacam. Mənim övladlarım orda dünyaya gəlməsədə vətənim haqqında elə gözəl danışmışam ki, onlarda həsrətlə öz vətənimiz olan Gülüstan kəndini gözləyirlər.

MƏMMƏDOVA GÜNEL BƏHMAN QIZI

11 mart 1992-ci ildə Çalxanqala kəndində anadan olmuşam. Atam Bəhman Məmmədov 12 aprel 1962-ci ildə Vedibasar mahalının Şidli kəndində anadan olub. İlk təhsilini həmin kəndə alıb. Anam Hüseynova Sevda Teymur qızı 13 sentaybr 1963-cü ildə Dərləyəz mahalının Zeytə kəndində anadan olub. 8-ci sinifi Sabirabad rayonun Şıxsalahlı kəndində sonra isə Babək rayonunun Böyük düz kəndində gələrək orta məktəbi orada bitirib.Atam Vedibasar mahalının Şidli kəndindən, anam isə Dərələyəz mahalının Zeytə kəndindən 1989-cu ildə deportasiya edilərək Çalxanqala kəndinə gəliblər. Hər iki ailə öz ata-baba yurdlarını tərk edəndə bir çox çətinliklərlə üzləşiblər. Onlar öz yurd yerləri ilə bağlı xatirələrini bizimlə bölüşürlər. Biz o yerləri görməsək də xəyalımızda canlanır. İnanırıq ki, o yerləri xəyalımızda yox, gerçəkdə görəcəyik

ABBASOV MƏCİD AVAS OĞLU

1 sentaybr 1962-ci ildə Dərələyəz mahalı Paşalı rayonunun Gabut kəndində anadan olmuşam. Mənim atam, anam və ulu babalarım hamısı orada yaşayıb. Orada çox yaxşı həyat sürmüşük. Məlum hadisələrlə əlaqədar olaraq 1988-ci ildə erməni silahlıları tərəfindən zorla ata-baba yurdumuzu tərk etmişik. Ailəmizin bəzi üzvləri Ordubad rayonunun Parağa kəndinə, biz isə Naxçıvan MR Kəngərli rayon Çalxanqala kəndində üz tutmuşuq. Elə həmin vaxtdan da burada məskunlaşmışıq. Burada çox böyük çətinliklərlə 4 övlad böyütmüşəm. Ancaq nə qədər vaxt keçsə də hələ də o yerlərimiz üçün çox darıxırıq. İnanırıq ki o torpaqlara dönəcəyik.

HƏSƏNOV ZİYAD CƏLİL OĞLU

2 may 1939-cu ildə Dərələyəzin Heşin kəndində anadan olmuşam. 7 övladım var. Məşəqqətli və çətin həyat tarixçəmiz var. 1988-ci ildə erməni təcəvüzkarları tərəfindən zorla doğma elimizdən qovulmuşuq. Hər kəs kimi mən də bir çox çətinliklərlə qarşılaşmışam. Yurdumuzu tərk etdikdən sonra Naxçıvan MR Kəngərli rayon Çalxanqala kəndinə pənah gətirmişik. Burada min bir əziyyətlə övladlarımı böyütmüşəm. Hazırda Çalxanqala kəndində yaşayıram. Doğma yurdumuza qayıdacağımıza inanıram.

MƏMMƏDOV RÜSTƏM MURAD OĞLU

18 noyabr 1971-ci ildə Dərələyəz mahalı Paşalı rayonunun Gomur kəndində anadan olmuşam. 1988-ci ildə erməni silahlıları tərəfindən qovularaq ata-baba yurdlarımızı tərk etməyə məcbur olduq. Həmin dövr həyatımız çox acınacaqlı oldu. Yurdumuzu tərk etdikdən sonra Naxçıvan MR Kəngərli rayon Çalxanqala kəndində məskunlaşdıq. Çox əziyyət və zəhmətlə 3 övlad böyütdüm. Atam və anam yurd həsrəti ilə dünyalarını dəyişdilər. İnanırıq ki, o torpaqlarımıza yenidən qayıdacağıq

VƏLİYEV ŞAHZADƏ ALLAHVERDİ OĞLU

Mən, 01 yanvar 1964-cü ildə Əzizbəyov Paşalı rayonunun Gabut kəndində anadan olmuşam. Politexnik texnikumunun Meşə təsərrüfatı üzrə texnik-texnoloq fakültəsini Belarusiya Respublikası Qomel şəhərində oxumuşam. 2007-2009-cu illərdə Çalxanqala Bələdiyyəsi sədri işləmişəm. 2010-2024-cü ildə və haliyədə Çalxanqala kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini vəzifəsində işləyirəm. Biz ailədə 3 qardaş,1 bacı. Bizim Gabut kəndində tayfamıza Kürşanlı tayfası adlanır. Bizim ulu

babalarımızda həmin kənddə yaşamış və orada dünyalarını dəyiş-mişlər. Məlum hadisələrlə əlaqədar olaraq 1988-ci ildə Kəngərli rayonu Çalxanqala kəndində məskunlaşmışıq. Atam və anam Çalxanqala kəndində vəfat etmişlər. Qardaşlarım Hümbət və Şahlar, bacım Gülənbər hələdə Çalxaqala kəndində yaşayırlar. Ailəliyəm. 3 övladım var. 2 oğlan 1 qızım var. 1 oğlum və 1 qızım Bakı şəhərində yaşayırlar. 1 oğlum öz yanımda yaşayır. 5 nəvəm var.

O gün gələcək övladlarımızla, nəvələrimizlə o torpaqlarımıza qayıdacağıq.

İKİ ÖMÜR HAQQINDA BİR HEKAYƏ

Babamı çox sevirdim və indi də onun məni qucaqlayıb öpəndə qəhərlənməyi, onun gözlərindəki nəmi ovcumla silərək göz yaşlarının axdığı yerdən öpməyim elə bil dünən olmuşdu. Əlimdən tutub həyəti gəzərdik, susardı, arabir elə dərindən "ah" çəkərdi ki, mən istər-istəməz dönüb onun üzünə baxar və "baba, qayıdaq, gedək evə" - deyərdim. Babamın bu pərişan halının səbəbləri barədə sonralar anam danışardı və deyilənləri diqqətlə dinləyərdim. Onda artıq babam yox idi və mən onun çəkdikləri ahın və bu dünyadan erkən getməyinin səbəbləri barədə təzə-təzə nələrisə bilir, itirdiyi Vətənin həsrətilə dünyasını tərk etdiyini öyrənirdim.

Bunları anam danışır, mənim isə düşmənə olan nifrətim son həddinə çatır, nə edəcəyimi bilmirəm. Axı babamın, babam kimi minlərlə insanın nə günahı vardı ki?! Anam aramla o günləri xatırlayır: 1988-ci ilin payızı, yox lap dəqiq desəm, 1988-ci il oktyabr ayının son günləri idi. Camaat arasında vahimə dolu çaxnaşma düşmüşdü. Hamı arasında bircə mövzu ətrafında söhbət dolaşırdı: Dərələyəz mahalında yaşayan bütün azərbaycanlıları uşaq,böyük demədən hamısını çıxarırlar. Niyə çıxarırlar? Kim çıxarır? İndi nə edək? İlahi, Sən özün kömək bizə! Qızım, atan, əmin yük maşını tutub Dilican tərəfdən qorxulu, hər dərədə, hər kolun dibində bir əlisilahlı "saqqallı"nın dayandığı yollarla Dərələyəzə-atasını, qardaş-bacısını gətirməyə getdilər. Mən qorxurdum, hər an hər şey ola bilərdi. Həmin vaxt eyni məqsədlə Dərələyəzə gedənlərin yolda saqqallı ermənilər tərəfindən öldürülməsi barədə xəbərləri

çox eşidirdik. Beləcə, atan və əminin yola düşdüyü vaxtdan günlər keçir, onlardansa heç bir xəbər yox idi. Gecənin birində səhərə yaxın qapımızda bir maşın dayandı. Onda biz Mehdiabadda yaşayırdıq. Hay-küy və ağlaşma səsinə çölə çıxdıq. Maşının banında ev əşyaları, kabinəsində isə bütöv bir ailənin üst-üstə qalandığını görmək onların hansı vəziyyətdə gəlməsindən danışırdı. Payızın soyuq günləri, qışın ilk əlamətlərinin özünü göstərməsinə baxmayaraq onlar elə ev paltarındaca maşına doluşmuşdular. Hansı əzablarla deyə bilmirəm, onu o uşaqları görənlər bilər, onların ağlaya-ağlaya maşından düşüb evə girdikləri gözlərimin önündən getməyib. Atanla əmin, bir də sürücü maşını boşaldırdılar. Ev əşyalarından yığıb gətirə bildiklərini ehmallıca, zədələnmədən götürür, həyətimizdəki qarajın qabağına yığırdılar. Bu məqamda mənim nəzərimi bir-birinə bağlanmış dördayaq (duvax), oxlov cəlb etdi. Mən nə baş verdiyini anlaya bilməyən adamlar kimi donuxub bir tərəfdə qalmışdım. Əslində, dağdan ağır qaynatamı əzizləməli, onun rahatlığı üçün çalışmalı idim, amma qəfildən gözümə sataşan və iki daşın arasında çəkib xatirələrin yanına aparan dördayaq və oxlovla danışırdım.

Mən təəccüblə anama baxdım. Anamsa gözlərini bir nöqtəyə zilləmişdi və eləcə də sözünə davam edirdi: “Bu oxlov-duvaq bir ailənin çörəyini bişirərdi. Təndirəsərlərdə çölün-bayırın çır-çırpısından gətirib təndiri qalayar, qız-gəlin yığışar, geniş süfrələr açar, obaşdan qırmızı buğdadan üyüdülmüş undan xəmir yoğurar, üstünü möhkəm-möhkəm basdırar və xəmirin acımasını gözləyərdilər. Aradakı vaxtı boş keçirməmək üçün iş axtarmaq lazım gəlmirdi, həmin vaxt ilkin olaraq təndirin üstündə məxsusi düzəldilmiş güncdəki çaydanda qaynayan sudan dəmlənən çay içilərdi. Bundan sonra yoğrulmuş xəmir süfrələrə gətirilər, dördayaqları qoyub üstündə kündə edərdilər. Kündələrin arasına un səpib qalaq-qalaq yığardılar, üstünü isə səliqəli ağappaq örtüklə örtərdilər, təndirin odu isə öləziməkdə olardı. Bu məqamı gözləyən çörəkbişirən qadın qollarına

qolçaq geyinər, rəfətəni dizinin üstünə qoyar, təndirin qıpqırmızı qızarmış badını yaş əski ilə bir-iki dəfə silərdi. Qızlar da öz işində, duvaxların üstündə vərdənə yayılar, bir az sonrasa vərdənələr qulac-qulac lavaşlara çevriləcəkdi. Lavaşı təndirə vuran qadın köpəşimiş, bir qədər qızarmış lavaşları təndirdən çıxarar, qarşı tərəfə çin-çin yığardı. O, aradabir külfəni açıb təndiri nisbətən soyutmağı yaddan çıxarmazdı. Təndirarası isti dəstanalardan sapsarı inək yağında döymənçin döyülməsi isə adət halını almışdı. Lavaşlar biririlib yığılandan sonra qız-gəlin deyə-gülə döymənçdən yeyər, yenə işlərinə davam edərdilər. Beləcə gün başa çatardı və bütün bunlardan sonra xüsusən uşaqların hər dəfə təndir qalananda gözlədikləri məqam yetişərdi, məftilə düzülmüş şəkər çuğundurları təndirin öləzimiş közünə atılardı. Evin xanımı da öz işində idi. O, duvaxları, oxlovları təmiz əski ilə silib bir kənara yığar, qat-qat tığılanan lavaşlardan qız-gəlinlər üçün pay tutardı. Mənim üçün çoxdan doğmalaşan və hətta tez-tez onlar üçün darıxdığım oxlov-duvax bir evin yox, həmin evdə böyüyən hər kəsin azuqəsi kimi gəlir mənə. Onları görəndə gəlinliyimi, Dərələyəzdə keçən günlərimizi xatırladım, qızım. Bunlar mənə çoxdan doğmalaşan oxlov-duvax idi. İndi o da yetim qalmışdı. Gəl, qızım, kömək elə, onları əl dəyməyən bir yerə qoyaq".

Mən anamın sözlərlə yaratdığı mənzərədən o qədər xoşhal olmuşdum ki, istəyirdim anam bu söhbəti davam etsin. İndi xətrinə dəymirəm, əziyyət vermirəm. Amma günün birində belə suallardan anama ünvanlayacağımı da bilirəm.

Anam kövrəlib susur, amma bu susqunluq elə də uzun çəkmir, babamın Ələyəzdəki evindən danışır, o həyətdəki təndirəsərdən danışır, o təndirdən ki, atam həmin təndirdə bişən çörəklə böyüyüb.

Anam danışdıqca gözlərimin qarşısına babam Əyyub Müseyib oğlu Hüseynov gətirirəm. O, Dərələyəz mahalının sayılıb-seçilən ziyalılarından biri olub. Onu deyim ki, babam indi mənim çalışdığım ADPU-nun Filologiya fakültəsinin məzunu olub. Sonralar

öz doğma kəndi Ələyəzdə orta məktəbdə Azərbaycan dili və ədəbiyyat fənnini tədris edib, yüzlərlə yetirmələri respublikamızın müxtəlif bölgələrində çalışaraq onun yolunu davam etdiriblər. Respublikamızın müxtəlif guşələrində deməkdə yanılmadım, çünki orta məktəbi bitirən, Bakıda və müxtəlif şəhərlərdə ali təhsil aldıqdan sonra vətənə qayıdan gənclər öz doğma yurdlarında müxtəlif bəhanələrlə sıxışdırılır, onların inkişafına yol verilmirdi. Bir sözlə, onlar sükutlu təzyiqlərin məngənəsinə düşür, özlərinindəki potensialı ortaya qoymaq üçün yollar axtarmaq məcburiyyətində qalır, müxtəlif bölgələrdə öz işlərini davam etdirirdilər. Deyim ki, onların əksəriyyəti özlərini təsdiq edə bildi. Həmin adamların çoxu üçün 1927-ci il iyulun-də Dərələyəz mahalının Ələyəz kəndində anadan olan Əyyub babam bu gün də dəyərli müəllim kimi qalıb. Onun qaynatası Bayramqulu Dərələyəzin tanınmış ziyalılarından, sözü keçən ağsaqqallarından idi. Babamın fəaliyyətinin çox hissəsi sonralar Yeğeqnadzor adlandırılan Keşkənd rayon Təhsil Şöbəsinin inspektoru kimi keçib. İşini bilən, sayılıb-seçilən, ancaq rayonumuzda deyil, bütün mahalda hörmət-izzət yiyəsi olan Əyyub babam qaçqınlıq həyatını sinirə bilmədi. O, 63 yaşında üz çevirib bu dünyadan gedəndə- 1990-cı il yanvar ayının 18-də artıq mənim 3 yaşım var idi. Babamın söhbətlərindən bəziləri yadımdadır. Hələ o vaxtlar mənim çox da dərk etmədiyim məsələləri anam sonralar təfərrüatı ilə danışırdı.

Anam deyir ki, həyətimizdəki armud ağacının altında çay süfrəsi açmışdım. Baban süfrə arxasında oturub bizi gözləyirdi. Onu deyim ki, 2 əmin, 1 bibin olanda nənən Rəhilə dünyasını dəyişib. Sənin atan onda 6-7 yaşında olarmış. Təmkinli, vüqarlı Əyyub müəllim uzun zaman ailə qurmur, övladlarına öz bacıları baxır. Sonralar məsləhət görürlər ki, bu cür olmur, evlən. Ağbirçəklərin məsləhəti ilə babam Gülüş nənə ilə evlənir. 3 övladı Səidə, Ayna, Malik dünyaya gəlir. Yəni babanın həyatı da tələtümlü, əziyyətli olubdur. Hamı süfrədə

əyləşəndən sonra baban aram-aram, özünəməxsus ləngərlə sözə başladı: deyirəm, yadınızdan çıxmasın, ölüm-itim dünyasıdır. **Bu ermənilərə inanmaq olmaz, onlar öz işlədiyimiz halal əmək haqqımızdan hər ay tutub Eçmiədzinə köçürürdülər**. **Guya kilsəyə kömək idi bu. Sən demə, öz pulumuzla silah alıb özümüzə tuşlayacaqmışlar.** Süfrəmizdə əyləşib bizə düşmən kəsildilər, gəmiyə minib, gəmiçi ilə yola getmədilər, "özümə yer edim, gör sənə nələr edəcəyəm" - dedilər. Ev-eşiyimizə, var-dövlətimizə yiyə çıxdılar, bizi pərsəng saldılar, qəbirlərimizi girov qaldı, bala! Biz necə qayıdacağıq həmən yerlərə, bu beləcə nə vaxta qədər qala bilər? Onların havadarları - ilana zəhər verən kərtənkələlər çoxdur, gözümüzün içinə baxa-baxa silahlandırdılar, bu nankorlar isə etdiklərinin cəzasını görmədikcə həyasızlaşdılar. Onlar üçün uydurulan yalanlarlara inanıb ömrü boyu xəyallarında qurduqları "Böyük Ermənistan" sevdası ilə yol getdilər, həqiqəti deyən azsayda özününkülərini daşqalaq etdilər. Dünya malı üçün şeytana yoldaş olan alimləri, siyasətçiləri onları qəflət yuxusundan ayıltmaq əvəzinə, zəhər üstündən zəhər içizdirdilər, guya ki, dünyada hərşeydən üstün bildikləri xalqı qaynar qazanın içinə atdılar. Xalq bu yalanların içində çırpınır. İndi görərsiniz, bala, "çalxalandıqca, bulandıqca zaman nehrə kimi, yağı yağ üstündə qalar, ayranı ayranlıq olacaq". Bu bədbəxt xalq nə zamansa ayılacaq, hesab-kitab soracaq, amma onda gec olacaq, çox gec. İlahi, sən özün bu işləri yoluna qoy! - dedi və susdu. Süzülən çaylar soyumuşdu. Gülüş nənə ağlayırdı. Bibilərim bikef idi. Mən əmim Malikə "Balik" deyirdim. Balikin də gözləri dolmuşdu. Babamgil ailəliklə 2 il bizim evdə qaldı. Sonra Bakıxanov qəsəbəsində ev aldılar. Babam Ələyəzdəki evi bir erməni ilə dəyişmək istədi. Ona görə bir neçə adamla guya ki, sülh yaratmaq üçün bölgədə peyda olan rus ordusunun bir qrup hərbçisinin müşayiəti ilə Ələyəzə gedən və bir həftədən sonra qayıdan babam heç nə əldə edə bilmədiyini söyləyir. Babamdan Ələyəz haqqında qalan son xatirə isə bunlardır və onları tez-tez xatırlayıram:

“Biz rus tanklarının müşayiət etdiyi hərbi maşınlarla Dərələyəzə gedirdik. Bu vəziyyətdə getməyimizdən o qədər təsirlənmişdim ki, daha ev filan da gözümdə deyildi. Sadəcə son dəfə doğma yurdun havasını alım, doyunca bir də baxım deyə, özümə təsəlli verirdim. Beləcə gəlib Ələyəzə çatdıq. Əli avtomatlı rus əsgərləri bizi məktəbin qabağına apardı. Bacım Qəmzənin evi məktəbə yaxın idi. Boş olduğunu bilə-bilə onların həyətinə boylandım. Ağ pişik həyətdəki qoz ağacının dibindəcə oturub naməlum bir nöqtəyə baxırdı. Sanki diksindim və üzümü döndərdim. Növbə mənə çatdı, mən, bir rus əsgərinin müşaiyəti ilə həyətimizə tərəf getdim. Uzaqdan evin qapısının açıq olduğunu gördüm. Düşündüm ki, “xaraba qalsın”- deyə bir söz varmış ha, bax, o səhnə bu imiş. Sarı inək həyətin ortasında dayanıb, hərdən açıq qapıya tərəf boynunu uzadıb mələyirdi. İlahi, bu türkürpədən mənzərə məni niyə orada öldürmədi?! Necə oldu ki, sağ qaldım?! Mənim də ürəyim daşdanmış ha! Qayıtdım. Məktəbin həyətinə döndüm. Sonra məndən nə soruşdular bilmirəm, ağzımdan təkcə bir söz çıxdı: Nə satmıram, nə də dəyişmirəm.

O yadıma gəlir ki, kəndimizə etdiyi sonuncu səfərdən sonra babam evə qapandı. Yanına gələnlərə, qaçqın düşmüş elinə isə “mən gördüyümü gördüm” - deyirdi. Daha babamın həyətdəki armud ağacının altında oturub kitab oxuduğunu da görmədim. Bir müddət sonra o, dünyasını dəyişdi.

Onu Mehdiabad qəbiristanlığında dəfn etdilər. İllər keçəcək və cavan yaşında qəfil vəfat edən atam babama əbədi qonşu olmaq üçün onun yanına köçəcək.

Könül Həsənova
filologiya üzrə fəlsəfə doktoru, dosent
ADPU – Filologiya fakültəsinin dekanı

HÜSEYNOV ƏYYUB MÜSEYİB OĞLU



1927-ci ildə Dərələyəz mahalının Ələyəz kəndində doğlub. İlk təhsilini Ələyəz kəndində, tam orta təhsilini Qovşuq kəndində alıb. 1952-1956-cı illərdə Azərbaycan Pedaqoji İnstitutunda təhsil alıb. 1956-cı ildən Ələyəz kəndində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi fəaliyyət göstərib. 1973-1983-cü illərdə Yexednadzor rayonu Təhsil Şöbəsində Azərbaycan məktəbləri üzrə inspektor-metodist vəzifəsində çalışıb. Ailəlidir 7 övladı var. 1988-ci ildə doğma yurdundan deportasiya edilərək Bakı şəhərinə köçüb. 18 yanvar 1990-cı ildə vətən həsrəti ilə dünyadan köçüb.

CƏFƏROV MÜZƏFFƏR BAYRAMQULU OĞLU



1925-ci ildə Ələyəz kəndində anadan olub. İlk təhsilini Ələyəz kəndində, tam orta təhsilini Qovuşuq kəndində alıb. 1945-ci ildə həqiqi-hərbi xidmətə çağırılıb 10 ay müddətində taktiki-təlim əməliyyatlarında iştirak edib. Orta təhsilini başa vurduqdan sonra Ələyəz, Horbadıq, Qalaser kəndlərində müəllimlik edib. 1947-1950-ci illərdə Yerevan Pedaqoji Texnikumunu ibtidai sinif müəllimi ixtisası üzrə təhsil alıb. 1946-cı ildə həmkəndlisi Tamam xanımla ailə qurub. Bu nigahdan onların 7 övladı dünyaya gəlib. 1950-1988-ci illər ərzində Ələyəz kənd orta məktəbində müəllim kimi fəaliyyət göstərib. 1988-ci il deportasiyasından sonra ailəsi ilə birlikdə Bakı şəhərinə köçüb. M.Cəfərov 2003-cü ildə Bakı şəhərində dünyasını dəyişib.

CƏFƏROV QƏZƏNFƏR MÜZƏFFƏR OĞLU

1956-cı ildə Ələyəz kəndində anadan olub. İlk təhsilini Ələyəz kəndində, tam orta təhsilini Qovuşuq kəndində alıb. 1974-1976-cı illərdə həqiqi hərbi xidmət keçib. 1976-1980-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun kimya ixtisası üzrə təhsil alıb.1980-1984-cü illərdə Cəlilabad rayonunda orta məktəbdə kimya müəllimi kimi fəaliyyət göstərib. 1984-1987-ci illərdə AMEA-nın Qeyri-Üzvi və Fiziki-Kimya İnstitutunda aspirant olub. 1989-cu ildə qeyri-üzvü kimya ixtisası üzrə elmlər namizədi elmi dərəcəsi almışdır. Hazırda həmin elm müəssisəsində aparıcı elmi işçi-dosent vəzifəsində çalışır. 100-dək elmi məqalə-nin müəllifidir. 1988-ci ildə Q.Cəfərovun ailə üzvləri Ələyəz kəndindən deportasiya məruz qalaraq Bakı şəhərinə köçüblər. Ailəlidi iki övladı var. Bakı şəhərində Bakıxanov qəsəbəsində yaşayır.

ƏSƏDOV CƏFƏR (HƏKİM) ƏLİ OĞLU

1936-cı ildə Dərələyəz mahalının Keşkənd rayon Ələyəz kəndində anadan olub. Orta məktəbi Ələyəz kəndində bitirib. Ali təhsil aldıqdan sonra Ələyəz kəndində həkim kimi fəaliyyət göstərib. 1988-ci ildə məlum hadisələrlə əlaqədar olaraq, o da ailəsi ilə birlikdə ata-baba torpağını çətinliklə tərk edib.

Qızı: ”Payız vaxtı idi ermənilər kəndə doldu, kəndi yandırdılar. Evdən heç nə götürə bilmədik. Hətta atamın maşınını, eyni zamanda evdə olan pulu götürməyə macal tapmadıq. Evlərimizi tərk edib, çox çətinliklə kəndin yaxınlığındakı kahalara yerləşdik. Bir neçə gün orada qaldıq. Heç kim qorxudan kəndə qayıda bilmirdi. Uşaqlar ac, susuz ağlaşırdı. Bir müddət sonra vertolyotla Naxçıvandan bizə yemək gətirdilər. Ermənilər kəndi yandırdıqdan sonra kəndi tərk etmişdilər. Kənd camaatı yavaş-yavaş kəndə gedib, gördükləri mənzərə qarşısında şok keçirdilər. Biz də kəndə getdik.Artıq kəndi tamamilə tərk etməyin vaxtı gəlmişdi. Evimizin əşyalarını götürmək çox çətin idi.Yalnız atamla anam maşının arxasına bir az azuqə yığdı, anam evdə olan pulu belinə bağladı, min bir əziyyətlə qurduqları evləri ilə vidalaşdılar. Kəndi tərk etdik. Qovuşuq kəndinin yaxınlığında maşınları yoxladılar. Bütün hər şeyimizi əlimizdən aldılar. Qundaqdakı uşaqların bələyinə kimi açıb baxırdılar. Anamın belinə bağladığı pulu da açıb götürdülər.Ermənilər bizə kömək gəlməsini gözləməyərək önümüzdə yanacaq maşını, arxamızda isə kranla bizi aparırdılar. Xeyli yol getdikdən sonra Herher kəndinin yaxınlığında bizə köməyə gələn maşınlarla qarşılaşdıq.Çox çətinliklə Naxçıvana gəlib çıxdıq. Bir neçə gün qohumlarımızgildə

qaldıq. Sonra bizi Əliabad qəsəbəsində yataqxanaya yerləşdirdilər. Təhsildən geri qalmayaq deyə bir müddət Əliabad məktəbində oxuduq. Sonra Çalxanqala kəndinə köçdük. Çətinliklərlə yenidən yurd, yuva qurduq.Atam burda uzun müddət həkim işlədi. Atam ürəyində doğma yurd nisgili ilə Çalxanqala kəndində vəfat etdi”.

HƏSƏNOV ZAKİR İSAQ OĞLU

1952-ci ildə Dərələyəz mahalı Keşkənd rayonunun Gədikvəng kəndində anadan olmuşam. Orta təhsilimi Gədikvəng kənd 8-illik məktəbində, daha sonra isə Qovuşuq kənd orta məktəbində başa vurmuşam. 1969-1973-cü illərdə Bakı Politexnik İnstitutunu bitirmişəm. Uzun müddət müxtəlif vəzifələrdə, o cümlədən Keşkənd rayonunda tikinti üzrə sahə rəisi vəzifəsində işləmişəm. Ömrümün cavanlıqla qocalığın qovuşduğu məqamına qədər doğma yurdumda yaşamışam. Hər qarış torpağını addım-addım gəzib, sərin yaylaqlarında, buz bulaqlarında xatirələrlə dolu günlər yaşadığım doğma yurdum!

...Və bu gözəllikləri bizə çox görən, heç bir zaman yurdu, yuvası olmayan, özgə ocağına göz dikən mənfur düşmən.

1988-ci ilə mən də hər kəs kimi bu tarixi köçün iştirakçılarında biri olmuşam. Erməni vəhşiliyi bizim kənddən də yan keçmədi. Elimi, obamı onlarla yanaşı uşaqlığımın, cavanlığımın xatirələrini tərk etdim. İlk öncə ailəmlə birlikdə Bakı şəhərinə, sonra isə Naxçıvan MR-sı Kəngərli rayon Çalxanqala kəndində köçmüşəm. Bu kənddə bizimlə birlikdə Qərbi Azərbaycanın bir çox yerlərindən öz yurd, yuvalarını tərk edən insanlarla birlikdə yaşamışıq.Bir birimizin dərdinə şərik olmuşuq. Acılı, şirinli günlər yaşamışıq. Bir müddət Çalxanqala kəndində Baş iqdisadçı vəzifəsində çalışmışam. 2005-ci ildə yenidən Bakı şəhərinə köçmüşəm. 2005-2009-cu illərdə Biləcəri qəsəbəsi Dəmiryolçuların İstirahət Parkında təsərrüfat müdiri vəzifəsində çalışmışam. Sonra isə Azinko Holdinq tikinti şirkətində çalışmışam. 2010-cu ildə Dövlət Bayrağımızın, Kristal hallın, eləcə də Azərbaycanın bir çox

bölgələrində aparılan tikinti işlərində atılan imzaların işərisində mənim də imzam olub. Bir sözlə xalqıma xidmət etmişəm. 2016-cı ildə təqaüdə ayrılmışam.Yeganə arzumuz ömrümüzün ahıl çağını doğma yurdumuzda keçirməkdir. İnanırıq ki, bu arzumuz gerçəkləşəcək.

XUDAYEV ALLAHVERDİ MANAF OĞLU

1949-cu ildə Dərələyəz mahalı, Paşalı rayonunun Gomur kəndində anadan olub.1956-1966-ci illərdə Gomur kənd orta məktəbində təhsil alıb. 1966-cı ildə Bakı şəhəri 2 №-li Tibb Texnikumuna daxil olub.1970-ci ildə həmin texnikumu Müalicə işi ixtisası üzrə bitirib. 1970-ci ildə də təyinat üzrə Gabud kəndinə tibb qardaşı təyin olunub.1971-ci ildən 1988-ci ilə qədər Gomur kənd Tibb məntqəsinin müdri vəzifəsini icra edib.

1988-ci il ildə məlum hadisələrlə əlaqədar olaraq ailəsi ilə birlikdə Ordubad rayonunun Parağa kəndinə köçüb. Bu kənddə də 9 aya yaxın bir müddətdə Tibb məntəqəsinin müdiri kimi çalışıb.

1989-cu ilin oktyabr ayından 2004-cü ilə qədər Çalxanqala kənd birləşmiş xəstəxanasında tibb qardaşı və Baş həkimin müavini vəzifəsini icra edib.

2004-cü ildə isə Bakı şəhərinə köçüb. Elə həmin ildən 2015-ci ilə qədər Pirşağa qəsəbəsi yeni yaşayış massivində Tibb məntəqəsində müdir vəzifəsində çalışıb.

XUDAYEVA NİYAR FƏRMAN QIZI

1954-cü ildə Paşalı rayon Gomur kəndində anadan olub.1961-ci ildən 1969-cu ilə qədər Gomur kənd orta məktəbində təhsil alıb. 7 övlad böyüdüb. Xuraman, Nəzakət, Natəvan adlı 3 qızı, Faiq, Şaiq, Natiq və Ehtiram adlı 4 oğlu var.

Aliəsi ilə birlikdə 1988-ci ildə öz doğma yurdunu tərk etmək məcburiyyətində qalıb. Min bir əziyyətlə qurduğu isti yuvasından ayrılıb, bir çox çətinliklərlə qarşılaşaraq Ordubad rayonunun Parağa kəndinə pənah gətirib. Bir müddət burada yaşadıqdan sonra 1989-cu ildə Kəngərli rayon Çalxanqala kəndinə köçüb. Doğma vətənsiz heç bir yerdə qərar tuta bilməyən Niyar xanım Bakı şəhərinə köçüb və burada yaşayışını davam etdirib.

XUDAYEV FAİQ ALLAHVERDİ OĞLU

1974-cü ildə Dərələyəz mahalı, Paşalı rayonunun Gomur kəndində anadan olmuşam. 1980-ci ildə Gomur kənd orta məktəbinin I - sinfinə daxil olmuşam.

1988-ci ildə baş vermiş məlum hadisələr Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların öz doğma yurdlarını tərk etməsinə zəmin yaratdı. Ermənilərin məkirli siyasətinin qurbanı olmuş soydaşlarımız qıza zamanda zəhmətlə, əziyyətlə qurduqları yuvalarını tərk etdilər.

Mənim yaddaşımda o illərlə bağlı çox sarsıdıcı xatirələr yer aldı.

1988-ci ilin soyuq qış günlərinin birində gecə kənddə işıqlar söndü və kəndə məlumat yayıldı ki, qonşu Məlişkə kəndindən kəndə hücum olacaq. Bütün kənd camaatı kəndin girişində yerləşən, el arasında “Səngər” adlanan əraziyə toplaşdı. Bu zaman kəndə doğru bir maşını gəldiyini gördük. Maşın cammatın toplaşdığı yerə yaxınlaşdı. Gələn rayonun ikinci katibi erməni əsilli Asatiryan idi. O kənd camaatının toplaşmasından təşvişə düşərək nə deyəcəyini bilmədi. Kənd əhalisi onun gecənin bu vaxtı

gəlişinin məqsədini soruşanda isə o, kolxozun tövlələrinə baxmaq üçün gəldiyini dedi. Təbbi ki, onun bu cəfəng dolu sözlərinə heç kim inanmadı. Bu gəlişin məqsədini anlayan kənd camaatı onun "UAZ" markalı maşınına bıçaqla və müxtəlif alətlərlə xəsarət yetirməyə başladı. Çox keçmədi ki, Rayon Polis Şöbəsinin rəisi Baxışyan da öz "volqa" markalı maşını ilə gəldi. Cammaat buna da gəlişinin məqsədini soruşanda eyni fikri o da söylədi.Guya tövlələrə baxmağa gəlib.Gecə vaxtı tövlələrə baxmaq bir katib və polis rəisi üçün nə dərəcədə əhəmiyyətli ola bilərdi.Aydın məsələ idi ki, gəlişləri kəşfiyyat xarakteri daşıyırdı. Kəndçimiz İlqar Səmədov ot biçən maşınla onun da maşınına xəsarət yetirdi. Bu münasibətdən qorxuya düşən Baxışyan guya heç bir pis niyyəti olmadığını söyləyərək kəndi tərk etdi.

Artıq kənd camaatı burada yaşamağın getdikcə çətinləşəcəyini anladı.

Bu hadisədən bir müddət keçəndən sonra atamın əmisi oğlu Kənd Sovetinin sədri Əsgər müəllim atama zəng vurdu ki, bəs rayonun birinci katibi məni yanına çağırır. Əsgər müəllim bir az sakit təbiətli insan olduğu üçün təşvişə düşmüşdü ki, katib nə üçün onu çağırır. Atam da söylədi ki, sən Sovet sədrisən, get gor nə deyir. Əsgər müəllim birinci katiblə görüşüb gələndən sonra dedi ki, Vartanyan təcili kənddə olan qadınları, qocaları, uşaqları çıxarmağımızı istəyir.Çünki ermənilər sui-qəst planı hazırlayıb. Kənd əhalisini qətl edəcəklər.O. Qarabağdan olduğu və eyni zamanda da Gəncədə təhsil aldığı üçün azərbaycanlıların qətl edilməsini, o cümlədən də katibi olduğu rayonda bu cür hadisələrin olmasını istəmirdi. Artıq əhali öz tale yolunu cızaraq kəndi tərk etmək qərarı ilə barışmalı oldu. Hər kəs ailəsi ilə birlikdə Gabud kəndinin ərazisindən keçərək dağ yolu ilə qarlı çovğunlu havada irəliləyirdi.Təsəvvür edin ki, dağlıq və çətin relyefi olan bir ərazi, bir metr yarım qar...

Nəhayət çox çətinliklə dağ yolunu aşıb Kükü kəndinə çatdıq. Burada əhali bizi çox mehriban qarşıladı, evlərini ocaqlarını bizimlə paylaşdı. Hər kəs bir ailənin qonağı oldu. Biz də atamın dostu İman müəllimgildə qaldıq.

Bir müddət burada qaldıqdan sonra atamın bibisi qızı Hərgül və onun həyat yoldaşı İsa bizi Sələsüs kəndinə apardı. Sonra Əliabad qəsəbəsində yaşadıq, daha sonra isə Parağa kəndinə köçdük. Bu kənddə də bir müddət yaşadıqdan sonra rayon mərkəzinə uzaq olduğu üçün Kəngərli rayonunun Çalxanqala kəndinə köşdük. Bu kənddə Qərbi Azərbaycanın fərqli bölgələrindən olan insanlar toplaşdılar. İlk öncə gənclər arasında müəyyən çəkişmələr olsa da sonradan qaynayıb qarışdıq. Artıq bu kənd bizə ikinci yurd yeri oldu. Bu kənddə təhsilimizi davam erdirdik. 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonu Fərman Kərimzadə adına Çalxanqala kənd orta məktəbini gümüş medalla bitirib və həmin ildə Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin "Kənd təsərrüfatı" fakultəsinə daxil oldum. 1996-cı ildə həmin universitetin "Aqronomluq" ixtisası üzrə əyani şöbəsini fərqlənmə diplomu ilə bitirdim. Tələbəlik illərində elmi-tədqiqat işlərinə böyük maraq göstərməklə tələbə elmi konfransında qazandığım müvəffəqiyyətə görə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti TETJ şurası tərəfindən ikinci dərəcəli diplomla təltif edildim.

1994-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüyəm.

Əmək fəaliyyətinə 1997-2002-ci illərdə "Bərəkət" firmasında baş direktor vəzifəsində işləməklə başladım. 2005-2008-ci illərdə Elmi-Tədqiqat Əkinçilik İnstitutunda "Seleksiya və toxumçuluq" ixtisası üzrə aspiranturada təhsil aldım. 2007-2010-cu illərdə Azərbaycan Respublikası Milli Məclisində deputat köməkçisi vəzifəsində, 2008-2010-cu illərdə Elmi-Tədqiqat Əkinçilik İnstitutunun "Bitki seleksiyası" şöbəsində kiçik elmi işçi, 2010-

2013-cü illərdə isə elmi işçi vəzifələrində çalışmışam.

2012-ci ildə "Növdaxili hibridləşmədən istifadə etməklə bərk buğdanın seleksiyası üçün yüksək dən keyfiyyətli ilkin materialın yaradılması" mövzusunda dissertasiya işini müdafiə edərək 2014-cü ilin mart ayında Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Surasının qərarı ilə "aqrar elmləri üzrə fəlsəfə doktoru" elmi dərəcəsi almışam.

2013-cü ildə Azərbaycan Elmi-Tədqiqat İnstitutunun "Dənli bitkilərin seleksiyası" şöbəsində böyük elmi işçi vəzifəsində çalışmışam. 2013-2015-ci illər ərzində Aqrar Elm Mərkəzində "Elmi işlərin planlaşdırılması və koordinasiya" şöbəsində baş mütəxəssis, 2015-2017-ci illərdə "İnformasiya məsləhət xidməti" şöbəsinin müdir əvəzi və 2018-ci ildə həmin şöbənin müdiri, 2019-cu ildə isə Aqrar Elm və İnnovasiya Mərkəzində "Elmin təşkili və koordinasiyası" şöbəsinin müdiri, Əkinçilik Elmi-Tədqiqat İnstitutunun "Bitki seleksiyası" şöbəsində aparıcı elmi işçi vəzifələrində işləmişəm.

2014-cü ildən Aqrar Elm və İnnovasiya Mərkəzi Gənc Alim və Mütəxəssislər Şurasının sədri seçilmişəm

2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə "Seleksiya və toxumçuluq" ixtisası üzrə "dosent" elmi adına layiq görülmüşəm. Hazırda "aqrar elmlər doktoru" elmi dərəcəsi almaq üçün "Müxtəlif aqroekoloji şəraitdə növdaxili hibridləşmədən istifadə etməklə makaron sənayesi üçün bərk buğdanın yeni sortlarının yaradılması" mövzusu üzrə tədqiqat işi aparıram. "Gənc aqrarçı alim və mütəxəssislərə dəstək" ictimai birliyinin sədriyəm.

2020-ci ildən Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktorudur. 52-dən artıq elmi məqalənin, 3 modul dərs vəsaitinin, işaxtaran vətəndaşların peşə hazırlığı və əlavə təhsil kurslarına cəlbinin təşkili üçün istixana operatorluğuna aid 16, intensiv

bağçılıq üzrə 49 təlim elementinin müəllifiyəm. Eyni zamanda həmmüəllifi olduğum 48 müxtəlif bitki sortları (20 yumşaq, 12 bərk buğda, 3 arpa, 1 tritikale, 1 noxud, 3 çəltik, 2 qarğıdalı, 1 at paxlası, 3 amarant, 1 kinoa, 1 maralfalfa) rayonlaşdırılmaq üçün Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinə təqdim olunmuş və bunlardan 9 yumşaq və bərk buğda sortları rayonlaşdırılaraq Dövlət Reyestrinə daxil edilib və patentlə mühafizə olunur.

17 iyul 2023-cü il tarixindən Qərbi Azərbaycan İcmasının Qərbi Azərbaycanın rayon və kəndləri üzrə rayon və kənd icmalarının yaradılması və rayon icmalarına sədr təyinatı haqqında Bakı şəhəri 38 nömrəli 14 iyul 2023-cü il tarixli əmrə əsasən 5 il müddətinə ictimai əsaslarla Qərbi Azərbaycan İcmasının Qərbi Azərbaycanın Paşalı rayon icmasının sədri təyin edilmişəm.

Hal-hazırda Abşeron rayonu, Mehdiabad qəsəbəsində yaşayıram. Ailəliyəm, 2 övladım var.

İBRAHİMOV TALIB İBRAHİM OĞLU

Dərələyəz mahalının ağsaqqallarından biri **İbrahimov Talıb İbrahim oğlu** 1880-ci ildə Ələyəz kəndində doğulub. Talıb İbrahimov 1947-ci ilə kimi Ələyəz kəndində kolxozda işləyib. 1948-1950-ci illərdə Ələyəz kəndində Sovet sədri vəzifəsində işləyib.1950-ci ildən ömrünün sonuna kimi Ələyəz kəndində üzüm bağlarının gözətçisi olub. T.İbrahimov 1905-cü il tarixində Dərələyəz mahalının Qozulca kəndindən olan Gülnisə Qədim qızı (1885-1988) ilə ailə həyatı qurub. Bu nikahdan onların Hüseyn, Narıngül, Leyla, Pürzə, Fizzə, Həsən, Şeyda adında 7 övladı olub.

İBRAHİMOVA ALYETƏR İBRAHİM QIZI

(Talıb İbrahimovun bacısı) Alyetər İbrahim qızı Danzik (Şərur-Dərələyəz mahalı) bəylərindən Həsən bəy Vəkilovla ailə qurub, bu nikahdan onun 2 qızı olub: Şəhrəbanu və Zeynəb xanım. Şəhərbanu xanım Çivə bəylərindən Əhməd bəy Həsən bəy oğlu Vəkilovla (Əhməd bəy Vəkilov Dərələyəz mahalının ən böyük mülkədarı Həsənalı Sultan Vəkilovun nəvəsidir Dərələyəz mahalının ondan artıq kəndi bu ailəyə məxsus olmuşdur -bax Qərbi Azərbaycandan deportasiya: İmirlidə məskunlaşma) ailə qurub. Zeynəb xanım Yengicə (Şərur -Dərələyəz mahalı) kəndindən olan Mir Əhməd Ağa ilə ailə qurub. Bu nikahdan onların çoxlu övladları olsa da yalnız oğlu Yusifdən başqa digər övladları kiçik yaşlarında dünyasını dəyişmişdir. Zeynəb xanım Vəkilovanın oğlu professor Yusif Seyidov Azərbaycan elminə böyük tövhələr vermiş, Azərbaycan Respublikasının bir çox mükafatlarına, o cümlədən Dövlət mükafatı laureatı ilə təltif edilmiş dilçi alim olmuşdur. Onu da qeyd edək ki, Talıb İbrahimovun oğlu Hüseyn Talıbovun və digər nəvələrinin ali təhsil almasına BDU-nin professoru Y.Seyidovun böyük dəstəyi olmuşdur.

İBRAHİMOVA GÜLNİSƏ QƏDİM QIZI

(Talıb İbrahimovun həyat yoldaşı) 1885-ci ildə Qozulca kəndində anadan olub. 1988-ci ildə Ələyəz kəndinin əhalisinin təşviş içərisində zorla köçürülərkən oğlu Həsən İbrahimovun evinin 2-ci mərtəbəsindən yıxılıb ayağı sınmış, bu hadisədən 4 gün sonra dünyasını dəyişmişdir.

Gülnisə xanımın əmisi oğlu **Sarı Vəli** də el-obanın sayılıb seçilən kişilərindən olub. O, Qozulca kəndində doğulub boya başa çatib. Qızılgül kəndində kolxoz sədri işləyib. 1948-ci il deportasiyası zamanı Saatlı rayonuna köçüb. Həyat yoldaşı Zinhar xanımla birgə nigahdan 12 övladları olmuşdur.

İBRAHİMOV HÜSEYN TALIB OĞLU

15 may 1923-cü il tarixdə Ələyəzdə anadan olub. İlk ibtidai təhsilini Ələyəz kəndində, tam orta təhsilini isə Qovuşuq kəndidə alıb. O,18 yaşında (1941-1942) Dərələyəzin Sallı kəndində orta məktəbdə müəllim kimi fəaliyyət göstərmişdir. 22 iyun 1941-ci ildə II Dünya Müharibəsinə çağırılmış 28.08.1942-ci ildən 05.11.1945-ci il tarixədək SSRİ Silahli Qüvəlləri sırasında müxtəlif cəbhələrdə starşına rütbəsində döyüşmüşdür. O, şücaətlə vuruşaraq 3-dəfə yaralanıb (10.09.43, 14.01.44, 25.3.45-ci illərdə). O, 1943-cü ilin iyun ayından 1944-cü ilin mart ayına kimi 1-ci Ukrayna cəbhəsində sanitar-təlimatçı 1945-ci ilin yanvar ayından 1945-ci ilin mart ayınadək leytenant rütbəsində 2-ci Ukrayna cəbhəsində "atıcı tağım" komandiri vəzifəsində xidmət keçmişdir. 1945-ci ilin may ayından noyabr ayınadək Macarıstanda Şafovka şəhərində 6-cı Hava-Desant Qoşunlarının tərkibində kiçik leytenant rütbəsində tağım komandiri vəzifəsində xidmət etmişdir. Döyüşlərdə göstərdiyi igidliyə görə Hüseyn Talıb oğlu İbrahimov "Qızıl Ulduz" ordeni (orden № 2104488) Qələbənin 25 illik və 30 illik yubley medalı ilə təltif edilmişdir. 5 noyabr 1945-ci il tarixində ordu sıralarından ehtiyata buraxılmışdır.

Döyüş yolu və şücaəti haqqında rəsmi sənədlərdə qeyd edilənləri təqdim edirik: "25.03.1945-cı il tarixində Çexoslavakiyanın

Tura kəndi uğrunda gedən döyüşlərdə düşmənin atəşi altında öz tağımı ilə birlikdə birincilər sırasında yaşayış məntəqəsinə soxulan hitlerçilərin bölüyünü mühasirəyə almış, onlardan 4 nəfəri məhv etmiş, 5 nəfəri isə əsir götürmüşdür. Düşməni təqib etməyi davam etdirərək tağımı Tura stansiyasının 4 km-lik qərbində yerləşən bunkerlərdə mövqeyini möhkəmləndirmiş hitlerçilərin üstünə qaldırmışdır. Döyüşdə yaralanmasına baxmayaraq döyüş tapşırığını tam yerinə yetirənə kimi tağıma komandanlıq etmişdir.

Onu da qeyd edək ki, yuxarıda göstərilən məlumatlar "Pamyat Naroda" saytından götürülmüşdür.

Müharibədən qayıtdıqdan sonra H.İbrahimov 1945-1947-ci illərdə öz dogma kəndlərində müəllim kimi fəaliyyət göstərib. 1947-1948-ci illərdə Dərələyəz mahalının Gülüdüzü kəndində orta məktəb direktoru vəzifəsində çalışıb. 1948-1949-cu illərdə Ermənistan SSR Mikoyan rayonunda nəşriyyat şöbəsində çap olunan "Ədəbiyyat" qəzetində müxbir, sonra isə təlimat şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1949-1954-cü illərdə Ələyəz kəndində "Zərbəçi" kolxozunun idarə heyətinin sədri vəzifəsində çalışmışdır. Ələyəz kəndində sədr işlədiyi müddətdə özünün gündəlik iştirakı və rəhbərliyi altında partlayıcı vasitələrlərdən istifadə etməklə baş verə biləcək təhlükələri göz önünə alaraq sərt qayaları partladaraq 10 km məsafə boyu Ələyəz kəndinə yaylaq yerinə qədər avtomobil yolu çəkdirib.Həmin yolun çəkilişi kolxozun biçin yerlərindən otun daşınmasında, həmçinin əhalinin yaylağa gediş-gəlişini asanlaşdırmışdır. H.İbrahimov eyni zamanda Ələyəz kəndində 5 km məsafədən su xətti, eyni zamanda kəndə elektrik xəttinin çəkilməsini təmin edib. Sonra 1954-1961-ci illərdə Ələyəz kəndində orta məktəbdə müəllim kimi çalışıb. Ömrünün çox hissəini gənc nəslin tərbiyəsinə həsr edən Hüseyn İbrahimov müəllim peşəsini ən şərəfli peşə hesab edir, ən yüksək vəzifəni isə müəllimlik sayırmış.

Hüseyn İbrahimov universal şəxs olub, onu həkimlik (diş çəkmək), sınıqçılıq bacarığı ilə kənd əhalisi yaxşı xatırlayır. O, Ələyəz kəndində bir çox şəxsləri müalicə edib, bir çox şəxslərin dişini çəkib. Hətta qonşu kənddən ağır vəziyyətdə ombası çıxmış bir şəxsi palazın arasında H.İbrahimovun yanına gətiriblər o həmin şəxsin ombasını salıb və həmin şəxs özü durub yeriyərək rahat çıxıb gedib. H.İbrahimov balıq tutmağı da çox sevirimiş. Təbiət vurğunu olan H.İbrahimov həm də yaxşı bağban olub, yaxşı ağac calaq edirmiş. Saz havalarını gözəl ifa edirmiş.

1955-1961-ci illərdə o BDU-nun "Fiziki coğrafiaya" fakültəsində qiyabi təhsili başa vurmuşdur. H.İbrahimov "Arpaçay hövzəsinin faydalı qazıntıları" adlı diplom işi müdafiə etmişdir. Həmin diplom işi "əla" qiymətə layiq görülüb.

Hüseyn İbrahimov 1949-cu ildə Ələyəz kənd orta məktəbinə rus dili müəlliməsi kimi təyin edilmiş milliyətcə malakan olan Jabina Nadejda xanımla ailə həyatı qurmuşdur. Bu nikahdan onların 6 övladı olmuşdur. H.Ibrahimov 5 dekabr 1977-ci ildə dünyasını dəyişib və Ələyəz kənd qəbristanlığında dəfn edilib.

JABİNA NADEJDA İVANOVNA- ƏLƏYƏZ KƏNDİNİN İLK QADIN PEDAQOQU

-

29 mart 1923-cü ildə Ermənistan SSR Kalinino rayonunun Saratovka kəndində anadan olub. O, 1939-1942-ci illərdə Yerevan Pedaqoji məktəbini əla qiymətlərlə bitirib. O, ermənicə mükəmməl savada malik olduğu üçün Rind kəndində iki il orta məktəb direktoru vəzifəsində çalışmışdır. Ələyəz kəndində tələbkar müəllimə kimi yaddaşlara həkk olub. O, bütün ömrünü gənc nəslin tərbiyə olunmasına həsr etmişdir. J.Nadejda 16 iyun 1983-cü ildə Ələyəz kəndində dünyasını dəyişib, Ələyəz kənd qəbristanlığında dəfn edilib.

İBRAHIMOVA PÜRZƏ TALIB QIZI

1929-cu ildə Ələyəz kəndində anadan olub. Əlyəz kəndində orta məktəbi, Qovuşuq kəndində isə tam orta məktəbi bitirib. Kotanlı kəndindən olan Kərimov Məmməd Əhməd oğlu ilə ailə qurub. M.Kərimov alicənab, nəcib bir insan olmaqla yanaşı mahir klarnet ifaçısı olub. P.İbrahimovanın hədsiz qısqanclığı bu nigahın pozulmasına səbəb olub. Sonra o, uşaqlarını qardaşı Həsən İbrahimovun himayəsində böyüdüb. Pürüzə İbrahimova Ələyəz kəndində tütünçülük və tərəvəzçiliklə

məşğul olub. 1988-ci ildə departasiya edilərək Bakı şəhərinin 8-ci kilometr qəsəbəsinə, sonra isə Zabrat qəsəbəsinə köçüb. Rusiyada qəza nəticəsində ölən oğlu Eldarın həyat yoldaşı Lətifə xanımla birlikdə onun övladlarını layiqincə böyütmək onun həyatının mənasına çevrilib. P.İbrahimova 93 yaşında Bakı şəhərində dünyasını dəyişib və Suraxanı qəbristanlığında dəfn edilib.

İBRAHİMOV TELMAN HÜSEYN OĞLU

18 fevral 1952-ci ildə Ələyəz kəndində anadan olmuşdur. 1970-ci ildə Bakı şəhər 1№ li fizika-riyaziyyat təmayüllü məktəbi bitirib. 1970-ci ildə BDU-nun mexanika və riyaziyyat fakültəsinin axşam şöbəsinə qəbul olub. 1971-1973-cü illərdə orduda xidmət edib. 1975-ci ildə 3-cü kursdan qiyabi şöbəyə dəyişilib. 1979-cu ildə ali təhsilini başa vurub. 1975-1988-ci illərdə Ələyəz kəndində İbtidai hərbi hazırlıq və riyaziyyat fənlərini tədris edib. 1988-ci ilin noyabr ayında Ələyəz kəndindən çıxmaq məcburiyyətində qalıb və Naxçıvan şəhərinə köçüblər. T.İbrahimov 1988-1989-cu illərdə Naxçıvan şəhər 2 № li orta məktəbdə hərbi rəhbər vəzifəsində çalışıb. 1989-cu ildə ailəsi ilə birlikdə Bakı şəhəri, Bakıxanov qəsəbəsinə köçüb. Burada 107 saylı orta məktəbdə riyaziyyat müəllimi işləyib. 1992-ci ilin aprel ayından könüllü olaraq Azərbaycan Silahlı Qüvvələri sıralarında xidmətə qatılmışdır. 04.1992-03.1993-cü il N saylı

hərbi hissədə saxlama şöbəsinin rəisi, 01.1994-04.1996-cı ilədək Cəmşid Naxçıvanski adına hərbi litseydə tağım komandiri, 04.1996-08.2000-ci illərdə hərbi-texniki silsilənin müəllimi, 08.2000-05.2001-ci ilədək metodiki kabinetin baş müəllimi, 05.2001-01.2003-ci illərdə N saylı hərbi hissədə erməni dili tərcüməçisi vəzifəsində xidmət edib. Telman İbrahimov 2003-cü ildə yaşa görə ordu sıralarından ehtiyata buraxılıb. 09.2003-cü il tarixindən 07.2017-ci il tarixinədək C.Naxçıvanski adına Hərbi Litseydə riyaziyyat fənnindən dərs deyib.

Telman İbrahimov 1974-cü il tarixində **Mirzəyeva Nabat Səlim qızı** ilə ailə qurub, bu nikahdan onların 3 oğlu doğulub.

İBRAHİMOVA (MİRZƏYEVA) NABAT SƏLİM QIZI

19 oktyabr 1954-cü ildə Şərur rayonun Mahmudkənd kəndində anadan olub əslən Dərləyəz mahalının Hors kəndindəndir. 8 illik təhsilini Mahmudkənd kəndində alıb.1974-cü ildə Ələyəz kəndində İbrahimov Telman Hüseyn oğlu ilə ailə qurub. Bu nikahdan onların Fuad, Araz və Zaur adlı övladları doğulub. Övladlarının təhsil almasında milli vətənpərvər ruhda böyüməsində Nabat xanımın böyük xidmətləri olmuşdur.

İBRAHİMOV ARAZ TELMAN OĞLU

19.10.1982-ci ildə Ələyəz kəndində anadan olub. 1993-1994-cü illərdə C.Naxçıvanski adına hərbi litseydə 1994-1998-ci illərdə Türkiyənin İzmir şəhərində Maltəpə hərbi litseyində, 1998-2003-cü ildə Türkiyənin Ankara şəhərində "Kara Hərbi Okulu"nu motoatıcı ixtisası üzrə bitirib. 01.10.2023-cü il tarixində Türkiyənin İsparta şəhərində Eyirdik Komanda məntəqəsində kurs keçib. 17.11.2003-22.04.2004-cü il tarixində İstanbul, Tuzla Motoatıcı məktəbində və Təlim Mərkəzində kurs keçib. 27.04.2004-cü ildə Bakı Şəhər Təlim Tədris Mərkəzində təhsilini davam etdirib. 2004-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasında müxtəlif hərbi hissələrdə xidmət keçib. Sonuncu xidmət yeri isə Xüsusi Təyinatlı hərbi birləşmədə polkovnik-leytenant rütbəsində, kəşfiyyat rəisi vəzifəsini daşımışdır. Hərbi təlimçi kimi aşağıdakı qrupların hazırlanmasını həyata keçirmişdir.

-Kəşfiyyatın Xüsusi Təyinatları ilə keçirilən məşqlər;

-helikopter enişi və ona minmə təlimi;

-dağçılıq keçirilən məşqlər;

-Daxili Qoşunların Xüsusi Təyinatlılarının hazırlanması;

-Fövqaladə Hallar Xüsusi Təyinatlılarınının Xüsusi xilasetmə qrupları ilə keçirilən məşqlər;

-Suüstü SAT qruplarına təlim məşqlərinin keçirilməsi (polkovnik-leytenant A.İbrahimov bu sahədə yeganə mütəxəsisdir)

I və II Qarabağ müharibəsinin iştirakçısıdır. Müharibədə göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının bir sıra orden və medalları ilə təltif edilib. Ordu sıralarından polkovnik-leytenant

rütbəsində ehtiyata buraxılıb. Ailəlidir Ceyhun, Anar, Yusif, və Melisa adında 4 övladı var.

İbrahimov Zaur Telman oğlu. 19.10.1982-ci ildə Ələyəz kəndində anadan olub. İlk orta təhsilini Ələyəz kəndində alıb. Deportasiyadan sonra ailəsi ilə birlikdə bir il Naxçıvan şəhərində qaldıqdan sonra Bakı şəhərinə köçüb. Həqiqi hərbi xidmətini Mingəçevir şəhərində keçib. Ailəlidir Nihat adında bir övladı var.

İBRAHİMOV FUAD TELMAN OĞLU

5 mart 1976-cı ildə Yexeqnadzor rayonunun Ələyəz kəndində anadan olub. 6-cı sinifdə Ələyəz kənd orta məktəbində oxuduğu il, yəni 1988-ci ilin noyabr ayında Ələyəz kəndindən ailəlikcə deportasiya edilib. Əvvəlcə o, Şərur rayonunun Mahmudkənd orta məktəbin 7-ci sinfini bitirib, sonralar Naxçıvan şəhərində məskunlaşdıqdan sonra, Naxçıvan şəhər 1 №-li orta məktəbində təhsilini başa vurub. 1989-cu ildə ailəsi ilə birlikdə Bakının Bakıxanov qəsəbəsində məskunlaşıb.

1989-1992-ci illərdə Bakıxanov qəsəbəsindəki 96 №-li orta məktəbin 11-ci sinfini bitirib. 1992-1996-cı illərdə Azərbaycan Dövlət İqtisadiyyat Universtetinin "İqtisadiyyat" fakültəsini qırmızı diplomla bitirib.

1996-1998-ci illərdə həqiqi hərbi xidmət keçib. Ailəlidir, 2 oğlu var.

Fuad İbrahimov 2005-ci ildən Azərbaycan Respublikası Müdafiə Nazirliyində işləyir. Hazırda Bakı şəhər Bakıxanov qəsəbəsində yaşayır.

İBRAHİMOV SAMİR HÜSEYN OĞLU

1962-ci ildə Ələyəz kəndində doğulub. Orta təhsilini Ələyəz kəndində alıb. Hərbi xidmətini Macarasıtanda keçib.1986-cı ildə Əsədova Səkinə Əsəd qızı ilə nikaha girib. Bu nikahdan onların Vüsal, Vüqar, Hüseyn, Sahil adlı 4 övladı var. Peşəcə santexnikdir. Naxçıvan şəhərində yaşayır.

İBRAHİMOV VÜQAR SAMİR OĞLU

1990-cı ildə Naxçıvan şəhərində doğulub. Orta təhsilini burada alıb.2013-cü ildə Bakı Kooperasiya Universitettini bitirib. Ailəlidir bir övladı var. Hazırda Naxçıvan şəhərində Hava limanında çalışır.

İBRAHİMOV HƏSƏN TALIB OĞLU

1936-cı ildə Ələyəz kəndində doğulub. İlk orta təhsilini Ələyəz kəndində tam orta təhsilni isə Qovuşuq kəndində alıb. Lətifə Heydər qızı və Sədaqət (Tətoş) xanımla ailə qurub. H.İbrahimovun Ədalət, İman, Səyyad, Fazil, Nəsibə, Mənzər, Ələmzar, Laləzar adında övladları olub.

Bütün həyatını sürücülük peşəsi ilə başa vurub. Uzun illər Ələyəz və Qovşuq kəndlərində sürücü işləyib. Hər iki kənd sakinləri arasında böyük hörmət və sevgi qazanmışıdr. 1988-ci ildə

doğma Ələyəz kəndindən deportasiya edilərək Bərdə rayonu İmirli kəndində yaşayan qohumu Mustafa Vəkilovun evində bir müddət qalmış sonra isə ailəsinin bir hissəsi Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Çalxanqala kəndinə bir hissəsi isə Bakı şəhərinə köçmüşdür. 1995-ci ildə Bakı şəhərində dünyasını dəyişmişdir.

İBRAHİMOVA LƏTİFƏ HEYDƏR QIZI

1939-cu ildə Ələyəz kəndində doğlub. O. Bir müddət kolxozda tütünçülük və meyvəçiliklə məşğul olmuşdur. Ələyəz kənd sakini İbrahimov Həsən Talıb oğlu ilə ailə qurub. Bu nikahdan doğulan 6 övladının qayğısını çəkməklə bərabər baldızı Pürzə xanıma və onun övladlarına müstəsna qayğı göstərib. 2013-cü ildə Bakı şəhərində dünyasını dəyişmişdir.

İBRAHİMOV SƏYYAD HƏSƏN OĞLU

1966-cı ildə Ələyəz kəndində anadan olub. Orta təhsilini Ələyəz kəndində başa vurub. 1982-ci ildə Naxçıvanda 32 saylı Texniki peşə məktəbini dülgər ixtisası üzrə bitirib. 1984-1986-cı illərdə Ukraynada həqiqi hərbi xidmət keçib. Mebel ustasıdır. 1993-cü ildə Quliyeva Elza Elman qızı ilə ailə qurub. 2 övladı var.

İBRAHİMOVA FİDAN SƏYYAD QIZI

1999-cu ildə Saray qəsəbəsində doğlub. Saray qəsəbəsində orta təhsil alıb. 2021-ci ildə Xarici Dillər Universitetinin "Beynəlxalq münasibətlər" fakultəsini bitirib. Qrafik dizayner kimi çalışır.

İBRAHİMOV ORXAN SƏYYAD OĞLU

1994-cü ildə Saray qəsəbəsində doğulub.Orta təhsilini Saray qəsəbəsində alıb. 2016-cı ildə Neft Akademiyasının "İqtisadiyyat" fakultəsini bitirib.Hazırda Avis-də mühasib işləyir. Ailəlidir 1 oğlu var.

ƏSƏDOVA (İBRAHİMOVA) LİDA HÜSEYN QIZI

1954-cü ildə Ələyəz kəndində anadan olub.Orta təhsilini Ələyəz kəndində bitirib. 1971-ci ildə Ələyəz kənd sakini Əsədov Nəbi Rüstəm oğlu ilə ailə qurub. Bu nikahdan onların Rauf, Ramiz, Anar, Könül adlı 4 övladı olub. Övladları Bakı şəhərində orta və ali təhsil alıb. Hazırda Bakı şəhərində yaşayır.

ƏSƏDOV NƏBİ RÜSTƏM OĞLU

1949-cu ildə Ələyəz kəndində anadan olub. Ali təhslillidir. 1969-1975-ci ildə Dövlət Təhlükəsilik Komitəsində çalışıb. 2013-cü ildə Bakı şəhərində dünyasını dəyişib, Suraxanı qəbristanlığında dəfn edilib.

ƏSƏDOV RAUF NƏBİ OĞLU

23 may 1975-ci ildə Bakıda anadan olub. C.Naxçıvanski adına hərbi litseyi bitirib. Sonra Ali Hərbi Məktəbdə təhslini davam etdirib. Polkovnik rütbəsindədir. Hazırda Ədliyyə Nazirliyi Penttensiar Xidmətinin Mühafizə Alayının komandiridir. Ailəlidir, 2 övladı var.

İBRAHİMOV TARYEL (NƏRİMAN) HÜSEYN OĞLU

1956-cı ildə Ələyəz kəndində doğlub. Orta təhsilini Ələyəz kəndində alıb. Həqiqi hərbi xidmətini Estoniyada keçib. 1979-cu ildə ailə həyatı qurub 3 övladı var. Ali təhsillidir. Politexnik İnstitunun inşaaat fakültəsini bitirib uzun illərdi Metro tikintisində işləyir. Bakı şəhərində yaşayır.

SADİQOVA (İBRAHİMOVA) OFELYA HÜSEYN QIZI

1958-ci ildə Ələyəz kəndində anadan olub. Orta təhsilini Ələyəz kəndində alıb. 1982-ci ildə Ələyəz kənd sakini Sadiqov İsmayıl Tapdıq oğlu ilə ailə qurub. Söhrab və Mədinə adlı iki övladları var. Ofelya Sadiqova ali təhsillidir. O, BDU-nin mexanika riyaziyyat fakültəsini bitirib. Bakı şəhərində 273 nömrəli orta məktəbdə riyaziyyat müəlliməsi kimi çalışır. Bakı şəhərində yaşayır.

SADIQOV İSMAYIL TAPDIQ OĞLU

1958-ci il tarxində Ələyəz kəndində doğlub. Orta təhsilini Ələyəz kəndində alıb. Yerevan Baytaralıq Texnukumunu bitirib. Lakin öz ixtisası üzrə işləməyib. Ailəsi ilə birlikdə Bakıda yaşayır.

SADIQOV SÖHRAB İSMAYIL OĞLU

1983-cü ildə Ələyəz kəndində anadan olub. Kiçik yaşlarında ailəsi ilə birlikdə Bakı şəhərinə köçüb. Orta təhsilini başa vurduqdan sonra BDU-nin kibernetika fakültəsində təhsilini davam etdirib. 2010-cu ildə Tapdıqova Səadət Mikayıl qızı ilə ailə qurub. 2 övladı var. S.Sadıqov sahibkarlıqla məşğul olur və valideyinləri ilə birgə Bakı şəhərində yaşayır.



ƏSƏDOVA (SADIQOVA) MƏDİNƏ İSMAYIL QIZI

Əslən Ələyəz kəndindəndir. 1986-cı ildə Bakı şəhərində anadan olub. 2006-cı ildə Əsədov Anar Nəbi oğlu ilə ailə qurub, bu nikahdan iki övladları var. 2009-cu ildə Bakı Kooperasiya Universitetini bitirib. Mədinə Əsədova Sabunçu Rayon Xəstəxanasında "Qazilərin reabilitasiya mərkəzində" çalışır və Bakı şəhərində yaşayır.

SƏFƏRALİYEVA (İBRAHİMOVA) ŞEYDA TALIB QIZI

1931-ci ildə Ələyəz kəndində doğulub. İbtidai təhsilini Ələyəz kəndində alıb. Şeyda xanım Ələyəz kəndində kolxozun üzümçülük, tütünçülük, meyvəçilik sahələrində çalışıb. 1957-ci ildə Ələyəz kənd sakini Səfəraliyev İsax Xəlil oğlu ilə ailə qurub. Bu nikahdan onların Səfəralı, İbrahim, Sevda, Səlbinaz, Şeyda adlı övladları olub. 1971-1988-ci illərdə Ələyəz kənd orta məktəbində bufetçi işləyib. 1988-ci ildə deportasiya edilərək Bakı şəhəri Suraxanı rayonunda məskunlaşıb və burada yaşayır.

Səfəraliyev İsax Xəlil oğlu. 1935-ci ildə Ələyəz kəndində anadan olub. 1953-cü ildə Sovet Ordusu sıralarında həqiqi hərbi xidmət keçib.Hərbi xidmət zamanı sürücülük peşəsinə yiyələnib. Əsgəri xidmətdən sonra "Zərbəçi" kolxozunda, sonra isə 8 kəndi birləşdirib sovxoz təşkil etdikdə Qovşuq kəndində sürücü işləyib.

Nümunəvi sürücü kimi heç vaxt qəza törətməyib.İsax Səfəraliyevin atası II Dünya Müharibəsi iştirakçısı olub. O müharibənin əvvəlindən sonuna qədər şücaətlə vuruşaraq bir sıra orden və medallarla təltif edilib. Ələyəz kəndinin sayılıb-seçilən kişilərindən olub. İ.Səfəralıyev 1957-ci ildə Şeyda İbrahimova ilə ailə qurub. Hazırda Bakı şəhərində yaşayır.

BABAYEVA SƏLBİNAZ (SƏFƏRALİYEVA) İSAX QIZI

20.12.1963-cü ildə Ələyəz kəndində doğlub. Orta təhsilini Ələyəz kəndində başa vurduqdan sonra 1987-ci ildə BDU-nun tətbiqi-riyaziyyat fakültəsini bitirib. 1987-1988-ci illərdə Çivə kəndində ibtidai sinif müəlliməsi kimi çalışıb. 1988-ci ilin oktyabr ayında Babayev Çərkəz Əmiraslan oğlu ilə ailə qurub. 1988-ci ilin noyabr ayıda ailəsi ilə birlikdə Ələyəz kəndindən deportasiya edilib və Bakı şəhəri, Suraxanı rayonu, Qaraçuxur qəsəbəsində məskunlaşıb. 1993-cü ildən Bakıxanov qəsəbəsi 273 saylı orta məktəbdə ibtidai sinif müəlliməsi kimi çalışır. Ramin və Kamil adlı 2 oğlu var.

ƏLƏKƏBƏROVA (SƏFƏRALİYEVA) SEVDA İSAX QIZI

01.10.1961-ci ildə Ələyəz kəndində anadan olub. Orta təhsilini Ələyəz kəndində alıb. 1981-ci ildə Şuşa Pedaqoji Texnikumunu bitirib.1985-ci ildə həmkəndlisi Ələkbərov Maşallah Xəlil oğlu ilə ailə qurub. Bu nikahdan iki övladları var. 1981-ci ildən 1988-ci ilədək

Ələyəz kəndində ibtidai sinif müəlliməsi, deportasiyadan sonra isə Suraxanı rayon 84 saylı Tam orta məktəbdə ibtidai sinif müəlliməsi kimi fəaliyyət göstərib. Hazırda həmin məktəbdə pedaqoji fəaliyyətini davam etdirir.

BABAYEVA (İBRAHİMOVA) LEYLA TALIB QIZI

1928-ci ildə Ələyəz kəndində anadan olub. Gənc yaşlarında kolxozun tütün sahəsində çalışıb. 1950-ci ildə Qızılgül kəndindən olan Babayev Əmiraslan Abbas oğlu ilə ailə həyatı qurub. Bu izdivacdan Fərəməz, Əbülfəz, Çərkəz, Mansur, Gülgəz adlı 5 övladı dünyaya gəlib. Leyla Babayeva 1962-1967-ci ildə Ələyəz kənd kulubunun kitabxanasında kitabxanaçı işləyib. 1988-ci il deportasiyasından sonra Bakı şəhəri Suraxanı rayonunda məskunlaşıb. 2021-ci ildə Bakı şəhərində dünyasını dəyişib. Suraxanı qəbristanlığında dəfn edilib.

QULİYEV XƏYYAM ARZUMAN OĞLU

Əslən Dərələyəz mahalının Ələyəz kəndindəndir. O, 17.03.1983-cü ildə Sumqayıt şəhərində anadan olub. Orta təhsilini Saray qəsəbəsində bitirib. 1997-2000-ci illərdə C.Naxçıvanski adına hərbi litseydə təhsil alıb. 2000-2004-cü illərdə Heydər Əliyev adına Hərbi Məktəbdə təhsilini davam etdirib. 2004-2005-ci il Sərhəd Qoşunlarının Təlim-Tədris Mərkəzinin dinləyicisi olub. 2005-2016-cı il tarixində Müdafiə Nazirliyinin müxtəlif hərbi

hissələrində zabit kimi xidmət edib, müharibə veterenadır. Hazırda Sərhəd Qoşunlarında mayor rütbəsində xidmət edir və Saray qəsəbəsində yaşayır.

Quliyeva Sevinc Qəhrəman qızı. 1984-cü ildə Almaniya Demokratik Respublikasında anadan olub.Orta təhsilini 2005-ci ildə Sumqayıt şəhəri 27 saylı orta məktəbinin rus bölməsində bitirib. 2005-2009-cu illərdə Sumqayıt Dövlət Universitetində psixologiya fakültəsini bitirib. 2009-cu ildə ailə qurub.3 övladı var. Hazırda Sumqayıtda yaşayır.

Quliyev Elvin Qəhrəman oğlu. Əslən Dərələyəz mahalının Ələyəz kəndindəndir**.** O, 1990-cı ildə Naxçıvan şəhərində anadan olub. Sumqayıt şəhər 27 saylı orta məktəbin rus bölməsini bitirib. 2009-2011-ci illərdə həqiqi-hərbi xidmətdə olub. 2011-2012-ci ildə mühafizəçi işləyib. 2011-2012-ci illərdə stomatoloq ixtisasına yiyələnib və həmin sahədə çalışıb. 2015-2019-cu il tarixində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "kino və televiziya" fakultəsinin rejissorluq ixtisasına yiyələnib. 2019-2023-cü illərdə "Nərimanflim" studiyasında rejissor-mantajçı vəzifəsində çalışıb.2023-cü ildən artıq müstəqil olaraq çalışır. 2012-ci ildə ailə qurub, iki övladı var. Hazırda Sumqayıt şəhərində yaşayır.

İBRAHİMOVA FİZZƏ TALIB QIZI

1938-ci ildə Ələyəz kəndində anadan olub. İlk təhslini Ələyəz kəndində alıb. Anası Gülnisə ehtiyatsızlığıdan körpə yaşlarında qızı Fizzəni qucağından yerə salıb aldığı zədədən onda fiziki qüsur yaranıb. Bu səbəbdən o, Qovuşuq kəndində orta təhsilini tam başa vura

bilməyib. Bir neçə ildən sonra onun riyaziyyata olan marağından Ələyəz kəndində gecə məktəbində tam orta təhsilini başa vurur. Fizzə İbrahimova Triqonametryanı gözəl mənimsəyib. Ailə qurmadığı üçün qardaşı Həsənin himayəsində qalıb. Özü ailə qurmasa da bacı-qardaşının övladlarına öz doğma balaları kimi baxıb. O, 1988-ci ildə Ələyəz kəndindən deportasiya edilərək əvvəlcə qardaşı Həsənin ailəsi ilə birlikdə Bərdə rayonun İmirli kəndində qohumları Mustafa Vəkilovun ailəsində bir neçə ay qaldıqdan sonra Bakıya köçüb. 2000-ci il tarixində Bakı şəhərində dünyasını dəyişib.

Bu nəcib insanın parlaq xatirəsini yad edərək aftomobil qəzasında ağır bədən xəsarətləri almış atam Mustafa Vəkilova və nənəm Şəhrəbanu xanıma öz evlərində bir neçə ay qulluq etməsini də ehtiramla qeyd etməyi özümə borc bilirəm (müəllif S.Vəkilov).

QULİYEV QƏHRƏMAN İSMAYIL OĞLU

1963-cü ildə Ələyəz kəndində doğulub. Orta təhsilini Ələyəz kəndində bitirib.1986-cı ildə Quliyeva Solmaz Fərmayıl qızı ilə ailə qurub. 1983-1989-cu illərdə Almaniya Demokratik Respublikasında həqiqi hərbi xidmət keçib. Sonra isə Almaniyada qalaraq hərbi -hissədə baş gizir vəzifəsində xidmət keçib. 1989-1991-ci illərdə Semipalatinsk şəhərində hərbi hissədə xidmət keçib. 1991-1997-ci illər Azərbaycan Sərhəd Qoşunlarında baş gizir hərbi rütbəsində xidmət keçib. Hazırda Sumqayıt şəhərində yaşayır.

İbrahimova (Quliyeva) Narıngül Talıb qızı. 1926-cı ildə Ələyəz kəndində doğulub. Gənc yaşlarında kolxozda tütün becərməklə məşğul olub. 1948-ci ildə Qozulca kəndindən olan

Quliyev İsmayıl Cəfər oğlu ilə ailə qurub. Naringül xanımla nikahdan onların Elman, Yasəmən, Əhliman, Arzuman, Mirvari, Pərvanə, İlham, Qəhrəman adlı övladları olub. 1974-1980-ci illərdə İsmayıl və Naringül kolxozda süd emalı ilə məşğul olublar. 1988-ci ildə doğma Ələyəz kəndini tərk edərək Sumqayıt şəhərində məskunlaşıb. 1994-cü ildə Naringül xanım dünyasını dəyişib Saray qəbirsanlığında dəfn edilib.

Quliyev İsmayıl Cəfər oğlu. 1924-cü ildə Qozulca kəndində anadan olub. (İsmayıl Quliyevin atası Cəfər kişi və anası Fatma xanımın Abbas, Mikayıl, Hüseyn, İsmayıl, Tovuz və Zeynəb adlı övladları olub). 1948-ci ildə Ələyəz kəndindən olan İbrahimova Naringül Talıb qızı ilə ailə həyatı quran İsmayıl Quliyev Ələyəz kəndinə köçüb. O, Ələyəz kəndində kolxozda müxtəlif işlərdə işləyib. 1974-1980-ci illərdə həyat yoldaşı Naringül xanımla süd emalı ilə məşğul olublar. O, Ələyəz kəndinin hörmətli kişilərindən olub. 1990-cı ildə Bakıda dünyasını dəyişib Saray qəbristanlığında dəfn edilib.

ƏLİYEV MURTUZA MƏMMƏDQULU OĞLU

1912-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Ələyəz kəndində anadan olub. İkinci dünya müharibəsində Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseyinzadə ilə birgə Yuqoslaviyada partizan olaraq qəhrəmancasına döyüşmüşdür. İ.Stalinin şəxsi imzası ilə bir neçə medal və təltiflər almışdır. 1947-ci ildə müharibə qayıdıb və müharibə illərində yaşadığı agır günlər səhətində ciddi problemlər yaradıb. 1959-cu ildə vəfat edib. Xanımı Əliyeva Zeynəb Səməd qızı 1917-ci ildə

Ələyəz kəndində anadan olub. 1992-ci ildə Qax rayonu Turaclı kəndində vəfat etmişdi. Övladları Səmərqənd, Telman, Rasda, Sürəyya, Növrəstə, Tamara və Nizami. Əliyev Telman Murtuza oglu Ələyəzdə sürücü işləyib. Övladları Vurğun, Aidə, Çingiz, Anar.

Əliyev Nizami Murtuza oğlu.

1951-ci ildə anadan olub.Yoldaşı Cəfərova Xalidə Vəli qızı. Nizami Bakıda universitetə qəbul olur və Bakıda Ramana qəsəbəsində Südçülük sovxozunda Həmkarların sədri vəzifəsində, sonradan Baş mühasib vəzifəsində, 1993-cü ildən 137-nömrəli məktəbdə Tarix müəllimi vəzifəsində işləməyə başlayır. Hal hazırda təqaüdçüdü. Övladları Vəsilə, Cavid, Vüsalə.

GÜLMƏMƏDOV MƏHƏMMƏD HƏSƏNQULU OĞLU

1926-cı ildə Ələyəz kəndində anadan olub. 1945-ci ildə hərbi xidmətə çağırılıb müharibənin bitməsinə baxmayaraq 6 il xidmət keçib. 1952-ci ildə Abışova Şöhlə Teymur qızı ilə nikaha girib. Bu nikahdan Rəfiqə, Valeh, Minayə, Fərhad, Vidadi, Abuzər, Azər, Məhərrəm, Hüseyn adında 9 övladları olub.

M.Gülməmmədov 25 il Ələyəz kəndi “Zərbəçi” kolxozunun ferma müdiri işləyib. Mətin , iradəli, cəsur, sözü bütöv adam olub. Ələyəz və ətraf kəndlərdə böyük hörmət sahibi olub. 1988-ci ildən sonra doğma yurd yuvasını tərk edərək Bakı şəhərində məskunlaşıb. 2008-ci ildə Bakı şəhərində dünyasını dəyişib Suraxanıda Dədəqorqud qəbristanlığında dəfn edilib.

GÜLMƏMMƏDOV GÜLMƏMMƏD HƏSƏNQULU OĞLU

1929-cu ildə Ələyəz kəndində anadan olub. Ələyəz kəndində 8-illik məktəbi, Qovuşuq kəndində isə tam orta məktəbi bitirib. 1950-ci ildə Yerevan Kənd Təsərrüfatı Texniukumun bitirib. 1951-ci ildə Lala xanım Calal qızı ilə nikaha girib, bu nikahdan onların Umud, Fatma, Pakizə, Fikrət adlı 4 övladları olub. 1952-ci ildən Ələyəz kənd "Zərbəçi" kolxozunda meşəbəyi işləyib.1982-1988-ci illərdə Qovuşuq sovxozunda briqadir vəzifəsində çalışıb. Həyat yoldaşı Lala xanım 15 may 1988-ci ildə dünyasını dəyişib. Ələyəz kənd qəbristanlığında dəfn edilib.Gülməməd Gülməmmədov deportasiyadan sonra Bakı şəhərinə köçüb 2022-ci ildə dünyasını dəyişib, Suraxanıda Dədəqorqud qəbristanlığında dəfn edilib.

MİRZƏYEV SƏLİM İSA OĞLU

1913-cü ildə Ağkənd kəndində anadan olub. 1952-ci ildə Qozulca kəndindən Əliyeva (Mirzəyeva) Sona Vəli (sarı Vəli) qızı ilə nikaha girib. 1949-1954-cü illərdə Səlim Mirzəyev Ələyəz kəndində komsomol komitəsinin katibi vəzifəsində çalışıb. Deportasiyadan sonra Şərur rayonunun Mahmudkənd kəndində köçüb. Səlim Mirzəyev 1993-cü ildə Mahmudkənd kəndində dünyasını dəyişib və kənd qəbristanlığında dəfn edilib.

MİRZƏYEVA SONA VƏLİ QIZI (SARI VƏLİ)

1923-cü il tarixində Qozulca kəndində anadan olub. Anası Zinhar xanım Heşin kəndindədir. Sona Mirzəyeva Heşin kəndində dükançı, Çivə kəndində riyaziyyat müəlliməsi işləyib. 1952-ci ildə Səlim Mirzəyevlə ailə həyatı qurub. Bu nikahdan 11 övladları olub Sona Mirzəyevaya "Qəhrəman ana" medalı verilib. Mirzəyeva Sona Vəli qızı 2002-ci ildə dünyasını dəyişib və Sumqayıt qəbristanlığında dəfn edilib. Atası Sarı Vəli 1941-1942-ci il tarixində II Dünya Müharibəsində iştirak edib və yaralanaraq geri qayıdıb. Müharibədən sonra bir neçə il Qızılgül kəndində kolxoz sədri vəzifəsində işləyib.

MƏMMƏDOV SAVALAN MƏDƏT OĞLU

20 mart 1935-ci ildə Ələyəz kəndində anadan olub. İlk təhsilini Ələyəz kəndində, tam orta təhsilini Qovuşuq kəndində alıb. Ələyəz kəndindən həqiqi-hərbi xidmətə gedib, sonra geri qayıdaraq Ələyəz kəndində "Zərbəçi" kolxozunda tarktorçu kimi çalışıb. Kənddə ilk mexanizator olub. Naxçıvan Kənd Təsərrüfatı Texnukumunda qiyabi təhsil alıb. 1970-ci ildə kənd camaatının təşəbbüsü ilə "Zərbəçi" kolxozun sədri vəzifəsinə təyin edilib. İşlədiyi müddətdə kənd əhalisinin və rayon rəhbərliyinin böyük hörmətini qazanıb. 1974-cü ildən sonra S.Məmmədov baş mexanizator, partiya təşkilatının

sədri, Keşkənd rayon sovetinin deputatı olub. 1981-ci ildə poçt şöbəsinin müdiri vəzifəsində işləyib. 1983-1988-ci ildə Ələyəz kənd sovetinin sədri vəzifəsində çalışıb. Savalan Məmmədov Məmmədova Qəndab Allahverdi qızı ilə ailə qurub. Bu nikahdan onların 3 oğlu, 3 qızı doğulub. Övladlarının 3-ü ali təhsil alıb. Övladları vətənə layiqli şəxslər olublar.1988-ci ildə deportasiyaya məruz qalan Savalan Məmmədov əvvəlcə Naxçıvan şəhərinə sonra isə Bakının Əmircan qəsəbəsinə köçüb. O, 1998-ci ildə Həcc ziyarətində olub. Savalan Məmmədov el ağsaqqalı kimi həm Ələyəz kəndində, həm də Dərələyəz mahalında sayılıb-seçilən kişilərdən olub. Savalan Məmmədov qəlbində həmişə vətən həsərətini yaşadıb. Naxçıvan MR-nın Şərur rayonunda mənbəyini Dərələyəz mahalından götürən Arpa çayına baxıb keçirdiyi həyacandan onun ürəyi dayanıb və dünyasını dəyişib. 17 iyun 2006-cı ildə Əmircan qəsəbəsində dəfn edilib.

HEYDƏROV ƏLİ FƏRMAYIL OĞLU (QAZİ)

30.08.1992-ci ildə Bakının Binəqədi rayonunda anadan olub. Binəqədi rayonu 126 №-li tam orta məktəbin 8-ci sinifini bitirdikdən sonra 2008-2011-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə təhsilini davam etdirib.

2011-2015-ci illərdə Heydər Əliyev adına Ali Hərbi məktəbində təhsil alıb. 2015-ci ildə Təlim-Tədris mərkəzində dinləyici olub. 2016-cı ilin aprel ayında gedən Lələtəpə döyüşlərinin iştirakçısı olub.Bu döyüşlərdə düşmən tərəfindən tankı vurulan Əli Heydərov ağır yaralandığına baxmayaraq yanan tankı döyüş meydanından çıxartmağa müvəffəq

olub. Döyüş bitdikdən sonra Əlini döyüş yoldaşları müalicə üçün təxliyə ediblər. Lələtəpədə göstərdiyi igidliyə görə Əli veteran adına layiq görülüb.

2020-ci il 44 günlük Vətən Müharibəsinin iştirakçısıdır. Müxtəlif döyüş tapşırıqlarının yerinə yetirilməsində iştirakına görə kapitan Əli Heydərov bir sıra medallarla təltif olunub.

Ağdamın azad olunmasına görə medalı, Vətən Müharibəsi iştirakçısı medalı, qüsursuz xidmətə görə medalı,hərbi xidmətdə fərqləndiyinə görə 3-cü dərəcəli medalı ilə təltif edilib.

Kapitan Əli Heydərov 19 sentyabr 2023-cü ildə antiterror lokal əməliyyatlarda iştirak edib. Ağdərə istiqamətində gedən döyüşlərdə düşmən postundan atılan artilleriya mərmisinin təsirindən ağır yaralanıb və sanitar helikopteri ilə Bakıya Hərbi Hospitala aparılıb və doqquz ay müalicə alıb.

Hazırki xidmət yeri "Komando"-da "N"saylı hərbi hissənin tabor komandiri vəzifəsində tankçı ixtisası üzrə xidmət göstərir. Kapitan Əli Heydərov hal-hazırda Binəqədi rayonunda yaşayır.

RÜSTƏMOVA (İBRAHİMOVA) SÜSƏN HÜSEYN QIZI

1950-ci ildə Ələyəz kəndində Hüseyn İbrahimovun ailəsində anadan olub. İlk təhsilini Ələyəz kəndində, tam orta təhsilini isə Qovuşuq kəndində başa vurub. Zeynəb Xanlarovanı özünə kumir seçib, atası onun müğənni olmasına razılıq verməyib. 1968-ci ildə Rüstəmov Sabir Firudin oğlu ilə ailə qurub. Bu nikahdan onların Sünbül, Sitarə, Sara, Nüranə, Sona, Aynurə, Aynur, Firudin (müğənni Baba Dərələyəzli) Nicat adlı 9 övladı olub. Süsən xanım şair təbiətli bir insan kimi maraqlı şeirlər yazır. Süsən xanımın bir neçə şerini Sizə

təqdim edirik.

QARDAŞ

Hər insan ürəyi gizli xəzinə,
Oxunmamış kitab, romandı qardaş.
Acı xatirələr, xəyallar yatır,
Gəl onu dəbərtmə, amandı qardaş.

Dəbərtmə, yaramın qaysağı qopar,
Qəlbimə hicranın qorxusu hopar.
Gedirsən məni də özünlə apar,
Ayrılıq ölümdən betərdi qardaş.

Toxunma bağçası viran ömrümə,
Bağında gülləri solan ömrümə.
Ömürdən beşcə gün qalan ömrümə,
Bəxtimin çırağı sönübdü qardaş.

Sızıldayan heç bilmirəm haramdı,
Dərdim çoxdu, qövr eyləyən yaramdı.
Mənasız yaşanan ömür haramdı,
Bu dünya fanidi, yalandı qardaş.

Təbiblər çıxardı yüzə dərdimi,
Demədim oğula,qıza dərdimi.
Bir şair istərdim,yaza dərdimi,
Dünya başdan-başa zindandı,qardaş.
Qardaşım olsaydı ürək həmdəmim,
Olmazdı dünyada heç dərdim,qəmim.
Qardaşım olmasa kimə güvənim?!
Hər zaman insana gərəkdi qardaş.

Bəxtim gətirmədi mənim əzəldən,
Zalım fələk məni saldı nəzərdən.
Mən əskik deyildim heç bir gözəldən,
Fələyin qələmi sınaydı,qardaş.

Ana qaranquştək dağıldı yuvam,
Xəstədir ürəyim, çatışmır havam.
Bu fani dünyada mən də qonağam,
Bir gün bu dünyadan köçəcəm,qardaş.

Kimə deyim, kimə yazım dərdimi,
Bəxtim bəd gəlibsə,suçum fərdimi.
Köksümdə qövr edən dərdi-sərimi,
Axırda car etdim hamıya,qardaş.

Dərdimi soruşma əllidi,yüzdü,
Tənhalıq Süsənin canını üzdü.
Allahın yanında əməli düzdü,
Taleyi üzünə gülmədi, qardaş.

VƏTƏNDƏ QALDI

Yaşıl meşələrin gülü-nərgizi,
Səslərdi yaz vaxtı gəlini,qızı.
Xırrı bulağımın nanə, yarpızı,
Bizdən ayrı düşüb, Vətəndə qaldı.

Yazda əriyəndə dağların qarı,
Könlüm qubarlanıb istərdi yarı.
Gələrdi bizlərə durna qatarı,

O da əsir düşüb, Vətəndə qaldı.

Gənclik əldən gedib, gəlmir gur səsim,
Artıq ruhum ölüb, yoxdur həvəsim.
Yaşada bilmədim arzularımı,
Şirin arzularım Vətəndə qaldı.

Gənclik illərinin ən gözəl çağı,
Vaxtsız viran oldu ömrümün bağı.
Küskün taleyimin gəlin duvağı,
Məndən ayrı düşüb, Vətəndə qaldı.

Hanı o bağçalar, hanı o bağlar,
O gözəl oylaqlar, sərin bulaqlar.
Qaraşum, Divyurdu, gözəl yaylaqlar,
Çıxdı əlimizdən, gavıra qaldı.

O barlı- bəhrəli isti ocaqlar,
Nə vaxt görən bizi bir də qucaqlar.
Yam-yaşıl, al-əlvan sonsuz ormanlar,
Gözləri yol çəkən Vətəndə qaldı.

Nərgiz-bənövşəsi, tər yasəməni,
Qız-gəlinlər göyərdərdi səməni.
İgidlər oylağı, yaşıl çəməni,
Bizdən ayrı düşüb,Vətəndə qaldı.

Hanı o bağçalar, hanı o bağlar,
Durna gözlü su içdiyim bulaqlar,
O yaşıl meşələr,güllü yaylaqlar,
Məndən ayrı düşüb,Vətəndə qaldı.

Yay vaxtı qalxardı oba yaylağa,
Hörmət olunardı gələn qonağa.
Sevinclə baxardıq yurda, oylağa,
Bu sevgi, bu istək, Vətəndə qaldı.

Aşıqlar söylərdi hər dastanları,
Tərif eyləyərdi gözəl qızları.
Ata-babaların ayaq izləri
Qırovda, sazaqda, Vətəndə qaldı.

Qolların bağlıdır bilirəm, sənin,
Ağlar qalıb indi çölün-çəmənin.
Qız-gəlinlər göyərtdiyi səmənin,
Quruyub- saraldı, Vətəndə qaldı.

Ata-babaların şirin söhbəti,
Onlardan alardıq biz nəsihəti.
Edərdik onlara hər məsləhəti,
O din, o bərəkət, Vətəndə qaldı.

Qəmli Süsən, Vətən deyib ağlama,
Ürəyini üzüb, sinə dağlama.
Namərd insanlara sən bel bağlama!
Sədaqət, etibar, Vətəndə qaldı.

RÜSTƏMOV SABİR FİRUDİN OĞLU



1939-cu ildə Ələyəz kəndində anadan olub. Ali təhsillidir. 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirib. 1969-1971-ci illərdə Hors kəndində1971-1983-cü illərdə isə doğma Ələyəz kəndində orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edib. 1968-ci ildə Sabir Rüstəmov həmkəndlisi Süsən İbrahimova ilə ailə qurub. 1983-cü ildə ailəsi ilə birlikdə Şamaxı rayonun Meysəri kəndində köçüb. S.Rüstəmov 2004-cü ildə vəfat edib. Novxanı qəbirsitanlığında dəfn edilib.

ƏLƏKBƏROVA (RÜSTƏMOVA) SARA SABİR QIZI

5 dekabr 1974-cü il tarixində Ələyəz kəndində anadan olub. 1995-ci il Ələyəz kənd sakini Ələkbərov Çapay Xəlil oğlu ilə ailə qurub. Xəlil, Azər,Aytac adlı 3 övladı var. S.Ələkbərova Bakı Tibb kollecini bitirib, tibb bacısı kimi fəaltyyət göstərir. Hazırda Suraxanı rayonu Qaraçuxur qəsəbəsində yaşayır.

BAYRAMOVA (RÜSTƏMOVA) NURANƏ SABİR QIZI

1983-cü ildə Ələyəz kəndində anadan olub. 1983-cü ildə ailəsi ilə birlikdə Şamaxı rayonunun Meysəri kəndinə köçüb. Orta təhsilini burada alıb. 2000-ci ildə Üzeyir Bayramovla ailə həyatı qurub. Bu nikahdan doğulan oğlu Vüqar Vətən müharibəsinin iştirakçısıdır.Digər oğlu İlqar isə hazırda Azərbaycan Ordusunda xidmət edir.

BAYRAMOV VÜQAR ÜZEYİR OĞLU

44 Zəfər savaşında iştirakına görə Azərbaycan Respublikasının Cəbrayılın, Qubadlının, Zəngilanın azad olunması uğurunda medalı, həmçinin Vətən müharibəsi iştirakçısı medalları ilə təltif edilib. Hazırda SOS MMC-də muhafizəçi işləyir və Bakı şəhərində yaşayır.

RÜSTƏMOV FİRUDİN SABİR OĞLU (BABA DƏRLƏYƏZLİ)

1979-cu ildə Ələyəz kəndində anadan olub. 1983-cü il tarixində Ələyəz kəndindən ailəsi ilə birlikdə Şamaxı rayonunun Meysəri kəndinə köçüb. 1996-cı ildə orta təhsilini Meysəridə başa vurub. 1997-1998-ci

il tarixdə həqiqi hərbi xidmət keçib. Şamaxıda Sabir adına 7-li musiqi məktəbində 3 il müddətində Nafiz Ağakərim və Elnarə Abdullayevadan dərs alıb. Ailəlidir, 2 övladı var.

İfaçı kimi xalq tərəfindən sevilir. Repertuarında müxtəlif səpkili mahnılar var. Onun "Nəhəng gəmi", "Dilənçi" mahnıları dinləyicilər tərəfindən böyük rəğbətlə qarşılanır. Baba Dərləyəzliyə dayısı Telman İbrahimov və Alim Dərləyəzli "Ay Baba" və "Desinlər" şeiri ithaf etmişdir.

ƏLƏKBƏROV AZƏR ÇAPAY OĞLU

1996-cı ildə Bakıda anadan olub. 2015-ci ildə Xocavənd rayon 2-li tam orta məktəbi bitirib. 2019-cu ildə Azərbaycan Kooperasiya Universitetinin bitirib və həqiq hərbi xidmətə gedib. Hazırda Suraxanıda yaşayır.

KƏRİMOV ELDAR MƏMMƏD OĞLU

01.01.1955-ci il tarixində Ələyəz kəndində anadan olub. İlk təhsilini Ələyəz kəndində, tam orta təhsilini isə Qovuşuq kəndində başa vurub. 1974-1976-cı illərdə həqiqi hərbi xidmətdə olub. Rəssamlıq və rəngsazlıq bacarığı olan Eldar Kərimov fərdi evlərin təmiri ilə məşğul olub.1979-cu ildə Qovuşuq kəndindən olan Lətifə Alı qızı ilə nigaha girib. Bu nikahdan Elşən, Eldəniz adlı oğlu, Əfsanə adlı qızı doğulub. 1996-cı ildə Rusiya Federasiyasına gedib iki ilə yaxın orada yaşayıb 31.06.1998-ci ildə baş vermiş qəza nəticəsində dünyasını dəyişib. Suraxanı qəbristanlığında dəfn edilib.

ALIQULİYEV ALI MEHBALI OĞLU



1931-ci ildə Ələyəz kəndində anadan olub. 1945-ci ildə Ələyəz kənd 7 illik məktəbini, 1948-ci ildə isə Qovuşuq kənd orta məktəbinin 10-cu sinfini bitirib.

1948-1950-ci illərdə Naxçıvan Pedaqoji məktəbini bitirdikdən sonra 1950-1956-cı illərdə Azərbaycan Dövlət Pedoqoji İnstitutunun "Filologiya" fakültəsinin qiyabi şöbəsini bitirib və elə həmin illərdə də Ələyəz kənd 8-illik məktəbində ixtisası üzrə Azərbaycan dili və ədəbiyyatı fənnlərini tədris edib.

1957-ci ildə ailə həyatı qurub və bu nikahdan Mahru, Mətləb, Kövsər, Ülkər, Tamam, Məhsəti, Malik, Natəvan adlı 8 övladı dünyaya gəlib.

Alı Alıquliyev 1974-1988-ci illərdə Ələyəz kənd tam orta məktəbində ixtisası üzrə müəllim işləyib.

1988-ci ilin noyabrında Ələyəz kəndindən ailəlikcə deportasiya olunub və Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Çalxanqala kəndində məskunlaşıb və 1988-1995-ci illərdə müəllim işləyib.

Alı Alıquliyev 1995-ci ildə ailəlikcə Bakıya köçüb. Alı müəllim 10 may 2010-cu il tarixində dünyasını dəyişib və Binə sovxoz qəbristanlığında dəfn olunub.

Alı Alıquliyev şagird və müəllim kollektivləri, eyni zamanda Ələyəz camaatı arasında böyük hörmət sahibi olub. Alı müəllimə olan hörmət və ehtiram Dərələyəzin qalan 7 kəndinin sakinləri arasında da eynən özünü biruzə verirdi, yəni bu kəndlərin əhalisi də Alı müəllimə çox böyük hörmət göstərib.

Alı müəllim bütün dünya ədəbiyyatını mütaliə edən bir ziyalı olub. Alı müəllim eyni zamanda təbiətən şair olub. Onun şeirlərindən bir neçəsini sizlərə təqdim edirik.

ARZULAR

Kaş gəzib yurdumun al yaylaqların,
Əlvan güllərindən seçəydim, Allah.
Billur kimi axan buz bulaqların,
Şirin sularından içəydim, Allah.

Belinə qalxaydım köhlən atların,
Gəzəydim doyunca gözəl yurdların.
Uzanıb üstündə ipək otların,
Dərib çiçəklərin biçəydim, Allah.

Həsrətin çəkirəm ötən çağların,
Gülşənə bənzəyən gözəl bağların.
Dumana bürünən uca dağların,
Quş olub başında uçaydım, Allah.

Doyunca baxaydım çəmənə, çölə,
Yaşılbaş sonalar qonaydı gölə.
Sinəmi verəydim bir sərin yelə,
Nəğməli çaylardan keçəydim, Allah.

Doğma evimizdə bir də yataydım,
Hicranı qəlbimdən tamam ataydım.
Bu arzu amala bircə çataydım,
Sonra bu dünyadan köçəydim, Allah.

GÖRƏYDİM

Bir humay quş olub havaya qalxıb,
Gedib bir də o dağları görəydim.
Nərgizli güneyə bir lələk taxıb,
Suyu şərbət bulaqları görəydim.

Görəydim necədir dağların halı,
Süfrəyə gəlirmi beçənin balı.
Div-Yurdun üstündən uzanan yalı,
Ordan baxıb, "Əyri Tarı" görəydim.

Qırxbulağın qatarına çıxaydım,
Şimşək olub, buludlarda çaxaydım.
Çınqıllıdan Soğanlıya baxaydım,
Obaları, oymaqları görəydim.

Alının dərdləri hesaba gəlməz,
Axan göz yaşını bir kimsə silməz.
Dərələyəz gedib, tez ələ gəlməz,
Bircə dəfə o diyarı görəydim.

AY ELLƏR

Gecə-gündüz didələrim qan ağlar,
Daha yoxdu bir gümanım, ay ellər.
Əlçatmaz, ünyetməz kimsəsiz dağlar,
Talan olmuş bir ümmanam, ay ellər.

Bülbül kimi həsrət qaldım gülümə,
Dərdimi söyləyim mən yazıq kimə.
Bir Vətən həsrəti düşüb qəlbimə,
Orda qalıb din-imanım, ay ellər.

Əzəldən iqbalım olubdu qara,
Həsrətlə baxıram doğma yollara.
Təbib yox dərdimə eyləsin çara,
Yaşamağa yox gümanım, ay ellər.

ABBASOV FƏRƏMƏZ ƏMİRASLAN OĞLU

1953-cü ildə Ələyəz kəndində anadan olub. Orta təhsilini Ələyəz kəndində başa vurub. 1973-cü ildə Bakı Mədəni Maarif Texnikumunu bitirib. 1974-cü ildə Qənirə Ərəbova ilə ailə qurub. Bu nikahdan onların Esmira, Elnarə və Ramin adlı övladları olub. F.Abbasov sonra təhsilini davam etdirib. O, 1982-ci ildə BDU-nun Filologiya fakültəsini bitirib. Bir neçə il Ələyəz kəndində müəllimlik edib. Ermənistan SSR Yexeqnadzor rayonunun Komsomol Komitəsinin katibi vəzifəsində çalışıb. 1988-ci ildə deportasiyadan sonra Bakı şəhərinə köçüb, uzun illər Suraxanı Mədəniyyət Evinin direktoru vəzifəsində çalışıb. Hazırda Bakı şəhərində yaşayır.

QƏNİRƏ ƏRƏBOVA

1950-ci ildə Ələyəz kəndində anadan olub. İlk təhsilini Ələyəz kəndində tam orta təhsilini isə Qovuşuq kəndində bitirib. 1967-1971-ci illərdə APİ-nin fizika-riyaziyyat fakültəsini bitirib. 1974-cü ildə Fərəməz Abbasovla ailə qurub. 1971-1988-ci illərdə fizika müəlliməsi kimi çalışıb. Əməkdar müəllimdir. Hazırda Bakıda yaşayır.

Əsədova (Babayeva) Esmira Fərəməz qızı. Ələyəz kəndində anadan olub. Ali təhsillidir. Azərbaycan Dövlət İqtisad Universitetini "Sosial-mədəni sahəsinin iqtisadiyyatının təşkili və idarə

edilməsi” ixtisası üzrə bitirib. Esmira xanım Rauf Əsədovla ailə həyatı qurub. Bu nikahdan 2 övladları var. Hazırda “Suraxanı OYL Opreyşın Company” şirkətində Həmkərlar Təşkilatının sədri vəzifəsində çalışır. Bakı şəhərində yaşayır.

HACIYEV VİDADİ HACI OĞLU

25.09.1973-cü ildə Ələyəz kəndində anadan olub. 8-ci sinfə qədər Ələyəz kəndində orta təhsil alıb. Sonra isə orta təhsilini Şəmkir rayonunun Çənlibel kəndində başa vurub.

1988-ci ildə deportasiyadan sonra ailəsi ilə birlikdə Şəmkir rayonunda məskunlaşıblar. V.Hacıyev 1991-ci ildə Şəmkir rayonundan həqiqi hərbi xidmətə gedib. 1992-ci ilin mart ayında Qarabağ uğrunda gedən döyüşlərə qatılıb. Ağdamın Papravənd, Naxçıvanik, Ağdərə rayonunun Dranbon , Çıldıran, Sırxavənd kəndlərində döyüşlərdə iştirak edib. 1992-cilin iyul -noyabr aylarında Marquşavanda gedən döyüşlərdə iştirak edib. 18 noyabr 1992-ci il tarixində Sırxavənd kəndi uğrunda gedən döyüşlərdə ağır yaralanıb, 8 ay hərbi qospitalda qaldıqdan sonra ordu sıralarında tərxis edilib. Ailəlidir, 3 övladı var. Hazırda Bakı şəhərində yaşayır.

MƏMMƏDOV ƏBDÜL YUSİF OĞLU

15 aprel 1941-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının Şidli kəndində anadan olmuş, 10 noyabr 2020-ci ildə Bakı şəhərində vəfat etmişdir. Bir neçə köçkünlük həyatı yaşamışdır. Birinci dəfə 1948-ci

ildə Ağdaş rayonunun Qoşaqovaq kəndinə köşürülmüş, 1956-cı ildə yenidən ata-baba yurduna Şidliyə qayıtmışlar. İkinci dəfə 1988-ci ilin dekabr ayının 7-də qaçqınlıq həyatı yaşamış, həyat yoldaşı və 4 övladı ilə birlikdə Naxçıvan MR-nın Babək rayonunun Çalxanqala kəndinə yaşayan erməni ilə evi dəyişmək qərarına gəlmişdir. Bir müddət orda qaldıqdan sonra Şidli kəndinin sakinlərinin böyük əksəriyyətinin Bakı şəhərinə köçməsi səbəbi ilə o da ailə üzvləri ilə birlikdə Bakı şəhərinə köçür. Üçüncü dəfə 1991-ci ilin may ayının 15-də Bakı şəhərindən Xocavənd rayonun ermənilərdən azad edilmiş 15 kəndindən biri olan Dollanlar kəndinə köşürülmüşdür. Həmin kəndlərdə ermənistandan qovulmuş azərbaycanlılar məskunlaşdırılmıdır. 02 oktyabr 1992-ci ildə Dolanlar kəndi yenidən ermənilər tərəfindən işğal edilmişdir. Heydər Əliyevin 1987-ci ilin oktyabrında SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunda tutduğu vəzifədən istefa verməsi xəbəri bütün itfaqda səs saldı. Bu xəbəri ermənilər sevinclə qarşılarsalar da azərbaycanlılar üzüntü ilə qarşıladılar. İrəvan şəhərinin mərkəzi meydanda SSRİ KPMK-nin Siyasi Bürosunun üzvlərinin foto stendində Heydar Əliyevin şəkilini "yırtılması"ı Ermənistanda yaşayan azərbaycanlılara və Naxçıvanlılara çox pis təsir etmişdir. Ona görə də Naxçıvan şəhərində və Şərur rayonunda fəaliyyət göstərən fotoqraflar Heydar Əliyevin mülki və general üniformalı şəkilləri böyüdərək çoxaldıb insanlar arasında paylayırdılar. Həmin günlərdə Əbdül Məmmədov Naxçıvan şəhərindən H.Əliyevin iki şəkilini özü ilə kəndə gətirmişdi. Heydar Əliyevin general üniformalı şəkili avtomobilinin alın şüşəsinə taxaraq avtomobil idarə edirmiş. Mülki geyimdə olan şəkil isə evində divardan asmışdır. 1994-cü ilin oktyabr hadisələri zamanı Heydər Əliyevin xalqa müracitindən dərhal sonra ailə üzvləri ilə birlikdə Prezident Sarayının qarşısına

gedərək dəstək mitinqində iştirak etmişdir. İki oğlu Qarabağ müharibəsinin veteranıdı. Oğlu Vidadi Məmmədov II qrup Qarabağ əlilidir.

RÜSTƏMOV ADİL RÜSTƏM OĞLU

1958-ci ildə Ələyəz kəndində anadan olub.1978-ci ildəƏləyəz kənd orta məktəbini bitirib. Elə həmin ildə Azərbaycan Dövlət Universitetinin Fizika-Riyaziyyat fakültəsinə qəbul olub.1983-cü ildə həmin universiteti bitirib.Universitetdə oxuduğu müddətdə baş leytenant rütbəsi ilə təltif olunub.

1981-ci ildə dayısı Alı Alıquliyevin qızı Kövsər xanımla ailə həyatı qurub.4 övladı var.

1983-1985-ci illərdə İsmayıllı rayonunun Zərnova kəndində ixtisası üzrə müəllim işləyib.1985-1988-ci illərdə isə Ələyəz kəndində riyaziyyat müəllimi işləyib.

1988-ci ildə ailəsi ilə birlikdə baş vermiş hadisələrlə əlaqədar olaraq Ələyəz kəndini tərk etmiş.Sonra Sumqayıt şəhərində məskunlaşmışdır. Bir müddət Sumqayıt şəhərində Polietilen zavodunda mühəndis kimi çalışıb.

1990-cı ildə ailəsi ilə birlikdə Xızı rayonunun Xələnc kəndinə köçüb.1990-2003-cü illərdə həmin kənddə riyaziyyat müəllimi kimi fəaliyyət göstərib.

2003-2005-ci illərdə Xızı Rayon İcra Hakimiyyətində Mədəniyyət şöbəsinin rəisi vəzifəsində çalışıb.

2005-ci ilin iyul ayında Adil Rüstəmov dünyasını dəyişib.

RZAQULİYEV ƏHƏD CƏFƏRQULU OĞLU

1959-cu ildə Ələyəz kəndində anadan olub.1978-ci il Ələyəz kənd orta məkrəbini bitirib.Elə həmin il Bakı Pedoqoji İnstitunun Fizika fakültəsinə qəbul olub.1982-ci ildə həmin institutu bitirib.

1982-1988 -ci illərdə Ələyəz kəndində ixtisası üzrə müəllim işləyib.

1983-cu ildə ailə həyatı qurub. Amalya,Aynur və Anar adlı 3 övladı var. Qızları həkimlik ixtisasına yiyələnib.Oğlu isə Qərbi Azərbaycan İcmasında Gənclər Təşkilatının sədri vəzifəsində çalışır.

1988-ci ildə Əhəd Rzaquliyev ailəsi ilə birlikdə digər həmyerliləri kimi deportasiya nəticəsində Ələyəz kəndini tərk edib. Həmin vaxtdanda Bakı şəhəri, Nəsimi rayonunun ərazisində məskunlaşıb.

1992-ci ildən 1996-ci ilə qədər Azərbaycan Respublikası Əmək və Sosial Müdafiə Nazirliyində, 1996-2000-ci il tarixdə isə Azərbaycan Respublikası Dövlət Əmək Müfəttişliyində çalışıb.

2000- ci ildə Əhəd Rzaquliyev dünyasını dəyişib.

BU XALQ DOĞMA TORPAĞINA QAYIDACAQ

MİRZƏYEV MURAD TELMAN OĞLU

Müəllimi Telman İbrahimovun (C.Naxçıvanski adına Hərbi Lisey, 42-ci tağım komandiri, riyaziyyat müəllimi, ehtiyatda olan mayor) dediklərindən: "Dünyada müəllim adından şərəfli ad tanımıram" deyən ümummilli lider Heydər Əliyev hər zaman müəllimlər haqqında xoş sözlər söyləmişdir. Biz müqəddəs ad sayılan müəllim peşəsinin sahibləriyik. Yetirmələrimizin xoş sədalarını eşidəndə qürur hissi keçiririk. Murad Mirzəyev də onların sırasındadır. Onda olan vətənə bağlılıq doğulduğu torpağın hikmətindən və anasının südündəndir. Əsl tərbiyə ailədən başlayıb, məktəbdə davam edir. Tərbiyəsi doğru olan şagirdlər müəllimin də hörmət və rəğbətini qazanır. Elə şagird heç vaxt özünə söz dedizdirmir. Əksinə, hər zaman müəllimin köməkçisinə çevrilir. Özünü apara bilməyən uşaqları doğru yola dəvət edir.

Murad Mirzəyev çox danışmağı sevməzdi. Bu oğlan böyük hövsələ sahibi idi. Bütün davranışlarında, savadında, oturuşunda, danışığında, insanlarla olan münasibətində hər kəsdən fərqlənirdi. Qüvvətli və cüssəli olmasına baxmayaraq, kimsənin qəlbinə dəyməz, qol gücünü kimsəyə göstərməzdi. Bütün hərəkətləri nizamnamə çərçivəsində olardı. Onun heç vaxt səsini ucaltdığını görməzdik. Əlbəttə, müəllimlər belə şagird və tələbələrə hörmətlə yanaşır, onları daim dəqqətdə saxlayırlar. Hətta ictimai işlərdə onları qabağa çəkirlər.

Murad qəbul olduğu ildə liseyin iki rus dilli tağımı vardı.

Birinci tağım Muradgilin tağımı, yəni 42-ci tağım idi. İkinci isə 45-ci tağım idi. İki tağımın birlikdə 45 kursantı vardı. İki tağımın arasında Murad Telman oğlu Mirzəyev hər kəsdən seçilirdi. Nümunəvi olduğuna görə də onu öz köməkçim təyin etmişdim. Çox vaxt iki tağımın dərslərini birlikdə hazırlayırdıq. Riyaziyyat müəllimi olaraq onlara riyaziyyatdan xüsusi hazırlıq da keçərdim. O illər yaxşı yadımdadır. 23 nəfər kursantı riyaziyyatdan əlaçı yetişdirmişdim. Həmin kursantları yatmaq vaxtı çatanda gizli olaraq hazırlaşdırardım. Murad mənim sağ əlim idi desəm, yanılmaram. Hər kəs ona hörmətlə yanaşar, sözünü yerə salmazdı. Elə ona görə də həmişə tağımın bütün göstəriciləri yüksək olardı.

Zaman elə sürətlə gəlib keçdi ki, o illər arxada qaldı. Amma arxasınca acılı-şirinli iz buraxaraq qaldı. Murad liseyi bitirəndən sonra Türkiyədə Kara Harp Okuluna qəbul oldu. Qismət elə gətirdi ki, mənim də oğlum onunla birlikdə Türkiyədə təhsil almalı oldu. Biz onları birlikdə yola salıb, birlikdə də qarşılayardıq. Aeroport-dan Muradı rayona yola salardıq. Ümumiyyətlə, təhsil illərində hiss edirdik ki, onda komandirlik istedadı var, zaman keçəndən sonra həyat da bunu sübut etdi.

Mən "N" saylı hərbi hissədə işləyirdim. Murad da artıq Türkiyədə təhsilini bitirib Azərbaycanda hərbi hissələrin birində xidmət edirdi. Yaxşı yadımdadır, 2003-cü il idi, iş vaxtı otaqda oturmuşdum. Birdən qapı döyüldü, içəri dörd nəfər üzü bağlı şəxs daxil oldu. Onlar mənim sənədlərimə baxdılar. Birdən nəzərim onlardan birinə yönəldi. Baxdım ki, onun gözləri gülür. Mən bu gözləri Muradın gözlərinə oxşatdım. Amma heç nə demədim. Yanılmamışdım, o gözlər Muradın gözləri idi. Amma o, təlimatı pozmadı. Bayıra çıxdılar. Bir neçə dəqiqədən sonra o, təkrar içəri girdi. Məni qucaqlayıb bağrına basdı. Mən o gün özümü o qədər xoşbəxt hiss etdim ki, izah etmək belə mənim üçün çətindir.

Murad Mirzəyev elə bil bu vətən üçün doğulmuş bir fədai idi.

Onun ağlı, fikri təkcə vətən sevgisinə köklənmişdi. Kimsə o sevgini onun beynindən çıxara bilməzdi. Tariximizi çox gözəl bilirdi. Bilirdi ki, əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-nin digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulmuşlar. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulmuş, ana dilində təhsil almalarına əngəllər törədilmiş, onlara qarşı repressiyalar həyata keçirilmişdir. Azərbaycan məskənlərinin tarixi adları dəyişdirilmiş, qədim toponimlərin qondarma adlarla əvəzolunma prosesi baş vermişdir.

Muradın üzündə bir kədər kök salmışdı. Çatılmış qaşlarının düyünü açılmazdı. Özünün dediyi kimi, torpaqlarımız düşməndən təmizlənməyincə biz hərbçilərə rahatlıq ola bilməzdi. "Ayıq-sayıq olmalı, qorxu bilmədən düşmən hücumlarının qarşısını almağı bacarmalıyıq", - deyərdi. Kədərli tale göydən düşmür, kədərli tale insanın alın yazısıdır. Amma hər kədəri deyil, vətən üçün şəhid olanların kədərini Allah yazır.

Ermənistan Respublikasının hər dəfə cəbhə xəttində təxribatlar törətməsi heç də sirr deyil. Onlar danışıqlar ərəfəsində daim vəziyyəti gərginləşdirməyə çalışırlar. Bununla həm ermənilərin başını qatmaq, həm də uğurlu addımımıza kölgə salmağa çalışırlar. Ermənilər çox gözəl bilir ki, Azərbaycan inkişaf etmiş ölkələrin sırasındadır. Keçirilən çempionatlar və dünya birliklərinin ölkəmizə axını, təbii ki, düşmən olaraq onlara ağır zərbədir. Azərbaycan Ermənistandan fərqli olaraq münaqişənin sülh yolu ilə həllinə çalışır, bu yolda səylərini əsirgəmir. Lakin düşmənin iyrənc siyasəti Ermənistanda yaşayan əhalinin də nifrətinə səbəb olubdur.

Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin prinsipial, qətiyyətli siyasəti nəticəsində Azərbaycanın ardıcıl şəkildə qazandığı diplomatik uğurları Ermənistan rəhbərliyini çətin vəziyyətdə qoymuşdur. Düşmən tərəf bilir ki,

Qarabağda otursalar da, ora onların torpağı deyil. Qarabağ torpağı Azərbaycanın olub və bundan sonra da Azərbaycanın olacaq. Xalq bir gün doğulduğu dədə-baba torpağına qayıdacaq.

Murad Aprel döyüşlərində ölümsüzlüyü ilə, şücaəti ilə özünə əbədiyyət qazandı. Gedişi ilə vətəninə belə bir mesaj buraxıb getdi:

Hələ tərifini verməsəm də mən,
Sənsiz olmamışam bir an, ey Vətən.
Mən sənin sinəndə məskən salmışam,
Sən mənim qəlbimdə, inan, ey Vətən.

Məni darda sına, çətində sına,
Haqqım yox adını danam, ey Vətən.
Mən sənin ən kiçik bir övladınam,
Sən mənim müqəddəs anam, ey Vətən.

Hələ can borcumu verməmişəm mən,
Hələ borcum nə çox önündə, Vətən.
Hələ xidmətimi görməmisən sən,
Ölərəm bir çətin günündə, Vətən.

Mənim Məkkəm də sən, Mədinəm də sən,
Bir daşın bəs eylər min heyrət üçün.
Bir qarış torpağın yetər, ey Vətən,
Yüzlərlə zəvvara ziyarət üçün.

Hissimsən, duyğumsan, şirin canımsan,
Müqəddəs sevgindən yaranmışam mən.
Sən mənim ən ali komandanımsan,
Farağat əmrində dayanmışam mən!
Farağat əmrində dayanmışam mən!

Muradın ruhu hər zaman narahatdır. Düşünürəm ki, torpağımız düşmən tapdağından azad olmayınca nəinki Muradın, bütün şəhidlərin ruhu rahatlıq tapmayacaq. Allahdan bütün şəhidlərə rəhmət diləyirəm.

ABBASOV İBRAHİM ADLI OĞLU

24 aprel 1959-cü ildə Şərur-Dərələyəz mahalının Çivə kəndində anadan olub. İlk ibtidai təhsilini Çivə kəndində alıb. 1967-ci ildə ailəsi ilə birlikdə ermənilərin etnik təmizləmə siyasəti nəticəsində Bərdə rayonunun İmirli kəndinə köçmüşdür. Orta təhsilini Bərdə rayonunun Əmirli kənd tam orta məktəbində alıb. 1982-1987-ci illərdə Gəncə Dövlət Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsində təhsil alıb.1988-1998-ci illərdə aqronom və briqadir işləyib.1981-ci ildən bu günədək Əmirli kənd folklor klubunun yaşlı üzvlərdən ibarət "El Yallısı"kollektivinin ən fəal üzvlərindən biridir. El arasında usta kimi tanınan Abbasov İbrahim kəndin tarixinə dair (ailə hekayələrinə əsaslanan) məlumatlı şəxslərdəndir. Hazırda İmirli kəndində yaşayır.

ABBASOVA XƏDİCƏ ADİL QIZI

02.01.1952-ci ildə Şərur -Dərələyəz mahalının Çivə kəndində anadan olub.1952-ci ildə Bərdə rayonun Əmirli kəndinə deportasiya olunmuşdur.1968-ci ildə Ağdaş Pedaqoji texnikumuna daxil olub və1970-ci

ildə oranı fərqlənmə diplomu ilə bitirib.50-il Pedaqoji fəaliyyətlə məşğul olub. Xədicə Adil qızı 4 övlad anasıdır.Uşaqlarının hər biri yüksək səviyyədə ali təhsil alıb və bu gün onlardan 3-ü müxtəlif sahələrdə çalışırlar.2-ci övladı Calalov İlqar Salman oğlu 1991-1996 -cı illərdə Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsini riyaziyyat ixtisası üzrə oxuyub və universiteti fərqlənmə diplomu ilə bitirib.1997-ci ilin yanvarından leytenant rütbəsində hərbi xidmətə başlayan İlqar Calalov Füzuli, Beyləqan istiqamətlərində ön cəbhədə tağım komandiri kimi xidmət göstərmişdir.1998-ci ilin yanvar ayında baş leytenant rütbəsi alan İlqar Calalov 16-iyun 1998-ci ildə xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.Şəhid anası Xədicə Adil qızı hal-hazırda Bərdə rayonunda yaşayır.

ABBASOVA ZEYNƏB HƏSƏN QIZI

1923-cü il Qərbi Azərbaycanın Şərur-Dərələyəz mahalının Çivə kəndində anadan olub. 1952-ci ildə Çivə kəndindən Bərdə rayonunun İmirli (Əmirli) kəndinə deportasiya olunub. Yerli şəraitə heç cür uyğunlaşa bilməyən Abbasova Zeynəb Həsən qızı ailəsi ilə birlikdə Stalinin ölümündən sonra yenidən dədə-baba yurduna -Çivə kəndinə qayıdıb.Orada bir müddət yaşadıqdan sonra ermənilərin etnik təmizləmə siyasəti nəticəsində yenidən 1967-ci ildə Bərdə rayonunun İmirli kəndində məskunlaşıb. 10-uşaqlı Qəhrəman Zeynəb ananın sinəsi açıq-şeir sənəti ilə dolu olub. Kəndin bütün yas mərasimlərində ağı və laylaları necə şirin, yanıqlı bir səslə oxumasını bu gündə İmirli camaatı danışır.Gənc yaşlarında ikən həyat yoldaşı Adil kişinin köməyi ilə şifahi şəkildə "Qurani -

Kərim"-i öyrənib və o vaxtdan, ömrünün son gününə qədər namaz qılıb,oruc tutub.Kənd sakinlərinin dedikləri: Hansı məclisdə Zeynəb xala var idi, məclisin sonuna qədər oturardıq... Çünki hər zaman dinimizi çox gözəl şəkildə təbliğ edər,ağı və mərsiyələr söyləyərdi.60 il ibadətlə məşğul olan,elin -obanın xeyir -şərində yaxından kömək edən Abbasova Zeynəb Həsən qızı 08.12.2002-ci ildə Bərdə rayonunun İmirli kəndində "namaz"-üstdə dünyasını dəyişib.

ABBASOV ADİL ƏLİ OĞLU

1914-cü il Şərur-Dərələyəz mahalının Çivə kəndində anadan olmuşdur.İlk ibtidai təhsilini Çivə kəndində alıb. ll-Dünya müharibəsi iştirakçısı olub. Müharibədə ağır yaralanıb və 1-ci dərəcəli Vətən müharibəsi əlili olub.Çivə kəndində anbardar, briqadir, ferma müdiri vəzifələrində çalışıb. 1952- ci ildə Çivə kəndindən İmirli kəndinə deportasiya olunub. Yerli şəraitə uyğunlaşa bilməyən Adil kişi ailəsi ilə yenidən dədə-baba yurduna qayıdıb. Ermənilərin etnik təmizləmə siyasəti nəticəsində yenidən 1967-ci ildə Bərdə rayonunun İmirli kəndində məskunlaşıb. 08.06. 1979-cu ildə yol qəzası nəticəsində dünyasını dəyişib.Abbasov Adil camaatın yaddaşında xeyirxah insan və din adamı kimi qalıb.O,Sovet dövründə hər zaman namaz qılıb, oruc tutub . Adil kişinin ata babası Abbasov Abbas 12-dəfə Kərbəla ziyarətinə gedib.Abbas kişiyə Hacı rütbəsi və "Qurani-Kərim" hədiyyə verilib.Hacı Abbas müqəddəs "Qurani -Kərim"i Adil kişiyə verib.Abbasov Adil həm -də yüksək zəka sahibi olub.O, ərəb əlifbasını öyrənərək "Qurani -Kərim"i bu əlifba vasitəsilə

oxuyub.Ömrünün sonuna qədər məscidlərə gedib, dini ayinləri icra edib.Adil kişi şifahi şəkildə "Qurani -Kərim"i həyat yoldaşı 10-uşaqlı Qəhrəman ana Abbasova Zeynəb Həsən qızınada öyrədib. Ata nənəsi Kərbalayı Fatmanı Çivə qəbirstanlığında dəfn edərkən ,onu əmanət qoyub. Biz soruşanda belə cavab verərdi: Əvvəl-axır doğma dədə-baba yurduna: Dərələyəz mahalının Çivə kəndinə qayıdacağıq. Bu inamlada dünyasını dəyişdi. Vətən həsrəti Adil kişinin ən ağır yarası olub. 47 ildən artıq ibadətlə məşğul olan: A.Abbasov doğmalarının yaddaşında vətənini , millətini , dinini sevən bir insan olaraq qalıb.

İRZAQULİYEV CƏMŞİD İSMAYIL OĞLU

Cəmşid Dərələyəzli. 2 dekabr 1958-ci ildə Dərələyəz mahalının Ələyəz kəndində (Qərbi Azərbaycan) anadan olmuşdur. 1975-ci ildə Ələyəz kənd orta məktəbinin 9 sinfini, 1978- ci ildə Bakı Plan-Uçot texnikumunu, 1986-cı ildə isə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. İlk dəfə əmək fəaliyyətinə Ələyəz kəndində fəhlə kimi başlamışdır. Sonra kənd mühasibi və Ələyəz Tikiş Fabrikinin direktoru vəzifəsində çalışmışdır.

1988-ci ildə Ermənistandan deportasiya edildikdən sonra, 8 il Azərbaycan Respublikasının Gəncə şəhərində yaşamış və müxtəlif özəl və dövlət müəəssisələrində çalışmışdır. 1996-cı ildə Bakı şəhərinə köçmüş, ilk doqquz ili Nazirlər Kabineti yanında Dövlət Agentliyində məsul vəzifələrdə işləmişdir. Eyni zamanda KTİ və Tİ-da da elmi işçi olmuşdur. İqtisadiyyat üzrə 16 elmi məqalənin müəllifidir. Eyni zamanda “Qürbətə sığmayan vətən həsrəti”



kitabının müəllifidir.

Son illərdə isə özəl şirkətlərin maliyyə idarələrində rəis vəzifəsində işləmişdir.

İki dəfə 2000 və 2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə namizədliyi qeydə alınmış, deputatlığa namizəd olmuşdur.

O, Ələyəz kənd ağsaqqallarının 18 mart 2012-ci il tarixli qərarı ilə Kənd Ağsaqqallar Şurasının sədri seçilmişdir. Ailəlidir, 2 övladı var.

ŞƏHİD ABIŞOV İSLAM İSMAYIL OĞLU (1966-1992)

Abışov İslam İsmayıl oğlu 1966-cı ilin mart ayında Ələyəz kəndində anadan olmuşdur. Orta təhsilini Ələyəz kənd məktəbində almışdır. Hərbi xidmətini o, Leninqrad şəhərində yerinə yetirmişdi. Sonra doğulduğu kənddə kolxozda işləməyə başlamışdır. 1988-ci ildə Ermənistan Respublikasındakı doğma yurd-yuvalarından didərgin düşmüş, ailəsi ilə birlikdə Bakıya gəlmişdir. Ermənilərə qarşı olan nifrət və intiqam hissi İslamı 1991-ci ilin aprelində cəbhə bölgələrinə döyüşə aparmışdır…

…İslam Abışovun atasının dediklərindən: “1992-ci il iyul ayının 10-u idi. Məlumat aldıq ki, İslam həlak olub. Onun

döyüşdüyü Füzuli rayonuna yola düşdük. Hərbi qərargahın rəisi Ağayev familyalı bir nəfər idi. Dedilər ki, o, həlak olub, cəsədi düşmən tərəfində qalıb. Oğlumun döyüş dostu Fikrət dedi ki, İslamın cəsədi gətirilib. Silahlı əsgərlərin müşayəti ilə İslamın cəsədini axtardıq. Füzuli rayonu ərazisində 3 tibb məntəqəsi var idi. Üçünü də axtardıq. Bir neçə qəbristanlıqda naməlum əsgər qəbirləri də var idi ki, onlara da baxdıq. İyulun 13-də İslamın Zeynal adlı bir döyüş yoldaşı ilə tanış olduq. Dedi ki, İslam iyunun 28-də Füzulinin Kovşadlı kəndində gedən döyüş zamanı minaya düşmüşdü. İyulun 1-də onun cəsədinin yarısını tapa bildik. Qaraxanbəyli kənd qəbristanlığında basdırdıq. Zeynal göstərdiyi qəbri açdıq. Mənim oğlum idi. İslamın bədəninin tapılan hissəsini gətirib Bakıda dəfn etmək istəyirdim. Ancaq Ağayevin göstərişi ilə onu mənə vermədilər. Eh… Elə mənim atamı da, on doqquz yaşlı oğlumu da ermənilər öldürmüşdülər. İslam subay idi”.

ŞƏHİD İSGƏNDƏROV XALİQ HÜSEYN OĞLU

30.06.1970-ci il Ələyəz kəndində doğlub. Orta məktəbi Ələyəz kəndində bitirib. 1988-1990-cı illərdə Qazaxstan Respublikası Baykanur şəhərində Hava qoşunlarında həqiqi-hərbi xidmət keçib. Ailəsi Ələyəz kəndindən 1988-ci ildə deportasiya edilərək Daşkəsən rayonunun Bayan kəndində məskunlaşıblar. 1992-ci ildə könüllü olaraq müharibəyə gedib.01.01.1993-cü ildə Ağdamda şəhid olub. Gəncə şəhər “Şəhidlər Xiyabanında” dəfn edilib.

ŞƏHİD QARDAŞLAR ÇİNGİZ VƏ CAVAD İLHAM OĞLU MƏMMƏDOVLAR

Şəmkir rayonu Yeniabad kəndində doğlulan əslən Dərələyəz mahalının Ələyəz kəndindən olan Çingiz və Cavad İlham oğlu Məmmədovlar 44 günlük Vətən müharibəsinin qəhrəmanlarıdır.

ÇİNGİZ İLHAM OĞLU MƏMMƏDOV

Azərbaycan Silahlı Qüvvələrinin giziri, İkinci Qarabağ müharibəsi şəhidi. Çingiz Məmmədov 9 iyul 1992-ci il Şəmkir rayonunun Yeniabad kəndində anadan olub. Azərbaycan Ordusunun giziri olan Çingiz Məmmədov 27 sentyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Çingiz Məmmədov 1 oktyabr 2020-ci ildə Madagizin azad edilməsi zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 18.12.2020-ci il tarixində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli

Sərəncamına əsasən Çingiz Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

CAVİD İLHAM OĞLU MƏMMƏDOV

Azərbaycan Silahlı Qüvvələrinin giziri, İkinci Qarabağ müharibəsi şəhidi. Cavid Məmmədov 18 oktaybr 1990-cı ildə Şəmkir rayonunun Yeniabad kəndində anadan olub. Ailəli idi. Elcan adında oğlu və Damla adında qızı yadigar qaldı. Cavid Məmmədov 2008-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2015-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun giziri olan Cavid Məmmədov 27 sentyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvəlləri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarbağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cavid Məmmədov sentyabrın 28-də Madagizin azad edilməsi zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Cavid Məmmədov ölümündən sonra "Vətən uğrunda" , "Suqovuşanın azad olunmasına görə" , "Laçının azad olunmasına görə" medalı ilə təltif edildi. , "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib. Parlaq xatirəsi qarşısında baş əyirik!

İSTİFADƏ EDİLMİŞ SƏNƏDLƏR

1. İlham Əliyev 2012-ci il 10 may Heydər Əliyev Mərkəzinin açılışında ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 8 illiyi münasibəti ilə təntənəli mərasimdə çıxış "Azərbaycan qəzeti" 11 may 2012-ci il.

2.«Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də hadisələr barəsində müttəfiq respublikaların müraciətləri ilə əlaqədar tədbirlər haqqında» SSRİ Ali Soveti Rəyasət heyətinin qərarını yerinə yetirmək vəzifələri barədə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı. 24 mart 1988-ci il. № 1057-XI.

3.«Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də hadisələr barəsində müttəfiq respublikaların müraciətləri ilə əlaqədar tədbirlər haqqında» SSRİ Ali Soveti Rəyasət heyətinin 1988-ci il 23 mart tarixli qərarını həyata keçirmək tədbirləri barəsində Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı 5 aprel 1988-ci il. № 1069-XI.

4. DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR-ə verilməsi haqqında Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Soveti deputatlarının xahişi barəsində Azərbaycan SSR Ali Sovetinin Qərarı. 17 iyun 1988-ci il. № 1166-XI.

5. Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin 1988-ci il 12 iyul tarixli qərarını ləğv etmək haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı. 12 iyul 1988-ci il. № 1192-XI.

6. SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 18 iyul 1988-ci il tarixli geniş iclasında "Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ barəsində qərarları haqqında" məsələni müzakirə etməsi, mövcud sərhədlərin və milli-ərazi bölgüsünün dəyişdirilməsini qeyri-mümkün hesab etməsinə dair qərar.

7. Azərbaycan SSR-də inzibati ərazi dəyişikliklərini müvəqqəti dayandırmaq haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı 27 iyul 1988-ci il. № 1196-XI.

8.On birinçi çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı A. P. Platonovun səlahiyyətinə vaxtından əvvəl xitam verilməsi haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı. 13 iyul 1988-ci il. № 1194-XI.

9. «Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ məsələsi barəsində qərarları haqqında» SSRİ Ali Soveti Rəyasət heyəti qərarının həyata keçirilməsi sahəsində tədbirlər barəsində Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı. 23 iyul 1988-ci il.№ 1195-XI**.**

10. Erməni silahlı dəsətələrinin fəaliyyəti nəticəsində vətəndaşların əmlakına vurulan zərərin ödənilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanı, 5 may 1992-ci il. № 721.

11. «SSRİ Ali Soveti Millətlər Sovetinin Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə komissiyasının işinin yekunları haqqında» SSRİ Ali Soveti Rəyasət heyətinin 1989-cu il 20 oktyabr tarixli qərarı barədə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı. 27 oktyabr 1989-cu il. № 1655-XI.

12.«DQMV-də Konstitusiyaya zidd tədbir haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin 1989-cu il 26 avqust tarixli qərarının təsdiq olunması barədə Azərbaycan SSR Ali Sovetinin Qərarı. 23 sentyabr 1989-cu il. № 1632-XI.

13. «Daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərlə iş üzrə Azərbaycan SSR Dövlət Komitəsinin yaradılması haqqında» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti Fərmanının təsdiq olunması və «Azərbaycan SSR Nazirlər Soveti haqqında» Azərbaycan SSR Qanununa əlavə edilməsi barədə Azərbaycan Sovet Sosialist Respublikasının Qanunu. 23 sentyabr 1989-cu il.

№ 1636-XI.

14. Azərbaycan SSR-in hərbi komissarlıqları tərəfindən ehtiyatdan çağırılan, Ermənistan SSR-də zəlzələnin nəticələrini aradan qaldırmaq üçün gedən və 1988-çi il dekabrın 11-də təyyarə qəzasında həlak olan hərbi qulluqçuların ailələrinə əlavə güzəştlər haqqında Azərbaycan Sovet Sosialist Respublikası Prezidentinin Fərmanı. 9 yanvar 1991-ci il. № 130.

15.Ermənistandakı daimi yaşayış yerlərini məcburi tərk edərək Azərbaycan Respublikasında yerləşdirilmiş vətəndaşlar arasında rəy sorğusu keçirilməsi haqqında Azərbaycan Respublikasi Ali Soveti Milli Şurasının Qərarı. 19 dekabr 1991-ci il. № 31

16.Azərbaycan Respublikasının dövlət suverenliyini və ərazit bütövlüyünü pozan hərəkətlərin yolverilməzliyi haqqında Azərbaycan Respublikasi Ali Soveti Milli Şurasinin Qərarı. 13 yanvar 1992-ci il. № 45

17. Azərbaycan Respublikasının BMT-nin Qaçqınların statusuna dair konvensiyasına və protokoluna qoşulması barədə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. 8 dekabr 1992-ci il. № 402

18.«Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət haqqında» Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il 15 iyul tarixli qərarının yerinə yetirilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. 19 avqust 1992-ci il. № 276

19. Azərbaycan-Ermənistan danışıqlarında iştirak edən Azərbaycan parlamenti nümayəndə heyətinin Bəyanatı haqqında Azərbaycan Respublikasi Milli Məclisinin Qərarı. 2 dekabr 1992-ci il. № 395

20. Dövlətlərarası münasibətlərin hamılıqla qəbul olunmuş prinsiplərinin və normalarının Ermənistan Respublikasının Ali

Soveti tərəfindən kobudcasına pozulması haqqında Azərbaycan Respublikasi Milli Məclisinin Qərarı.15 iyul 1992-ci il. № 214.

21. DQMV-də vəziyyəti normallaşdırmaq tədbirləri haqqında Azərbaycan Respublikasi Ali Sovetinin Qərarı. 8 fevral 1991-ci il. № 58-XII

22.Ermənistan Respublikasının Nüvədi kəndi sakinlərinin müraciəti ilə əlaqədar komissiya təşkil edilməsi haqqında Azərbaycan Respublikası Ali Sovetinin Qərarı. 9 fevral 1991-ci il. № 59-XII.

23. Azərbaycan Respublikasının Şaumyan (kənd) rayonunun ləğv edilməsi və bəzi rayonlarının adlarının dəyişdirilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Konstitusiyasının (Əsas Qanununun) 78-ci maddəsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. 7 fevral 1991-ci il, № 56-XII.

24.DQMV-də vəziyyəti normallaşdırmaq tədbirləri haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərar layihəsini hazırlamaq üçün Redaksiya komissiyasının yaradılması barədə Azərbaycan Respublikasi Ali Sovetinin Qərarı. 8 fevral 1991-ci il. № 57-XII

25. Azərbaycan Respublikası Şaumyan (kənd) rayonunun ləğv edilməsi haqqında Azərbaycan Respublikasi Ali Sovetinin Qərarı. 7 fevral 1991-ci il,№ 53-XII.

26. Suveren dövlətlərin parlamentlərinə Azərbaycan Respublikası Ali Sovetinin Müraciəti haqqında Azərbaycan Respublikasi Ali Sovetinin Qərarı. 9 noyabr 1991-ci il. № 261-XII

27. Azərbayçan Respublikasının Dağlıq Qarabağ və Ermənistana Respublikası ilə sərhədyanı ərazisində vəziyyəti normallaşdırmaq üçün təcili tədbirlər haqqında Azərbaycan Respublikasi Ali Soveti Milli Şurasının Qərarı. 30 yanvar 1992-ci il. № 69

28. Ermənistan SSR-dən köçüb gələnlər üçün sosial-məişət şəraiti yaradılması sahəsində Mirbəşir və Dəvəçi rayon xalq deputatları Sovetlərinin və onların icraiyyə komitələrinin işi haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı. 20 yanvar 1989-cu il. № 1430-XI.

29. Naxçıvan MSSR-in sərhədyanı zonasında yaranmış məsələlərin öyrənilməsi üzrə komissiyanın təşkil edilməsi haqqında Azərbaycan SSR Ali Sovetinin Qərarı. 29 dekabr 1989-cu il. № 1709-XI

30. «SSRİ Ali Soveti Millətlər Sovetinin Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə komissiyasının işinin yekunları haqqında» SSRİ Ali Soveti Rəyasət Heyəti qərarının yerinə yetirilməsi barəsində Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı. 11 noyabr 1989-cu il. № 1666-XI.

31. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq tədbirləri haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı. 4 dekabr 1989-cu il. № 1678-XI

32. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı. 13 yanvar 1989-cu il. № 1424-XI.

33.Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiqindən irəli gələn tədbirlər haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı, 18 yanvar 1989-cu il. № 1428-XI.

34. "Ermənistan SSR-i və Dağlıq Qarabağı birləşdirmək haqqında" Ermənistan SSR Ali Sovetinin qərarı barəsində Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin qərarı,6 dekabr 1989-cu il. N1679-XI.

35. Azərbaycan SSR Ali Sovetinin daimi yaşayış yerlərini tərk

etməyə məcbur olmuş şəxslərlə iş komissiyasının yaradılması haqqında Azərbaycan SSR Ali Sovetinin qərarı, 23 sentyabr 1989-cu il. N 1631– XI.

36. Qarabağın dağlıq hissəsinin və Ermənistanla sərhədyanı rayonların təhlükəsizliyini təmin etmək sahəsində təxirəsalınmaz tədbirlər haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı, 9 dekabr 1991-ci il. N16.

37. Daimi yaşayış yerlərini məcburi tərk etmiş vətəndaşların (qaçqınların) mənzillə təmin olunması haqqında Azərbaycan Respublikasının Ali sovetinin Qərarı. 6 noyabr 1991-ci il. N 247 - XI

38. Azərbaycan Respublikasının Qarabağın dağlıq hissəsində vəziyyət, Xocalı genosidi və respublikada ictimai-siyasi şərait haqqında Azərbaycan Respublikası Ali Sovetinin Qərarı, 25 mart 1992-ci il. № 333-XII.

39. Dağlıq Qarabağda, o cümlədən Xocalıda soyqırımı hadisələrinin təfsilatının aydınlaşdırmaq üçün deputat istintaq komissiyası yaradılması haqqında Azərbaycan Respublikası Ali Sovetinin QərarI, 25 mart 1992-ci il. № 334-XII

40. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyət haqqında. Azərbaycan SSR Ali Sovetinin Qərarı. 15 sentyabr 1989-cu il. № 1623-XI.

41. Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində və Ermənistanla sərhədyanı rayonlarında vəziyyəti normallaşdırmaq üçün Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi qərarların həyata keçirilməsi haqqında Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Qərarı. 11 aprel 1991-ci il. № 92-XI.

42. SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılmasına dair Ermənistan Ali Sovetinin əsassız müraciəti haqqında Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin

Qərarı. 5 may 1991-ci il. № 100-XII.

43.Azərbaycan Respublikası Ali Sovetininnın Bəyanatı haqqında Azərbaycan Respublikası Ali Sovetinin Qərarı, 28 may 1991-ci il. № 120-XII.

44. Suveren Respublikalar İttifaqı haqqında Müqavilənin layihəsi barəsində

Azərbaycan Respublikası Ali Sovetinin Qərarı, 25 may 1991-ci il. № 121-XII.

45. Azərbaycan Respublikasında siyasi vəziyyət Haqqında Azərbaycan Respublikası Ali Sovetinin Qərarı, 30 avqust 1991-ci il. № 184-XII.

46. Azərbaycan Respublikası Prezidentinin Bəyanatı 27 aprel, 1991-ci il.

47. RSFSR xalq deputatlarının qurultayında Azərbaycan-Ermənistan münasibətləri məsələsinin qarşıdakı müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikası Ali Sovetinin Bəyanatı haqqında Azərbaycan Respublikası Ali Sovetinin Qərarı. 22 may 1991-ci il.№ 103a—XII.

48. Mirzəyev H. Dərələyəz folkloru. Bakı, Elm, 2006, 768 səh.

49. Ələkbərli Ə. Qərbi Azərbaycan, I cild, Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), ikinci nəşri, Bakı, Ağrıdağ, 2003, 736 səh.

50. Azərbaycan folkloru antologiyası, X kitab, İrəvan çuxuru folklore. Bakı, Səda, 2004, 472 səh.

51. İrəvan əyalətinin icmal dəftəri. Bakı, Elm, 1996, 184 səh.

52. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху присоединения к Российской Империи, СПБ, 1852, 1236 с.

53. Ələkbərli Ə. Abbasqulu bəy Şadlinski. Bakı, Sabah, 1996, 320 səh.

54. Əliyev M.B. Qanlı günlərimiz (1918-1920, Naxçıvan).

Bakı, Azərnəşr, 1993, 142 səh.

55. Şamil Ə. Dastanlaşmış ömürlər. Bakı, Səda, 2001, 96 səh.

56. SSRİ-nin Baş prokurorunun birinci müavini A.F. Katusevin çıxışı https://www.youtube.com/watch?v=5sX3fgkabe4

57. Azərbaycan Toponimlərinin Ensklopedik Lüğəti I cild. AMEA Nəsimi adına Dilçilik İnstitutu (dəst 24680) Şərq-Qərb Bakı-2007, 304 s.

58. Kommunist qəzeti 25 noyabr 1988-ci il, Pis Niyyətlər, Xarici səslər səh.3. Ə.Zərgərov.

QEYD ÜÇÜN

Səməd Vəkilov

QƏRBİ AZƏRBAYCANDAN ETNİK TƏMİZLƏNMƏNİN SONUNCU MƏRHƏLƏSİ (1987-1991) ÇALXANQALAYA KÖÇ

Bakı – «Red N Line» MMC – 2024, 316 səh

Dizayner: Ramiz Əbilov

Yığılmağa verilmişdir: 23.09.2024

Çapa imzalanmışdır: 10.10.2024

Format: 60x84 1/16

Tiraj: 200